Avropa Şurasının demokratiya uğrunda fəaliyyəti əhəmiyyətli dərəcədə təhsilə: məktəblərdəki təhsilə, qeyri-formal təhsil fəaliyyətləri kimi, demokratiyanın tətbiqinin ömür boyu öyrənilməsi proseslərinə əsaslanır. İnsan hüquqları təhsili və demokratik vətəndaşlıq naminə təhsil demokratiyanın davamlılığını təmin etmək üçün təmin etməli olduqlarımızın ayrılmaz hissəsidir.

Nifrət nitqi irqçilik və ayrı-seçkiliyin Avropada geniş yayılmış, internet və sosial media ilə vüsət qazanmış və ən çox narahatlıq doğuran formalarındadır. Onlayn nifrət nitqi dözümsüzlük və etnosentrizm aysberqinin görünən tərəfidir. Gənclər onlayn insan hüquqları pozuntularını törədənlər və bu pozuntuların qurbanlarıdırlar; Avropa gənclərin insan hüquqlarının qeydinə qalmasını, onlara önəm verməsini, demokratiya üçün ömürlük sığorta təmin etməlidir.

"Əlfəcinlər" Avropa Şurasının Nifrət nitqinə yox hərəkatı - gənclərin insan hüquqları naminə onlayn mübarizə kampaniyası üçün hazırlanmışdı. "Əlfəcinlər" formal təhsil sistemi daxilində və xaricində onlayn nifrət nitqini insan hüquqları pespektivindən ələ almaq istəyən pedaqoqlar üçün faydalıdır. Vəsait 13-18 yaş arası gənclərlə iş üçün nəzərdə tutulub, lakin məşğələlər başqa yaş aralıqlarına da uyğunlaşdırıla bilər.

Avropa Şurasının "Nifrət nitqinə yox hərəkatı" kampaniyasının koordinasiyası dayandırıldlqdan sonra "Əlfəcinlər"in ikinci nəşri yenidən nəzərdən keçirilmişdir. Kampaniya rəsmən bitmiş olsa da, nifrət nitqi ilə mübarizə haqqında məlumatlılığın yüksəldilməsi, bu sahədə təhsil və insan hüquqları dəyərlərinin təbliği yaşından asılı olmayaraq bütün gənclər üçün təxirəsalınmaz vəzifə olaraq qalır.

NO HATE SPEECH MOVEMENT

www.nohatespeechmovement.org

AZE

www.coe.int

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Avropa İttifaqına üzv olan bütün dövlətlər daxil olmaqla, təşkilat 47 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə tətbiq edilməsinə nəzarət edir.

Youth – Jeunesse

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

ƏLFƏCINLƏR - İnsan hüquqları təhsili vasitəsi ilə onlayn nifrət nitqinə qarşı mübarizə üçün təlimat vəsaiti

Avropa Şurası

# ƏLFƏCINLƏR

## İnsan hüquqları təhsili vasitəsi ilə onlayn nifrət nitqinə qarşı mübarizə üçün təlimat vəsaiti




Yenidən işlənmiş nəşr
2020

NO HATE SPEECH MOVEMENT

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

NO HATE
NO HATE SPEECH MOVEMENT

# ƏLFƏCİNLƏR

## İNSAN HÜQUQLARI TƏHSİLİ VASİTƏSİ İLƏ ONLAYN NİFRƏT NİTQİNƏ QARŞI MÜBARİZƏ ÜÇÜN TƏLİMAT VƏSAİTİ

Yenidən işlənmiş nəşr (2020)


**MÜƏLLİF VƏ REDAKTOR**

**ELLİ KİN, MARA CORCESKU**

OLENA ÇERNIX, ANKA-REKSANDRA PANDEA VƏ SATU VALTERİN
İKİNCİ NƏŞRƏ TÖHFƏLƏRİLƏ

**YEKUN REDAKTƏ**

**RUİ GOMES**

Əlfəcinlər – İnsan hüquqları təhsili vasitəsi ilə onlayn nifrət nitqinə qarşı mübarizə üçün təlimat vəsaiti

*Yenidən işlənmiş nəşr, 2020*

Bookmarks - A manual for combating hate speech online through human rights education

*Revised edition, 2020*

Mətn Avropa Şurasının icazəsi ilə ərsəyə gətirilib və istifadə edilmişdir. Bu sənəd Avropa Şurası ilə razılaşma əsasında dərc edilir, lakin yalnız tərcüməçi(lər)in məsuliyyəti altındadır.

Bu vəsaitdə ifadə edilən fikirlər Avropa Şurasının mövqeyi ilə üst-üstə düşməyə bilər.

Bu nəşrin müəllif hüquqları Avropa Şurasına məxsusdur. Bu nəşrin heç bir hissəsi Avropa Şurasının Kommunikasiya Direktorluğunun Nəşriyyat Şöbəsinin (publishing@coe.int; surəti Avropa Gənclər Mərkəzinə, Budapeşt, ,1-3 Zivatar utca, H-1024 Budapeşt, Macarıstan, e-poçt: eycb.secretariat@coe.int) yazılı icazəsi olmadan hər hansı formada və ya surətin çıxarılması, qeyd götürmə, yaxud hər hansı məlumat saxlama və ya bərpa sistemi daxil olmaqla, mexaniki və elektron (CDRom, Internet və s.) üsullarla kommersiya məqsədilə çoxaldıla və ya ötürülə bilməz.

Bu nəşrə daxil olan materiallar yalnız qeyri-kommersiya məqsədlərilə və mənbəyə lazımi qaydada istinad edilmək şərtilə çoxaldıla bilər.

Bu sənədlə bağlı başqa yazışmalar Avropa Şurası Gənclər Departamentinə ünvanlanmalıdır:

European Youth Centre, Strasbourg

30, rue Pierre de Coubertin

F- 67075 Strasbourg Cedex – France

E-poçt: youth@coe.int

Mətn Avropa Şurası tərəfindən tərtib edilib və onun icazəsi ilə istifadə edilmişdir. Bu sənəd Avropa Şurası ilə razılaşma əsasında dərc olunub, ancaq tərcüməçi(lər)in məsuliyyəti altındadır.

Örtük fotoşəkil üçün kreditlər:

Avropa Şurası / Nifrət Dilinə Yox Hərəkatı

Düzənləmə və dizayn: Horvats Daniel – danielhorvath.com

Korrektə: Reyçl Applbi

Tərtibat və dizayn: Daniel Horvat

Ukraynada nəşr edilib

© Avropa Şurası, 2020

NO HATE SPEECH MOVEMENT

# ÖNSÖZ



Əlinizdə tutduğunuz "Əlfəcinlər" adlı vəsait nifrət nitqinin dayandırılması və insan hüquqlarının gücləndirilməsi üçün dəyərli vasitədir. Soruşa bilərsiniz: “Nəyimizə lazımdır? Demokratik cəmiyyətdə insanlar özlərini sərbəst ifadə etmək hüququna malik deyillərmi?” Doğrudur ki, ifadə azadlığı insanları təhqir edə, sarsıda və ya narahat edə biləcək fikirlərə də şamil olunan fundamental insan hüququdur. Lakin bu hüququn həyata keçirilməsi açıq vəzifə və öhdəliklər yaradır. Nifrət nitqi "qorunan" nitqlər arasında deyil, nifrət sözləri nifrət zəminində real cinayətlərə gətirib çıxara bilər və belə cinayətlər artıq çoxlarının həyatını məhv edib və həddən çox insanın həyatına son qoyub.

Nifrət nitqi bu gün Avropada dözümsüzlük və ksenofobiyanın ən geniş yayılmış formalarından birinə çevrilmişdir. Siyasi diskursda nifrət nitqinə getdikcə daha çox yer verilməsi və bunun ictimai sferada, xüsusilə internet vasitəsilə adi hala çevrilməsi xüsusi narahatlıq doğurur. Qəbuledilməz olan məqbul sayılmağa, "normaya" çevrilməyə başladıqda, insan hüquqlarına qarşı real təhdid yaranır. Avropa Şurasının "Nifrət nitqinə yox" hərəkatı onlayn nifrət nitqinin məqbulluğunu azaltmaq və onun "normallaşdırılmasına" son qoymaq məqsədilə başladılıb.

İnternetin ünsiyyət, həmrəylik, sosial dəyişikliyin təşkili və əyləncə üçün diqqətəlayiq yeni alətlər təmin etdiyini heç kim inkar edə bilməz. Bununla belə, nifrət ideologiya və sferasının ondan onlayn işgəncə və ya təşviqat aləti kimi sui-istifadə etməsinə icazə verməməliyik. Onlayn ifadə azadlığı həm də onlayn qorxudan azadlığı nəzərdə tutmalıdır.

Avropa Şurası nifrət nitqinin tərifinin müəyyən edilməsi, irqçilik və ksenofobiyanın qınanmasına çağırış sahəsində pionerlərdən biridir. Hüquqi tədbirlər çox vacibdir, lakin yetərli deyil. Nifrət nitqinin qarşısının alınması, qınanması və qurbanlar arasında həmrəyliyin təbliği üçün yeganə uzunmüddətli həll yolu təhsildir.

Cəmiyyətlərimizin hazırda üzləşdiyi sürətli dəyişikliklər qarşısında aktiv insan hüquqları mühitini mühafizə etmək üçün insan hüquqları haqqında öyrənmək, insan hüquqları vasitəsilə və naminə öyrənmək vacibdir. Bu, xüsusilə uşaqlara və gənclərə aiddir və sözsüz ki, müasir dövrdə KİV və internet savadı təhsilinin ayrılmaz bir hissəsi olmalıdır.

Avropa Şurasının "Nifrət nitqinə yox" hərəkatı gənclərin özləri tərəfindən həyata keçirilir. Onlar hərəkatı yaratmağa dəvət edilirlər və hərəkatı necə idarə edəcəklərinə özləri qərar verirlər. Bu vacibdir, çünki gənclər onlayn rejimdə müxtəlif nifrət nitqi və bullinq formaları vasitəsilə ən çox qurbana çevrilənlər arasındadırlar.

Ümid edirəm ki, bu təlimat məktəblərə, gənclər mərkəzlərinə və gənclər təşkilatlarına, eləcə də internetə yol tapacaq. Tələbələri, pedaqoqları və başqalarını vəsaitdən sərbəst istifadə etməyə və kampaniyamıza qoşulmağa çağırıram. Gəlin nifrət nitqinə qarşı durmaq üçün "Əlfəcinlər"dən istifadə edək.

**Tyorbörn Yaqland**

Avropa Şurasının baş katibi

NO HATE
NO HATE SPEECH MOVEMENT

# MINNƏTDARLIQ

Bu vəsaitə təklif və rəyləri ilə töhfə verən hər kəsə minnətdarlığımızı bildirmək istərdik xüsusilə aşağıdakılara:

- "Nifrət nitqinə yox hərəkatı" kampaniyasının üzvləri, xüsusilə Gənclər üzrə Məsləhət Şurasının, Gənclərin işləri üzrə Avropa Rəhbər Komitəsinin nümayəndələri və Təhsil Siyasəti və Təcrübəsi üzrə Avropa Rəhbər Komitəsinin, Avropa Gəncləri Məlumatlandırma və Məsləhət Agentliyinin, Avropa Gənclər Forumunun, Avropa Gənclər Kartı Assosiasiyasının, AİZ və Norveç Qranlarının müşahidəçiləri və onlayn aktivistlər.
- Klaudia Lenz (Avropa Vercland Mərkəzi), Anni Siltanen (Insafe) and Vitor Tome (məsləhətçi).
- Anna Veber (İnsan Hüquqları üzrə Komissarının Ofisi), Qordana Bercan (Uşaq Proqramı), Li Hibbard, Elvana Sasi və Ceyms Lovson (İnternet İdarəçiliyi Bölməsi); Paula Ek-Valters (İrqçilik və Dözümsüzlüyə qarşı Avropa Komissiyasının Katibliyi); Josef Huber, Yulia Pererva (Təhsil Departamenti); Anka – Reksandra Pandea, Menno Ettema, Ailin Doneqan, Kler Uszinski və Maud Hofman Boivin (Gənclər Departamenti) və Avropa Şurasındakı hər kəs.

Mətn və məşğələlərin müəlliflərini müəyyən etmək və müəllif hüquqlarına riayət üçün bütün mümkün cəhdləri göstərmişik. Hər hansı nöqsana görə üzr istəyir, növbəti nəşrdə nöqsanlara düzəliş etməkdən məmnuniyyət duyacağımızı bildiririk.

# "MƏN BƏRABƏRLIYI SEÇIRƏM"

"Əlfəcinlərin" Azərbaycan dilinə tərcüməsi "Gürcüstanda ayrı-seçkiliyə, nifrət cinayətlərinə və nifrət nitqinə qarşı mübarizə" əməkdaşlıq layihəsi çərçivəsində hazırlanıb (2018-2021). * Layihə Gürcüstanda ayrı-seçkiliklə, nifrət nitqi və nifrət cinayətləri ilə mübarizə aparmaq, müxtəliflik və tolerantlığın yüksək qiymətləndirilməsini və bu haqda məlumatlılığı təmin etmək məqsədilə qanunvericilik, potensialın formalaşdırılması və maarifləndirmə fəaliyyətlərini özündə birləşdirir. Bu fəaliyyət Avropa Şurası, Gürcüstan hakimiyyət orqanları, məhkəmələr, hüquq-mühafizə orqanları və vətəndaş cəmiyyətini təmsil edən tərəfdaşlar arasında uzunmüddətli əməkdaşlıq üzərində qurulur.

Layihənin vacib bir hissəni ayrı-seçkilik, nifrət nitqi və nifrət cinayətlərinin Gürcüstan cəmiyyəti üçün yaratdığı risklər barədə məlumatlılığı artırmaq məqsədi daşıyan "Mən bərabərliyi seçirəm" kampaniyası təşkil edir. Kampaniya təhsil fəaliyyətləri, icma təşəbbüsləri, ictimai kampaniyalar, mədəniyyətlərarası öyrənmə vasitəsilə insan hüquqları dəyərlərini, eləcə də ayrı-seçkilik və nifrət nitqinin təsirinə məruz qalmış şəxslər üçün ədalətin bərpası mexanizmlərindən istifadə barədə məlumatlılığın yüksəldilməsini təbliğ edir.

Kampaniyanın təhsil və maarifləndirmə fəaliyyətləri Avropa Şurasının nifrət nitqi ilə mübarizə və onlayn rejimdə insan hüquqlarının təbliği məqsədilə rəhbərlik etdiyi "Nifrət Nitqinə yox hərəkatı" kampaniyasının ən yaxşı nümunələri əsasında formalaşdırılıb. "Mən bərabərliyi seçirəm" kampaniyasının əsas hədəfi gənclərdir, belə ki, gənclər müxtəliflik barədə ictimai təsəvvürlərin yenidən formalaşdırılmasında aparıcı rol oynaya, icma səviyyəsində ayrı-seçkiliklə mübarizə fəaliyyətləri ilə məşğul ola bilərlər.

Sizi bu kampaniyaya qoşulmağa dəvət edirik: http://ichooseequality.ge/

*"Gürcüstanda ayrı-seçkiliyə, nifrət cinayətlərinə və nifrət nitqinə qarşı mübarizə" əməkdaşlıq layihəsi Qonşuluq Proqramı vasitəsilə Avropa Şurasının Gürcüstan üçün 2016-2019-cü illər üzrə fəaliyyət planı çərçivəsində həyata keçirilir və Danimarka Xarici İşlər Nazirliyi tərəfindən maliyyələşdirilir. "Əlfəcinlər"-in gürcü dilinə tərcüməsi "Media azadlığı, peşəkarlıq və plüralizmini təbliğ edən" Avropa İttifaqı/Avropa Şurası birgə layihəsi (2015-2017) çərçivəsində maliyyələşdirilmişdir.

NO HATE
NO HATE SPEECH MOVEMENT

# TABLE OF CONTENTS

**FƏSİL 1: VƏSAİT HAQQINDA.** . . . . . . . . . . **8**
1. 1 Giriş . . . . . . . . . . 8
1.2 Onlayn nifrət nitqi problemi . . . . . . . . . . 9
**FƏSİL 2: NİFRƏT NİTQİNƏ YOX HƏRƏKATI** . . . . . . . . . . **12**
Avropa Şurası İnsan hüquqları ÜÇÜN onlayn gənclər kampanİyası . . . . . . . . . . 12
2.1. Kampaniya haqqında. . . . . . . . . . 12
2.2. Kampaniyanın nətİcələri . . . . . . . . . . 12
2.3 Kampaniya alətləri və resursları . . . . . . . . . . 13
2.4. Avropa Şurası kampaniyasinın davamı?? – Kampaniyanin Avropa Şurası tərəfİndən . . . . . . . . . . 15
2.5. Gənclər nə edə bİlərlər? . . . . . . . . . . 16
**FƏSİL 3: VƏSAİTDƏN İSTİFADƏ** . . . . . . . . . . **17**
3.1 Vəsaİtə ehtİyac. . . . . . . . . . 17
3.2 Vəsaitin strukturu . . . . . . . . . . 18
3.3 Məşğələrİn həyata keçirİlməsi . . . . . . . . . . 19
3.4 Tövsiyə edilən və edİlməyən on addım . . . . . . . . . . 20
3.5 Mövzular və suallar. . . . . . . . . . 22
**FƏSİL 4: 24 FƏALİYYƏ.** . . . . . . . . . . **23**
Məhkəmədə bir gün . . . . . . . . . . 28
Slipivildə yeni məscid Xülasə: . . . . . . . . . . 35
Aksiya və Kampaniyanın addım-addım keçirİlməsİ Xülasə . . . . . . . . . . 44
1-ci Hissə: Tarixdən çıxarılan dərslər . . . . . . . . . . 45
2-ci- hissə: Aksiyanın planlaşdırılması. . . . . . . . . . 49
3-cü hissə aksiyanın həyata keçirİlməsİndən İbarətdir. . . . . . . . . . 51
4-cü hissə: Proses haqqında düşüncələr və dərsin çıxarılması . . . . . . . . . . 51
Oyunun dəyişdirİlməsi . . . . . . . . . . 55
Faktların yoxlanması. . . . . . . . . . 61
Xülasə . . . . . . . . . . 61
Azadlıqların toqquşması. . . . . . . . . . 67
Kiberbullinqlə üzləşmə . . . . . . . . . . 73

Sərhədsiz azadlıq? . . . . . . . . . . 77
Qrup X. . . . . . . . . . 81
Onlayn insan hüquqları barədə viktorina . . . . . . . . . . 86
Onlayn iştirak . . . . . . . . . . 92
Onlayn hüquqlarımız . . . . . . . . . . 96
Bir daha oyna Xülasə . . . . . . . . . . 101
Hüquqlar üçün yarış! . . . . . . . . . . 105
Xülasə . . . . . . . . . . 105
Qaydaları oxumaq. . . . . . . . . . 112
Köklər və budaqlar . . . . . . . . . . 119
Daha pis ifadə . . . . . . . . . . 123
Səsini ucaltmaq. . . . . . . . . . 128
Onların danışdıqları hekayələr . . . . . . . . . . 132
Nifrət nitqinin başa düşülməsi . . . . . . . . . . 136
Virtual aksiya . . . . . . . . . . 142
Geyin və paylaş . . . . . . . . . . 147
Veb-hücum. . . . . . . . . . 151
Veb-profillər . . . . . . . . . . 156

**FƏSİL 5: İLKİN MƏLUMAT . . . . . . . . . . 161**

5.1 Onlayn nifrət nitqi . . . . . . . . . . 162
5.2 İnsan hüquqlari. . . . . . . . . . 168
5.3 İfadə azadlığı . . . . . . . . . . 175
5.3 İrqçilik və ayrı-seçkilik. . . . . . . . . . 181
5.5 Şəxsi həyat və təhlükəsizlik . . . . . . . . . . 186
5.6 Demokratiya və iştirakçılıq . . . . . . . . . . 190
5.7 Kampaniyaların aparılması strategiyaları . . . . . . . . . . 194
5.8 İnternet Savadlılığı. . . . . . . . . . 199
5.9 Kiberbullinq. . . . . . . . . . 208
5.10 Avropa Şurası və onlayn nifrət nitqi. . . . . . . . . . 212

**FƏSİL 6: ƏLAVƏLƏR. . . . . . . . . . 216**

6.1. Ümumdünya insan hüquqlari bəyannaməsi. . . . . . . . . . 217
6.2. İnsan hüquqlari haqqinda avropa konvensiyasi və onun protokollari . . . . . . 219
6.3. Onlayn nifrət nitqi ilə mübarizəyə aid digər resurslar. . . . . . . . . . 223
6.4. İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisi . . . . . . . . . . 225
6.5. "Əlfəcinlər" əsasında seminar təklifləri . . . . . . . . . . 228

NO HATE
NO HATE SPEECH MOVEMENT

# FƏSİL 1:

# VƏSAİT HAQQINDA

## 1. 1 GİRİŞ

Bu vəsait Avropa Şurasının onlayn nifrət nitqinə qarşı gənclik kampaniyası – “Nifrət nitqinə yox” hərəkatına yardım üçün nəzərdə tutulub. Vəsait formal təhsil sistemi daxilində və xaricində bu problemi həll etmək üçün çalışan pedaqoqlar üçün faydalı olacaq. Vəsait 13-18 yaş arası gənclərlə iş üçün nəzərdə tutulub, lakin məşğələlər başqa yaş aralıqlarına və başqa auditoriyaya uyğunlaşdırıla bilər.

> *‘Çubuqlar və daşlar sümüklərimi sındıra bilər, amma sözlər heç vaxt məni incitməz’*
>
> **Razısınızmı?**

“Əlfəcinlər” ilk dəfə 2014-cü ildə nəşr edilib və artıq 18 dilə tərcümə olunub. 2016-cı il nəşrində vəsait Avropa Şurasının İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisinin daxil edilməsi məqsədilə yenilənmişdir

Avropa Şurası Gənclər Departamenti 2018-ci ildə “Nifrət nitqinə yox” hərəkatının koordinasiyasını dayandırdı. Bir neçə ölkədaxili kampaniya aktiv fəaliyyətini davam etdirir. Bu (2020) nəşrə gənclər kampaniyasında başladılan işin Avropa Şurası tərəfindən necə davam etdirildiyi barədə yenilənmiş məlumatlar daxildir.

Kibernifrətə qarşı yönəlmiş təhsil təşəbbüslərinə ehtiyac qismən İnternetdə artan pis rəftar hallarından irəli gəlir, belə ki bunların əksəriyyəti həddindən ekstremal və irqçi xarakter daşımaqla demokratik cəmiyyətin təməl dəyərlərini təhdid edə bilər. Lakin kibernifrət sadəcə irqçilik və ayrı-seçkiliklə əlaqəli bir problem deyil; həmçinin insanların internetdən necə istifadə etdikləri ilə əlaqəli problemdir. Bu baxımdan o, tam tanınmayan və ya başa düşülməyən nisbətən yeni fenomendir. Onlayn nifrət nitqinin “yeniliyi” bunun dünyanın necə öhdəsindən gələcəyini hələ tam bilmədiyi bir problem olduğunu göstərir.

Hazırda kibernifrətlə mübarizəyə yönəlmiş çoxsaylı cəhdlər nəzarət mexanizmləri, yəni nifrətin meydana gəldikcə dayandırılması üzərində cəmlənməyə meyllidir. Bu səhifələrdəki yanaşma nifrət nitqini daha dərin bir problemin əlaməti hesab edir. Məşğələlər nifrət nitqinin kökündə dayanan səbəblərini, eləcə də meydana gəldiyi təqdirdə onunla mübarizə üsullarını ələ almaq üçün nəzərdə tutulub.

> **Onlayn nifrət nitqi kökləri cəmiyyətin dərinliklərinə gedib çıxan xüsusilə zərərli bitkinin yalnız görünən yarpaqlarıdır. Yarpaqları budamaq problemin daha böyük səbəblərini aradan qaldıra bilməz.**

### İNSAN HÜQUQLARI YANAŞMASI

Vəsaitdəki məşğələlər gənclərə İnternetin real dünya üçün müəyyən edilmiş təməl prinsipləri əks

etdirməsi üçün lazım olacaq bilik, bacarıq və münasibətləri inkişaf etdirmələrinə kömək etməlidir. Bu prinsiplər 60 il əvvəl formalaşıb və razılaşdırılıb: onlar insan hüquqları kimi tanınır, hər bir insana xas olan ləyaqəti, insanların hüquqlarının bərabər olduğunu, onların azadlıqlarını, gündəlik mövcudluğumuzu tənzimləməli olan qaydaların qərarlarşdırılmasında və müəyyən edilməsini rolunu əks etdirir.

Gənclər kampaniyasında olduğu kimi, bu vəsaitdə də nifrət nitqi insan hüquqları məsələsi hesab edilir, fəaliyyətlərdə tətbiq edilən yanaşma insan hüquqları prinsip və standartlarına əsaslanır. Buna görə də vəsait yalnız onlayn nifrət nitqinin həlli cəhdləri üçün deyil, həm də insan hüquqlarının, onların oflayn və onlayn mühitdə necə tətbiq edilməli olduğunun başa düşülməsi üçün faydalıdır. Ümumi maarifləndirici yanaşma haqqında daha ətraflı məlumatla 3-cü fəsildə, onlayn və oflayn insan hüquqları haqqında baza məlumatlarla isə 5-ci fəsildə tanış ola bilərsiniz.

### DEMOKRATİYA VƏ VƏTƏNDAŞLIQ ... İNTERNETDƏ

Vəsait internetin ictimai yer olduğuna və demokratik cəmiyyətin bütün prinsiplərinin onlayn rejimdə tətbiq edilə biləcəyinə və edilməli olduğuna inanan güclü əqidəyə söykənir. Bu baxımdan gənclərin nifrət nitqi ilə onlayn mübarizədə rolu son dərəcə əhəmiyyətlidir.

Gənclər onlayn vətəndaşlardır, yəni onlar internetdə öz arzularını və narahatlıqlarını ifadə edə, addımlar ata, internetdə insan hüquqlarını pozanları məsul tuta bilərlər. Onlar hətta onlayn hüquq müdafiəçiləri ola bilərlər.

İnternet məkanı da (internet idarəçiliyi prosesləri haqqında məlumatlılıq daxil olmaqla) iştirak məkanıdır. Vəsait məşğələlər vasitəsilə həmçinin onlayn qarşılıqlı ünsiyyət üsullarına, gənclərin onlayn rejimdə necə tədbirlər görə biləcəyinə, daha yaxşı və daha təhlükəsiz internet uğrunda necə kampaniya apara biləcəklərinə nəzər salır.

Demokratiya, onlayn kampaniya və internet savadı ilə əlaqədar mövzulara 5-ci fəsildə yer verilib.

## 1.2 ONLAYN NİFRƏT NİTQİ PROBLEMİ

### YENİ İMKANLAR, YENİ TƏHLÜKƏLƏR

İnternetin yaranması ilə insanların qarşılıqlı ünsiyyəti pik həddə çatmışdır. Nəzəriyyədə internet bizə dünyanın hər yerində demək olar ki, hər insanla ünsiyyət qurmaq imkanı verib; hətta dünyanın kiçik, naməlum bir küncündə arxa otaqda ifadə edilən bir fikrin hər bir şəxs tərəfindən qəbul edilməsini (nəzəri olaraq) mümkün etmişdir! İnternetə çıxışı olan hər kəs həm naşir, həm də ictimai natiqdir. Demək istədiklərimizə müdaxilə edə biləcək amil çox az görünür.

**Siz orada nələrin baş verdiyini bilirsinizmi?**

*Nümunələr üçün bax: səh. 164 Ya da özünüz onlayn axtarış edin.*

Bu, çox az adamın imtina etmək istəyəcəyi bir yenilikdir, lakin onlayn qarşılıqlı münasibətlərin dayanmadan genişləndiyi bir dövrdə bunun həm də insanların "real" mövcudluqları boyunca qarşılaşdıqları çoxsaylı çətinlikləri əks etdirməsi bizi təəccübləndirməməlidir. Dözümsüzlük və "nifrət" demək olar hər zaman insan cəmiyyətinin xüsusiyyətlərindən biri olmuşdur. Bir sıra araşdırmalar son illərdə belə münasibətlərin artdığını aşkar etmişdir.

Məsələ burasındadır ki, müxtəlifliyə qarşı dözümlülük azdırsa və bu dözümsüzlük üzərində məhdudiyyətlərə nəzarət edilmirsə, o halda dözümsüzlük və nifrət insanların həm hərəkətlərində, həm də dediklərində öz ifadəsini tapacaq. İnternet sözləri deməyin yeni üsullarını yaratdı və onları daha çox insana söyləmək üçün geniş imkanlar açdı. Bununla belə, internetdə deyə biləcəklərimiz üzərindəki məhdudiyyət real mühitdə tətbiq edilənlərlə müqayisədə dəfələrlə azdır: "real" dünyada ictimai yerdə deməyə cəsarət etmədiklərimizi internetdə deyə bilirik.

**Kim yoxlayır!?**

*Ən qaranlıq düşüncələrimizi internetdə söyləmək dahamı asandır?*

Real həyatda nifrət nitqi cəmiyyətlər tərəfindən tanınmış, həll edilməli olduğu müəyyən edilmiş problemdirsə, onlayn nifrət nitqi laqeyd qala biləcəyimiz bir məsələdirmi?

**Hansı daha pisdir...?**

| **İctimai yığıncaqda səsləndirilib** | **İnternet forumda yerləşdirilib:** |
|---|---|
| "Geysənsə, müalicə olun. Sonra insan irqinə qoşul." | "Geysənsə, müalicə olun. Sonra insan irqinə qoşul." |

## PROBLEMİN MİQYASI

*"Sabah axşam 9-da səni zorlayacam. Evinin yanında görüşək????"*[1]

*"sizi burda istəmirik, öz ölkənizdə qalın, öz ölkənizi məhv edin, bizimkimi yox!!!"*[2]

*"Sən axmaq **** birisən. Anan qara ..., atan təcavüzçüdür"*[3]

İnternetdə nifrət nitqinin miqyasına nəzarətin çətin olduğu məlumdur. Əslində, internetdə nifrət yaymaq istəyənlərin işini asanlaşdıran, hökumətlərin və ya başqalarının nəzarətini bu qədər çətinləşdirən məhz bu problemdir. Bir neçə təşkilat problemin miqyasının izinə düşməyə cəhd etmişdir. Onların hamısı onlayn nifrətin artdığını müəyyən etmişdir.

**Problemin miqyası**

- *2019-cu ildə Facebook təkcə üçüncü rübdə 7 milyon nifrət nitqi təzahürünü sildiyini elan etmişdir. 80% hallarda bu süni intellektin yardımı ilə həyata keçirilib.*[4]
- *Qadınların 73% -i nifrət nitqi daxil olmaqla, onlayn zorakılığa məruz qalmışdır və BBC-nin 2014-cü ildə keçirilən sorğusunda iştirak edən qadınların yalnız 50% -i "İnternet fikrimi bildirmək üçün təhlükəsiz bir məkandır" fikri ilə razılaşmışdır.*[5]

Başqa araşdırmalarda gənclərin onlayn fəaliyyətləri zamanı nifrətlə qarşılaşma dərəcəsi müəyyən edilməyə çalışılmışdır.

**Gənclər və onlayn rejimdə nifrət**

- Avropada 9-16 yaşlı internet istifadəçilərin 6%-i internetdə bullinqlə üzləşdiyi haqqında məlumat vermiş, 3%-i başqalarını bullinqə məruz qoyduğunu etiraf etmişdir. [6]
- Kanadada 11-ci sinif şagirdlərinin 59%-i bir-birlərinə irqçi və seksist sözlər dediklərini, lakin bununla heç bir məqsəd güdmədiklərini bildirmişlər. Kanadada gənc internet istifadəçilərinin 78%-i razılaşır ki, insanların internetdə seksist və irqçi nitqin yanlış olduğunu bilməsi üçün belə hallarda nəsə demək vacibdir.[7]
- Onlayn sorğunun respondentlərinin 78%-i internetdə müntəzəm olaraq nifrət nitqi ilə qarşılaşdığını bildirmişdir. Nifrət nitqinin ən çox rast gəlinən üç hədəfi: LGBT fərdlər (70%), müsəlmanlar (60%) və qadınlar.[8]

## QEYDLƏR

1 Stella Krizinin (BK parlamentinin üzvü) paylaşdığı tvit
2 “Sığınacaq axtaranlar, rədd olun” Facebook səhifəsindən (artıq silinib)
3 Futbol oyunu zamanı əslən Konqo Demokratik Respublikasından olan futbolçu– Fabris Muambanın ürəyi dayanan zaman paylaşılan tvit
4 Billy Perigo, Facebook Says It’s Removing More Hate Speech Than Ever Before. But There’s a Catch, Time (27 November 2019), https://time.com/5739688/facebook-hate-speech-languages/
5 Qadınlara və qızlara qarşı kiberbullinq - Dünya miqyasında oyanış çağırışı, BMT-nin Rəqəmsal İnkişaf üzrə Genişzolaqlı Komissiyası, Genişzolaq və Gender üzrə İşçi Qrupunun hesabatı, 2015, https://en.unesco.org/sites/default/files/genderreport2015final.pdf
6 EU KidsOnline tərəfindən keçirilən sorğudan: www2.lse.ac.uk/media@lse/research/EUKidsOnline/EU%20Kids%20II%20(2009-11)/EUKidsOnlineII-Reports/Final%20report.pdf
7 From Valerie Stevens, Young Canadians in a Wired World, Phase III: Encountering Racist and Sexist Content Online, Media Smarts, Ottawa, 2014. 2013-cü ildə 4-11-ci siniflərdə təhsil alan 5436 şagirdin iştirak etdiyi ölkədaxili məktəb sorğusu https://mediasmarts.ca/research-policy/young-canadians-wired-world-phase-iii/young-canadians-wired-world-phase-iii-encountering-racist-sexist-content-online..
8 Avropa Şurası tərəfindən “Nifrət nitqinə yox” hərəkatı üçün həyata keçirilən sorğu, 2015, https://rm.coe.int/questions-and-lessons-learned-hate-speech-2015-online-survey/pdfa/16808b5f64.

FƏSİL 2

# NİFRƏT NİTQİNƏ YOX HƏRƏKATI

## AVROPA ŞURASI İNSAN HÜQUQLARI ÜÇÜN ONLAYN GƏNCLƏR KAMPANİYASI

"Nazirlər Komitəsinin tərifinə əsasən, nifrət nitqi irqi nifrəti, ksenofobiyanı, antisemitizmi və ya nifrətin dözümsüzlüyə (o cümlədən, aqressiv milliyyətçilik və etnosentrizmlə ifadə edilən dözümsüzlüyə) əsaslanan digər formalarını, eləcə də milli azlıqlara, miqrantlara və immiqrant mənşəli insanlara qarşı ayrı-seçkiliyi və düşmənçiliyi yayan, təhrik və təşviq edən və ya bütün bunlara haqq qazandıran bütün ifadə formalarını əhatə edir. Kampaniyanın məqsədləri çərçivəsində başqa ayrı-seçkilik və önmühakimə formaları da, məsələn antigipsizm xristianofobiya, islamofobiya, qadınlara nifrət, cinsi oriyentasiya və gender kimliyinə görə ayrıseçkilik və seksizm nifrət nitqinə aid edilir. "

**Nifrət nitqinin kampaniya çərçivəsində istifadə edilən tərifi –www.nohatespeechmovement.org**

## 2.1. KAMPANİYA HAQQINDA

Avropa Şurasının onlayn nifrət nitqinə qarşı gənclər kampaniyası 2013-cü ilin mart ayından 2017-ci ilin sonuna qədər davam etmişdir. Gənclər tərəfindən idarə edilən bu kampaniya onlayn nifrət nitqi problemi barədə məlumatlılığı artırmaq, ona qarşı münasibəti dəyişdirmək, həmçinin nifrət nitqini dayandırmaq və cilovlamaq üçün tədbirlərin görülməsinə çağırış etmək məqsədilə gəncləri səfərbər etdi. "Nifrət nitqinə yox hərəkatı" kampaniyası Avropa Şurasının insan hüquqlarının təbliğinə, gənclərin demokratiya, insan hüquqları və qanunun aliliyi dəyərlərini təbliğ etməyə cəlb edilməsinə yönəlmiş daha geniş səylərinin bir hissəsi idi.

Avropa Şurası nifrət nitqini demokratiya və insan hüquqları üçün təhdid hesab edir. "Nifrət nitqinə yox hərəkatının" kökündə insan hüquqları dayanırdı, lakin kampaniya kibercinayətlərlə mübarizədə hüquqi mexanizmlərdən istifadə sahəsi ilə məhdudlaşmadı. Kampaniya ifadə azadlığına hörməti və nifrət nitqinə qarşı alternativ cavab tədbirlərinin (qabaqlayıcı tədbirlər, təhsil, maarifləndirmə, istifadəçilər tərəfindən özünü tənzimləmənin inkişaf etdirilməsi və qurbanlar üçün dəstəyin təşviq edilməsi daxil olmaqla) dəyərləndirilməsini stimullaşdırdı.

## 2.2. KAMPANİYANIN NƏTİCƏLƏRİ

Avropa Şurası Nazirlər Komitəsi Kampaniyanın "nifrət nitqinin həll edilməsinə yönəlmiş, nifrət

nitqini vacib insan hüququ məsələsi kimi ələ alan ilk geniş beynəlxalq təşəbbüs olduğunu" təsdiq edir. Kampaniya aşağıdakı məsələlərdə önəmli rol oynadı:

*"a) gənclərin və bütövlükdə cəmiyyətin nifrət nitqinin miqyası və riski haqqında məlumatlılığını artırmaq;*

*b) minlərlə təhsil işçisini, gənclərlə çalışanları və gənc liderləri insan hüquqları təhsili vasitəsilə gənclərin imkanlarını genişləndirmək, nifrət nitqini müəyyən etmək, bu barədə məlumat vermək və cavab tədbiri görmək üçün lazımi səriştələrlə təmin etmək*

*c) Onlayn nifrət nitqinə qarşı çıxmaq və mübarizə aparmaq üçün Avropada və onun sərhədlərindən kənarda gənclər təşkilatlarını və gəncləri səfərbər etmək;*

*d) nifrət nitqinin konkret hədəfləri ilə həmrəylik çərçivəsində fəaliyyət göstərmək və nifrət nitqinin lazımınca qiymətləndirilmiş və ya bilinməyən təzahürlərinə diqqət çəkmək;*

*e) nifrət nitqinə əks və alternativ mesajlar formlaşdırmaq, milli, mədəni, sosial, dini, etnik və ya təşkilati zəmində gənclər üçün müsbət məşğulluq və kimlik formaları yaratmaq;*

*f) formal və qeyri-formal təhsildə KİV və informasiya mədəniyyətinin əhəmiyyətini yenidən qiymətləndirmək;*

*g) internet idarəçiliyini vətəndaşlıq və gənclərin iştirakının həyata keçirilməsi üçün bir məkan kimi görə bilmək.*

(Nazirlər Komitəsinin "Nifrət nitqinə yox hərəkatı" kampaniyasının irsi ilə bağlı Bəyanatı - 29 May 2019: https://search.coe.int/cm/pages/result_details.aspx?objectid=090000168094b576).

Kampaniyanın gənclər sektoru və başqa sektorlardan əsas maraqlı tərəflərinin bir araya gətirilməsində əhəmiyyəti böyük oldu, bu işdə aparıcı rolu gənclər təşkilatları və gənc onlayn aktivistlər oynadılar. Kampaniya üçün və kampaniya çərçivəsində həm onlayn, həm də oflayn xüsusi alətlər hazırlanmışdır.

Nəticələr və kampaniyanın qiymətləndirilməsi barədə daha ətraflı məlumat üçün:

https://www.coe.int/en/web/no-hate-campaign/reports-of-seminars-and-conferences

## 2.3 KAMPANİYA ALƏTLƏRİ VƏ RESURSLARI

www.nohatespeechmovement.org Avropa Şurasının nifrət nitqi ilə əlaqəli işləri, gənclər kampaniyasının nəticələri və arxivləri haqqında yeni məlumatların əsas mənbəyi olaraq qalır.

### MİLLİ KAMPANİYALAR

Kampaniya Avropa Şurası və onun avropalı tərəfdaşları tərəfindən təbliğ olunur, üzv dövlətlərdə milli kampaniya komitələri tərəfindən icra edilirdi. Ümumilikdə 45 ölkədə 46 kampaniya həyata keçirilmişdir. Onlardan bəziləri hələ də aktivdir. Onların əlaqə məlumatlarını buradan tapa bilərsiniz:

https://www.coe.int/en/web/no-hate-campaign/national-campaigns1

NO HATE
NO HATE SPEECH MOVEMENT

### RESURSLAR TOPLUSU

Burada milli kampaniyalar, tərəfdaşlar və Avropa Şurası tərəfindən hazırlanmış 270-dən çox resurs təqdim edilir.

https://www.coe.int/en/web/no-hate-campaign/compendium-of-resources

### TƏHSİL ALƏTLƏRİ

"Əlfəcinlər" insan hüquqları təhsili vasitəsilə onlayn nifrət nitqi mövzusunu əhatə etməklə xüsusi olaraq kampaniya dəstək üçün hazırlanıb. O, məktəb mühitində 13-18 yaşlı gənclərlə istifadə üçün nəzərdə tutulsa da, asanlıqla uyğunlaşdırıla bilər. Vəsait 18 dilə tərcümə edilib.

https://www.coe.int/en/web/no-hate-campaign/bookmarks-connexions

### BİZ BACARARIQ! NİFRƏT NİTQİ ILƏ ƏKSİNƏ VƏ ALTERNATİV MESAJLAR VASİTƏSİLƏ MÜBARİZƏ:

Bu vəsaitdə gənclərə və digər hüquq müdafiəçilərinə nifrət nitqinə qarşı əks və alternativ mesajlar hazırlamaq üçün ünsiyyət və təhsil yanaşmaları və vasitələri təqdim olunur.

https://www.coe.int/en/web/no-hate-campaign/we-can-alternatives1

### İNTERNET İSTİFADƏÇİLƏRİ ÜÇÜN İNSAN HÜQUQLARI BƏLƏDÇİSİ

Bələdçi internet istifadəçilərinin internetdə insan hüquqları, onlar üzərində mümkün məhdudiyyətlər və belə məhdudiyyətlər üçün mövcud hüquqi müdafiə vasitələri haqqında məlumat əldə etmələri üçün vasitədir. Bələdçi hüquq və azadlıqların İnternet kontekstində təcrübədə nə məna daşıdığı, onlara necə istinad edilə biləcəyi və necə tətbiq edilə biləcəkləri, eləcə də, hüquqi müdafiə vasitələrinin necə əldə edilə biləcəyi barədə məlumat təmin edir.

Bələdçi ilə burada tanış olmaq olar: www.coe.int/en/web/internet-users-rights/guide

### NİFRƏT NİTQİ HAQQINDA MƏLUMATIN VERİLMƏSİ

Bu bölmədə nifrət nitqinin əsas sosial media platformalarına, müxtəlif ölkələrinin milli hakimiyyət orqanlarına və QHT-lərə necə şikayət edilməli olduğu haqqında məlumat təmin edilir.

https://www.coe.int/en/web/no-hate-campaign/reporting-hate-speech

Bloq, Hate Speech Watch və Platforma deaktiv edilib, lakin bu ünvandan məlumat əldə edilə bilər: https://www.coe.int/en/web/no-hate-campaign/previous-blog-and-platform.

Kampaniyanın sosial mediya kanalları hələ də aktivdir və Avropa Şurasının işi barədə yenilikləri izləmək üçün istifadə edilə bilər.

https://www.coe.int/en/web/no-hate-campaign/social-medias

## 2.4. AVROPA ŞURASI KAMPANIYASİNIN DAVAMI?? – KAMPANİYANIN AVROPA ŞURASI TƏRƏFİNDƏN

Avropa Şurası Gənclər Departamenti 2018-ci ilin aprel ayında "Nifrət nitqinə yox hərəkatının" koordinasiyasını zəiflətdi. Milli kampaniyalar, onlayn aktivistlər və tərəfdaş təşkilatlar hərəkatı insan hüquqları təhsili və maarifləndirmə təşəbbüsləri vasitəsilə davam etdirmişlər. Avropa Şurasının Parlament Assambleyası və İrqçilik və Dözümsüzlüyə qarşı Avropa Komissiyası kimi müxtəlif qurumları nifrət nitqinə qarşı fəaliyyət göstərirlər.

### NAZİRLƏR KOMİTƏSİNİN BƏYANATI

2018-ci ildə Gənclər üzrə Birgə Şura kampaniyanın nəticələrini nəzərdən keçirdi və gələcək fəaliyyət üçün təkliflərlə Nazirlər Komitəsinə müraciət etdi. 2019-cu ilin may ayında Nazirlər Komitəsi kampaniya haqqında, aşağıdakı tədbirləri nəzərdə tutan Bəyanat qəbul etdi:

[Nazirlər Komitəsi]

"1. İrqçilik və dözümsüzlüyə qarşı Avropa Komissiyasının (ECRI) rolunu, Avropa Şurasının gənclər, insan hüquqları, ayrı-seçkiliklə mübarizə, təhsil və media strukturlarının xüsusi məsuliyyətini vurğulamaqla, kampaniyanı davam etmək qərarı verir;

2. fəaliyyətlərin davamına başqa tədbirlə yanaşı aşağıdakıların daxil ola biləcəyi ilə razılaşır:

- demokratik vətəndaşlıq və insan hüquqları təhsilini xüsusilə Avropa Gənclər Mərkəzləri və Avropa Gənclər Fondu proqramları çərçivəsində gücləndirmək;
- xüsusilə formal və qeyri-formal təhsil vasitəsilə KİV və informasiya mədəniyyətinə aid yeni layihələr hazırlamaq;
- gənclərin internet idarəçiliyi prosesinə tam cəlb olunmasına dəstək;
- kampaniya ilə əlaqədar yaranan Avropa və milli gənclər şəbəkələrinə və fəaliyyətlərə dəstək göstərmək;
- nifrət nitqinə qarşı effektiv tədbirlərə dəstək vermək məqsədilə adekvat və əhatəli siyasətlərin mövcudluğunu təmin etmək;
- Kampaniya alətlərinin təsirlərinin qiymətləndirilməsinin davamı olan layihələrə daxil edilməsini təmin etmək."[1]

### GƏNCLƏR DEMOKRATİYA NAMİNƏ

Gənclər demokratiya naminə proqramı, xüsusən insan hüquqları təhsili, gənclərin İnternet idarəçiliyində iştirak etməsi və gənclərin həssas qruplarına təsir göstərən ayrı-seçkiliklə mübarizə (gənclərə qarşı nifrət nitqi) yolu ilə gənclər kampaniyasının irsi üzərində inkişaf etməyə davam edir. Avropa Gənclər Mərkəzində baş tutan bir neçə tədris sessiyasının nəticələrindən biri də "Nifrət nitqinə yox" şəbəkəsinin yaradılması oldu. Gənclər Departamenti də kampaniya tədris resurslarının tərcüməsinə dəstək göstərməyə davam edir və nifrət nitqi ilə mübarizəni Avropa və ölkə səviyyəsindəki təlim fəaliyyətlərinə daxil edir.

1. Nazirlər Komitəsinin "Nifrət nitqinə yox hərəkatı" kampaniyasının irsi ilə bağlı bəyanatı - 29 May 2019.

### AYRI-SEÇKİLİKLƏ MÜBARİZƏ DEPARTAMENTİ

Ayrı-seçkiliklə Mübarizə Departamenti siyasət standartları müəyyən etməklə, monitorinq və potensialın formalaşdırılması vasitəsilə Avropa Şurasına üzv olan dövlətlərə ayrı-seçkilik, nifrət cinayəti və nifrət nitqi ilə mübarizə sahəsində dəstək verir. Onun nifrət nitqi sahəsindəki əməkdaşlıq fəaliyyətləri kampaniya irsi üzərində qurulur və milli kampaniyalar və tərəfdaşlarla əməkdaşlığa çalışır.

Avropa Şurasının müxtəlif sektorlarının nifrət nitqi ilə mübarizə və onlayn rejimdə insan hüquqlarının gücləndirilməsi sahəsində fəaliyyətinin icmalı ilə burada tanış ola bilərsiniz: https://www.coe.int/en/web/no-hate-campaign/coe-work-on-hate-speech

## 2.5. GƏNCLƏR NƏ EDƏ BİLƏRLƏR?

Kampaniyanın Avropa səviyyəsində yekunlaşdırılmasına baxmayaraq, gənclərlə onlayn və oflayn nifrət nitqinə qarşı mübarizə işi vacibliyini qoruyur. Gənclər nifrət nitqinə qarşı və insan hüquqları naminə bir çox üsullarla mübarizə apara bilərlər. Təkliflərin bəziləri bu vəsaitdə məşğələlərin sonunda "Fəaliyyət üçün ideyalar" bölməsinə daxil edilib, başqaları ilə isə Kampaniya üçün strategiyalar yarımfəslində və resurslar toplusunda tanış ola bilərsiniz

FƏSİL 3

# VƏSAİTDƏN İSTİFADƏ

Bu fəsilə vəsaitin ümumi strukturunun, məqsədlərinin və metodologiyasının qısa təsviri daxildir. Təsvir təhsil yanaşmasını anlamağa, qrupla məşğələlərin planlaşdırılmasına və yerinə yetirilməsinə kömək edəcək.

## 3.1 VƏSAİTƏ EHTİYAC

Nifrət nitqi çox vaxt artıq həssas qrupdan olan şəxslərə yönəlir, gərginlik, daha çox bərabərsizlik və zorakılıq toxumları səpir. Avropa Şurası nifrət nitqini demokratiya və insan hüquqları üçün təhdid hesab edir.

"Nifrət nitqinə yox hərəkatı" kampaniyası təsdiq edir ki, problemin həlli üçün bir sıra müxtəlif səviyyələrdə işin aparılması tələb olunur. Problem və onun həll yolları hər zaman sadə olmur. Bu vəsait gənclərə onlayn nifrət nitqinin öhdəsindən gəlməkdə və onunla mübarizədə öz üsullarını tapmaq imkanı yaradacaq təhsil işinə dəstək məqsədilə tərtib olunub. Vəsaitin məqsədi insan hüquqları və demokratik iştirak prinsiplərinə lazımi hörmətin göstərildiyi internetin yaradılmasında fəal rol oynamaq üçün tələb olunan anlayış, bacarıq və motivasiyanı formalaşdırmaqdır.

Gənclər onlayn nifrət nitqinin yalnız "şahidləri" deyillər: çoxları artıq belə rəftarla üzləşiblər, bəziləri isə başqalarına qarşı nifrət nitqinə cəlb ediliblər. Maarifləndirmə təşəbbüsləri bunu nəzərə almalı, hər üç roldakı gənclərə ünvanlanmalıdır. Yuxarıda qeyd edilənlər nəzərə alınmaqla vəsaitə daxil edilən məşğələlərdə yeddi əsas məqsəd əhatə olunub.

**VƏSAİTİN MƏQSƏDİ:**

- Formal və qeyri-formal təhsil prosesi iştirakçılarına gənclərlə birlikdə nifrət nitqinə qarşı mübarizə aparmaq üçün şərait yaratmaq, məktəb icmalarına "Nifrət nitqinə yox hərəkatı" kampaniyasının təcrübə və resurslardan istifadəsi ilə əlaqədar dəstək göstərmək
- Gənclərin onlayn nifrət nitqini müəyyən etmələri, onlayn və oflayn mühitdə insan hüquqları fəallarına çevrilmələri üçün zəruri bacarıq və motivasiyanı inkişaf etdirmək
- İnsan hüquqları prinsipləri barədə məlumatlılığı yüksəltmək, bu prinsipləri əhatə edən internet konsepsiyasını təbliğ etmək
- Qeyri-formal öyrənmə yanaşması vasitəsilə insan hüquqları təhsilini dəstəkləmək, uşaqlar və gənclər arasında tənqidi düşüncəni inkişaf etdirmək
- Onlayn nifrət nitqi ilə üzləşənlərin və üzləşmək ehtimalı olanların hüquq və imkanlarını genişləndirmək
- Onlayn nifrət nitqinin hədəfi ola biləcək qrup və ya fərdlərə qarşı empatiyanı təşviq etmək
- Nifrət nitqinə ən çox məruz qalan qruplar barədə mif və önmühakimələri sındırmaq.

### VƏSAİTİN TƏHSİLƏ YANAŞMASI

Bu vəsaitdə insan hüquqları təhsili yanaşmalarından istifadə edilir. Avropa Şurası Demokratik Vətəndaşlıq və İnsan Hüquqları Təhsili Xartiyasında (2010) müəyyən edilən tərifə əsasən insan hüquqları təhsili:

> *"insan hüquqları və əsas azadlıqların təbliği və qorunması məqsədilə - bilik, bacarıq, anlayış, baxış, yanaşma və davranışların inkişaf etdirilməsi vasitəsilə* ***- öyrənənlərə cəmiyyət daxilində universal insan hüquqları mədəniyyətinin formalaşdırılması və müdafiəsinə töhfə vermək imkanı yaradan təhsil, təlim, maarifləndirmə, informasiya, praktika və fəaliyyətlərdir."***

İnsan hüquqları təhsilinin üç səviyyəsi mövcuddur:

- İnsan hüquqları **haqqında öyrənmək**, insan hüquqları haqqında biliklər, insan hüquqları nədir, onlar necə təmin edilir və qorunur və onlar onlayn və oflayn rejimdə necə tətbiq edilir.
- İnsan hüquqları **vasitəsilə öyrənmək**, insan hüquqları təhsilinin təşkil edilmə və təqdim edilmə qaydalarının insan hüquqları dəyərləri (məsələn, iştirak, düşüncə və ifadə azadlığı və s.) ilə üstə-üstə düşməli olduğunun, insan hüquqları təhsilinin öyrənilən məzmun qədər əhəmiyyətli olduğunun başa düşülməsi
- İnsan hüquqları **üçün öyrənmək**, öyrənənlərin insan hüquqları dəyərlərini həyatlarında tətbiq etmələri, insan hüquqlarının təbliği və qorunması üçün təklikdə və ya başqaları ilə birlikdə çalışmaları üçün bacarıq, baxış və dəyərlərin inkişaf etdirilməsi

*"Kompas"*– Avropa Şurasının Gənclərin iştirakı ilə insan hüquqlarının təhsili üzrə təlimatı insan hüquqları təhsili barədə daha ətraflı məlumat təklif edir, bu isə fasilitatorlara yanaşma və təcrübələri başa düşməkdə yardım edə bilər. Ətraflı məlumat: www.coe.int/compass

## 3.2 VƏSAİTİN STRUKTURU

### TANIŞLIQ MƏQSƏDLİ FƏSİLLƏR

Bu fəsil və əvvəlki iki fəsil məşğələlər üçün kontekstin müəyyən edilməsi baxımından əhəmiyyətlidir. Vəsait və kampaniyaya rəvac verən şərtləri anlamaq üçün məzmunla tanış olmağınız tövsiyə edilir.

1-ci fəslə daxil olan materialların çoxuna Onlayn nifrət nitqi başlıqlı 5.1-ci bölmədə daha ətraflı nəzər salınır. Bu bölmədə təqdim edilən məlumatlar sizdə onlayn nifrət nitqi ilə əlaqədar müxtəlif məsələlər haqqında yaxşı təsəvvür oyadacaq, bu məsələ ilə mübarizəyə başlamağın təxirəsalınmazlığı haqqında anlayış formalaşdıracaq.

2-ci fəsildə Avropa Şurasının "Nifrət nitqinə yox" kampaniyasının (2013 – 2017) və qurumun nifrət nitqi ilə mübarizəni necə davam etdirdiyinin qısa icmalı təqdim edilir.

### MÖVZULAR

Vəsait onlayn nifrət nitqinə birbaşa aidiyyəti olan səkkiz mövzu ətrafında qurulub. Mövzuların özləri və onların əhatə etdiyi məsələlərin bəziləri diaqramda göstərilir: (səh. 21). Suallar müfəssəl xarakter daşımır: hər bir mövzu üzrə yalnız bir neçə mühüm məsələ arasından seçilir.

Məşğələlərin çoxunda bir neçə mövzu ilə bağlı məsələlər əhatə olunur, mövzuların hər biri özlüyündə vacib bir sahəni əks etdirir. Buna görə də məşğələlərin çoxu irqçiliklə mübarizə, internet savadı, vətəndaş mövqeyinin tədrisi, insan hüquqları təhsili və başqa sahələrdə daha çox ümumi işin dəstəklənməsi üçün faydalı olacaq.

### MƏŞĞƏLƏLƏR

Vəsaitin əsas hissəsi 24 məşğələdən ibarətdir. Məşğələlərin hər biri bir və ya daha çox mövzunu əhatə etmək üçün nəzərdə tutulub. Məşğələlər həmçinin mürəkkəblik səviyyələrinə görə təsnif edilib: 4-cü səviyyəli məşğələ sahə üzrə əvvəlcədən təcrübə və ya biliyin mövcud olmasını tələb edir; 1-ci səviyyəli məşğələ isə mövzu ilə tanış olmayan qruplarla yerinə yetirilə bilər.

Mövzu, tələb olunan vaxt və mürəkkəblik səviyyəsi əsasında müvafiq məşğələləri müəyyən etmək üçün məşğələlər cədvəldən istifadə edə bilərsiniz (səh. 23). Çox sayda pedaqoqun bütün məşğələləri həyata keçirmək imkanının və ya ehtiyacının olacağı gözlənilməsə də, qarşılıqlı əlaqəli mövzuların vacibliyi bütün məşğələlərin nifrət nitqi ilə yanaşı başqa məsələləri dəstəkləmək üçün də istifadə edilə biləcəyini göstərir.

Hər bir məşğələyə həmçinin 'Fəaliyyət üçün fikirlər' bölməsi daxildir. Bu, məşğələlər zamanı əldə edilən bilik və bacarıqların möhkəmləndirilməsi üçün əhəmiyyətli üsuldur və gənclərə addımlar atmaqda yardım edəcək.

### QISA MƏLUMAT MƏTNLƏRİ

5-ci fəsildə verilən qısa mətnlər məşğələlərə yardım üçün nəzərdə tutulub. Onlayn nifrət nitqi, onlayn və oflayn insan hüquqlarından bəhs edən 5.1 və 5.2-ci bölmələr bütün məşğələlər üçün ən vacib bölmələrdir. Başqa mətnlərə ehtiyac olduqca və konkret məşğələlərdə göstərilən qaydada istinad edilə bilər.

## 3.3 MƏŞĞƏLƏRİN HƏYATA KEÇİRİLMƏSİ

*İnsan hüquqları üzrə məşğələrini həyata keçirilməsi ilə bağlı əlavə dəstək və tövsiyələrlə "Kompass"ın 1-ci fəslində tanış olmaq olar. www.coe.int/compass*

Məşğələlər üçün təlimatlar nisbətən daha əhatəlidir və "fasilitatorlar üçün praktik məsləhətlər" bölməsinə əlavə tövsiyələr daxildir. Bu məsləhətlər potensial çətinliklər barədə xəbərdarlıq edir, buna görə də əvvəlcədən onlara nəzər salmaq vacibdir.

Növbəti bölmədə məşğələlərdən ən yaxşı nəticələrin əldə edilməsi üçün tövsiyələrə və vəsaitdə istifadə edilən təhsil yanaşmasının qısa icmalına yer verilir. Sonda nəzərə alınmalı olan aspektlərin kiçik yaddaş siyahısı kimi "Tövsiyə edilənlər və edilməyənlər" siyahısına müraciət edin.

### FASİLİTATORUN ROLU

Məşğələlərdə 'fasilitator' sözündən məşğələləri həyata keçirən şəxsi bildirmək üçün istifadə edilir. Fasilitator "nəyisə həyata keçirən", başqalarını öyrənməyə, potensiallarını yüksəltməyə təşviq

edən, onları dəstəkləyən şəxsdir. Səmərəli fasilitator işi insan hüquqları təhsilinin açarıdır və məşğələlərin həyata keçirilməsində vacib əhəmiyyət daşıyır.

Məsələlər üzərində çalışmaq üçün "mütəxəssis" olmalı olduğunuzu düşünməyin: yaxşı fasilitator işi gəncləri başa düşmək xaricində xüsusi bilik və ya bacarıq tələb etmir. Bu vəsaitə daxil olan məşğələlər qrupunuzu mürəkkəb və çox vaxt mübahisəli məsələləri araşdırmağa və onlara öz yanaşmalarını formalaşdırmağa təşviq edən mühitdə daha böyük uğurla nəticələnir. Onlara onlarla birlikdə araşdırdığınızı bildirməyin heç bir zərəri yoxdur! Öyrənənlərin təhsil prosesində birbaşa iştirakı tədrisin təsir və keyfiyyətini yüksəldir və insan hüquqları vasitəsilə öyrənmə üçün xarakterikdir. Buna görə də fasilitator bütün məsələlərdə mütəxəssis olmalı deyil, iştirakçılara məlumatları tapmaqda, öz cavab və rəylərini formalaşdırmaqda kömək edə bilməlidir.

### TƏHLÜKƏSİZ MÜHİTİN YARADILMASI

Vəsaitdə yer verilən məsələ və məşğələlərin çoxunun iştirakçılara birbaşa aidiyyəti ola bilər. Bəzi iştirakçılar bullinq və ya kiberbullinqə məruz qalmış ola bilərlər (hətta qruplarının başqa üzvləri tərəfindən); bəziləri irqçi rəftar və ya ayrı-seçkiliyin hədəfi olmuş ola bilər. Bu ehtimallara qarşı həssas olmaq, zəruri olarsa, dəstəklə təmin ediləcəkləri haqqında məlumat vermək çox vacibdir. Onlara yardım təklif edə və ya kömək edəcək başqa bir şəxsə yönləndirə biləcəyinizdən əmin. **InSafe** və **InHope** şəbəkələri (https://www.betterinternetforkids.eu) çox sayda ölkədə onlayn pis rəftarın şikayət edilməsi üçün faydalı əlaqə məlumatları və qaynar xətlər təmin edir. Çox sayda üzv dövlətin şikayətləri dəstəkləmək və qəbul etmək üçün xüsusi xidməti mövcuddur. Fasilitatorlardan məlumatlı olmaq və müvafiq olduqda, təhsil məşğələlərinə dəstək məqsədilə həmin xidmətləri dəvət etmək tələb olunur.

İştirakçılar məsələləri müzakirə edərkən özlərini mümkün qədər "təhlükəsizlikdə" hiss etməlidirlər. Qrupla bəzi əsas qaydaları müəyyən edə bilərsiniz, məsələn başqalarının fikirlərinə hörmətlə yanaşmaq, pis rəftar, istehza və ya şəxsiyyətə yönəlmiş tənqidin bütün formalarından yayınmaq.

## 3.4 TÖVSİYƏ EDİLƏN VƏ EDİLMƏYƏN ON ADDIM

| | | |
|---|---|---|
| 1 | Mütləq iştirakçıları fikir və münasibətlərini səsləndirməyə, öz təcrübələrindən çıxış etməyə təşviq edin. | Heç bir təklifi "faydasız", "yersiz" və ya "axmaq" olmaqda ittiham etməyin! |
| 2 | Hər kəsin rahatlıqla özünü ifadə edə bildiyi təhlükəsiz mühit, qarşılıqlı hörmət mədəniyyəti formalaşdırmağa çalışın. | Qrupa kimisə təcrid, önmühakimə etməyə, kiməsə etinasız və ya hörmətsiz yanaşmağa icazə verməyin: əvvəlcədən bəzi əsas prinsipləri müəyyən etməyə çalışın. |
| 3 | Mütləq müzakirə və sorğu-sualı təşviq edin: onlar şübhələrini və ya tərəddüdlərini ifadə etməklə öyrənəcəklər. | Uzun-uzadı təqdimatlar verməyə çalışmayın: bu yalnız iştirakçıların marağını öldürəcək! |

| | | |
|---|---|---|
| 4 | İştirakçıların reallıqları və onların mühitlərinə xas real problemlərlə əlaqə qurun. | Onların vəziyyəti ilə səsləşməyən ümumiləşdirmələrdən istifadə etməyin. |
| 5 | Doğmaları unut! İştirakçılara "oturuşmuş həqiqətlərə" şübhə ilə yanaşmağa icazə verin, özünüz də belə edin. | "Moizə" eləməyin və ya arqumenti susdurmaq üçün mövqeyinizdən istifadə etməyin. |
| 6 | İştirakçılarla mütləq dürüst olun. Onlar sizə daha çox hörmət edəcəklər və özlərini ifadə etmək ehtimalları artacaq. | Əmin deyilsinizsə, özünüzü bilirmiş kimi göstərməyin! İştirakçılara öyrənəcəyinizi deyin və ya onları buna təşviq edin. |
| 7 | İştirakçılara etibar edin. Cavabları onlar özləri tapmalıdırlar. | Onlarla yuxarıdan aşağı danışmayın və getmək istəmədikləri istiqamətə yönəltməyə çalışmayın. |
| 8 | Onların təkliflərinə mütləq surətdə ciddi yanaşın: məşğələni özünküləşdirdikləri halda ona daha çox maraq göstərəcəklər. | Plana ciddi riayət etməli olduğunuzu düşünməyin: başqa istiqamətə yönəlmək istəyirlərsə, onların maraqlarını diqqətə alın. |
| 9 | İnsanların duyğularına xitab edin. Nə hiss etdiklərini və ya belə hallarla üzləşdikdə nə hiss edə biləcəklərini soruşun ... | Münasibətləri mərhəmətsiz və ya düşüncəsiz təsir bağışlayırsa, təslim olmayın. Onlara başqa baxış bucağını göstərin. |
| 10 | İştirakçılarla bərabər rəftar edin – bir-birləri ilə və sizinlə "bərabər". Hamınız sadəcə insansınız! | Iştirakçıları çıxdaş eləməyin və ya onların nəyi bacarıb-bacarmayacaqları barədə mülahizələr yürütməyin. İnsanlar proqnozlara sığmırlar! |

# 3.5 MÖVZULAR VƏ SUALLAR



NO HATE
NO HATE SPEECH MOVEMENT

# FƏSİL 4

# 24 FƏALİYYƏT

## İNSAN HÜQUQLARI TƏHSİLİ VASİTƏSİ İLƏ ONLAYN NİFRƏT NİTQİNƏ QARŞI MÜBARİZƏ ÜÇÜN


Vəsait haqqında . . . . . 5
Nifrət nitqinə yox hərəkatı . . . . . 9
Vəsaitdən istifadə . . . . . 14
Məhkəmədə bir gün . . . . . 30
Slipivildə yeni məscid Xülasə: . . . . . 38
Aksiya və Kampaniyanın addım-addım keçirilməsi Xülasə . . . . . 46
2-ci- hissə: Aksiyanın planlaşdırılması . . . . . 51
Oyunun dəyişdirilməsi . . . . . 58
Xülasə . . . . . 58
Faktların yoxlanması . . . . . 64
Xülasə . . . . . 64
Azadlıqların toqquşması . . . . . 70
Kiberbullinqlə üzləşmə . . . . . 76
Sərhədsiz azadlıq? . . . . . 80
Qrup X . . . . . 84
Onlayn insan hüquqları barədə viktorina . . . . . 90
Onlayn iştirak . . . . . 95
Onlayn hüquqlarımız . . . . . 99
Hüquqlar üçün yarış! . . . . . 108
Xülasə . . . . . 108
Qaydaları oxumaq . . . . . 115
Köklər və budaqlar . . . . . 122
Daha pis ifadə . . . . . 126
Səsini ucaltmaq . . . . . 131
Onların danışdıqları hekayələr . . . . . 135
Nifrət nitqinin başa düşülməsi . . . . . 139
Virtual aksiya . . . . . 145
Geyin və paylaş . . . . . 150
Veb-hücum . . . . . 154
Veb-profillər . . . . . 159

## FƏALİYYƏTLƏRİN ÜMUMİ CƏDVƏLİ

| Başlıq | Mövzular | Xülasə | Səviyyə | Vaxt (dəq. ilə) |
|---|---|---|---|---|
| **Aksiya və kampaniyanın addım-addım keçirilməsi** | • İrqçilik və ayrı-seçkilik<br>• Kampaniya üçün strategiyalar<br>• İnsan hüquqları | Burada nifrət nitqi və nifrət cinayətinə qarşı aksiyaların həyata keçirilməsinə yönələn 4 məşğələ əhatə olunur. Müxtəlif hissələr ayrı-ayrılıqda və ya bu vəsaitdəki başqa məşğələlərlə birlikdə istifadə edilə bilər. | 4 | 1, 2 və 3-cü hissələr çərçivəsində 90, 60 və 45 dəqiqəlik 3 sessiya. Həmçinin kampaniya fəaliyyəti üçün vaxt tələb olunur. |
| **Azadlıqların toqquşması** | • Demokratiya və iştirak<br>• İfadə azadlığı<br>• İrqçilik və ayrı-seçkilik | Məşğələ ifadə azadlığı ilə bağlı fikirləri üst-üstə düşməyən, lakin eyni adada birlikdə yaşamağa vadar olan iki icma ilə əlaqədar simulyasiyadan ibarətdir. | 4 | 120 |
| **Bir daha oyna** | • Kiberbullinq<br>• Demokratiya və iştirak<br>• İrqçilik və ayrı-seçkilik | Bu məşğələ rol oyununa əsaslanır: kimsə həmyaşıdlarının təzyiqi ilə bullinqə cəlb olunur. İştirakçılardan hadisələrin nəticəsini dəyişdirmək üçün ssenarini yenidən canlandırmaq xahiş edilir. | 2 | 60 |
| **Daha pis ifadə** | • İrqçilik və ayrı-seçkilik<br>• Demokratiya və iştirak | Bu məşğələ onlayn nifrət nitqi ilə tanışlıq məşğələsidir. İştirakçılar "ən pis" hesab etdiklərindən başlayaraq geylər əleyhinə müxtəlif nifrət nitq nümunələrini sıralayırlar. | 1 | 45 |
| **Faktların yoxlanması** | • İnternet savadı<br>• İrqçilik və ayrı-seçkilik<br>• Kampaniya üçün strategiyalar | İştirakçılardan siyasətçilərin "homofobik rəftar" mövzusunda araşdırmaçıları kimi çıxış etmək xahiş edilir. Onlar internetdə yerləşdirilən məlumatların etibarlılığını nəzərdən keçirir, öz praktikaları üçün strategiyalar hazırlayırlar. | 4 | 60 |
| **Geyin və paylaş** | • Şəxsi həyat və təhlükəsizlik<br>• İnternet savadı<br>• Kiber bullinq | İştirakçılar müəyyən məlumatı internetdə paylaşmaq üçün etdikləri seçimləri göstərmək üçün diaqramı tamamlayır, şəxsi məlumatları internetdə paylaşan zaman ehtiyatlı olmağın yollarını müzakirə edirlər. | 1 | 40 |

| | | | | |
|---|---|---|---|---|
| **Hüquqlar üçün yarış!** | • İnsan hüquqları<br>• İrqçilik və ayrı-seçkilik<br>• Şəxsi həyat və təhlükəsizlik | Məşğələ komanda oyunu vasitəsilə insan hüquqları ilə ilkin tanışlığı təmin edir. İştirakçılar sözlərdən başqa istədikləri şeydən istifadə etməklə, komandalarının üzvlərinə müxtəlif hüquqları təsvir etməlidirlər! | 1 | 60 |
| **Kiberbullinqlə üzləşmə** | • Kiberbullinq<br>• Demokratiya və iştirak<br>• İnternet savadı | Bu məşğələdə iştirakçılar müxtəlif bullinq senarilərində mümkün cavab tədbirlərini müəyyənləşdirir, alternativ məşğələ istiqamətlərini müzakirə edirlər. | 1 | 45 |
| **Köklər və budaqlar** | • İrqçilik və ayrı-seçkilik<br>• İnsan hüquqları<br>• Kampaniya üçün strategiyalar | İştirakçılar "problem ağacı" yanaşmasından istifadə edərək onlayn nifrət nitqinin səbəb və nəticələrini araşdırırlar. Bu məşğələ X qrupu məşğələsinin davamı kimi və ya ayrı-ayrılıqda istifadə edilə bilər. | 2 | 45 |
| **Qaydaları oxumaq** | • Kampaniya üçün strategiyalar<br>• İnternet savadı<br>• Demokratiya və iştirak | İştirakçılar veb-saytın/platformanın istifadə şərtlərini və ya icma üçün təlimatlarını oxuyur, qeyri-adekvat məzmunu veb-sayta/platformaya bildirmək üçün addımlar alırlar. Həmçinin iştirakçılar xüsusilə Web 2.0 imkanları nəzərə alınmaqla məlumat verməyin müsbət və mənfi cəhətlərini müzakirə edirlər. | 3 | 60 |
| **Qrup X** | • İrqçilik və ayrı-seçkilik<br>• İnsan hüquqları<br>• Şəxsi həyat və toxunulmazlıq | İştirakçılar Avropa İnsan Hüquqları Konvensiyasında təsbit edilən hüquqları gənc qaraçıların tez-tez üzləşdiyi pis rəftar halları ilə uyğunlaşdırırlar. | 4 | 60 |
| **Məhkəmədə bir gün** | • İfadə azadlığı<br>• İnsan hüquqları<br>• İrqçilik və ayrı-seçkilik | İştirakçılar kiçik məhkəmə prosesini canlandırır, Avropa İnsan Hüquqları Məhkəməsi qarşısına çıxarılmış real məhkəmə işinə nəzər salırlar. | 4 | 120 |
| **Nifrət nitqinin başa düşülməsi** | • İnsan hüquqları<br>• İrqçilik və ayrı-seçkilik | İştirakçılar nifrət nitqi nümunələrinə baxır, onların fərdlər və cəmiyyət üçün mümkün nəticələrini müzakirə edirlər. | 2 | 60 |

| | | | | |
|---|---|---|---|---|
| **Onların danışdıqları hekayələr** | • İrqçilik və ayrı-seçkilik<br>• İnsan hüquqları<br>• İfadə azadlığı | İştirakçılar immiqrantları və immiqrasiyanı təsvir edən xəbər nəşrini təhlil etmək üçün kiçik qruplar daxilində çalışırlar. Nəticələr kollaj formasında təqdim edilir. | 2 | 60 |
| **Onlayn hüquqlarımız** | • İnsan hüquqları<br>• Demokratiya və iştirak | 5.7 İştirakçılar İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisi haqqında daha çox məlumat əldə edirlər. Onlar bələdçinin əsas mesaj və bəyanatlarını təhlil etməli, onun gündəlik həyatda tətbiqi barədə düşünməlidirlər. | 2 | 60 |
| **Onlayn insan hüquqları barədə viktorina** | • İnsan hüquqları | Məşğələ onlayn insan hüquqları barədə viktorinadan ibarətdir. İştirakçıların İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisindən istifadə etməklə onlayn hüquqlarını öyrənmələrinə kömək edir. | 3 | 60 |
| **Onlayn iştirak** | • İnternet savadı<br>• Şəxsi həyat və təhlükəsizlik<br>• İnsan hüquqları | İştirakçılar internetdən necə istifadə etdiklərini, onlayn iştirak səviyyələri barədə düşünürlər. İştirakçılar onlayn iştirak səviyyələrini müəyyən edəcək və ölçəcək, həmçinin gələcəkdə internetdə oynamaq istədikləri rolu planlaşdıracaqlar. | 3 | 45 |
| **Oyunun dəyişdirilməsi** | • İrqçilik və ayrı-seçkilik<br>• İnternet savadı<br>• Kampaniya üçün strategiyalar<br>• Demokratiya və iştirak | İştirakçılara Kampaniya barədə təqdimat edilir və onlar onlayn şəbəkə oyunlarında seksizm əleyhinə "mini kampaniya" hazırlayırlar. | 3 | 60 |
| **Sərhədsiz azadlıq?** | • İfadə azadlığı<br>• Demokratiya və iştirak<br>• İnsan hüquqları | İştirakçılar bir sıra kazuslar əsasında ifadə azadlığı anlayışını araşdırırlar. Onlar mübahisəli, təhqiramiz və ya potensial baxımdan təhlükəli şərh və ya yazışmalarla nə edəcəklərini qərarlaşdırmalıdırlar. | 2 | 45 |

| | | | | |
|---|---|---|---|---|
| **Səsini ucaltmaq** | • Kampaniya üçün strategiyalar<br>• İrqçilik və ayrı-seçkilik<br>• İnternet savadı | Cəmiyyətdə müəyyən qruplara münasibətdə geniş yayılmış önmühakimələri nəzərdən keçirmək üçün "dairəvi qab müzakirəsindən" istifadə edilir, iştirakçılar ümumi qəbul edilmiş inanclar barədə tənqidi düşünməyə, nifrət nitqinə qarşı arqumentlər formalaşdırmağa cəlb edilirlər. | 1 | 45 |
| **Slipivildə yeni məscid** | • Demokratiya və iştirak<br>• İrqçilik və ayrı-seçkilik<br>• İnternet savadı | Bu onlayn konsultasiyanın / debatın simlulyasiyasıdır. Müzakirə edilən məsələ ənənəvi xristian ərazisində yeni məscidin tikintisidir. | 4 | 3 saata qədər və ya hər biri 50 dəqiqə olmaqla 3 sessiya |
| **Veb-hücum** | • İnternet savadı<br>• Kampaniya üçün strategiyalar<br>• İrqçilik və ayrı-seçkilik | İştirakçılar yerli icmanın çoxsaylı irqçi şərhlərinin öhdəsindən gəlmək üçün (xəyali) kampaniya veb-saytını yenidən dizayn edirlər. | 3 | 90 |
| **Veb-profillər** | • İrqçilik və ayrı-seçkilik<br>• İnternet savadı<br>• Demokratiya və iştirak | Məşğələ xəyali internet forumda baş verir. İştirakçılardan bir-birlərini müəyyən qruplar haqqında geniş yayılmış stereotiplərə müvafiq qaydada salamlamaq xahiş ediləcək. Onlar bu məşğələdən internetdə qarşılıqlı fəaliyyət üçün təlimatlar toplusu hazırlamaq üçün istifadə edirlər. | 1 | Hissə I: 35 dəqiqə<br>Hissə II: 25 dəqiqə |
| **Virtual aksiya** | • Kampaniya üçün strategiyalar<br>• İrqçilik və ayrı-seçkilik<br>• İnsan hüquqları | Bu məşğələ çərçivəsində iştirakçılar irqçilik əleyhinə aksiyalardan ilham alacaq və birlikdə bənzər fəaliyyətləri onlayn rejimdə necə hazırlaya biləcəklərini götür-qoy edəcəklər. | 3 | 60 |

SƏVIYYƏ 4

QRUP 9-15

VAXT 120

# MƏHKƏMƏDƏ BİR GÜN

***İştirakçılar kiçik məhkəmə prosesini canlandırır, Avropa İnsan Hüquqları Məhkəməsi qarşısına çıxarılmış real məhkəmə işinə nəzər salırlar.***

| | |
|---|---|
| MÖVZULAR | İfadə azadlığı, insan hüquqları, irqçilik və ayrı-seçkilik |
| MÜRƏKKƏBLIK | Səviyyə 4 |
| QRUP ÜZVLƏRİNİN SAYI | 9 - 15 |
| VAXT | 120 dəqiqə |
| MƏQSƏDLƏR | Qurbanların irqi zəmində pis rəftar və nifrət nitqindən qorunması zərurəti ilə ifadə azadlığı hüquqlarının necə balanslaşdırıla biləcəyini götür-qoy etmək<br>Avropa İnsan Hüquqları Konvensiyasında (AİHK) ifadə azadlığı hüququ (10-cu Maddə) üçün təsbit olunan müdafiə və məhdudiyyətləri araşdırmaq<br>Avropa Məhkəməsinin rolunu başa düşmək |
| MATERİALLAR | 31-33-ci səhifədəki kartların surətləri<br>Qeydlərin aparılması üçün qələm və kağız<br>Kiçik qrupların iclası üçün yer – yaxşı olar ki, ayrıca otaqlarda |
| HAZIRLIQ | 32-ci səhifədəki kartların surətini çıxarın və kəsin. Hər kəsdə öz kartı və məhkəmə işinin surəti olmalıdır. Hakimlərin, Danimarka hökumətini və cənab Yersildi təmsil edən nümayəndələrin sayı eyni (ya da ən azı mümkün qədər yaxın sayda) olmalıdır.<br>Hər bir qrupda kartları elə nömrələyin ki, bir hakim, cənab Yersildi təmsil edən bir nümayəndə və Danimarka hökumətini təmsil edən bir nümayəndə olsun.<br>"Məhkəmələrin" (3 nəfər) bir-birlərindən ayrı əyləşməsi üçün kifayət qədər yer olmalıdır. |

## TƏLİMATLAR

1. Qrupa sessiyanın Danimarka hökumətinə qarşı, Avropa İnsan Hüquqları Məhkəməsinin qarşısına çıxarılmış məhkəmə işinə həsr olunduğunu bildirin. İştirakçılar məhkəmə işinin müxtəlif tərəflərinin rolunu canlandıracaqlar - hakimlər, Danimarka hökuməti və irqçi baxışlar ehtiva edən proqram hazırladığına görə cəzalandırılan cənab Yersild (Jersild). Zəruri olarsa, iştirakçıların Məhkəmə və AİHK haqqında biliklərini təzələyin və onlara məhkəmə işinin ifadə azadlığına aid olduğunu söyləyin.
2. İştirakçılardan ifadə azadlığı dedikdə, nə başa düşdüklərini soruşun və aşağıdakı məlumatlardan (və ya 5-ci fəsildəki) istifadə etməklə qısa əlavələr edin.

**İfadə və ya ifadə azadlığı fundamental insan hüququdur. İnsanlara rəy və ya düşüncələrini "ifadə etməyə" imkan verilməlidir, çünki, düşüncə, rəy və inanclar kimliyimizin vacib hissəsini təşkil edir.**

**Ifadə azadlığı həm də demokratik cəmiyyətdə son dərəcə vacib rol oynadığına görə qorunmalıdır. Lakin bəzən fərdlərə zərər verə və ya cəmiyyət üçün təhlükə təşkil edə biləcək fikri ifadə etmək hüququ məhdudlaşdırıla bilər.**

3. ‘Məhkəmə işi’ (səh. 31) haqqında məlumatları ucadan oxuyun, təfərrüatların hər kəs üçün aydın olduğundan əmin olun.
4. İştirakçıları təqribən bərabər 3 qrupa bölün.
   - A qrupu cənab Yersildi təmsil edir
   - B qrupu Danimarka hökumətini təmsil edir
   - C qrupu Avropa Məhkəməsinin hakimlərini təmsil edir
5. Hər bir qrupa müvafiq rol kartını, məhkəmə işi haqqında məlumatın surətini təqdim edin. Qruplara digər qrupların nümayəndələri ilə görüşməzdən və məhkəməyə başlamazdan əvvəl müzakirə aparmaq, mövqelərini aydınlaşdırmaq üçün 30 dəqiqə vaxtlarının olacağını izah edin. Tərəflər məhkəməyə qədərki vaxtdan arqumentlərini hazırlamaq, hakimlər isə hər iki tərəf üçün suallar hazırlamaq üçün istifadə etməlidirlər.
6. 30 dəqiqəlik hazırlıqdan sonra iştirakçılardan digər qrupların eyni nömrəli üzvlərini tapıb həmin iki nəfərlə yeni qrup formalaşdırmağı xahiş edin. Beləliklə, A qrupunda 1 nömrəli iştirakçı B və C qruplarının 1 nömrəli şəxslərini tapmalıdır.
7. Yaradılmış hər bir yeni kiçik qrupun mini məhkəməni təzahür etdirdiyini izah edin. Tərəflərin arqumentlərini dinlənilməsi və hakimlərin sual verməsi üçün məhkəmələrə əlavə 20 dəqiqə vaxt verilir.
8. Bu müddətdən sonra hər bir hakim 10-cu Maddənin şərtlərinin pozulub-pozulmadığına dair fərdi qərar qəbul etməlidir. Bütöv qrupu yenidən bir araya toplayın və hakimlərdən əsasları göstərməklə qərarlarını elan etməyi xahiş edin.
9. Digər iki qrupun nümayəndələrinə verilən qərarlara cavab vermək imkanı yaradın; daha sonra Avropa Məhkəməsinin bu məhkəmə işində faktiki olaraq hansı qərarı qəbul etdiyini söyləyin (səh. 30). İnsanların qərara münasibətini soruşun.
10. Təhlil və qiymətləndirmə hissəsinə keçin. Aşağıdakı sualları müzakirə etməzdən əvvəl iştirakçıların rollarına davam etmədiklərindən əmin olun.

## TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

- Nəzərdən keçirdiyiniz məhkəmə işinin ən çətin aspektləri nələr idi?
- Rolunuzu oynamaq sizin üçün çətin oldumu?
- Sizcə, 'hakim' sizin işinizlə bağlı düzgün qərar qəbul etdimi? Yekun qərarda ən vacib amillər hansı idi?

İştirakçılara aşağıdakı məlumatları verin:

> *"Yaşıl gödəkçəlilərin" şərhlərinin cəzalandırılmalı olduğu barədə qərar qəbul etmək Avropa Məhkəməsinin vəzifəsi olmasa da, yekun qərarda bu haqda şərh verilmişdir. Hakimlər hesab etmişlər ki, ifadə azadlığı "Yaşıl gödəkçəlilərin" şərhlərini əhatə etmir, başqa sözlə, onlar öz fikirlərini ifadə etməkdə "azad" olmamalı idilər.*

- Bununla razısınızmı? Onların hüquqlarının məhdudlaşdırılması lehinə və ya əleyhinə arqumentlər nələrdir?
- İnternetdə bənzər irqçilik nümunələri ilə rastlaşmısınızmı? Rastlaşsaydınız, münasibətiniz necə olardı?
- Sizcə, insanlara internetdə irqçi şərhlər və ya nifrət nitqi paylaşmağa imkan verilməlidirmi?
- Belə davranışları azaltmaq üçün hansı addımları ata biləcəyiniz barədə fikriniz varmı?

## FASİLİTATORLAR ÜÇÜN PRAKTİK TÖVSİYƏLƏR

- "Yaşıl gödəkçəlilərin" toxunduqları məqamlardan bəziləri ayrıca material kimi paylanmaq üçün hazırlanmışdır. Onların paylaşıla bilib-bilməyəcəyinə öz mülahizəniz əsasında qərar verin.
- 5-ci addımda insanlar başqaları ilə görüşüb rollarını paylaşan zaman onlara faktiki məhkəmə işləri üçün ayrılacaqları və buna görə hər kəsin öz qeydlərini aparmalı olduğu barədə xəbərdarlıq edin. Onların qruplarının digər üzvlərinin köməyindən istifadə edə bilməyəcəklər!
- İştirakçıları zamanın bir hissəsindən məhkəmə işinin təfərrüatlarını müzakirə etmək, qalan hissəsindən isə giriş nitqlərini hazırlamaq üçün istifadə etməyə təşviq edin. Hakimlər məhkəmə işinin təfərrüatlarını aydınlaşdırmalı, qərar qəbul etmək üçün hər iki tərəfdən hansı əlavə məlumatları almalı olduqları barədə düşünməlidirlər.
- Məhkəmənin tərəflərinə izah edin ki, təmsil etdikləri mövqe ilə razı olmasalar belə, hakimlər qarşısında ən yaxşı müdafiənin təqdim edilməsini təmin etməlidirlər.
- Yaxşı olardı ki, "məhkəmələrin" hər birinin fərqli otaqda görüşməsinə (7-ci bənd), ya da ən azı bir-birlərindən heç nə eşitməyəcək qədər uzaqda olmalarına imkan yaradasınız.
- Hakimlərdən "məhkəmə prosesinin" vaxtını idarə etməyi xahiş edin. Onlar suallara nə qədər vaxt ayıracaqlarını və tərəflər arasında vaxtı necə böləcəklərini əvvəlcədən planlaşdırmaq tövsiyə edilir. Xüsusi olaraq vurğulayın ki, hər bir tərəfə təxminən bərabər vaxt ayırmalı, eyni zamanda mübahisə edilən hər hansı məqamın aydınlaşdırılması üçün vaxtın qaldığından əmin olmalıdırlar.
- Qeyd etməyə dəyər ki, Avropa Məhkəməsi faktiki olaraq cənab Yersildin davranışı barədə qərar qəbul etmir, Danimarka dövlətinin cənab Yersildə qarşı davranışını qiymətləndirirdi. Avropa Şurasına üzv dövlətlər ölkə daxili qanunların fiziki şəxslərin insan hüquqlarını qoru-

duğundan əmin olmalıdırlar. Avropa Məhkəməsindən qərar qəbul etmək xahiş edildikdə o, qanun və ya təfsirin doğrudan da bu hüquqlar üçün müdafiə təklif edib-etmədiyinə nəzər salır.

- İnternetdə ifadə azadlığı ilə əlaqədar məhkəmə işləri ilə paralellər apara bilmək üçün İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisində söz və məlumat almaq azadlığı bölməsi ilə tanış ola bilərsiniz.

## VARİANTLAR

Məhkəmə işini bir qrupun oynadığı qalan hər kəsin isə müşahidə etdiyi bir hissəli rol oyunu kimi də həyata keçirə bilərsiniz. Oyunçulara sessiyadan əvvəl rol kartları verilə bilər və arqumentlərini hazırlamaq xahiş edilə bilər. Rol oyununun sonunda müşahidəçilərdən proses barədə fikirləri soruşulur.

## FƏALİYYƏT ÜÇÜN FİKİRLƏR

İştirakçılar ən çox istifadə etdikləri sayt və platformalarda irqi zəmində təhqir və ya nifrət nitqinin başqa formaları ilə əlaqədar siyasətin olub-olmadığını araşdıra bilərlər.

- Onlar bir neçə nümunə toplaya bilərlər və bütün qrup müxtəlif sayt və platformaların siyasətlərini müqayisə edə bilər. İştirakçılardan verilənlər arasında istifadəçilərin qorunması baxımından qeyri-adekvat saydıqları siyasətin olub-olmadığını və həmin siyasəti necə dəyişdirə biləcəklərini soruşun. Onlar təkliflərini sayt və istifadəçilərə bildirə, eləcə də digər internet fəallarını hədəfə aldıqları saytlara qarşı lobbiçilik fəaliyyətinə təşviq edə bilər.
- İştirakçılar həmçinin nifrət nitqi ilə əlaqədar siyasətlərinin olduğunu iddia edən bir və bir neçə sayt seçə və bu siyasətlərin necə icra edildiyini izləyə bilərlər. Onlar internetdə tapdıqları nifrət nitqlərinin nümunələrini məzmunun yerləşdirildiyi saytlara şikayət edə və sözügedən siyasətə istinad edə bilərlər.

İştirakçılarla birlikdə məhkəmə işinə aid irqçi rəylər əleyhinə arqumentlər formalaşdırın. İştirakçılar bu cür irqçi inanclarla qarşılaşdıqda onlardan istifadə edə bilərlər.

İştirakçılarla birlikdə demokratik cəmiyyətdə müxtəlifliyin əhəmiyyəti və qəbul edilməsi barədə video hazırlayın.

## BAŞQA RESURSLAR

### AVROPA MƏHKƏMƏSİNİN QƏRARI

Avropa Məhkəməsi bu işə 1994-cü ildə baxmışdır. Məhkəmə Danimarka məhkəməsinin qərarı ilə razılaşmadı və cənab Yersildin filmi hazırladığına və göstərdiyinə görə cəzalandırılmamalı olduğu barədə qərar qəbul etdi. Məhkəmə hesab edir ki, filmdə irqçi şərhlərin qəbuledilməz olduğu və ya filmin yaradıcısı tərəfindən təqdir edilmədiyi kifayət qədər aydın göstərilir və mesajın ictimaiyyət tərəfindən səhv başa düşülməsi təhlükəsi də mövcud deyildi.

Qərarda deyilirdi:

> *“ [film] açıq şəkildə - müsahibə vasitəsilə - sosial vəziyyətin məhdudlaşdırdığı və məyus etdiyi, əvvəllər məhkumluğu olan, zorakılığa inanan müəyyən bir qrup*

*gənci ifşa, təhlil və izah etmiş, bununla da artıq ictimaiyyət arasında böyük narahatlıq mənbəyi olan bir məsələnin konkret aspektlərinə nəzər salmışdır."*

Məhkəmə həmçinin xəbər jurnalistikasının demokratik cəmiyyətdə son dərəcə vacib olduğunu və mətbuata "ictimai nəzarətçi" rolunu oynamaq imkanı verdiyini qeyd etmişdir. O, bildirmişdir ki, başqasının verdiyi bəyanatları ictimailəşdirən jurnalistin cəzalandırılması üçün çox güclü əsaslar olmalıdır. Azad mətbuatın vacib funksiyalarından biri cəmiyyətin ümumi marağına səbəb olan məsələlərin ictimai müzakirəsinə imkan yaratmaq və bunu təşviq etməkdir.

## PAYLANMAQ ÜÇÜN MATERİAL

**Məhkəmə işi**

Bu işdə şikayətçi Danmarks radiosunda (həmçinin televiziya proqramları yayımlayır) çalışan Danimarka vətəndaşı cənab Yens Olaf Yersilddir. Kanal ciddi xəbər kanalı hesab olunur və tamaşaçılarını kifayət qədər məlumatlı insanlar təşkil edir.

Cənab Yersild yaşıl gödəkçəlilər adlandırılan ekstremist irqçi qrup barədə sənədli film yayımlamaq istəyir. O, qrup üzvləri ilə əlaqə saxlayır və onlardan geniş müsahibələr götürür, sonra filmi bir neçə dəqiqəyə sığacaq qədər qısaldır və öz şərhini əlavə edir. Yekun nəticə xəbərlər proqramının bir hissəsi kimi milli televiziyada yayımlanır.

Yayımda yaşıl gödəkçəlilərin üzvləri Danimarkadakı immiqrantlar və etnik qruplar haqqında təhqiramiz və alçaldıcı ifadələr işlədir, qaradərili insanları qorillalarla müqayisə edir, onların "insan olmadıqlarını" söyləyirlər. Danimarka məhkəməsi yaşıl gödəkçəlilərin üzvlərini irqçi şərhlər söylədiklərinə, onları "təşviq etdiyinə", ifadələri daha geniş auditoriyaya yayımladığına görə həmçinin cənab Yersildi təqsirli hesab etmişdir.

Cənab Yersild Danimarka məhkəməsinin haqqında çıxardığı ittiham hökmünün onun ifadə azadlığı hüququnu (AİHK, 10-cu maddə) pozduğunu düşündüyünə görə Avropa İnsan Hüquqları Məhkəməsinə hökmdən şikayət edir.

Avropa Məhkəməsi onun həmin ifadələri yayımlamaq hüququnun məhdudlaşdırılmasının "qanuni" olub-olmadığı barədə qərar qəbul etməli idi. Bu o deməkdir ki, irqçi şərhlərin hədəfi olan insanların hüquqlarının qorunması ilə, ictimaiyyətin belə qrupların mövcudluğu haqqında məlumat almaq ehtiyacı arasında balansın qorunub-qorunmadığına baxılmalı idi.

*Bu materialı öz istəyinizdən asılı olaraq paylaşa və ya paylaşmaya bilərsiniz:*

***Yayım zamanı səslənən şərhlərdən bəziləri:***

"... Şimal ştatları [Amerikada] neqrlərinin azad insan olmaqlarını istəyib, dostum, onlar insan deyillər, heyvandırlar."

"Sadəcə bir qorillə şəkli götürün, sonra neqrə baxın, eyni bədən quruluşu, hər şey eynidir, dostum, geniş alın, hər şey."

"Neqr insan deyil, heyvandır, bu başqa əcnəbi işçilərə, türklərə, yuqoslavlara və adları hər nədirsə, o birilərə də aiddir."

"...onların mentalitetləri xoşumuza gəlmir ... Zimbabve geyimlərində gəzməkləri, sonra küçədə o hula-hula dilində danışmaqları xoşumuza gəlmir ..."

"Narkotik maddə satırlar, dostum, "Vestredə" məhbusların yarısı narkotikə görə tutulub ... narkotik maddə satdıqlarına görə cəza çəkən insanlardırlar ..."

**Cənab Yersild üçün rol kartı**

Ciddi bir jurnalistsiniz və aşağıdakı məqsədlərlə irqçilik və ksenofobiya haqqında film çəkirsiniz.

1. Problemin miqyasını – o cümlədən yaşıl gödəkçəlilərin ekstremist baxışlarını işıqlandırmaq
2. Yaşıl gödəkçəlilərin xeyli sayda emosional cəhətdən yetkinləşməmiş və sosial baxımdan əlverişsiz vəziyyətdə olan üzvləri olan kriminallaşmış qrup olduğunu göstərmək.

Cəmiyyətin hər iki məqamı başa düşməsinin vacib olduğuna inanır və bir tərəfdən ən pis münasibətlərin birbaşa yayımlanması, digər tərəfdən müsahibə alınan gənclərin aşağı təhsil səviyyəsinin, keçmişinin, qarşılaşdıqları sosial çətinliklərin təsvir edilməsi ilə proqramınızın hər iki aspekti əhatə edə bildiyini düşünürsünüz. Hansısa tamaşaçının proqramınızın ifadə edilən irqçi münasibətləri dəstəklədiyini zənn edəcəyini düşünmürsünüz.

Jurnalist olduğunuz üçün ifadə azadlığını çox yüksək qiymətləndirirsiniz: həddən çox məhdudiyyət jurnalistlərin real və xoşagəlməz məsələlər haqqında məlumat verməsini qeyri-mümkün edə bilər. Belə məsələlərin etiraf və həlli edilmək üçün jurnalistlər tərəfindən ictimaiyyətin diqqətinə təqdim edilməli olduğuna, bunun onların vəzifəsi olduğuna inanırsınız.

**Avropa Konvensiyasının 10-cu maddəsi (sadələşdirilmiş)**

1. Hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı məlumat və ideyaları heç bir müdaxilə olmadan almaq və yaymaq azadlığı daxildir.
2. Ifadə azadlığı "demokratik cəmiyyətdə zəruri olan hallarda", xüsusən başqalarının hüquqlarının qorunması üçün zəruri olduqda məhdudlaşdırıla bilər.

**DANİMARKA HÖKUMƏTİ ÜÇÜN ROL KARTI**

Danimarka məhkəməsinin cənab Yersild haqqında ittiham hökmü çıxarmasının düzgün olduğuna inanırsınız. Onun proqramı geniş auditoriya tərəfindən eşidilməməli olan son dərəcə ekstremist və irqçi baxışlar ehtiva edirdi. Proqram sensasiyaya hesablanmışdı və ifadə edilən fikirlərin qəbul edilməz və ya təhlükəli olduğunu vurğulayan şərhlər yetərsiz idi. Jurnalistlərin tamaşaçıların məyus olmamasını və ya yanlış yönləndirilməməsini təmin etmək öhdəliyi daşıdıqlarına inanırsınız. Proqrama baxan insanların jurnalistin irqçi bəyanatlardan sarsıldığını və onları qəbul etmədiyini başa düşməyəcəyini düşünürsünüz. Onlar bu bəyanatların savadsız, zərərli və qeyri-qanunu olduğunu başa düşə bilməzdilər.

**Cənab Yersild yaşıl gödəkçəlilərin ifadə etdikləri ən pis şərhləri göstərmək məqsədilə filmi redaktə etmişdir. Onun üzvlərdən müsahibə almamalı, onları baxışlarını ifadə etməyə təşviq etməməli və əlbəttə, proqramına daxil etməklə, bu baxışları ictimailəşdirməməli olduğunu düşünürsünüz. Proqramın hazırlanmamalı olduğunu və cənab Yersildin belə təhlükəli fikirləri geniş ictimaiyyətə çatdırdığına görə məsuliyyətə cəlb edilməli olduğunu düşünürsünüz.**

**Avropa Konvensiyasının 10-cu maddəsi (sadələşdirilmiş)**

1. Hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı məlumat və ideyaları heç bir müdaxilə olmadan almaq və yaymaq azadlığı daxildir.
2. Ifadə azadlığı "demokratik cəmiyyətdə zəruri olan hallarda", xüsusən başqalarının hüquqlarının qorunması üçün zəruri olduqda məhdudlaşdırıla bilər.

## HAKİMLƏR ÜÇÜN ROL KARTI

Məhkəməni təşkil etmək, Danimarka məhkəmələrinin düzgün hərəkət edib-etmədiyi, cənab Yersildin, doğrudan da təqsirli olduğu, yoxsa hüquqlarının pozulduğu barədə qərar qəbul etmək sizin vəzifənizdir.

**Məhkəmə prosesi:**

Cənab Yersild və Danimarka hökumətinin nümayəndələrinə hər bir tərəfə iş üzrə arqumentlərini bildirmək üçün bir neçə dəqiqə veriləcəyini: sonra suallar ünvanlayacağınızı və bir-birlərinin suallarına cavab verə biləcəklərini xatırladın. Onlara qaydalara uyğun davranmalı və verdiyiniz təlimatlara əməl etməli olduqlarını bildirin!

**Qəbul etməli olduğunuz qərar:**

Cənab Yersildin filmin ictimaiyyətə təqdim edilməsinə icazə verməli olub-olmadığını qiymətləndirməlisiniz. Ifadə azadlığı hüququnun ona bunu etməyə icazə verdiyi düşünülə bilər, lakin ifadə azadlığı mütləq hüquq deyil, başqa sosial aspektlər və başqa insan hüquqları ilə balanslaşdırılmalıdır. Bu halda balansın düzgün qorunub-qorunmadığı barədə qərar qəbul etmək sizin vəzifənizdir.

Hər iki tərəfin sübutlarını dinləyən zaman götür-qoy etməli və qərarlaşdırımalı olduğunuz əsas suallar bunlardır:

- **Sizcə, həmin film ictimaiyyət tərəfindən irqçi baxışların dəstəklənməsi kimi başa düşülə bilərdimi?**
- **İctimaiyyətin yaşıl gödəkçəlilərin irqçi baxışları və keçmişi haqqında məlumatlı olması vacib idimi, yoxsa belə fikirlərin geniş auditoriyaya yol tapmaması daha önəmli idi?**

**Avropa Konvensiyasının 10-cu maddəsi (sadələşdirilmiş)**

1. Hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı məlumat və ideyaları heç bir müdaxilə olmadan almaq və yaymaq azadlığı daxildir.
2. Ifadə azadlığı "demokratik cəmiyyətdə zəruri olan hallarda", xüsusən başqalarının hüquqlarının qorunması üçün zəruri olduqda məhdudlaşdırıla bilər.

NO HATE
NO HATE SPEECH MOVEMENT

SƏVIYYƏ 4

QRUP 15-30

VAXT 180'

# SLİPİVİLDƏ YENİ MƏSCİD XÜLASƏ:

***Bu, onlayn konsultasiyanın / debatın simlulyasiyasıdır. Müzakirə edilən məsələ ənənəvi xristian ərazisində yeni məscidin tikintisidir.***

| | |
|---|---|
| MÖVZULAR: | Demokratiya və iştirak, irqçilik və ayrı-seçkilik, internet savadı |
| MÜRƏKKƏBLİK: | Səviyyə 4 |
| QRUP ÜZVLƏRİNİN SAYI: | 15 - 30 |
| VAXT: | Ya ardıcıl 2 ½ - 3 saat, ya da hər biri 50 dəqiqə olmaqla 3 sessiya |
| MƏQSƏDLƏR: | • Dini azlıqların hüquqlarını və onların onlayn nifrət nitqi ilə əlaqəsini araşdırmaq<br>• Onlayn debat və təhlil bacarıqlarının inkişaf etdirilməsi<br>• Başqa insanlara və ya inanclara qarşı tolerantlığın artırılmasında demokratik müzakirənin /iştirakın istifadəsini götür-qoy etmək |
| MATERİALLAR: | • İnternetə çıxış – minimum 5 kompüter<br>• Qrupların görüşməsi üçün yer<br>• 2 fasilitator<br>• Şura üzvləri üçün bülletenlər (istəkdən asılı olaraq) |
| HAZIRLIQ | • Bütün iştirakçılara paylanacaq materialların surətini çıxarın<br>• İnternetdə qapalı məkan yaradın. Təkliflər üçün fasilitatorlara təqdim edilən məsləhətlərə baxın.<br>• Hər bir iştirakçı üçün istifadəçi adı yaradın – yaxud hər kəsin mövcud hesabdan istifadə edərək giriş edə bilib-bilmədiyini dəqiqləşdirin (bax: fasilitator üçün məsləhətlər). |

## TƏLİMATLAR

1. Problemin təsvirini ucadan oxuyun (səh. 38). Bütün iştirakçıların Slipivil sakini olduğunu və boş qalmış bələdiyyə torpağında yeni məscidin inşa edilib-edilməmsi məsələsinin onların hər birini narahat etdiyini izah edin.
2. Hər bir iştirakçıya çap materiallarının bir nüsxəsini verin və onlardan rolları seçməyi xahiş edin. Konsultasiya prosedurunu ətraflı izah edin və hər kəsin başa düşdüyündən əmin olun.
3. İnsanların və qrupların əvvəlcədən görüşə biləcəyi və kompüterlərin olduğu yerləri göstərin. Hər kəsin istifadəçi adı və parolunun olub-olmadığını yoxlayın.
4. İlkin bəyanat verə bilənlərə bunun konsultasiya ictimaiyyət üçün açıq elan edilməzdən əvvəl yerinə yetirilməli olduğunu xatırladın.. Hər kəsi konsultasiyadan əvvəlki 30 dəqiqəlik vaxtdan istifadə etməyə təşviq edin:
   - (zəruri olarsa) qruplar daxilində mövqeləri razılaşdırın rol və ya arqumentləri paylaşdırın
   - başqa qrupların nümayəndələri ilə görüşün
   - saytda hesablarına daxil ola bilib-bilmədiklərini yoxlayın.

   Kompüterdən istifadə imkanı və ya vaxt məhduddursa, yalnız bir dəfə mövqelərini müdafiə etmək şansı qazana biləcəklərinə görə, iştirakçılara arqumentlərinin qısa və konkret olmalı olduğunu xatırladın!
5. Konsultasiyaya qədər mərhələnin başladığını bəyan edin və 30 dəqiqə sonra konsultasiyanın ictimaiyyətə açıq elan ediləcəyini izah edin.
6. 30 dəqiqə sonra ictimai konsultasiyanın başladığını elan edin və ictimaiyyətin nümayəndələrini qrupların ilkin bəyanatlarını oxuyub şərh verməyə dəvət edin.
7. Konsultasiyanın sonunda mer konsultasiyanı bağlı elan edir. Daha sonra Şəhər şurası üzvləri görüşür və səs verirlər. Səslər bərabər bölünərsə, mer həlledici səsə malik olur.
8. Mer qərarı elan edir. İştirakçıları təhlil və qiymətləndirmə üçün stulları dairə formasında düzməyə dəvət edin.

## TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

Hər kəsi öz adı ilə salamlayaraq sıra ilə rəyləri öyrənin. İştirakçılara simulyasiya müddətində büründükləri obrazdan çıxmaları üçün vaxt vermək vacibdir.

İştirakçılardan indicə iştirakçısı olduqları proses haqqında nə düşünlüklərini soruşun:

- Səsvermənin nəticəsi sizi təəccübləndirdimi? Bu nəticə rolunu oynadığınız şəxs üçün münasib idimi?
- Sizcə, onlayn konsultasiya belə məsələlər barədə qərarların qəbul edilməsi üçün yaxşı üsuldurmu? Üstünlüklər və mənfi cəhətlər nələrdir?

### DEBATDA ƏKSİNİ TAPAN FİKİRLƏR HAQQINDA SUALLAR:

- Başqa insanlarla və ya qruplarla qarşılıqlı ünsiyyət qaldırılan məsələlərə yanaşmanızı və ya baxışınızı dəyişdirdimi?

- Rolunuzu mənimsəmək nə dərəcədə asan oldu?
- Sizcə, real həyatda bu vəziyyət yarana bilərdi? Hər hansı bənzər halla rastlaşmısınızmı?
- Şəhərinizdə / yaşayış yerinizdə belə bir məsələ yaransaydı, münasibətiniz necə olar Məşğələ bu münasibəti dəyişdirdimi?

#### ONLAYN NİFRƏT NİTQİ İLƏ ƏLAQƏLƏNDİRMƏ:

- İrqçi və ya təhqiramiz şərhlərin silinməsi qaydası haqqında nə düşünürsünüz?
- Bu qaydanın mövcudluğu yazdığınız şərhlərə fərqli yanaşmanıza səbəb oldumu?
- Şərhi silmək və ya saxlamaq barədə qərar vermək asan oldumu? (sayt administrator üçün sual).
- Moderatorların qəbul etdiyi qərarlarla razısınızmı? (sual bütün iştirakçılar üçündür)

#### FASİLİTATORLAR ÜÇÜN PRAKTİK TÖVSİYƏLƏR

- Məşğələ başlamazdan əvvəl təhlükəsiz sayt hazırlamalısınız. Bu, Facebook səhifəsi və ya ba sosial şəbəkə/platforma hesabı ola bilər. Hər kəsin bu sayta çıxışı olan hesabının olma təmin etməlisiniz.
- Məşğələni həyata keçirməkdə yardım etməsi üçün ikinci fasilitator lazım olacaq. Qrupl müstəqil işləmək imkanı verilməli olsa da, onlar konsultasiyaya hazırlıq və ya konsultasiya manı yardım və ya bələdçiliyə ehtiyac duya bilərlər. məsələn, hazırlıq mərhələsində insanla ayrılmış vaxtdan başqaları ilə görüşmək və ya iclas zamanı nə deyəcəklərini planlaşdırn üçün istifadə edib-etmədiklərini yoxlamaq faydalı ola bilər.
- Kompüterlərin sayı məhduddursa, hər kəsin töhfə vermək şansı əldə etməsi üçün vaxt lir (və ya söz limiti) müəyyən edə bilərsiniz.
- Təhlil və qiymətləndirmə zamanı simulyasiyanı təkrar etməməyə çalışmaq vacibdir. Ya dıqları təcrübə haqqında düzgün mülahizə yürüdə bilmək üçün iştirakçılar Məşğələ zam oynadıqları roldan uzaqlaşmağa çalışmalıdırlar. Simulyasiyaya üzərlərinə götürdükləri ro deyil, öz nəzərləri ilə baxmaları üçün onlara kömək etmək lazımdır.

### VARİANTLAR

İnsanların ilkin təqdimat və ya şərhlərində istifadə edə biləcəyi sözlərin sayını azalda və ya m dudlaşdıra bilərsiniz. Şərhləri ‘tvit’ ölçüsü, yəni 280 işarə ilə məhdudlaşdırmağa çalışın!

Məşğələ bir neçə gün ərzində də davam etdirilə bilər, beləliklə yaxşı təşkil edilmiş vahid iclas ü lazım olan vaxtı azaldıla bilər və iştirakçılar evdən şərh göndərmək imkanı qazanarlar.

Onlayn vasitələrdən istifadə imkanınız yoxdursa, Məşğələ tamamilə oflayn rejimdə də hə keçirilə bilər. Məşğələnin bu forması "Kompas" məşğələsinin uyğunlaşdırılmış variantıdır. Ət məlumat üçün: www.coe.int/compass

### FƏALİYYƏT ÜÇÜN FİKİRLƏR

Ölkənizdəki dini və ya etnik azlıqlar hansılardır, mətbuatda onlar haqqında necə yazılır? M və ya yerli xəbər saytlarının ənənəvi olaraq mənfi yöndə təqdim edilən hər hansı qrup haqqı

yazdıqlarına nəzər salın. Sonra məsul jurnalistlərə yazın – və ya veb-sayt imkan verdiyi halda şərh əlavə edin.

Yerli hakimiyyət orqanları hər hansı onlayn konsultasiya təşkil edirmi? Gənclər yerlərin seçilmiş nümayəndələri ilə ünsiyyət üçün hər hansı onlayn vasitələrdən istifadə edə bilərlərmi? İştirakçılarla onlayn axtarış aparın və gəncləri narahat edən məsələləri qaldırmaq üçün mövcud vasitələrdən (əgər varsa) istifadə edin.

Azlıqların yerli təşkilatları ilə əlaqə saxlayın, icmanızın müxtəlifliyin öhdəsindən necə gəldiyini anlamaq üçün onlarla görüşün.

**PAYLANMAQ ÜÇÜN MATERİAL**

*Bütün iştirakçılar üçün; Həmçinin konsultasiya saytında yerləşdirilə bilər.*

## SLİPİVİLDƏ MƏSCİD

Təqribən 80 min əhalisi olan, səfalı Slipivil rayonunda yaşayırsınız. Son 60 ildə əhalinin tərkibi kəskin dəyişib, bir tərəfdən əsasən gənclər iş axtarmaq üçün daha böyük şəhərlərə köçməyə çalışdığına görə, digər tərədən də regiona çoxu müsəlman ölkələrindən olmaqla çox sayda mühacir ailəsi gəldiyinə görə. Bu ailələrin bəziləri nəsillərdir ki, burada yaşayırlar, lakin hələ də şəhərdə çox adam onlarla "gəlmələr" kimi şübhə ilə rəftar edir. Onlar ümumi əhalinin demək olar ki, 15%-ni təşkil edirlər.

İndi şəhəri cəbhələrə bölən müsəlmanların Slipivildə Şuraya məxsus boş sahədə məscid tikmək arzusu idi. Bu ərazi inkişafdan geri qalıb və illərdir şura üçün şikayət mənbəyidir: o, ticarət mağazalarının toplandığı əsas küçənin yanında yerləşir, həmçinin vandalizm və narkotik qəbulunun müntəzəm problem təşkil etdiyi ərazidir.

Odur ki, imkanlı iş adamı Şuranı bu problemdən xilas etməyi təklif edəndə mer, nəhayət bəxtinin gətirdiyini düşünür! Şura məmnuniyyətlə torpağı təhvil verməyə, sahədə yeni məscidinin inşaatı üçün tikinti xərclərinin 20%-ni maliyyələşdirməyə razılıq verir. İş adamının qarşılaya bilmədiyi tikinti xərclərinin qalan 10%-i müsəlman icmasından tapılmalı idi.

Tikinti bu həftə başlamalı idi... lakin qərarın qəbul edilməsindən sonra sakit Slipivil şəhərinə sakit demək qeyri-mümkün idi. Bir həftə əvvəl Şuranın tvitter hesabı anti-müsəlman qrup tərəfindən sındırılmış, bir neçə təhqiramiz və irqçi tvit paylaşılmışdı – onlardan bəziləri insanları küçələrə axmağa, "əcnəbiləri ovlamağa" çağırırdı". Bundan sonra müsəlmanlara qarşı irqçi hücumlar atmış, bunlardan bəziləri zorakılıqla nəticələnmişdir. Hücumlardan birində ağır xəsarət alan var idi. Bir neçə müsəlman qrupu bu hücumlara qarşılıq vermişdi və müxtəlif dəstələr arasında zorakılıq artırdı.

Slipivil meri əhalini sakit olmağa çağırmış, ictimai konsultasiya keçirildikdən sonra məscidin inşası qərarına yenidən baxılacağını elan etmişdir . Mümkün qədər çox insanın iştirakına şərait yaratmaq üçün onlayn konsultasiya forumunun keçirilməsi qərarlaşdırılmışdı.

## PAYLANMAQ ÜÇÜN MATERİAL

*Bütün iştirakçılar üçün*

### KONSULTASİYA PROSEDURU

Konsultasiyada Slipivilin yaşı 18-dən yuxarı olan sakinləri iştirak edə bilərlər.

Aşağıdakı qeydiyyatdan keçmiş qruplar /fərdlər təklif edilən məscid barədə mövqelərini əks etdirən ilkin bəyanat təqdim etməyə dəvət edilirlər. İlkin bəyanatlar Konsultasiya ictimaiyyət üçün açıq elan edilməmişdən əvvəl təqdim edilməlidir.

- **Slipivilin meri və merin müavini** (birgə bəyanat)
- Ənənəvi partiya, Populist partiya və Müxtəliflik partiyasını təmsil edən şəhər şurası üzvləri (hər partiya 1 bəyanat verir)
- Qeyri-hökumət təşkilatları: Gənclərin Fəaliyyət Qrupu "Gənc yuxusevərlər insan hüquqları naminə!", "Keçmiş və İndiki Zaman assosiasiyası", "Slipivilin Müsəlman Assosiasiyası" (hər təşkilatdan bir bəyanat)

İlkin bəyanatlar Şuranın veb-saytında yerləşdiriləcək, bundan sonra 18 yaşından böyük bütün sakinlər şərh verə biləcəklər. Təhdidkar, irqçi və ya təhqiramiz hesab edilən hər hansı şərh Şuranın veb-saytından silinəcək.

Konsultasiya 30 dəqiqə sonra yekunlaşacaq. Daha sonra Şura üzvlərinin səsləri bərabər paylanarsa, mer həlledici səs hüququndan istifadə edir.

**Şuranın qərarı yekun qərar olacaq.**

*Rol kartları*

### SLİPİVİLİN MERİ

Siz şəhərin rəhbər şəxsisiniz və şəhərdə dinc və yaxşı münasibətlərin bərpası zərurətini çox gözəl başa düşürsünüz. Proses boyunca qərəzsiz görünməyinizin vacib olduğunu düşünür, cəmiyyətin müxtəlif sektorları arasında ədalətli vasitəçi kimi nüfuzunuza önəm verirsiniz. Mümkün qədər çox insan üçün məqbul həll yolu tapmaq istəyirsiniz.

Konsultasiya ictimaiyyətin diqqətinə təqdim edilməzdən əvvəl mövqeyinizi izah edən ilkin bəyanatın layihəsini hazırlamalısınız. Bunu merin müavini ilə müzakirə etməlisiniz. Vaxtınız varsa, həmçinin rəyləri yoxlamaq üçün qruplarla və ya sakinlərlə görüşməyə çalışmalı, zorakılıq riskini azalda bilib-bilməyəcəyinizə baxmalısınız.

Mer nəticələr bərabər olmadıqca səs verməyəcək Bu halda nəticəni sizin səsiniz müəyyən edəcək.

**MERİN MÜAVİNİ**

Siz merin yanında çalışırsınız və ona ilkin bəyanatı hazırlamağa kömək etməlisiniz. Sizdən Konsultasiyanın başlamasından əvvəl qarşılıqlı səmərəli həll yolunun tapılmasının əhəmiyyətli olduğuna inandırmaq üçün bəzi daha ekstremal qruplarla görüşməyiniz də xahiş edil bilər.

Konsultasiya açıq elan edildikdən sonra rəyləri yoxlamaq, zorakılıq riskini azalda bilib-bilməyəyinizi müəyyən etmək üçün qruplar və ya sakinlərlə keçirilən görüş zamanı merə yardım etmək sizin vəzifəniz olacaq.

Debatda səs vermirsiniz.

**SAYT ADMİNİSTRATORLARI** (2 NƏFƏR)

Sizin vəzifəniz müzakirəni izləmək, şərhlərin irqçi və ya potensial baxımdan zərərli olmadığını dəqiqləşdirməkdir. Hər hansı belə şərh dərhal Şuranın veb-saytından silinməlidir. Konsultasiya açıq elan edilənə qədərki vaxtdan şərhlərin qəbuledilən olub-olmadığına necə qərar verəcəyiniz barədə düşünün. Qısa təlimatlar toplusu hazırlaya bilərsiniz.

Həmçinin insanlara üslublarının qəbul edilməz olduğu barədə xəbərdarlıq edən və ya iştirakçıları debatda iştirak edənlərə qarşı nəzakətli və düşüncəli olmağa çağırdan şərhlər paylaşa bilərsiniz.

Debatda səs vermirsiniz.

**ŞƏHƏR ŞURASININ ÜZVLƏRİ: MÜHAFİZƏKAR PARTİYA** (2-3 NƏFƏR)

Şəhər şurasında mühafizəkar partiyanı təmsil edirsiniz və Məscidə qətiyyətlə qarşı çıxırsınız. Şura torpağının və resurslarının ölkənizin və ya bu şəhərin ənənələrinə hörmət edilməyən ibadət yeri üçün sərf edilməsini düzgün hesab etmirsiniz. Burada yaşamağa icazə verildiyinə görə mühacirlərin bəxtinin gətirdiyini və onların qonaq olduqları ölkədə fərqli həyat tərzi təlqin etməyə çalışmamalı olduqlarını düşünürsünüz.

Bəzi üzvləriniz qatı anti-müsəlman mövqeyə malikdirlər və belə zorakı dinə inanan icmadan yalnız hazırki zorakılıq hallarının gözlənilə biləcəyini düşünürlər. Müsəlmanların şəhərdəki sayını azaltmağı çox istərdiniz, çünki onların Slipivilin ənənəvi dəyərlərini korladığını düşünürsünüz. Həmçinin məscidin terrorçuların cəlb edilməsi üçün görüş məntəqəsi olacağından əminsiniz.

Konsultasiya ictimaiyyətin diqqətinə təqdim edilməzdən əvvəl mövqeyinizlə bağlı, veb-saytda yerləşdiriləcək ilkin bəyanatı hazırlamalısınız. Fikrinizi qısaca ifadə edin!

Üzvlərinizin hər birinin yekun qərarın qəbulu zamanı səs vermək hüququ var.

## PAYLANMAQ ÜÇÜN MATERİAL

### ŞƏHƏR ŞURASININ ÜZVÜ: POPULİST PARTİYA (1-2 NƏFƏR)

Şəhər şurasında Populist partiyanı təmsil edirsiniz. Qismən müsəlman icmasının şəhərin iqtisadiyyatına çox müsbət təsir etdiyini bildiyinizə qismən də onları təcrid etmək istəmədəyinizə görə əvvəl sahədə məscidin inşa edilməsi qərarını dəstəkləyirdiniz. Lakin sakinlərin şikayətləri və son zorakılıq halları sizi çox narahat edib. Həmçinin növbəti şura seçkilərindəki yerinizdən narahatsınız, buna görə də gərək ki, ən az mübahisə doğurduğunu düşündüyünüz variantı dəstəkləyəcəksiniz.

Konsultasiya ictimaiyyətin diqqətinə təqdim edilməzdən əvvəl mövqeyinizlə bağlı, veb-saytda yerləşdiriləcək ilkin bəyanatı hazırlamalısınız. Fikrinizi qısaca ifadə edin!

Üzvlərinizin hər birinin yekun qərarın qəbulu zamanı səs vermək hüququ var.

### ŞƏHƏR ŞURASININ ÜZVÜ: MÜXTƏLİFLİK PARTİYASI (1 VƏ YA 2 NƏFƏR)

Şəhər Şurasında müxtəliflik partiyasını dəstəkləyirsiniz. Dünyanın müxtəlif yerlərindən gələn insanların payının nisbətən çox olmasının Slipivilin mədəniyyət və maraqlarına töhfə verdiyinə inanır, şəhərin bu insanların çoxunu bu qədər uzun müddət öz dinlərinə ibadət etmək imkanından məhkum etməsini ədalətsizlik hesab edirsiniz. Slipivildə müxtəlif icmalar arasında dialoqların artmasını istərdiniz və zorakılığı yatırmağa, əks tərəfləri danışmaq üçün bir araya gətirməyə çalışmaqla məşğul olmusunuz. Boş qalmış torpağın şəhərdə sosial problemlərə səbəb olduğunu, Şuranın hazırda həmin sahəni inkişaf etdirtmək üçün vəsaitinin olmadığını başa düşürsünüz.

Konsultasiya ictimaiyyətin diqqətinə təqdim edilməzdən əvvəl mövqeyinizlə bağlı, veb-saytda yerləşdiriləcək ilkin bəyanatı hazırlamalısınız. Fikrinizi qısaca ifadə edin!

Üzvlərinizin hər birinin yekun qərarın qəbulu zamanı səs vermək hüququ var.

### SLİPİVİL "KEÇMİŞ VƏ İNDİ" ASSOSİASİYASININ ÜZVLƏRİ (2-4 NƏFƏR)

Məscidə etiraz edən əsas qruplardan birisiniz. Üzvləriniz Slipivilin ənənəvi (qeyri-müsəlman) icmalarını təmsil edirlər və çoxunuzun həyatının çox hissəsini keçirdiyi şəhərin qədim simasının saxlanmasının çox vacib olduğunu inanırsınız. Məscid üçün təklif edilən sahə çox mərkəzi yerdədir və şəhər mərkəzində çox yerdən görünəcək. Ən əsası da məscid əsas kilsənin şəhər meydanından görünməsinə mane olacaq. Doğma şəhərinizin simasının bura yenicə gəlmiş bir icma tərəfindən tamamilə dəyişdirilməkdə olduğunu düşünürsünüz. Ölkəyə başqa yerdən gəlmiş insanların niyə görə burada mövcud qaydalarla yaşamamalı olduğunu başa düşmürsünüz.

Son bir neçə ildə üzvlərinizin radikallığı artıb, təşkilatınız aşkar surətdə irqçi olmaqda və küçələrdəki bəzi zorakılıq hallarına görə məsuliyyət daşımaqda ittiham edilir. Şurada təmsil olunan Mühafizəkar partiya ilə sıx əlaqələriniz var.

Konsultasiya ictimaiyyətin diqqətinə təqdim edilməzdən əvvəl mövqeyinizlə bağlı, veb-saytda yerləşdiriləcək ilkin bəyanatı hazırlamalısınız. Fikrinizi qısaca ifadə edin!

**GƏNCLƏRİN FƏALİYYƏT QRUPU "GƏNC YUXUSEVƏRLƏR İNSAN HÜQUQLARI NAMİNƏ!"** (2-4 NƏFƏR)

Qrupunuz Slipivil gənclərinin qarşısında dayanan ən kəskin problemləri həll etməyə çalışmaq üçün təsis edilib. Məscidin inşa edilməsinə həm müsəlman icmasının ibadət yeri ehtiyacının, həm də ərazinin boş qalması nəticəsində yaranmış bir sıra sosial problemlərin həlli kimi baxırsınız. Məscidin inşa edilməsini dəstəkləyirsiniz, lakin Şura tikintiyə töhfə verdiyi üçün başqa sosial problemlərin diqqətdən kənarda qala biləcəyindən narahatsınız. Ələlxüsus, son 5 ildə gənclər üçün ayrılan büdcə vəsaiti o qədər ixtisar edilib ki, şəhərin ehtiyaclarını ödənməsinə heç bir töhfə verilə bilməz.

Konsultasiya ictimaiyyətin diqqətinə təqdim edilməzdən əvvəl mövqeyinizlə bağlı, veb-saytda yerləşdiriləcək ilkin bəyanatı (250 sözü aşmamaq şərtilə) hazırlamalısınız.

**"SLİPİVİLL MÜSƏLMAN ASSOSİASİYASININ" ÜZVLƏRİ** (2-4 NƏFƏR)

İllərdir, Şuradan müsəlman icmasını ibadət yeri ilə təmin etməyi xahiş edirsiniz, lakin maliyyə səbəblərinə görə bu xahiş hər zaman rədd edilib. Xristian icmasının 11 ibadət yerinin olduğunu, bu yerlərdən məscidlə müqayisədə daha az insanın istifadə etdiyini, insanların çoxunun iqtisadi vəziyyətinin çox zəif olduğunu nəzərə alaraq, tikinti xərclərinin 10%-nin müsəlman icmasından tələb olunmasını ədalətsiz hesab edirsiniz. İcmanızın şəhərə verdiyi töhfənin yetərli qədər qiymətləndirilmədiyini, icmanızın üzvlərinin həyatlarının müxtəlif sahələrində ədalətsizcə ayrı-seçkiliyə məruz qaldığını, Şuranın bu məscidin tikintisinə icazə verməkdən imtina etməklə, icmanı fundamental dinə etiqad hüququndan məhrum etdiyini düşünürsünüz.

Bəzi üzvlərinizin Assosiasiyanın mövqeyi ilə müqayisədə daha esktremal baxışlara malik olduğunu bilirsiniz və bəzi müsəlmanların icmalarına qarşı hücumlara zorakılıqla cavab verməsindən narahatsınız. Qərarın geri götürülməsinin müsəlman sakinləri daha də təcrid edəcəyindən, icmalar arası zorakılığı artıracağından narahatsınız.

Konsultasiya ictimaiyyətin diqqətinə təqdim edilməzdən əvvəl mövqeyinizlə bağlı, veb-saytda yerləşdiriləcək ilkin bəyanatı hazırlamalısınız. Fikrinizi qısaca ifadə edin!

**SLİPİVİL SAKİNLƏRİ**

Slipivil şəhərini ağuşuna almış münaqişəyə görə narahatsınız. Hələ hansı mövqeyi dəstəkləyəcəyinizi bilmirsiniz: Qeyri-hökumət təşkilatlarının və Şurada təmsil olunan partiyaların mövqeləri haqqında daha yaxşı təsəvvür əldə etmək istəyir, bundan sonra qərara gəlməyi planlaşdırırsınız.

Konsultasiya ictimaiyyət üçün açıq elan edilənə qədər (konsultasiya başladıqdan 30 dəqiqə sonra) şərh yaza bilməsəniz də, saytda yerləşdirildikcə ilkin bəyanatları oxuya, həmçinin digər sakinlər,

## PAYLANMAQ ÜÇÜN MATERİAL

Assosiasiya nümayəndələri, Şəhər şurasının üzvləri ilə arqumentlərini eşitmək üçün görüşməyə çalışa bilərsiniz.

Konsultasiya ictimaiyyət üçün açıq elan edildikdən sonra nə demək istədiyiniz haqqında düşünün və hər bir şərhin 150 sözü aşmamalı olduğunu unutmayın. Hər kəs şərh yazmaq şansı qazandıqdan sonra, zaman imkan verərsə, ikinci şərhinizi yaza bilərsiniz.

*Məşğələ "Kompas" - Gənclərin iştirakı ilə insan hüquqlarının təhsili üzrə təlimat vəsaiti əsasında hazırlanmışdır - www.coe.int/compass*

SƏVIYYƏ 4

QRUP
Hər hansı

VAXT

# AKSİYA VƏ KAMPANİYANIN ADDIM-ADDIM KEÇİRİLMƏSİ XÜLASƏ

***Burada nifrət nitqi və nifrət cinayətinə qarşı tədbirlərin görülməsinə yönələn 4 məşğələ əhatə olunur. Müxtəlif hissələr ayrı-ayrılıqda və ya bu vəsaitdəki başqa məşğələlərlə birlikdə istifadə edilə bilər.***

| | |
|---|---|
| MÖVZULAR | İrqçilik və ayrı-seçkilik, kampaniya üçün strategiyalar, insan hüquqları |
| MÜRƏKKƏBLİK | Səviyyə 4 |
| QRUP ÜZVLƏRİNİN SAYI | Hər hansı |
| VAXT | 1, 2 və 3-cü hissələr çərçivəsində 90, 60 və 45 dəqiqəlik 3 sessiya. Həmçinin kampaniya fəaliyyəti üçün vaxt tələb olunur. |

**1-Cİ HİSSƏDƏ** (60 dəqiqə) nasistlər tərəfindən holokostun gerçəkləşdirildiyi dövr daxil olmaqla, qaraçıların yaşadıqları tarixi əziyyətlərə nəzər salınır. Bu məşğələ başqa hissələr olmadan həyata keçirilə bilər. Məqsəd qrupda qaraçı xalqına qarşı nifrətin alovlandırdığı, diqqətdən kənarda qalmış və nəticələri hələ də davam edən cinayətlər haqqında təsəvvür oyatmaqdır.

**2-Cİ HİSSƏ** (60 dəqiqə) ictimaiyyətin bu əzablar barədə məlumatlılığının artırılması, eləcə də qaraçı xalqı ilə həmrəyliyin ifadə edilməsi məqsədilə aksiyanin planlaşdırılmasını əhatə edir. Bu hissədən Kampaniya çərçivəsində hər hansı bir fəaliyyəti planlaşdırmaq üçün və təlimatda göstərilən digər məşğələlər üçün istifadə edilə bilər.

**3-CÜ HİSSƏ** Aksiyanın həyata keçirilməsindən ibarətdir. Təlimatları qrup özu hazırlayır!

**4-CÜ HİSSƏ** (45 dəqiqə) keçirilmiş aksiyanın təhlili və qiymətləndirilməsindən ibarətdir. Suallar grupunuzun Kampaniya çərçivəsindəki hər hansı fəaliyyətin təhlil və qiymətləndirməsi üçün ümumi formada istifadə edilə bilər.

# 1-Cİ HİSSƏ: TARİXDƏN ÇIXARILAN DƏRSLƏR

| | |
|---|---|
| VAXT | 60 dəqiqə |
| MƏQSƏDLƏR | • Nasistlər tərəfindən törədilmiş holokostun qaraçı xalqını təmsil edən qurbanları haqqında məlumatlılığı artırmaq, qaraçı xalqına münasibətdə həmrəylik formalaşdırmaq<br>• Dərin kök salmış önmühakimə və nifrət nitqinə aid ekstremal nümunələri işıqlandrmaq və bugünkü nəticələrə nəzər salmaq<br>• Qaraçı xalqı ilə həmrəyliyi formalaşdırmaq, grupu irqçilik və ayrı-seçkilik əleyhinə fəaliyyətə ruhlandırmaq. |
| MATERİALLAR | • Flipçart kağızı və markerlər<br>• "X-in təqibinin qısa tarixçəsi" materialının surətləri (istəkdən asılı olaraq) |
| HAZIRLIQ | • Sessiyadan əvvəl qrupa Holokostu müzakirə etməyi planlaşdırdığınızı bildirin və bununla bağlı çətinlik çəkə biləcək hər kəslə ayrı-ayrılıqda söhbət edin.<br>• Paylanacaq materialın surətini çıxarın, hər kiçik qrup üçün bir nüsxə |

## TƏLİMATLAR

1. Eyni mənsubiyyət hissini bölüşən iştirakçılardan 2-3 nəfərdən ibarət kiçik qruplara bölünməyi xahiş edin. Bu, etnik mənsubiyyət və ya vətəndaşlıq, həmçinin müxtəlif sosial və ya dini qruplaşmalarla (hətta futbol komandaları!) əlaqəli ola bilər. Onlara kiçik qruplar daxilində bu kimliklə bağlı hislərini bölüşmək üçün 10 dəqiqə vaxt verin.
2. İştirakçılara "X-in təqibinin qısa tarixçəsi" materiallarını verin və ya qaraçı xalqının qatlaşmaq məcburiyyətində qaldığı amansız rəftar haqqında təsəvvür oyatmaq üçün bəzi məlumatları təqdim edin. Hələ ki onlara hədəfə götürülmüş əhalinin adını deməyin.
3. İnsanları qruplardan ayırmadan münasibətləri qısaca müzakirə edin. Sonra hər bir qrupdan başqa bir qrupla birləşməyi xahiş edin və onlara aşağıdakı suallara nəzər salmaq üçün 15 dəqiqə vaxt verin:
   - Xalqlarının nümayəndələri yaxın tarixdə belə rəftara məruz qalsaydı, nə hiss edəcəklərini soruşun? (Onlardan diqqətlərini 1-ci bənddə seçdikləri qrup üzərində cəmləşdirməyi xahiş edin.)
   - Onların fikrincə, bunları yaşamış icma üçün ən çətin aspekt nə ola bilərdi?
   - Hazırda holokostun baş verdiyini inkar edən insanlar olsaydı, necə olardı? Onların bu faktları inkar etməsinə səbəb nə ola bilər?
4. Qrupu təkrar bir araya gətirin və müzakirələri barədə məlumat verməyi xahiş edin. Sonra

iştirakçılardan materialda bəhs edilən xalqın hansı olduğunu bilib-bilmədiklərini və ya təxmin edib-etmədiklərini soruşun. Təxmin edə bilməsələr, bu xalqın qaraçılar olduğunu söyləyin və qaraçıların hazırki vəziyyət haqqında nə bildiklərini soruşun. Onlarla necə rəftar edilir və onların tarixən yaşadıqları əzablar insanlar arasında nə dərəcədə bilinir? Bu gün nifrət nitqi onlara necə təsir edir?

5. İştirakçılara Avropa İnsan Hüquqları Məhkəməsinin Avropanın demək olar ki, hər bir ölkəsində bu qrupa qarşı çox sayda insan hüquqları pozuntusunun törədildiyini müəyyən etdiyi barədə məlumat verin. İştirakçılara həm KİV, həm də bütövlükdə əhalinin qaraçılara qarşı çox dözümsüz yanaşdıqlarını və onların tez-tez pis rəftar və nifrət cinayətlərinə məruz qaldıqlarını xatırladın. İştirakçılardan "real" həyatlarında və ya internetdə belə nümunələrlə rastlaşıb-rastlaşmadıqlarını soruşun.
6. Məşğələnizi Kampaniya barədə təqdimat üçün həyata keçirirsinizsə, iştirakçılara Dosta haqqında qısa məlumat verin! Növbəti sessiyada qaraçı xalqına qarşı ayrı-seçkiliyə qarşı mübariz üsullarına nəzər salınacağını bildirin.

## FASİLİTATORLAR ÜÇÜN PRAKTİK TÖVSİYƏLƏR

- Məşğələ çərçivəsində təqdim edilən ekstremal məzmun qrupun müəyyən üzvləri üçün sarsıdıcı ola bilər. Aydındır ki, qrupunuzda qaraçı xalqının nümayəndəsi varsa, ona əvvəlcədən xəbərdarlıq etməli, ehtiyacı olarsa, dəstək göstərməyi təkli etməyə hazır olmalısınız. Lakin nasistlərin törətdiyi holokost hadisəsi çox sayda başqa qrupları da hədəfə almışdı, bu qrupların nümayəndələri də təsirlənə bilərlər. Bu, gərək ki, xüsusən yəhudilərə aiddir, belə ki, onların əzablarının miqyası da insanlar arasında çox yaxşı bilinməkdədir. Qrupun tərkibi və onların məşğələyə ehtimal edilən münasibəti haqqında əvvəlcədən məlumatlı olmalısınız.
- İştirakçılara nasist rejimin hədəfə aldığı digər qruplar haqqında məlumat verə və ya onlardan bəzilərinin adını çəkməyi xahiş edə bilərsiniz. Bu qruplara daxildir:
  - Polyaklar (təqribən 2.5 milyon polyak qətl edilmişdi)
  - Digər slavyan xalqları
  - Sovet xalqları (xüsusən müharibə məhbusları)
  - 'Avropalı olmayanlar' – xüsusən Afrika və ya Asiya mənşəli olanlar
  - Əqli məhdudiyyətləri və ya öyrənmə çətinlikləri olan şəxslər
  - Eşitmə məhdudiyyəti və ya fiziki əlilliyi olan şəxslər
  - Homoseksual və transseksual şəxslər
  - Siyasi müxaliflər – xüsusən kommunistlər və solçular
  - Dini 'dissidentlər', xüsusən Yehova Şahidlərinin üzvləri Daha ətraflı məlumat üçün bax: https://en.wikipedia.org/wiki/Holocaust_victims.
- Müzakirəyə maksimum həssaslıq və güzəştlə yanaşmalı, insanların fikirlərini ifadə etmək üçün daha çox vaxta ehtiyac duyduğunu hiss etdikdə, qrupu tələsdirməməlisiniz.
- Kiçik qruplarla iş zamanı müəyyən şəxslər üçün hər hansı çətinlik ehtimalının olub-olmadığı haqqında əvvəlcədən götür-qoy etmək tövsiyə edilir. Belə olan halda hər kəs üçün qrupu kimliyi "təyin etmək" daha asan ola bilər, məsələn, insanlardan "kişi" və "qadın" qruplarına, müxtəlif mövzuları öyrənən insanlara və futbol/tennis/atletika və sairə üstünlük verən insanlara bölünməyi xahiş edin.
- Qaraçı xalqının qısa holokost tarixçəsində (aşağıda) qaraçılara hər hansı istinad X ilə əvəz edilib. Bu məlumatdan istifadə zamanı qrupa istinad edə və ya iştirakçılardan söhbətin öz

qruplarından getdiyini təsəvvür etməyi xahiş edin.

- İştirakçılardan onlar üçün vacib bir kimlik seçməyi xahiş etməkdə məqsəd onları qrup kimi hədəfə alınmağın nə demək olduğunu anlamağa çalışmağa təşviq etməkdir. Lakin, qrup qaraçılara qarşı əsassız qərəzli fikirlərə malikdirsə, qaraçıların problemlərini özününküləşdirməkdə çətinlik çəkə bilər. Belə olan halda məsələni həll etməyə çalışmalısınız: 1-ci hissənin 4-cü addımında narahatlıqlarını müzakirə etmək üçün onlara xeyli vaxt ayırın. Iştirakçılara holokost zamanı Avropada qaraçı əhalinin təqribən 75% - 80%-nin, bəzi ölkələrdə hətta 90%-nin qətlə yetirildiyi barədə məlumat verin. Onlardan mənsub olduqları xalq və ya qrupun 90%-ni itirməyin nə demək olacağını təsəvvür etməyi xahiş edin: bu 20 nəfərlik qrupda yalnız 2 nəfərin qalması deməkdir.
- İştirakçılara "nifrət nitqləri" haqqında məlumat verə, nifrət nitqi və onlayn nifrət nitqi arasındakı əlaqəni araşdıra bilərsiniz. "Nifrət cinayətləri" fərdlərə və ya qruplara qarşı törədilən, bütövlükdə bir qrupa qarşı bəslənən nifrətin diktə etdiyi cinayətlərdir. Nifrət və ya irqçı təzahürlərin "mülayim" ifadələrinin asanlıqla daha ekstremal formalara keçə biləcəyini və şəxslərə qarşı törədilən cinayətlərə haqq qazandırmağa xidmət edə bildiyini araşdıra bilərsiniz.
- Qaraçı dilində 'dosta' 'yetər' deməkdir. Dosta Kampaniyası qaraçı olmayan şəxsləri qaraçı vətəndaşlara yaxınlaşdırmaq məqsədi daşıyan maarifləndirmə kampaniyasıdır. Kampaniya haqqında daha ətraflı məlumat üçün bax: http://dosta.org. Yaxşı olar ki, internetə çıxış təmin edəsiniz. Beləliklə, iştirakçılar bir müddət sayta nəzər salmaqla vaxt keçirə bilərlər.

  Xatırlamaq hüququ - Gənclərlə Qaraçı Soyqırımı ilə bağlı təhsil üçün vəsaiti oxuya bilərsiniz (https: //www.coe.int/az/web/youth-roma/right-to-remember) və / və ya Qaraçı Soyqırımı haqqında bu veb-saytlara nəzər yetirin:

  https://www.sintiundroma.org/en/

  https://www.coe.int/en/web/roma-genocide

  http://vhaonline.usc.edu/login

  http://isurvived.org/TOC-I.html#I-7_Romanies

  www.preventgenocide.org/edu/pastgenocides/nazi/parajmos/resources/

## TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

Məşğələnin sonunda iştirakçılara aldıqları məlumat və məşğələ nəticəsində hiss etdikləri barədə danışmaq üçün bir az vaxt verin. Bunun üçün ardıcıllıqla hər kəsdən hislərini bir sözlə ifadə etməyi xahiş edə bilərsiniz.

- Məşğələ nəticəsində yeni bir məlumat əldə etdinizmi və ya yeni bir fikir formalaşdırdınızmı?
- Bu məşğələ qaraçı xalqına qarşı münasibətinizi dəyişdimi?
- Sizcə, qaraçı xalqının nasist rejimi boyunca yaşadıqları niyə insanlar arasında bu qədər az bilinir?
- Sizcə, bu haqda məlumatlar daha geniş yayılsaydı, bu gün qaraçı xalqına qarşı münasibət fərqli olardımı?
- Bu məlumatın daha geniş yayılması üçün nə edə bilərsiniz?

- İnsanlar nasistlərin törətdiyi holokostdan heç bir nəticə çıxarmayıblarsa, necə? Sizcə, necə olur ki, nifrət nitqin çox sayda insana qarşı dəhşətli cinayətlərin törədilməsinə səbəb olacaq qədər geniş yayılır? Müasir dövrdə mövcud onlayn və oflayn nifrət nitqi arasında hər hansı paralel aparmaq mümkündürmü?

### VARİANTLAR

Bu məşğələ formasından holokost zamanı hədəfə alınan və yaşadıqları geniş kütlələrə məlum olmayan hər hansı qrupa nəzər salmaq üçün istifadə edə bilərsiniz. Bu qrupların bəziləri fasilitatorlar üçün təmin edilən məsləhətlər bölməsində sıralanır.

## 2-Cİ- HİSSƏ: AKSIYANIN PLANLAŞDIRILMASI

***Məşğələnin bu hissəsi "Kompas"-ın 3-cü fəslinə əsaslanır - Hərəkətə keçmə bölməsi - daha ətraflı ideyalar üçün "Nəticələrin əldə edilməsi" bölməsindəki təlimatlara nəzər sala bilərsiniz. Bax: https://www.coe.int/az/web/compass***

| | |
|---|---|
| VAXT | **1 – 2 saat** |
| MƏQSƏDLƏR | • Effektiv aksiyanın planlaşdırılması qaydası haqqında fikir formalaşdırmaq<br>• İnternetdən kampaniyanın aparılması vasitəsi kimi istifadə üsullarına nəzər salmaq<br>• Qrup tərəfindən həyata keçirilmək üçün tədbirlər planı hazırlamaq |
| MATERİALLAR | • Proses sxeminin surətləri (istəyə bağlı olaraq)<br>• Flipçart kağızı və markerlər |
| HAZIRLIQ | • Proses sxeminin surətlərini çıxarın – və ya flipçart vərəqəsində onun boş variantını çəkin |

### TƏLİMATLAR

1. Qrupa qaraçı xalqına (və ya başqa bir qrupa) qarşı onlayn nifrət nitqi probleminin həllinə yönəlmiş aksiyanın planlaşdırılacağını izah edin. Onlara onlayn nifrətin miqyas və təsirlərini xatırladın. İştirakçılardan öz təcrübələrindən nümunələr gətirməyi xahiş edin.
2. Qrupdan onlayn nifrət nitqi ilə əlaqədar bəzi problemlər barədə birlikdə fikirlər irəli sürməyi, xüsusilə ələ ala biləcəkləri aspektlər barədə düşünməyi xahiş edin. Yüngül dərəcədə pis rəftardan nifrət cinayətinə səbəb ola biləcək təhrikçiliyə qədər müxtəlif dərəcəli nifrəti nəzərə almağı xahiş edin; onlayn nifrət nitqinin həcminə töhfə verən müxtəlif forumlar və subyektlər haqqında düşünməyi təklif edin. Flipçartda təkliflər yazın.
3. Qrupa tapdıqları "həll yollarından" birini seçməli olduqlarını izah edin. Hansı variantın seçilməsinin əhəmiyyətli olmadığını xatırladın, lakin seçilən həll yolunun həyata keçirilə bilən və çox iddialı olmamasının əhəmiyyətini vurğulayın
4. Ən populyar həll yollarını qısaca müzakirə edin, bütün üzvlərin məmnuniyyətlə çalışa biləcəyi bir həll yolu ətrafında konsensusa nail olmağa çalışın.
5. Proses sxeminin surətlərini paylayın (səh. 53) – və ya flipçart vərəqəsində onun boş variantını çəkin. Proses sxemindəki başlıqlardan istifadə edin (səh. 53) iştirakçılarla birlikdə hər bir xananı nəzərdən keçirin. Aşağıdakıları yoxlayın:
   - Müəyyən edilən aksiya problemin həllinə töhfə verir
   - Qrupun resursları və qarşılaşa biləcəyi maneələr nəzərə alındıqda, aksiyanın gerçəkləşdirilə bilməsi real təsir bağışlayır
   - "Həll yolu" kifayət qədər konkret səciyyəlidir, yəni məqsədin yerinə yetirilib-yetirilmədiyi müəyyənləşdirilə biləcək.

6. Qərar qəbulu sxemi hazırlayın, beləliklə, hər kəs nə vaxt nə edəcəyini biləcək. Forma "Kompas" təlim vəsaitində "Hərəkətə keçmək" bölməsindən əldə edilə bilər – www.coe.int/compass .
7. Hər kəsin proses və nəticədən razı və planı icra etməyə hazır olduğunu dəqiqləşdirmək üçün təhlil və qiymətləndirmədən istifadə edin.

### FASİLİTATORLAR ÜÇÜN PRAKTİK MƏSLƏHƏTLƏR

- Qrupun üzərində çalışacağı problemi seçmək məqsədilə "Köklər və budaqlar" məşğələsindən istifadə edə bilərsiniz. Bu, bəzi problemlərin bir-birləri ilə necə əlaqəli olduğu barədə daha geniş təsəvvür yarada və daha əlaqəli tədbirlər planının hazırlanması ilə nəticələnə bilər.
- Problem seçimi və proses sxemi üzərində iş zamanı qrupa mümkün qədər müstəqillik verməyə çalışın. İştirakçılar planı özlərinki hesab etdikdə, aksiya daha effektiv ola bilər. Lakin aksiyanın həyata keçirilməsində meydana gələ biləcək hər hansı çətinliyi nəzərə almalı və çətinliklərin necə minimuma endirilə biləcəyi haqqında düşünməlisiniz.
- Mümkün dərəcədə planlaşdırma mərhələsində və faktiki fəaliyyətdən əvvəl qaraçı icmasının və ya hədəf qrupu fərqlidirsə, başqa icmanın üzvlərini cəlb etməyə çalışmaq təkidlə tövsiyə edilir. Kimisə qrup qarşısında danışmağa dəvət edə bilsəniz, bu, bütövlükdə aksiyanın həqiqətə uyğunluğunu artırar və şübhəsiz ki, ideyaların formalaşması üçün yaxşı mənbə rolu oynaya bilər. Ən azı qrupunuzun planlaşdırdığı aksiyanın yaxşı qarşılacağınızdan əmin olmaq üçün icmanızın üzvləri ilə danışmalısınız. Alternativ olaraq, hədəf qrupunuzla işləyən və ya onları dəstəkləyən yerli qruplarla əlaqə saxlaya bilərsiniz.
- Proses sxemi üzərində iş zamanı iştirakçılara xanalarla bağlı təkliflər vermək istəmirsinizsə, "Kompas" vəsaitində "Hərəkətə keçmək" bölməsində təmin edilən daha ümumi variantdan istifadə edə və ya flipçart vərəqəsində öz variantınızı çəkə bilərsiniz. İştirakçılar onlayn nifrət nitqini ələ almaq üçün üsullar tapmaqda çətinlik çəkərsə, onlarda fikir formalaşdırmaq üçün Kampaniya strategiyalarında təmin edilən bəzi təkliflərdən istifadə edə bilərsiniz.

### TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

- Ərsəyə gətirdiyiniz fəaliyyət planı haqda nə fikirdəsiniz?
- Hər kəsin öz rolu varmı və hər kəs rolundan məmnundurmu?
- Aksiya başlamazdan əvvəl nəzərə almalı və ya bilməli olduğumuz bir şey varmı?
- Aksiyamızın"müvəffəqiyyətlə" nəticələndiyini necə müəyyən edə bilərik?

### VARİANTLAR

Məşğələ tez-tez onlayn nifrət nitqinin hədəfi olan fərqli qrupla həyata keçirilə bilər. Hər hansı tədbirdən əvvəl tanışlıq fəaliyyəti həyata keçirmək tövsiyə edilir, belə ki, bu, iştirakçıların anlayışını dərinləşdirir və onları müəyyən edilmiş problem üzərində çalışmağa həvəsləndirir. Tanışlıq məqsədilə çox sayda başqa məşğələlərdən istifadə edə bilərsiniz:

- ‘Oyunun dəyişdirilməsi’ gender əsaslı nifrət nitqinə nəzər salmaq üçün istifadə edilə bilər.
- Homofobiyaya nəzər salmaq üçün ‘ daha pis ifadə’ məşğələsindən istifadə edilə bilər
- ‘Veb-hücum’ sığınacaq axtaranlara və immiqrant icmalarına qarşı nifrət nitqinə nəzər salmaq üçün istifadə edilə bilər.

Əlbəttə, onlayn nifrət nitqinə qarşı həm onlayn, həm oflayn aksiyalar həyata keçirilə bilər. Aksiyalar nəzərdən keçirilən zaman qrupa yalnız onlayn aksiyalarla məhdudlaşmağı təklif edə bilərsiniz.

## 3-CÜ HİSSƏ AKSİYANIN HƏYATA KEÇİRİLMƏSİNDƏN İBARƏTDİR.

## 4-CÜ HİSSƏ: PROSES HAQQINDA DÜŞÜNCƏLƏR VƏ DƏRSİN ÇIXARILMASI

- Yerinə yetirildikdən sonra aksiya və aksiyanın həyata keçirilməsinə aparan proses haqqında təhlil və qiymətləndirmə təşkil etmək çox vacibdir. Söhbət davamlı kampaniyadan gedirsə, aksiya başladıqdan qısa müddət sonra prosesi dəyərləndirmək üçün vaxt ayırmalısınız. Bu çox vacibdir, çünki çox sayda birdəfəlik aksiya kiçik təsirə malik ola, bununla da qrup həvəsdən düşə bilər. Onların aksiyanın "əbəs" olduğu və ya "yaxşı getmədiyi" ilə bağlı narahatlıqlarını ələ almaq üçün sessiyadan istifadə edin. İştirakçılara xatırladın ki, səciyyəvi olaraq kampaniyalar çoxsaylı aksiya və fəaliyyətlərdən ibarət olur və onlar birlikdə götürüldükdə davranış və münasibətləri dəyişməyə kömək edə bilər.
- Onların düşüncələrindən hər hansı gələcək aksiyanın planlaşdırılması üçün başlanğıc nöqtəsi kimi istifadə edin.
- Sessiyanı iştirakçılardan bir günlük aksiyadan sonra nə düşünüdüklərini soruşmaqla başlayın. Bunu rəyləri sıra ilə soruşmaqla həyata keçirə bilərsiniz.
- İştirakçıları 4-5 nəfərlik qruplara bölün və kiçik qrup müzakirələri üçün aşağıdakı sualları təqdim edin.
  - Sizcə, nə yaxşı getdi?
  - Təsəvvür etdiyinizdən çətin və ya gözlənilməz nəsə oldumu?
  - Sizcə aksiya çərçivəsində əldə edilən əsas nailiyyətlər nə oldu? Bunlar müəyyən etdiyiniz ilkin məqsədlərlə üst-üstə düşürmü?
  - Sizcə növbəti dəfə üçün çıxara biləcəyimiz hər hansı dərs varmı?
- Kiçik qrupları yenidən bir araya gətirin və suallara verilən müxtəlif cavabları müzakirə edin. Sessiyanı bütövlükdə proses barədə bir neçə ümumi təəssüratla bitirin:
  - Bu aksiyanı planlaşdırmağınızdan və həyata keçirməyinizdən razı qaldınızmı?
  - (Hər hansı mövzuda) başqa aksiya təşkil etsəydiniz, nələri əsas "öyrədici məqam" olaraq sıralayardınız?
  - Şəxsən sizin üçün ən əhəmiyyətli nəticə nə oldu? Düşüncələrinizin və ya münasibətinizin hər hansı formada dəyişdiyini hiss edirsinizmi?
  - Sizcə başladığınız iş necə davam etdirilə bilər? Bunu sınamaq istərdinizmi?

### (ƏLAVƏ) FƏALİYYƏT ÜÇÜN MƏSLƏHƏTLƏR

Qrupu müəyyənləşdirdikləri problemlər üzərində çalışmağa davam etməyə həvəsləndirin! Onlar 2-ci hissəsinin əvvəlindəki siyahıya daxil edilmiş başqa problemlərdən istifadə edə və ya seçdikləri problemə fərqli yanaşmaları sınaya bilərlər. Bu fəaliyyətin planlaşdırılması prosesində həyata keçirilən iş başqa fəaliyyətlərin hazırlanmasında yararlı olacaq və iştirakçıları daha çox iş görməyə təşviq etmiş ola bilər.

Onlar həmçinin başqa qruplarla, o cümlədən başqa ölkələrdəki qruplarla birləşə və artıq həyata keçirdikləri işin davamını planlaşdıra bilərlər.

## X-İN TƏQİBİNİN QISA TARİXÇƏSİ

| | |
|---|---|
| 1890 | Almaniyada " X ünsürlərlə" əlaqədar təşkil edilən konfrans. X hərəkətlərinin tənzimlənməsi üçün hərbi qüvvələrin səlahiyyətləri genişləndirilir. |
| 1909 | ‘X məsələsi’ barədə siyasət konfransı keçirilir. Bütün X-lərin tanınmaq məqsədilə damğalanması tövsiyə edilir. |
| 1920 | 2 akademik X-lərin dölsüzləşdirilməsini və aradan qaldırılmasını təklif edərək, "yaşanmağa layiq olmayan həyatlar" anlayışını təqdim edir. |
| 1922 | (və 1920-ci illərdə): Alman ərazilərində bütün X-lərin fotosu çəkilir və barmaqlarına damğa vurulur. |
| 1926 | ‘X vəbasının’ nəzarətə alınması üçün qanun qəbul edilir (Bu rəftar Konstitusiya müddəalarının birbaşa pozulması demək idi.) |
| 1927 | Bavariyada X-lərin həbsi üçün xüsusi düşərgələr hazırlanır. Səkkiz min X bu düşərgələrdə saxlanır. |
| 1928 | Bütün X-lər üzərində daimi polis nəzarəti müəyyən edilir. Professor "Avropaya özgə qanını X-lərin gətirdiyini" irəli sürən sənəd dərc edir. X-lərin saxlanması üçün daha çox düşərgə yaradılır. |
| 1934 | X-lər inyeksiya və axtalama yolu ilə dölsüzləşdirmə üçün saxlanır, Daxau, Dieselstrasse, Zaksenhauzenə və başqa yerlərə göndərilirlər. Almanların "yəhudilər, X-lər və zəncilərlə" nikaha girməsini qadağan edən iki qanun qəbul edilir. |
| 1938 | 12-18 iyun tarixləri arasında Almaniya və Avstriyada yüzlərlə X həbs olunur və döyülür. X-lər məktəbə getməyi qadağan olunan ilk əhali olur. |
| 1939 | İrqi Gigiyena İdarəsi "bütün X-lərlə irsən xəstə adam kimi rəftar edilməli olduğunu; yeganə həll yolunun aradan qaldırılma olduğunu" bildirən bəyanat qəbul edir. (Buna görə də əsas məqsəd əhali daxilindəki bu nöqsanlı elementlərin tərəddüdsüz aradan qaldırılması olmalıdır)”. |
| 1940 | Holokostun ilk kütləvi soyqırım tədbiri: 250 X uşaq Buxenvald hərb düşərgəsində sian qazı kristalının sınağı üçün sınaq siçanı kimi istifadə edilir. Eyni il X-lərin hər hansı işə qəbulu qadağan edilir. |
| 1941 | İyul ayında nasistlərin "bütün yəhudilərin, X-lərin və ruhi xəstələrin öldürülməsi" barədə yekun qərarı icra edilməyə başlayır. Holokosta start verilir. 24 dekabr gecəsi Krımda keçirilən bir əməliyyat çərçivəsində səkkiz yüz X qətl edilir. |
| 1944 | 1 avqust: Auşvitz-Birkenauda bir kütləvi aksiyada 4,000 X qaz kameralarına salınır və yandırılır. |

## PAYLANMAQ ÜÇÜN MATERİAL

| | |
|---|---|
| 1945 | Müharibənin sonlarına doğru X əhalisinin 70 - 80%-i nasistlər tərəfindən qətl edilmişdi. Heç bir X Nürnberq prosesində ifadə verməyə çağrılmamışdı, heç kim onların adından ifadə vermirdi. Xalq kimi müharibə cinayətinə görə X-lərə heç bir kompensasiya ödənilmir. |
| 1950 | Sonrakı illərdə alman hökuməti tərəfindən verilən çoxsaylı bəyanatlardan birində alman hökumətinin müharibə cinayətlərinə görə X xalqına heç bir kompensasiya borcu olmadığı deyilirdi. |
| 1992 | Almaniya sığınacaq axtaran X-ləri Rumıniyaya qaytarmaq üçün 21 milyon ABŞ dolları alır və noyabr ayının 1-də onları əli qandallı göndərməyə başlayır. Bəzi X-lər getməkdənsə, özlərinə qəsd etməyə üstünlük verirlər. Almaniya mətbuat agentliyi qərbli jurnalistlərdən "xoşagəlməz tarixi assosiasiyalara" səbəb olduğuna görə "deportasiya" sözündən istifadə etməməyi xahiş edir. |

*Qaraçı xalqının qısa holokost xronologiyasının redaktə edilmiş variantı, müəllif: Ian Hancock.*

*((yekun qeyd)) "Dosta" çərçivəsində hazırlanmış məşğələ!, "Kompas" – Gənclərin iştirakı ilə insan hüquqlarının təhsili üzrə təlimat vəsaiti, Avropa Şurası, 2012*

**HANSI PROBLEMİ HƏLL ETMƏK İSTƏYİRSİNİZ?**

- Bu insanlar Qaraçı soyqırımından xəbərsizdirlər;
- Qaraçı əhali haqda stereotiplər
- Qaraçı holokostunun rəsmən tanınması
- Təhsil sisteminin holokostun qaraçı qurbanlarını gözardı etməsi
- Kompensasiya alanların sayının çox az olması
- Onların özlərini təcrid edilmiş və marginallaşdırılmış hiss etməsi

**Hədəf auditoriya KİMDİR?**

- İcmamızın üzvləri;
- Gənclər
- Ölkə siyasətçiləri;
- Yerli məktəblərdə müəllimlər
- Holokostdan sağ çıxanlar
- Qaraçı xalqı (gənclər);

**HANSI DƏYİŞİKLİKLƏRİ GÖRMƏK İSTƏRDİNİZ?**

- Qaraçı holokostunun tanınması
- Daha çox anlayış və tolerantlıq
- Holokostun qaraçı qurbanları üçün xatirə abidəsi
- Məktəbdə qaraçı holokostu barədə tədbirin təşkili
- Azı bir kompensasiya şikayətinin uğurlu olması
- Qaraçı icmasında gənclərlə əlaqələrin qurulması

**DƏYİŞİKLİYİN HANSI YOLLA FORMALAŞACAĞI GÖZLƏNİLİR?**

- Onlara dəlillərin təqdim edilməsi
- Qaraçıların mövqeyinin dinlənilməsi
- Bütövlükdə ölkə miqyasında təzyiq və ictimailəşdirmə
- Məktəblərdə gənclərin müraciətləri
- Kompensasiya üçün rəsmi müraciətlər
- Bir-birinin vərdiş və maraqlarını daha yaxşı başa düşülməsi

**AUDİTORİYANIZA TƏSİR ETMƏK ÜÇÜN HANSI VASİTƏLƏRDƏN İSTİFADƏ EDƏCƏKSİNİZ?**

- Məqalə yazmaqla və ictimai tədbir təşkil etməklə;
- Qaraçı icmasının üzvləri ilə canlı kitabxana
- Ölkə mətbuatı ilə əlaqələr; azı 1000 imzanın toplandığı petisiya
- İcma gənclərinə məlumat verməklə
- İcmaya kompensasiya hüquqları barədə məlumat verməklə, sorğularla bağlı yardımın göstərilməsi ilə
- Birgə mədəniyyət tədbiri

SƏVIYYƏ 3

QRUP
15 və daha çox

VAXT
60'

# OYUNUN DƏYİŞDİRİLMƏSİ

***İştirakçılara Kampaniya barədə təqdimat edilir və onlar onlayn şəbəkə oyunlarında seksizm əleyhinə "mini kampaniya" hazırlayırlar.***

| | |
|---|---|
| MÖVZULAR | İrqçilik və ayrı-seçkilik, internet savadı, kampaniya üçün strategiyalar, demokratiya və iştirak |
| MÜRƏKKƏBLİK | Səviyyə 3 |
| QRUP ÜZVLƏRİNİN SAYI | 15 və daha çox |
| VAXT | 60 dəqiqə |
| MƏQSƏDLƏR | • Onlayn seksist rəftar problemini (xüsusən oyun icmasında) araşdırmaq<br>• Onlayn kampaniya bacarıqlarını inkişaf etdirmək |
| MATERİALLAR | • Flipçart kağızı və markerlər |
| HAZIRLIQ | • 'Təlimat kartlarının' (səh.57-58) və nifrət nitqi nümunələrinin surətini çıxarın (səh. 59) (və ya A4 formatlı slayddan istifadə edin)<br>• Onlayn kampaniyaların aparılması (Fəsil 5.7 Kampaniya üçün strategiyalar) və gənclərin "Nifrət nitqinə yox hərəkatı" kampaniyası (Bu vəsaitin 2-ci fəsli) il tanış olun |

## TƏLİMATLAR

1. İştirakçıları paylanmalı olan materialları göstərin (səh. 59) – və onların fikirlərini soruşun. Zəruri olarsa, bir neçə sualla kömək edin, məsələn:
   - Sizcə, belə bir şey alan qadın özünü necə hiss edə bilər?
   - Sizcə, bu cür pis rəftar geniş yayılıb?
   - Sizcə, oyuna qoşulmaq istəyən və başqa qadın oyunçulara ünvanlanan çoxsaylı şərhləri görən qadın özünü necə hiss edər?
2. İştirakçılara qadınlara qarşı pis rəftarın yalnız onlayn şəbəkə oyunu icmasında deyil, başqa onlayn qarşılıqlı fəaliyyətlərdə də son dərəcə geniş yayıldığını bildirin. Onlardan öz onlayn fəaliyyətlərində belə nümunələrlə qarşılaşıb-qarşılaşmadıqlarını, hər hansı qadın iştirakçının belə pis rəftara məruz qalıb-qalmadığını soruşa bilərsiniz.

3. Bütün bunların onlayn nifrət nitqinin nümunələri olduğunu və nifrət nitqinin insan hüquqlarını pozduğunu izah edin. Belə ifadələr qadınlara və ya qızlara real həyatda yönləndirilsəydi, bu, əksər hallarda qeyri-qanuni hesab edilərdi.

4. Məşğələ çərçivəsində qadın oyunçulara qarşı seksist rəftar məsələsinin onlayn kampaniya vasitəsilə ələ alınması üsullarının araşdırılacağını izah edin. İştirakçılar öz "mini kampaniyalarını" hazırlayacaqlar. Onlar problemə müəyyən aidiyyəti olan fərqli hədəf auditoriyaya xitab etməyin üsullarına nəzər salmaq üçün kiçik qruplar daxilində çalışacaqlar.

5. "Hədəf auditoriyaların" siyahısını göstərin və iştirakçıları məşğələ çərçivəsində çalışmaq üçün onlardan birini seçməyə dəvət edin. Hər bir qrupda üzvlərin sayının təxminən eyni olmasını təmin edin.
   - **QRUP 1:** qadın oyunçular
   - **QRUP 2:** qadın oyunçularla pis rəftar edənlər və ya belə rəftar etmək ehtimalı olanlar
   - **QRUP 3:** digər oyunçular (pis rəftarda iştirak etməsələr də, buna şahidlik edənlər və icazə verənlər)
   - **QRUP 4:** qanunların hazırlanmasına məsul şəxslər, ölkənin və ya yerlərin parlament nümayəndələri, nazirlər və s.
   - **QRUP 5:** onlayn provayderlər, veb-sayt sahibləri, internet provayderləri, onlayn icmaları idarə edənlər kimi
   - **QRUP 6:** geniş ictimaiyyət, beləliklə, onlar problemin ciddiyyətini anlaya və Kampaniyanın dəstəklənməsinə kömək edə bilərlər

6. Hər bir qrupa flipçart vərəqəsi və təlimat kartlarını verin. Onlara auditoriyanı cəlb etmək üçün istifadə edəcəkləri konkret metodlar barədə düşünmək üçün 20 dəqiqə vaxtlarının olduğunu bildirin. Onlara başqalarının fərqli auditoriyalar üzərində çalışdıqlarını xatırladın: onlar diqqətlərini auditoriyalarının marağını cəlb etmək ehtimalı daha çox olan, kampaniyaya müsbət töhfə verə biləcək metodlar və mesajlar üzərində cəmləməlidirlər. Yaxşı kampaniya mümkün qədər çox insanı cəlb edə bilməlidir!

7. Təxminən 20 dəqiqə sonra qrupları öz təkliflərini təqdim etməyə dəvət edin. İzahat üçün suallar və şərhlərin verilməsinə bir qədər vaxt ayırın.

8. İştirakçılara real kampaniya strategiyası üçün 15 dəqiqədən çox vaxt tələb olunduğunu izah edin! Çox vaxt ilkin təkliflər dəyişdirilir və ya fərqli bir ideyanın gerçəkləşdirilməsi üçün rədd edilir. Yaxşı strategiya çox vaxt bir qrup şəxs tərəfindən aylar ərzində hazırlanır və icra edilməmişdən əvvəl sınaqdan keçirilə bilər. Təhlil və qiymətləndirmə zamanı iştirakçıların "strategiyanın ilkin layihəsi" barədə fikirləri nəzərdən keçiriləcək!

## TƏHLİL VƏ QIYMƏTLƏNDİRMƏ

### STRATEGİYA VƏ ONLAYN KAMPANİYA BARƏDƏ SUALLAR:

- Onlayn aksiyalar haqqında düşünmək sizin üçün nə dərəcədə asan oldu? Onlayn aksiyaların üstünlükləri və mənfi cəhətləri nələrdir?
- Təklif etdiyiniz strategiya sizi qane etdimi? Bunun icrası ilə bağlı hər hansı problem proqnozlaşdırırsınızmı?
- Sizcə, kampaniyanız oflayn aksiyaların əlavə edilməsi ilə gücləndirilə bilərmi? Hər hansı belə fəaliyyət təklif edə bilərsinizmi?
- Sizcə auditoriya 'hədəfinizi' uğurla müəyyən edə bildinizmi? Bunun üçün nə etdiniz?

### SEKSİZM VƏ ONLAYN PİS RƏFTAR HAQQINDA SUALLAR:

- Onlayn şəbəkə oyunlarında seksizm probleminin ələ alınması vacibdirmi? Niyə və ya niyə yox?
- Ümumilikdə onlayn nifrət nitqinin ələ alınması vacibdirmi? Niyə və ya niyə yox?
- Fikrinizcə, siz bu problemlərə təsir edə bilərsinizmi? Bunun üçün motivasiyanız varmı?
- Sizcə, bu "məşğələdən" nəsə öyrəndinizmi? Münasibətinizdə hər hansı dəyişiklik baş verdimi, yaxud nəyisə daha hərtərəfli başa düşdünüzmü?

### FASİLİTATORLAR ÜÇÜN PRAKTİK TÖVSİYƏLƏR

- Pis rəftar nümunələrinin qrupunuz üçün münasib olmadığını düşünə bilərsiniz. Nümunələri dəyişdirə, ən təhqiramiz olanları silə və ya öz nümunələrinizdən istifadə edə bilərsiniz. Bəzi qadın iştirakçılar da onlayn seksist rəftarla qarşılaşmış ola bilər: onlardan bəzi nümunələr göstərməyi xahiş edə bilərsiniz.
- Məşğələyə daha çox vaxt ayırmaq faydalı ola bilər: əgər belə bir ehtimal varsa, qruplara strategiyalarını müzakirə etmək, müxtəlif onlayn kampaniyalara nəzərə salmaq üçün 30 dəqiqə vaxt verə bilərsiniz.
- Eyni zamanda iştirakçılara "Nifrət nitqinə yox hərəkatı" adlı kampaniya barədə məlumat verə, onları fəaliyyət nümunələrinə və resurslara baxmağa təşviq edə bilərsiniz.
- Qrup kiçikdirsə, bütün hədəf auditoriyalardan istifadə etməyə ehtiyac yoxdur: iştirakçıların ən vacib hesab etdiklərini seçin.
- Müxtəlif hədəf auditoriyalar üçün metod və ya mesajların çoxu bənzər olur: diqqətin bir auditoriya üzərində cəmlənməsində məqsəd auditoriyada daha çox rezonans doğurmaq ehtimalı olan konkret mesajlar üzərində çalışmaqdır.
- Kiçik qruplarla iş zamanı gender tərkibini nəzərə alın. İdeal hallarda təxminən bərabər balans gözlənilməlidir.
- İştirakçılar öz strategiyalarını təqdim edən zaman digər qrupları "konstruktiv tənqidi" fikirlər söyləməyi təklif edin. Hər zaman strategiya haqqında müsbət bir söz deməyi, daha sonra strategiyanın necə təkmilləşdirilə biləcəyi barədə fikir söyləməyi təklif edə bilərsiniz.

## VARİANTLAR

Qrup işi iştirakçılara bir həftə müddətində üzərində çalışacaqları layihə kimi təqdim oluna bilər. Onlar başqa veb-saytları araşdırmağa, problemini miqyasını öyrənməyə, onlayn seksist rəftarla əlaqədar qanun və qaydalara nəzər salmağa təşviq edilə bilərlər.

İştirakçılar planlaşdırmalarında başqa problemi, məsələn, onlayn irqçilik, kiberbulling və ya internetin bütün sahələrindəki seksizmi diqqət mərkəzində saxlamağı seçə bilərlər. Həmçinin qruplar diqqətlərini başa məsələ üzərində cəmləməyi seçə bilərlər, lakin bu halda da konkret hədəf auditoriya müəyyən etmək onlar üçün faydalı ola bilər.

## FƏALİYYƏT ÜÇÜN FİKİRLƏR

İştirakçılar, məsələn, problemin miqyası barədə öz araşdırmalarını aparmaqla, onlayn şəbəkə oyunlarında seksizm məsələsi ilə bağlı fəaliyyətlərini davam etdirə bilərlər. Kiçik iştirakçı qrupları konkret oyunları seçib hər hansı nifrət nitqi halını izləyə bilərlər.

Bundan sonra iştirakçılar ən çox uğur vəd edən strategiyaları hazırlaya və icra edə bilərlər! Onlar məlumatları yaymaq, problem haqqında məlumatlılığı artırmaq üçün sosial media profillərindən, onlayn forumlardan və ya başqa interaktiv məkanlardan istifadə edə bilərlər.

İştirakçılar özləri şəbəkə oyunu oyunçularıdırlarsa, bu problemi həmçinin başqa onlayn oyunçularla müzakirə edə bilərlər. Onlar həmçinin oyunlarda iştirak zamanı və belə pis rəftar halları meydana gəldikdə istifadə edə biləcəkləri əsas mesajları hazırlaya bilərlər.

İştirakçıları bildikləri bəzi oyunları təqdim etməyə və oyunlardakı nifrət nitqlərini müzakirə etməyə çalışın.

## PAYLANMAQ ÜÇÜN MATERİAL

### QRUP 1: QADIN OYUNÇULARIN DƏSTƏKLƏNMƏSİ

Qrupunuzun diqqəti pis rəftarla üzləşmiş və ya üzləşəcəyindən narahat olan qadın oyunçular üzərində cəmlənəcək.

- Əsas mesajlarınız nədən ibarətdir?
- Qadın oyunçulara dəstəkləndiklərini necə hiss etdirə bilərsiniz?
- Onlara nə etməyi təklif edə bilərsiniz?

Qadın oyunçular arasında həmrəylik yaratmaq üçün istifadə edə biləcəyiniz onlayn vasitələr haqqında düşünün.

### QRUP 2: SƏSİNİZİN PİS RƏFTAR NÜMAYİŞ ETDİRƏNLƏRƏ ÇATDIRILMASI

Qrupunuzun cəhdləri tez- tez qadın oyunçularla pis rəftar edən və ya etməyə meylli olan oyunçulara yönələcək.

- Əsas mesajlarınız nədən ibarətdir?
- Onları davranışlarını dəyişdirməli olduqlarına necə inandıra bilərsiniz?
- Sizə hansı məlumat lazımdır?

Səsinizi hədəf auditoriyanızın mümkün qədər çox üzvünə çatdırmaq üçün hansı onlayn vasitələrdən istifadə edə biləcəyinizi düşünün.

### QRUP 3: ONLAYN OYUNÇULARIN FƏALİYYƏTƏ TƏŞVİQ EDILMƏSİ

Qrupunuz onlayn şəbəkə oyunları icmasının oyunçulara qarşı nifrət nitqinin şahidi olan, lakin bunda iştirak etməyən üzvlərini hədəfə alacaq.

- Onlar nəyi bilməlidirlər?
- Onların necə hərəkət etməsini istərdiniz?
- Bunun üçün onları necə dilə tuta bilərsiniz?

Mümkün qədər çox oyunçunu hərəkətə keçirmək üçün hansı onlayn vasitələrdən istifadə edə biləcəyiniz barədə düşünün

PAYLANMAQ ÜÇÜN MATERİAL

### QRUP 4: SƏSİNİZİN SİYASƏTLƏRİN HAZIRLANMASINA GÖRƏ MƏSUL ŞƏXSLƏRƏ ÇATDIRILMASI

Qrupunuzun diqqəti siyasətlərin hazırlanmasına görə məsul şəxslər və ya ölkə hökumətinin üzvləri olduğuna görə problemə təsir edə biləcək şəxslər üzərində cəmlənəcək.

- Əsas mesajlarınız nədən ibarətdir?
- Hədəf auditoriyanızı problemlə məşğul olmalı olduqlarına necə inandıra bilərsiniz?
- Onlara hansı tədbiri görməyi tövsiyə edirsiniz?

Səsinizi hədəf auditoriyanızın mümkün qədər çox üzvünə çatdırmaq üçün hansı vasitələrdən istifadə edə biləcəyinizi düşünün.

### QRUP 5: SƏSİNİZİN ONLAYN PROVAYDERLƏRƏ ÇATDIRILMASI

Qrupunuzun diqqəti problemə birbaşa təsir edə biləcək tərəflər, məsələn, veb-sayt sahibləri, internet provayderlər və onlayn icmaları idarə edənlər üzərində cəmlənəcək.

- Əsas mesajlarınız nədən ibarətdir?
- Hədəf auditoriyanızı problemlə məşğul olmalı olduqlarına necə inandıra bilərsiniz?
- Onlara hansı tədbiri görməyi tövsiyə edirsiniz?

Səsinizi hədəf auditoriyanızın mümkün qədər çox üzvünə çatdırmaq üçün hansı vasitələrdən istifadə edə biləcəyinizi düşünün.

### QRUP 6: İCTİMAİYYƏTİN MƏLUMATLILIĞININ ARTIRILMASI

Qrupunuzun əsas səyləri ictimaiyyət üzvlərinin problemlə məşğul olmağa cəlb edilməsinə yönələcək.

- Əsas mesajlarınız nədən ibarətdir?
- İnsanların nə etməsini istəyirsiniz?
- Sizə hansı məlumat lazımdır?

İnsanları kampaniyanıza qoşulmağa səfərbər etmək üçün hansı onlayn vasitələrdən istifadə edə biləcəyiniz haqqında düşünün.




*Nümunələrin mənbəyi: http://fatuglyorslutty.com/ (9 oktyabr 2013-cü ilə olan məlumat)*

SƏVIYYƏ 4

QRUP 10-20

VAXT 60'

# FAKTLARIN YOXLANMASI

## XÜLASƏ

***İştirakçılardan siyasətçilərin "homofobik rəftar" mövzusunda araşdırmaçıları kimi çıxış etmək xahiş edilir. Onlar internetdə yerləşdirilən məlumatların etibarlılığını nəzərdən keçirir, öz praktikaları üçün strategiyalar hazırlayırlar.***

| | |
|---|---|
| MÖVZULAR | İnternet savadı, İrqçilik və ayrı-seçkilik, kampaniya üçün strategiyalar |
| MÜRƏKKƏBLİK | Səviyyə 4 |
| QRUP ÜZVLƏRİNİN SAYI | 10 – 20 |
| VAXT | 60 dəqiqə |
| MƏQSƏDLƏR | • İnternetdə mövcud məlumatların etibarlılığını qiymətləndirmək<br>• Gənc geylərin onlayn nifrət nitqi ilə əlaqədar üzləşdikləri bəzi çətinlikləri araşdırmaq<br>• Özünün onlayn məzmunla bağlı davranışına nəzər salmaq |
| MATERIALLAR | • İnternetə çıxış<br>• Kağız və qələm<br>• Flipçart və markerlər |
| HAZIRLIQ | • İştirakçıların internetə çıxışının olmasını təmin edin<br>• Araşdırmaçıların vəzifələrinin və monitorinq vərəqələrinin surətlərini çıxarın.<br>• İstəkdən asılı olaraq: Əvvəlcədən könüllülərdən 'monitorinq' tapşırığını yerinə yetirməyi xahiş edin. Qrupun təqribən yarısının monitorinqlə məşğul olmasına ehtiyac var. Onlara monitorinq vərəqəsini göstərin, axtarmalı olduqları məlumatları və formanı necə doldurmalı olduqlarını başa düşüb-düşmədiklərini yoxlayın. |

## TƏLİMATLAR

1. Məşğələ çərçivəsində internetdən məlumat resursu kimi istifadə ediləcəyini izah edin. İştirakçılardan bu məqsədlə internetdən nə dərəcədə tez-tez istifadə etdiklərini, istifadə etdikləri "sevimli" saytlarının olub-olmadığını soruşun.
2. Aşağıdakı ssenarini onlara təqdim edin və tapşırığın hər kəs tərəfindən başa düşülüb-düşülmədiyini yoxlayın.

Gənc geylərə qarşı xüsusən saytlarda və videolarla həyata keçirilən çoxsaylı hücumlardan və QHT-lərin güclü lobbiçilik fəaliyyətindən sonra bu məsələnin parlamentdə müzakirə edilməsi gözlənilir. Hökumət homofob münasibətlərə qarşı tədbir görmək məqsədilə maarifləndirmə səylərinin həyata keçirilməsi, gənc geylərin dəstəklə təmin edilməsi üçün büdcədən vəsaitin ayrılmasını nəzərdə tutan qanun layihəsi təklif etmişdir. Əsas müxalifət partiyalarının hamısı bu yeni qanunun əleyhinədir.

Debatda çıxış etmək istəyən siyasətçiyə yardım üçün araşdırmaçı qismində çalışdığınızı təsəvvür etməlisiniz. O, sizdən debatda söyləyəcəyi nitq üçün bir neçə əsas məqam göstərməklə hesabat hazırlamağı xahiş edib. İlkin araşdırmanı aparmaq üçün 20 dəqiqə vaxtınız var.

3. İştirakçıların 4 nəfərlik qruplar daxilində çalışacağını, 2 nəfərin "araşdırmaçı" olacağını, qalan 2 nəfərin isə araşdırmaçıların istifadə etdiyi "metodologiyanı" müşahidə edəcəyini izah edin. Onlara araşdırma üçün düzgün metodologiyanın tələb olunduğunu söyləyin! Onlardan araşdırmanın aparılmasında nəzərə alınmalı olan bir neçə amil təklif edə bilib-bilməyəcəklərini soruşun və flipçartda siyahı tərtib edin.
4. Əvvəlcədən xahiş etməmisinizsə, könüllülərdən müşahidəçi kimi çıxış etməyi xahiş edin. Onlara monitorinq vərəqələrinin nüsxələrini verin, tapşırığı başa düşdüklərindən əmin olun. Qrupun qalan hissəsini hökuməti və müxtəlif müxalifət partiyalarını təxminən bərabər səviyyədə təmsil edəcək şəkildə bölün. Hər bir qrupa tapşırıqlarının əks olunduğu kart verin.
5. İştirakçılara araşdırma aparmaq üçün 30 dəqiqə vaxtlarının olduğunu bildirin. İlk 20 dəqiqədən müvafiq məlumatı tapmaq, qalan 10 dəqiqədən parlament nümayəndələrinə təqdim edəcəkləri əsas məqamları razılaşdırmaq üçün istifadə etməyi təklif edin.
6. Qruplar çalışmanı tamamladıqdan sonra onlardan kompüterlərdən kənarlaşmağı xahiş edin. Onlara daha 5-10 dəqiq vaxt verin, beləliklə, qruplarındakı müşahidəçilər bir neçə əsas müşahidələri barədə rəy söyləyə bilərlər.
7. Araşdırmaçıları parlament üzvünün çıxışı üçün seçdikləri əsas məqamları təqdim etməyə dəvət edin. Bu məqamlar bəndlərə ayrılmaqla təqdim edilə bilər: iştirakçıları özlərinin çıxış etdiklərini deyil, parlament üzvünə qısa məlumat verdiklərini təsəvvür etməlidirlər!
8. Təqdimatdan sonra müşahidəçilərin öz nəticələrini təqdim etmələri, başqa qrupların təqdim edilən məlumat və ya istifadə edilən strategiya barədə suallarını ünvanlamaları üçün bir qədər vaxt ayırın. Daha sonra iştirakçıları məşğələ barədə qısa müzakirə aparmağa dəvət edin.

## TƏHLİL VƏ QIYMƏTLƏNDİRMƏ

### ARAŞDIRMA VƏ PARLAMENT NÜMAYƏNDƏLƏRİ ÜÇÜN HESABATIN HAZIRLANMASI HAQQINDA SUALLAR

- Sizcə, tapşırıq nə dərəcədə asan idi? Sizin üçün ən çətini nə oldu?
- Məlumat üçün hansı veb-saytlardan istifadə edəcəyinizə necə qərar verdiniz? Seçdiyiniz saytların və ya məlumatın "doğruluğuna" görə nə dərəcədə narahat idiniz?
- Nümayəndənizin mövqeyini dəstəkləyəcək məlumatı tapmağa, yoxsa məsələnin "obyektiv" qiymətləndirməsini təmin etməyə daha çox önəm verirdiniz? Sizcə əsl araşdırmaçı nə etməli idi?
- Geylərə qarşı nifrət nitqi nümunələrini axtardınızmı?
- Sizcə nümayəndə araşdırmanızdan məmnun qalardımı? Sizcə, onun təmsil etdiyi şəxslər məmnun qalardımı?

### İNTERNETDƏN ARAŞDIRMA MƏQSƏDLƏRİ ÜÇÜN İSTİFADƏ BARƏDƏ SUALLAR

- İnternetdən araşdırma məqsədilə istifadə barədə əhəmiyyətli bir bilgi öyrəndinizmi? Məşğələnin əvvəlində tərtib edilmiş siyahıya hər hansı əlavə etmək istərdinizmi?
- İnsanların tapmağa nail olduğu məlumatların müxtəlifliyi sizi təəccübləndirdimi? Bu necə izah edərdiniz?
- Veb-saytın və ya məlumatın etibarlılığını hansı üsullarla yoxlamaq olar? Adətən bunlara əməl edirsiniz?

### ONLAYN HOMOFOBİYA/NİFRƏT NİTQİ HAQQINDA SUALLAR

- Hər hansı ayrı-seçkilik və ya pis rəftar nümunəsi tapa bildinizmi?
- Sizcə "saxta" və ya "ədalətsiz" hər hansı məlumat tapdınızmı?
- Hər kəsin internetdə münasibətini bildirməsinə icazə verilməsinin riskləri nədən ibarətdir? Sizcə, başqalarının bu münasibətləri "fakt" kimi qəbul etməsi riskini azaltmaq üçün nə edə bilərsiniz?

## FASİLİTATORLAR ÜÇÜN PRAKTİK TÖVSİYƏLƏR

- "Müşahidəçilərə" əvvəlcədən qısa məlumat verilərsə, məşğələ daha effektiv olar. Mümkün olarda, hər bir qrupda yalnız bir müşahidəçi saxlayıb "araşdırmaçıların" sayını artıra bilərsiniz.
- Araşdırmaçılar müşahidəçilər tərəfindən "test" edildikləri fikrinə qapılmamalıdırlar. Onlara müşahidəçilərin vəzifəsinin müxtəlif araşdırma metodlarına nəzər salmaqdan ibarət olduğunu, eyni məsələyə müxtəlif üsullarla yanaşıla biləcəyini söyləyə bilərsiniz!
- Monitorinq vərəqələrini araşdırmaçılara göstərməmək qərarı qəbul edə bilərsiniz: bu halda onlar bəzi əsas aspektlər barədə xəbərdar edilməzlər və nəticələr daha maraqlı ola bilər. Lakin bu araşdırmaçıları daha çox gərginləşdirə bilər. Vərəqinin göstərilməsi araşdırmaçılar və müşahidəçilər arasında daha yaxşı əməkdaşlıq münasibəti yarada bilər.
- Təhlil və qiymətləndirmə zamanı araşdırmanın tapmaq "istənilən" axtarıldığına görə subyektiv ola bilib-bilməyəcəyinə nəzər sala bilərsiniz. Bundan istifadə etməklə, iştirakçılardan

gördükləri, amma inanmaq istəmədikləri məlumata necə reaksiya göstərdiklərini soruşa bilərsiniz!

- Yanlış məlumatların və ya güclü qərəzin geniş yayılmasının təhlükələrindən biri onların asanlıqla "fakt" kimi paylaşıla bilməsidir. İştirakçıların İnternetdə gördükləri 'faktları' başqalarına ötürüb-ötürmədikləri, bu məlumatların hər hansı birinin, müəyyən qruplar və ya şəxslər haqqında önmühakimənin yayılmasına köməkçi olub- olmadıqları barədə fikirlərini araşdıra bilərsiniz.
- İnternet savadı haqqında qısa məlumat bölməsindəki yaddaş siyahısından iştirakçıların internetdəki məlumatın etibarlılığının yoxlanması üçün irəli sürdükləri təkliflərə əlavələr etmək üçün istifadə edə bilərsiniz. Gördüyümüz məzmunun çoxunda 'subyektivlik elementinin' olduğunu vurğulayın. Məlumatı müəyyən bir baxış bucağını gücləndirəcək şəkildə təqdim etməyin çoxsaylı yolları mövcuddur. Məsələn, homofob nifrət nitqi nümunələrinin səssizcə ötürülməsi elə təəssürat yaradır ki, sanki heç bir problem yoxdur!
- İnternetdə saxta məlumatların izlənməsi barədə axtarış apara, iştirakçılarla saxla xəbərlərin nifrət nitqinin alovlanmasına necə təsir etdiyi barədə müzakirə apara bilərsiniz.

## VARİANTLAR

İştirakçıların araşdırması üçün fərqli "hədəf qrupu" seçə bilərsiniz, məsələn, qadınlar, qaraçılar və ya başqa etnik azlıq, sığınacaq axtaranlar və s.

Məşğələni müşahidəçisiz, hər kəsin öz "müşahidəçisi" olması ilə də həyata keçirə bilərsiniz. Bu halda əvvəlcədən qrupla birlikdə monitorinq vərəqəsini nəzərdən keçirməlisiniz. Onlardan araşdırma apardıqca öz metodlarını yoxlamağı xahiş edə bilərsiniz.

## FƏALİYYƏT ÜÇÜN FİKİRLƏR

İştirakçılar onlayn araşdırmanın aparılması zamanı nəzərə alınmalı olan amillərin siyahısına düzəliş edə və öz təlimat toplularını hazırlaya bilərlər. Nifrət nitqi böyük dərəcədə qərəzli və başqalarını incidən fikirləri düşünmədən paylaşan insanlar tərəfindən yayılır. Onlar yaddaş siyahısını sınaya (səh. 64) – və ya özlərinin populyar sayt siyahılarından istifadə edə bilərlər. Jurnalistikanın böyük bir seqmenti cəmiyyət daxilindəki qruplar barədə önmühakimələrin yayılmasına görə cavabdehlik daşıyır. Bu, oxucuların bu qruplardan sui-istifadənin "qəbul edilən" olduğunu düşünməsinə səbəb ola bilər.

Qrupunuzla yanlış məlumat strategiyaları haqqında həyata keçirə biləcəyiniz başqa tədris məşğələlərini buradan əldə edə bilərsiniz:

*https://mediasmarts.ca/diversity-and-media-toolbox-portal-page https://mediasmarts.ca/break-fake*

yaxud "Biz bacararıq" vəsaitindən əksinə və alternativ mesajlar haqqında məlumat əldə edə bilərsiniz! Nifrət nitqi ilə əksinə və alternativ mesajlar vasitəsilə mübarizə:

*https://www.coe.int/en/web/no-hate-campaign/we-can-alternatives*

İştirakçıları internetdən məlumat tapmaq üçün tez-tez istifadə etdikləri veb-saytları təqdim etməyə dəvət edin və birlikdə bu saytların nə dərəcədə etibarli və qərəzsiz olduğunu yoxlayın.

## PAYLANMAQ ÜÇÜN MATERİAL

### SİYASƏTÇİ 1:

Siyasətçi hökumət üzvüdür. O, yeni qanunvericiliyin lehinə güclü çıxış etməlidir. Ona çıxış etməkdə kömək edə biləcək hər hansı məlumat tapmaq üçün internetdə axtarış edin. Daha sonra nəzərə alınmalı olduğunu düşündüyünüz təxminən 5 əsas məqamın siyahısını hazırlayın.

### SİYASƏTÇİ 2:

Siyasətçi müxalifət nümayəndəsidir. O, bu problem üçün büdcədən vəsait ayrılmasının əleyhinədir. Ona çıxış etməkdə kömək edə biləcək hər hansı məlumat tapmaq üçün internetdə axtarış edin. Daha sonra nəzərə almalı olduğunu düşündüyünüz təxminən 5 əsas məqamın siyahısını hazırlayın.

### SİYASƏTÇİ 3:

Siyasətçiniz azlığı təmsil edən partiyanın üzvüdür. Partiyanız hələ ki qanunu dəstəkləyəcəyinə, yoxsa ona qarşı çıxacağına qərar verməyib. Ona qərar qəbul etməkdə kömək edə biləcək hər hansı məlumatı tapmaq üçün internetdə axtarış aparın. Daha sonra nəzərə almalı olduğunu düşündüyünüz təxminən 5 əsas məqamın siyahısını hazırlayın.

### MÜŞAHİDƏÇİLƏR

Sizin vəzifəniz araşdırmaçıların istifadə etdikləri yanaşmanı təhlil etməyə çalışmaqdır. Monitorinq vərəqəsində suallarla bağlı mümkün qədər çox məlumat toplamağa çalışın. Diqqətlərini çox yayındırmamaq şərtilə araşdırmaçılardan nə etdiklərini izah etməyi, seçdikləri yanaşmanı əsaslandırmağı xahiş edə bilərsiniz.

### MONİTORİNQ VƏRƏQƏSİ

| | |
|---|---|
| Məlumatın tapılması üçün istifadə edilən axtarış sözləri | |
| **Baxılan hər bir sayt üzrə:** | |
| Saytın adı | |
| Saytda keçirilən təxmini müddət | |
| "Oriyentasiya" (geylər lehinə, anti-gey, neytral) | |

| | |
|---|---|
| Saytın seçilmə səbəbi? | |
| Saytın "çəkisi": – Sayta nə üçün etibar edilə bilər?<br><br>– *Qrup bunun üçün yoxlama apardımı?* | |
| Götürülən hər bir məlumat üçün mənbə və ya istinad təmin edilmişdimi, qrup həmin mənbəni yoxlayıbmı? | |
| Araşdırmaçıların tapşırığa yanaşması ilə bağlı hər hansı başqa şey: | |

NO HATE
NO HATE SPEECH MOVEMENT

SƏVIYYƏ 4

QRUP 10-20

VAXT 120'

# AZADLIQLARIN TOQQUŞMASI

***Məşğələ ifadə azadlığı ilə bağlı fikirləri üst-üstə düşməyən, lakin eyni adada birlikdə yaşamağa vadar olan iki icma ilə əlaqədar simulyasiyadan ibarətdir.***

| | |
|---|---|
| MÖVZULAR | Demokratiya və iştirak, ifadə azadlığı, irqçilik və ayrı-seçkilik |
| MÜRƏKKƏBLİK | Səviyyə 4 |
| QRUP ÜZVLƏRİNİN SAYI | 10 - 20 |
| VAXT | 120 dəqiqə |
| MƏQSƏDLƏR: | • Müxtəliflik, plüralizm və nifrət nitqi ilə əlaqədar məsələləri araşdırmaq<br>• Ifadə azadlığının demokratik cəmiyyətə necə töhfə verdiyinə nəzər salmaq<br>• Ifadə azadlığına sərhəd qoyulmamasının müsbət və mənfi cəhətlərini müzakirə etmək<br>• Danışıqların aparılması bacarıqlarını inkişaf etdirmək |
| MATERİALLAR | • Kağız və qələm<br>• İki icmanın (ayrı-ayrılıqda) görüşməsi üçün yer<br>• 2 fasilitator (ideal halda) |
| HAZIRLIQ | • İki ada haqqında məlumatın surətlərini çıxarın<br>• Toxunulacaq problemlərin surətlərini çıxarın |

## TƏLİMATLAR

1. Məşğələ çərçivəsində simulyasiyanın həyata keçiriləcəyini, qrupun iki fərqli icmaya bölünəcəyini izah edin. İksprat icması daha geniş olmalıdır: iştirakçıların təxminən üçdə ikisi. Qrupun qalan üçdə biri Pastikləri təmsil edir. Simiulyasiyanın birinci hissəsində işin ayrı-ayrı icmalar daxilində aparılacağını izah edin. 20 dəqiqə sonra qruplar bir araya gətiriləcək.
2. Qruplardan biri başqa otağa aparılacaq. Hər bir qrupun fasilitatoru müvafiq icma haqqında

məlumatı ucadan oxumalı, sonra insanların istinad etməsi üçün məlumatları paylamalıdır.

3. Hər bir qrupda müzakirəni iştirakçılardan adada həyat barədə fikirlərini soruşmaqla başlayın Orada yaşamaq istəyib-istəməyəcəklərini soruşun. İştirakçılara aşağıdakı sualları verin:

**Pastik qrupu**

Yeni adaya köçməklə əlaqədar narahatlıqlarınız nələrdir?

**İksprat qrupu**

Mədəniyyətiniz və ya ənənələriniz haqda heç nə bilməyən çox sayda immiqrantın gəlişi ilə bağlı narahatlıqlarınız nələrdir?

4. 20 dəqiqə sonra iki qrup yenidən bir araya gətirilməlidir. Ada sakinlərini özlərini təqdim etməyə, istəyənləri qısa bəyanat verməyə dəvət edin. Bunun üçün 10 dəqiqədən artıq vaxt sərf etməyin.
5. Təqribən 10 dəqiqə sonra iştirakçılara aşağıdakı məlumatları verin:

*Bir il keçib və bir sıra meydanlar meydana gəlib. İcmalar arasındakı kəskinlik get-gedə kəskinləşib və çox sayda insan güclü ictimai iğtişaşın baş verəcəyindən narahatdır. Prezident sizi bu problemlərin həll yolunu tapmağa çalışmaq üçün işçi qrup yaratmağa dəvət edib.*

6. Bütöv icmanı daha kiçik işçi qruplarla bölün, hər bir işçi qrupda (təxminən) 2 pastik üzv və 4 iksprat üzv olsun. Hər bir qrupa problemlərdən birini verin.
7. Qruplara problemin necə həll ediləcəyi barədə qərara gəlmək üçün 20 dəqiqələrinin olduğunu bildirin. Hər hansı təklifin səsverməyə qoyulmalı və qəbul edilmək sadə səs çoxluğu (işçi qrup daxilində) ilə təsdiq edilməli olduğunu izah edin. Yeni qərarı təsdiq edə bilməyəcəkləri halda status kvonun davam edəcəyini xatırladın!
8. 20 dəqiqə sonra qərarların təqdim edilməsi üçün hər kəsi bir araya gətirin. Rəyləri öyrənmək və həll yolunun təsviri üçün hər bir qrupa 2-3 dəqiqə vaxt verin və qısa cavablar verməyi xahiş edin. Sonra təhlil və qiymətləndirməyə keçin.

## TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

İştirakçılardan canlandırdıqları obrazlardan çıxmağı xahiş etməklə və onlara bundan sonra bütövlükdə məşğələnin müzakirə ediləcəyini xatırlatmaqla başlayın. Onlar əvvəlki debatlara qayıtmağa çalışmamalıdırlar.

- Məşğələ barədə nə düşünürsünüz? Nəyi bəyəndiniz, nə xoşunuza gəlmədi?
- Rolunuzu oynamaq və ada sakinləri birləşəndə rolunuzu davam etdirmək nə dərəcədə asan oldu?
- Danışıqların aparılması prosesi və sondakı qərar qəbulu prosesi barədə nə düşünürsünüz? Həll yolu tapmağa çalışarkən sizin üçün ən mühüm şeylər nə oldu?
- Çoxluğu təşkil etdiyinə görə İksprat icmasının hər hansı təklifə veto qoymaq hüququnun olması sizcə, nə dərəcədə ədalətli idi? "Real" həyatda azlıqların düşüncə və hüquqlarının ədalətli şəkildə təmsil edildiyindən necə əmin ola bilərik?
- Məşğələ baxışlarınızda hər hansı dəyişiklik yaratdımı? Yaratdısa, konkret olaraq nədə və necə?

- Sizcə, məşğələ reallığa uyğun gəlirdimi: müasir cəmiyyətdə mövcud hər hansı problemi xatırlatdımı?
- Sizcə, insanların başqalarını incidən, dözümsüz və bəzən təhlükəli sözlər deməsi ilə əlaqədar problemin öhdəsindən necə gəlməliyik?

## FASİLİTATORLAR ÜÇÜN PRAKTİK TÖVSİYƏLƏR

- İştirakçıları icmalarının ruh halı ilə tanış etmək məqsədilə iki ada üzərindəki həyatın təsviri bir qədər uzundur. Onlar "məlumat" kimi deyil, daha çox "hekayə" kimi oxunmalıdır!
- İnternet kampaniyasını öz üzərinə götürən qrupdan diqqətini problemin onlayn aspekti üzərində cəmləmək xahiş edilə bilər. Ən azı onlar hər hansı oflayn təkliflə yanaşı bu aspekti də nəzərə almağa yönləndirilə bilərlər.
- Simulyasiyaya mümkün qədər az istiqamət verməyə çalışın. İnsanların tapşırığın vaxt məhdudiyyəti və mahiyyətini başa düşdüyündən əmin olun, lakin onlara tapşırıqlara ən yaxşı hesab etdikləri üsulla yanaşmağa icazə verin. Yalnız iştirakçıların nəyisə yanlış başa düşdüklərini güman etdikdə, yaxud gərginlik və ya münaqişə prosesə maneə olduqda müdaxilə edin.
- Ifadə azadlığı barədə müəyyən qədər məlumat almaq iştirakçılar üçün faydalı ola bilər. Vaxt varsa, bir az məlumat təmin edin.

## VARİANTLAR

- Vaxt azdırsa, təsvirlər qısaldıla və yekun danışıqlar zamanı birinci problem bütün işçi qrupların müzakirəsinə verilə bilər. Bu danışıqları sürətləndirəcək.
- Vaxt imkan verərsə, qrupların birinci (ayrıca) görüşü zamanı iştirakçılardan bir araya gələn zaman çatdırmaq istədikləri hər hansı mesaj olub-olmadığını soruşun. Daha sonra bu mesajlar görüşün ilk 10 dəqiqəsində verilən qısa "təqdimatları" formalaşdıra bilər.
- Qrupda üzvlərin sayı çoxdursa, hər kəsin töhfə verə bilməsi üçün "yeni" icmanı daha kiçik qruplara bölmək zəruri ola bilər. Hər bir yeni qrupun təxminən üçdə biri pastiklərdən, üçdə ikisi ikspratlardan təşkil olunmalıdır. Qruplar həmçinin öz icmaları üçün 1-2 sözçü təyin edə bilərlər.

## FƏALİYYƏT ÜÇÜN FİKİRLƏR

İştirakçılar öz qrupları üçün danışıqlar nəticəsində hazırlananla bənzər təklif formalaşdıra bilərlər. Səsvermə keçirilə bilər və bundan onlayn və ya oflayn davranış üçün rəhbər prinsiplər komplektinin müəyyən edilməsi məqsədilə istifadə edilə bilər.

İştirakçılar öz ölkələrindəki əsas immiqrant qruplarını araşdıra bilərlər. İnsanların ora köçməsinin bəzi səbəblərini, cəmiyyətin qalan hissəsinin onların hüquq və fikirlərinə hörmətlə yanaşdığını düşünüb-düşünmədiklərini, həm onlayn, həm də oflayn KİV-də necə təsvir edildiklərini aydınlaşdıra bilərlər. Həmçinin qrupla söhbət etmək üçün müxtəlif icmaların bir neçə nümayəndəsini dəvət edə bilərsiniz.

Ölkəniz immiqrasiya ölkəsi hesab edilmirsə, başqa ölkələrə vətəninizdən mühacirət edənlərə hansı gözlə baxıldığını araşdıra bilərsiniz.

**PASTİK ADASI**

Sərhədləri qapalı olan, immiqrasiyanın olmadığı və çox az sayda turistin görüldüyü kiçik bir adada yaşayırsınız. Sakit və dinc cəmiyyətiniz var: sülh və münaqişənin olmaması güclü ənənə və "milli prioritet" hesab olunur'. Hətta Konstitusiyaya aşağıdakı məzmunda bir maddə də daxildir:

**HEÇ KİM BAŞQALARINI İNCİDƏ VƏ YA MƏYUS EDƏ BİLƏCƏK HEÇ NƏ DEMƏMƏLİ Ə ETMƏMƏLİDİR**

Bu maddənin icrasına ciddi nəzarət edilir və pozuntular sərt şəkildə cəzalandırılır. Bu maddənin müddəaları çox nadir hallarda pozulur; başqa insanlarla razılığa gəlmək daha asandır. Fikir ayrılığı zehnə narahatlıq verdiyinə görə pastiklər üçün ağrılıdır.

Ölkəniz özünü demokratik ölkə adlandırır. Seçkilər hər il keçirilir və demək olar, hər kəs səs verir. Lakin alternativ siyasətlər çox az müzakirə edildiyinə görə eyni insanlar seçilir.

Ümumiyyətlə, söhbətlər, ictimai bəyanatlar, hətta KİV cəmiyyət tərəfindən qəbul edilmiş fikirlərdən kənara çıxmır, insanların buna o qədər də etirazı yoxdur, belə ki, onlar başqa yanaşmaları unudublar və ya belə bir şeyin mümkün olduğunu təsəvvür etmirlər. Dünyadan çox az xəbər alınır, başqa mədəniyyətlərə aid ədəbiyyat yoxdur, çox az dəyişiklik baş verir, çünki dəyişikliyin məyus etdiyi müəyyən edilib.

İnsanların diqqətini sahil xəttinin illər ərzində dəyişdiyi çəkmişdir: su səviyyəsi qalxıb, ölkənin vaxtilə yaşayış olan xeyli hissəsi suyun altında qalıb. Bu, vacib deyildi, əvvəla hər kəs üçün kifayət qədər yer var idi və sahil xəttində yaşayan icmalar sadəcə adanın içərilərinə doğru köçürdülər. Lakin son illərdə problem daha da kəskinləşmişdir. Az sayda insan bunu öz aralarında müzakirə edirdi, lakin bunun məyusluq yaratdığı müəyyən edildi və hökumət tərəfindən qadağa qoyuldu.

Həyat davam edirdi, günlər əsasən sakit, proqnozlaşdırıla bilən, münaqişəsiz və fikir ayrılığı olmadan keçirdi, sonra dəhşətli bir gün güclü qasırğa adanı vurdu. Binalar dağıldı, çox sayda insan həyatını itirdi, torpaq sahəsinin çox hissəsini su basdı. Dalğalar çəkildikdən sonra çox az sayda bitki salamat qalmışdı, onlar da duzlu suyun təsiri ilə məhv olurdu. Demək olar ki, bütün infrastruktur alt-üst olmuşdu. Ərzaq qıtlaşdı, infeksiya və xəstəlik yayılmağa başladı, tibbi ləvazimatlar adekvat deyildi. Ada xaosun içinə düşdü. İnsanlar hətta ən yaxşı yolun nə olduğu barədə bir-birləri ilə razılaşmamağa başladılar!

Bütün ümidin itirildiyi güman edilən vaxt qonşu İksprat adasından bir mesaj alındı. Mesajda bütün Pastiklərə görə səmimi narahatlıq ifadə edilir, istəyəni İkspratda yerləşdirmək təklif olunurdu. Köçməyə qərar verənlərdən biri də sizsiniz.

**İKSPRAT ADASI**

Sakit Okeanında və qədim ticarət yollarından birinin üstündə yerləşən İksprat adasında yaşayırsınız. Ənənəvi olaraq adanız başqa ölkələrlə ticarət və əlaqələrə arxalanıb və yüz illər

boyu açıq sərhəd siyasəti izləmisiniz. Bu o demək idi ki, çoxsaylı müxtəlif mədəniyyətləri təmsil edən səyyahlar və immiqrantlar ada həyatinin güclü bir cəhətini təşkil etmişdi. Bütün bunlar əhalinin müxtəlifliyi, rəy, inanc və mədəni təcrübələrin geniş çeşidliliyi ilə nəticələnir.

Milli mədəniyyətiniz belə müxtəlifliyi qəbul edir: insanlar başqa üsullara sınamağa, fərqli inanc və ideologiyalara həvəslə maraq göstərirlər. Əlbəttə bu cür müxtəlifliyin olduğu yerdə heç bir ideya və ya ideologiya hər kəs tərəfindən mənimsənilə bilməz. Fikir ayrılığı və münaqişə İkspratda həyat tərzidir. Demək olar ki, iki insan zehninin hər bir qaşılaşması düşüncə, inam və ideyaların aydınlaşması ilə nəticələnir. Bundan əlavə, demək olar hər görüş fikir ayrılığı ilə keçir və ya sonlanır. Fikir ayrılığı, demək olar ki, milli hobbidir.

Buna görə də bir insanın və ya qrupun başqasına və ya başqası haqqında söyləyə biləcəklərini məhdudlaşdıran qanun yoxdur. Bəzi insanlar, doğrudan da dəhşətli sözlər deyirlər. Bəzən bu, insanların dəhşətli hərəkətlər etmələrinə gətirib çıxarır. "Etmək" qanunla qadağan edilir, demək isə yox.

İkspratda həyat maraqlı və çətinliklərlə doludur və daim dəyişir. Mədəniyyətin zənginliyini və istədiyinizi deyə bilməyi yüksək qiymətləndirirsiniz. Bitib-tükənməyən arqument və fikri ayrılıqlarının hər zaman xoşbəxtliyə aparmadığını bilirsiniz. Əslində, çox vaxt fikir ayrılıqlarını olduqca yorucu və ağrılı hesab edirsiniz, insanların amansız bir yana, yanlış hesab etdiyiniz sözlər dediyinə qulaq asman hər zaman asan olmur. Cəmiyyətin bəzi üzvlərinin amansız və dözümsüz ifadələrlə başqaları ilə müqayisədə daha tez-tez üzləşdiyini də görmüsünüz.

Belə olsa da, heç kimin inandıqlarını söyləməkdən məhrum edilməməsinin vacib olduğunu düşünürsünüz.

Küləkli günlərin birində adanız Sakit okeanında başqa adaların birində güclü qasırğa olduğu barədə xəbər alır. Ada haqqında çox az məlumatınız var: onlar hər zaman qapalı həyat sürüblər. Həmin adada insanların çox axmaq, geridə qalmış olduğu haqda rəvayətlər eşitsəniz də, o adanın heç bir sakini ilə rastlaşmamısınız. Ora getməyin, demək olar ki, qeyri-mümkün olduğunu bilirsiniz.

Hökumət Pastik adasının dəhşətli qasırğadan əziyyət çəkdiyini, nəticədə sağ qalanların çoxunun İksprata köçəcəyini elan edib. Bəlkə də onları araya sıxışdırmaq olardı, amma bunun üçün yerli sakinlər xeyli uyğunlaşdırma aparmalı idilər. İşlər paylaşılmalı olacaq və hər kəsin mənzillə təmin etmək mümkün olmaya bilər.

## İŞÇİ QRUPLAR ÜÇÜN PROBLEMLƏR

**PROBLEM 1:**

"Pastikin dilini tap" kampaniyası başladılır və internetdə böyük vüsət alır. Kampaniyanın saytına aşağıdakı kimi şüarlar daxildir:

## PAYLANMAQ ÜÇÜN MATERİAL

- Axmaq pastiki dürtmələ: gör cırıldayırmı!
- Dil yoxdursa, beyin də yoxdur!
- Dili tapın, smartfon qazanın!

İnsanlar pastiklərin dillərinin fotolarını çəkmə çağrılırlar. Pastikləri ağızlarını açmağa məcbur edən, ağızlarına məşəl tutan, teleskopla şəkil çəkdirən və ya dilə işarə edən insanların foto və videolarından ibarət "dil qalereyası" yaranır. Kampaniya geniş vüsət alır, pastiklərin küçələrdə hücuma məruz qalması ilə çox sayda insident meydana gəlir. Pastiklər hörmət etmədikləri insanlarla təhqiramiz söhbətə çəkilməkdən imtina etdiklərini söyləməklə cavab verirlər.

**PROBLEM 2:**

İkspratlı bir qrup gənc küçədə Pastik icmasından bir qıza qışqırmışdılar: Onlar qızı "yağlı kütbeyin", "murdar ifritə" adlandırmış, başında dilinin və öz beyninin olmadığını demişdilər. Qız özünü çox pis hiss etmiş, iki həftə evdən çıxa və ya kiminləsə danışa bilməmişdi. O, üç gün heç nə yeməyib. Valideynləri çox narahatdırlar.

**PROBLEM 3:**

Pastiklər arasında işsizliyin bütöv əhali ilə müqayisədə dəfələrlə yüksək olduğunu, parlamentdə pastiklərin nümayəndəsinin olmadığını, hər hansı təşkilatda nüfuzlu vəzifələrdə pastiklərin sayının çox az olduğunu göstərən hesabat dərc edilmişdir. Eyni zamanda hesabat məsələn, stress səviyyəsi, ruhi xəstəlik, peşəkar ixtisaslaşma və cinayət səviyyələri kimi başqa sosial amillərin də monitorinqini aparmışdır. Pastiklər bütün göstəricilərə görə cəmiyyətin hər hansı başqa təbəqəsindən geri qalırdılar. Cəmiyyətin qalan hissəsində pastiklərə münasibət də son dərəcə mənfi idi.

SƏVİYYƏ 1

QRUP 10-20

VAXT 45'

# KİBERBULLİNQLƏ ÜZLƏŞMƏ

*Bu məşğələdə iştirakçılar müxtəlif bullinq ssenarilərində mümkün cavab tədbirlərini müəyyənləşdirir, alternativ fəaliyyət istiqamətlərini müzakirə edirlər.*

| | |
|---|---|
| MÖVZULAR | Kiberbullinq, demokratiya və iştirak, internet savadı |
| MÜRƏKKƏBLİK | Səviyyə 1 |
| QRUP ÜZVLƏRİNİN SAYI | 10 - 20 |
| VAXT | 45 dəqiqə |
| MƏQSƏDLƏR | • Bullinqin müxtəlif formalarını, oflayn və onlayn bullinq arasında bağlılığı başa düşmək<br>• Bullinq, kiberbullinq və onlayn nifrət nitqinə qarşı müxtəlif əks tədbirləri müəyyən etmək<br>• Əks tədbirlərin görülməsinin əhəmiyyəti barədə məlumatlılığı artırmaq |
| HAZIRLIQ | A4 kağızında 4 nişan çəkin və hər birini otağın bir küncünə yapışdırın. Nişanda yazılmalıdır:<br>• Heç nə etmə<br>• Bullinqə cavab ver<br>• Davranış haqqında məlumat ver<br>• Başqa<br>İştirakçıların otaqda hərəkəti üçün kifayət qədər yerin olduğundan əmin olun. |

## TƏLİMATLAR

1. İştirakçılardan bullinq dedikdə, nə başa düşdüklərini soruşmaqla başlayın. Onlara insanların başqalarına bullinq tətbiq etmək üçün istifadə edə biləcəkləri üsullar haqqında düşünməyi təklif edin.

2. Otaq künclərindəki nişanları göstərin, bir neçə müxtəlif ssenarini oxuyacağınızı izah edin. Hər kəs ehtimal etdiyi davranışına ən uyğun gələn variantı seçməlidir:
   - Heç nə etmə
   - Bullinqə cavab ver (məsələn, müzakirəyə qoşul, zərbəyə zərbə ilə cavab ver və sair. Bullinqi kimin etdiyi məlum deyilsə, bu variant keçərsiz ola bilər.)
   - Davranış haqqında məlumat verin (məsələn, müəllimə, valideynə, sayt administratoruna və ya başqa səlahiyyətli şəxsə)
   - Başqa (məsələn, başqalarını müzakirəyə cəlb edin, "həmrəylik qrupları" yaradın və s. Onlardan başqa fikirlərinin olub-olmadığını soruşa bilərsiniz).
3. İştirakçılara hər bir ssenari oxunduqdan sonra atacaqlarını ehtimal etdikləri addıma daha çox uyğun gələn küncə getməli olduqlarını izah edin. Onlardan seçəcəkləri yanaşma barədə dürüst olmağı xahiş edin!
4. İlk ssenarini ucadan oxuyun və iştirakçılara künclərini seçmək üçün vaxt verin. Hər kəs öz yerini aldıqdan sonra hər bir qrupda bir neçə nəfərdən seçimlərini izah etməyi xahiş edin. Daha sonra növbəti ssenarini ucadan oxuyun və artıq kifayət qədər nümunəni müzakirə etdiyinizi hiss edənə qədər davam edin.

### TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

Məşğələ barədə təhlil və qiymətləndirmə üçün aşağıdakı sualların bəzilərindən istifadə edin:

- Məşğələ barədə nə düşünürsünüz? Hansı ssenarilərə cavab vermək sizin üçün daha çətin oldu və nə üçün?
- Sizcə bütün müzakirə edilənlər bullinq nümunəsi idimi?
- Qurban və ya müşahidəçi qismində kiberbullinqlə üzləşmisinizmi? Oflayn və onlayn bullinq arasında əlaqə barədə nə deyə bilərsiniz? Vacib fərqlər varmı?
- Məşğələ bullinqə/kiberbullinqə fərqli bucaqdan baxmağınıza səbəb oldumu? Bunun nəticəsində gələcəkdə başqa cür cavab verməli olduğunuzu düşünürsünüzmü?
- Kiberbullinqə qarşı nə edə bilərsiniz?
- Onlayn nifrət nitqinin qarşısını almaq üçün kim tədbir görməlidir? Media şəbəkələrinin, servis provayderlərinin, polisin, valideynlərin və məktəb rəhbərliyinin bunda rolu nədən ibarət olmalıdır?

### FASİLİTATORLAR ÜÇÜN PRAKTİK TÖVSİYƏLƏR

- Qrup üzvlərinin sayı çoxdursa və ya ümumi müzakirəyə vərdiş etməyibsə, sehrli çubuq və ya xəyali mikrofon təqdim edərək danışmaq istəyən insanların növbələrini gözləməyini təmin edə bilərsiniz.
- İştirakçılar birdən artıq variantı seçə bilərlər, məsələn bullinqə cavab vermək və ya pis rəftar barədə məlumat vermək. Bu halda onlardan ən vacib hesab etdikləri küncə getməyi xahiş edin, sonra isə onlara öz mövqelərini izah etmək imkanı verin.
- Bəzi iştirakçıların (bəlkə də qrupun digər üzvləri tərəfindən) bullinqlə üzləşmiş ola biləcəyini nəzərə almağı unutmayın. Müxtəlif fərdi ehtiyac və ya münaqişələrə qarşı həssas olmalı, istəmədiyi halda heç kimə cavab verməsi üçün təzyiq göstərməməlisiniz.

- İştirakçılar arasında bullinqə məruz qalan varsa, məşğələ onların narahatlıqlarını gün işığına çıxara, əlavə dəstək almalı olduqlarını başa düşmələri ilə nəticələnə bilər. Ya belə bir dəstəyi təmin edə biləcəyinizi izah etməli, ya da iştirakçıları yönəldə biləcəyiniz alternativ dəstək sisteminə malik olmalısınız. Məşğələdən əvvəl mövcud yerli və ya milli xidmətləri, məsələn qaynar xətləri və ya zərərçəkənlər üçün yardım təklif edən təşkilatları araşdıra bilərsiniz.
- İştirakçılar kiberbullinqlə tanış deyillərsə və ya onun zədələyici mahiyyətini anlamırlarsa, həm problem, həm də başqa insanların istifadə etdikləri yanaşmalar barədə məlumatlılığı artırmaq üçün təmin edilən qısa məlumatlardan istifadə edə bilərsiniz. Müvafiq hallarda nifrət nitqi və bullinq arasında paralel aparılmalıdır (xüsusilə də nifrət nitqi bullinqlə birləşdikdə).

### VARİANTLAR

İştirakçıların seçməsi üçün yalnız iki variantın təklif edilməsi ilə məşğələ sadələşdirilə bilər: 'Heç nə etmə', və ya 'nəsə et'. Nişanlar otağın iki tərəfindən yerləşdirilə bilər bundan sonra iştirakçıları seçəcəkləri variantdan asılı olaraq iki nişan arasında yerlərini müəyyən edə bilərlər.

### FƏALİYYƏT ÜÇÜN FİKİRLƏR

İştirakçılar birlikdə qrup məşğələsi barədə qərar qəbul edərlərsə, hər hansı əlavə tədbir daha effektiv ola bilər. Məşğələnin davam etdirilməsi üçün müxtəlif üsulları müzakirə edə bilərsiniz: məsələn, problem barədə məlumatlılığın artırılması (onlayn və ya oflayn), dəstək və ya həmrəylik qrupunun yaradılması, qrup/sinif/məktəb üzrə bullinq əleyhinə siyasətin icrası, "Onlayn bullinqə yox" kampaniyasının yaradılması və s.

**SSENARİLƏR**

| |
|---|
| Tanımadığınız ünvan və ya nömrələrdən çox sayda təhqiramiz e-məktublar və SMS-lər alırsınız. Bəziləri təhdidkar idi: Sanki bullinq tətbiq edənlər sizi tanıyırdılar. Nə edərdiniz? |
| Məktəbdə kimlərsə fotolarınızı redaktə edib, internetdə xoşagəlməz şərhlərlə paylaşıblar. Kimin etdiyini bildiyinizi düşünürsünüz. Nə edərdiniz? |
| Sinfinizə başqa ölkədən bir oğlan gəlib. Dostlarınız onu ələ salırlar, sosial şəbəkələrdə onun haqqında irqçi zarafatlar paylaşmağa başlayıblar. Sizdən israrla zarafatları təkrar paylaşmağı tələb edirlər. Nə edərdiniz? |
| Sinfinizdə bir qrup uşaq sosial media şəbəkələrində sizinlə bağlı incidici şayiələr yayıb. Çox sayda uşaq qətiyyən sizinlə oynamaq və ya danışmaq istəmir. Hətta dostlarınız da şayiələrin həqiqət ola biləcəyini düşünməyə başlayıblar. Nə edərdiniz? |
| Müəllim sinfə bəzi insanları amansızca bullinqə məruz qoyulduğun deyir, bir gənc məktəbdən evə gedərkən hücümə məruz qalıb. Bu haqda məlumatı olanlardan dərsdən sonra onunla təklikdə danışmağı xahiş edir. Bunu kimin etdiyini bildiyinizi zənn etsəniz də, qorxursunuz, çünki xəbərdarlıqlarla dolu çoxlu mesaj alımısınız. Nə edərdiniz? |
| Bir uşağın oyun meydançasında tək dayandığını və ağladığını görürsünüz. Başqa uşaqların öyrənmə məhdudiyyətli olduğuna görə ona sataşdığnı, onu "korazehin", "çirkin donuz" adlandırdıqlarını bilirsiniz. Dostlarınız ən pis davrananlar arasındadırlar və hamınız bir araya gələndə çox vaxt ona gülürlər. Nə edərdiniz? |

*Bu məşğələ uşaqların insan hüquqları təhsili üçün vəsait olan "Kompas"da yer verilən "Bullinq səhnələri" məşğələsindən uyğunlaşıdırılıb – www.coe.int/compass*

SƏVIYYƏ 2

QRUP 12-20

VAXT 45'

# SƏRHƏDSİZ AZADLIQ?

***İştirakçılar bir sıra kazuslar əsasında ifadə azadlığı anlayışını araşdırırlar. Onlar mübahisəli, təhqiramiz və ya potensial baxımdan təhlükəli şərh və ya yazışmalarla nə edəcəklərini qərarlaşdırmalıdırlar.***

| | |
|---|---|
| MÖVZULAR | Ifadə azadlığı, demokratiya və iştirak, insan hüquqları |
| MÜRƏKKƏBLİK | Səviyyə 2 |
| QRUP ÜZVLƏRİNİN SAYI | 12 – 20 |
| VAXT | 45 dəqiqə |
| MƏQSƏDLƏR | • Ifadə azadlığı anlayışını araşdırmaq<br>• Ifadə azadlığının fərdlər və cəmiyyət üçün nə üçün vacib olduğunu başa düşmək<br>• İnsan hüquqlarının qorunması (xüsusilə nifrət nitqi hallarında) üçün ifadə azadlığının məhdudlaşdırılmasını zəruri edən səbəblərə nəzər salmaq |
| MATERIALLAR | • Flipçart və markerlər<br>• Kartların surətləri |
| HAZIRLIQ | • Kartların surətlərini çıxarın (kiçik işçi qrup üçün kifayət edəcək qədər) |

## TƏLİMATLAR:

1. İştirakçılardan "ifadə azadlığının" onlar üçün nə demək olduğunu soruşun. Fikirləri flip-çartda toplayın, bunun üçün iştirakçılar tərəfindən toxunulmadığı təqdirə onları aşağıdakı məqamlardan bir neçəsini müzakirə etməyə dəvət edin:
   - Ifadə azadlığı istədiyimizi deyə biləcəyimizimi bildirir?
   - Müəyyən "ifadələrə" icazə verilməməli olduğunu düşünürsüzsə, sizcə nəyin qadağan edilməli olduğuna necə qərar verə bilərik? Qərarı kim verməlidir?
   - Danışmaq və yazmaq xaricində özümüzü başqa hansı yollarla "ifadə" edirik (musiqi, dram, rəsmlər, bədən dili və s.)?
2. Məsələləri "dərhal" həll etməyə çalışmayın: bəzi rəyləri toplayın və bunların məşğələ müddətində daha ətraflı nəzər salınacaq mübahisə doğuran məsələlər olduğunu izah edin.

3. Kiminsə ev, məktəb və ya ictimai yerlərdə nəsə deməyinin qarşısının alınıb-alınmadığını soruşun. Özünüzü necə hiss etmişdiniz? Öz mövqeyini ifadə edə bilmək sizin üçün nə üçün vacib idi?
4. Ifadə azadlığı haqqında qısa məlumat təmin edin. Aşağıdakı məlumatdan istifadə edin və ya qısa məlumat materiallarından əlavələr edin:

**İFADƏ AZADLIĞI**

Fikir və ya rəylərini ifadə etmək hüququ vacib insan hüququ və beynəlxalq insan hüquqları normalarının bir hissəsidir. Bu hüquq bir tərəfdən düşüncə, rəy və ünsiyyət bacarığı insan olmağın başlıca xüsusiyyətlərindən olduğu üçün, digər tərəfdən ünsiyyət və müzakirə effektiv demokratik cəmiyyətin formalaşdırılmasında mühüm rol oynadığına görə yüksək qiymətləndirilir. Başqalarını başa düşmək və yan-yana yaşaya bilmək üçün açıq və sərbəst ünsiyyətə ehtiyac var - hətta bəzən razılaşmadığımız bir rəyi eşitməli olsaq belə.

Bununla belə, ifadə azadlığı hər zaman məhdudiyyətsiz tətbiq edilən "mütləq" hüquq deyil. Bu hüquq başqalarının hüquqları ilə və ya bütövlükdə cəmiyyətin xeyrinə balanslaşdırılmalıdır. Müəyyən fərdlər üçün son dərəcə zərərli olan və ya cəmiyyətə zərər vermək ehtimalı olan ifadə məhdudlaşdırıla bilər.

5. İştirakçılara kiçik qruplar (4-5 nəfər) daxilində çalışacaqlarını və internetdə başqalarına və onların hüquqlarına zərərli şeylərin paylaşılması hallarının müzakirə ediləcəyini bildirin. Qruplar bunun hər hansı materialın oflayn rejimə daşınmalı, başqa sözlə, ifadə azadlığının məhdudlaşdırılmalı olduğu hallardan biri olub-olmadığı barədə qərar qəbul etməlidirlər.
   - Əgər bu yöndə qərar qəbul edərlərsə: nə və necə daşınmalıdır?
   - Cavabınız xeyrdirsə, səbəbi nədir? Başqa nə edilə bilər, kim tərəfindən?
6. İştirakçıları 4 və ya 5 nəfərlik qruplara bölün və hər bir qrupa nümunələrin bir surətini verin. Hər bir nümunənin müzakirə edilməsi üçün onlara təxminən 20 dəqiqə vaxt verin. Onlar qərarlarını əsaslandırmağa çalışmalıdırlar.

## TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

Qrupların cavablarını soruşa-soruşa hər bir kazusu nəzərdən keçirin. Qəbul edilən qərarların əsaslandığı səbəbləri qısaca müzakirə edin. Əsas məqamları vurğulamaq üçün aşağıdakı suallardan istifadə edin:

- Qrup daxilində razılığa gələ bilmədiyiniz hallar olubmu? Baxışlardakı əsas fərqlər nə idi?
- Paylaşımlara görə kimin cavabdeh olduğunun sizin üçün fərqi var idimi? Neçə nəfərin cavab verdiyinin və ya necə cavab verdiyinin fərqi olurmu?
- Ifadə azadlığının nə vaxt məhdudlaşdırıla biləcəyinə (və ya məhdudlaşdırılmalı olduğuna) dair hər hansı ümumi prinsiplər barədə qənaətə gələ bildinizmi? Həddən çox məhdudlaşdırmanın hansı təhlükələri ola bilər? Həddən çox icazənin hansı təhlükələri ola bilər?
- Sizcə, veb-saytların bağlanması və ya zərərli postların kənarlaşdırılması onlayn nifrət nitqi ilə mübarizədə effektiv üsuldurmu?
- Ölkənizdə insanların onlayn və ya oflayn rejimdə dəyə biləcəklərinə hər hansı məhdudiyyət qoyulurmu? Onlayn ifadə azadlığına hər hansı fərq qoyulurmu?

## FASİLİTATORLAR ÜÇÜN PRAKTİK TÖVSİYƏLƏR

- İştirakçılar nümunələri müzakirə edən zaman onlara nə qədər materialı oflayn rejimə daşıyacaqlarını nəzərə almağı xatırladın. Məsələn, onlar bütöv bir saytı (və ya profili) silmək qərarına gələ və ya bir paylaşımı/videonu silə, paylaşımı edən istifadəçini bloklaya bilərlər və s.
- İştirakçılara Avropa İnsan Hüquqları Məhkəməsinin ifadə azadlığı üzərinə qoyulan məhdudiyyəti çox ciddi addım hesab etdiyini xatırlatmaq faydalı ola bilər! Buna yalnız güclü əsas olduqda yol verilməlidir.
- İştirakçılardan müzakirələrin onların fikrilərini formalaşdırmaqda nə dərəcədə faydalı olduğunu və bunun ifadə azadlığı barədə nələrə işarə ola biləcəyini nəzərə almağı xahiş edə bilərsiniz.
- İnsan hüquqları normalarının, əslində hökumətlərin necə davranmalı olduğunu tənzimlədiyini izah edə bilərsiniz. İnternetdə ifadə azadlığının məhdudlaşdırılması çox vaxt daha mürəkkəb səciyyə daşıyır, belə ki, internet əsas etibarilə özəl şirkətlərə "məxsus"dur (məsələn, özəl hostinq provayderləri, şirkətlərin "məxsus" olduğu xəbər saytları və s.). 5-ci fəsildə ifadə azadlığı barədə qısa məlumat bölməsində təqdim edilən əsas məqamlarla və ya İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisində ifadə azadlığı və informasiya bölməsi ilə tanış olun.
- Məşğələyə başlamazdan əvvəl nümunələrdən hər hansının ölkə qanunvericiliyi çərçivəsində qeyri-qanuni ola bilb-bilməyəcəyini araşdırın.
- Məşğələni nümunələrə münasibətdə başqa tədbir üsullarını götür-qoy etməklə sonlandırmaq faydalı ola bilər. Fəaliyyətlər barədə bəzi təkliflərlə tanış olmaq üçün 2-ci fəsildə "Nifrət nitqinə yox hərəkatı" haqqında materiala istinad edin. İştirakçılara təhqiramiz materialın və ya saytın silinməsinin yeganə cavab tədbiri olmadığını xatırladın! İnternetdə yerləşdirilən materialların həcmi nəzərə alındıqda, bunun təcrübədə tətbiqi çox çətin ola bilər.

## VARİANTLAR

Kazuslar rol oyunu kimi oyanan bilər: hər bir kiçik qrup ssenarilərdən birini hazırlaya və başqalarına təqdim edə bilər. Bundan sonra ən müvafiq tədbir barədə müzakirə bütün qrupla birlikdə aparıla bilər.

## FƏALİYYƏT ÜÇÜN FİKİRLƏR

İştirakçılar parlament nümayəndələrini nə dərəcədə yaxşı tanıyırlar? Onlar nümayəndənin azlıqlar və ya başqa həssas qruplar haqqında ictimai bəyanatlarını araşdıra, daha sonra onu dəstəkləmək və ya onunla razılaşmadıqlarını göstərmək üçün fikirlərini qələmə ala bilərlər. Qrupun hər üzvü adından yazılan bir məktuba hətta cavab da verilə bilər!

İştirakçılar həmçinin müvafiq milli hakimiyyət orqanlarına onlayn nifrət nitqi barədə necə məlumat verə biləcəklərini araşdıra bilərlər. Faydalı resurs ola bilər: fohttps://www.coe.int/en/web/no-hate-campaign/reporting-to-national-bodies

Hər hansı iştirakçı internetdə irqçi paylaşımla rastlaşdıqda görülə biləcək mümkün tədbirləri qrupla müzakirə edin. Birlikdə iştirakçıların internetdə onlayn nifrət nitqi ilə qarşılaşdıqda istifadə edə biləcəkləri bəzi arqument və qısa mesajları hazırlayın.

## MÜZAKİRƏ ÜÇÜN NÜMUNƏLƏR

1. "Millətimizi geri tələb edək" adlı qrup "ənənəvi dəyərlərə" iddia edən veb-sayt tərtib edir. Postların çoxu irqçi səciyyə daşıyır. Sayt xeyli sayda şərh və qızğın müzakirələri cəlb edir. Bəzi müzakirələrdə çox təhqiramiz ifadələrdən istifadə edilir, lakin saytda irqçi ideologiyaya etiraz edən şərhçilər ordusu mövcuddur.
   - Real həyatda nəsə edilməlidirmi? Lazımdırsa, hansı miqyasda və niyə?
   - Ehtiyac yoxdursa, başqa nə edilə bilər?

2. Nikolay adlı siyasətçi şəxsi veb-saytından qaraçı icmasının onun seçki dairəsindən çıxarılmasına çağırış etmək və cinayət səviyyəsinin yüksək olmasına görə onları günahlandırmaq üçün istifadə edir. Onun çağırışlarından sonra ölkə ərazisində qaraçılar bir neçə hücuma məruz qalıblar. KİV-lərin çoxu qaraçılar tərəfindən törədilən cinayətləri işıqlandırsa da, onlara qarşı törədilən cinayətlərə yer ayırmır.
   - Real həyatda nəsə edilməlidirmi? Lazımdırsa, hansı miqyasda və niyə?
   - Cavabınız xeyrdirsə, səbəbi nədir? Başqa nə edilə bilər?

3. Rori şəxsi bloqunda tanınmış siyasətçilərdən birinin əllərindən qan damlayan, ətrafı ölülərlə dolu karikaturasını paylaşır. Çox insan şərh yazır və əsas etibarilə karikaturanı dəstəkləyir.
   - Real həyatda nəsə edilməlidirmi? Lazımdırsa, hansı miqyasda və niyə?
   - Cavabınız xeyrdirsə, səbəbi nədir? Başqa nə edilə bilər?

4. Ella öz profilində əlilliyi olan şəxsləri ələ salan, onları səriştəsiz "gəlmə" varlıqlar kimi təsvir edən video paylaşır. Saytın statistikası göstərir ki, videoya demək olar ki, heç kim baxmayıb və qonaqlar heç bir şərh yazmayıblar.
   - Real həyatda nəsə edilməlidirmi? Lazımdırsa, hansı miqyasda və niyə?
   - Cavabınız xeyrdirsə, səbəbi nədir? Başqa nə edilə bilər?

5. Jurnalist videonu (4-cü nümunədə) görür və Ellanın profilinin sosial media saytından silinməsi üçün kampaniya başladır. Nəticədə videoya minlərlə dəfə baxılır. İnsanlar "bu gördüyüm ən yaxşı videodur", "əlilliyi olan şəxslərə realist yanaşmağa başlamalıyıq" və s. kimi şərhlər yazmağa başlayırlar.
   - Real həyatda nəsə edilməlidirmi? Lazımdırsa, hansı miqyasda və niyə?
   - Cavabınız xeyrdirsə, səbəbi nədir? Başqa nə edilə bilər?

6. Ditta adlı məşhur onlayn xəbər saytında transgender qadınların "insanlığa qarşı təhqir" olduğunu iddia edən məqalə paylaşır. 'Dittanı vur' adlı veb-sayt yaradılır. Veb-saytda onun şəxsi həyatının təfərrüatları yerləşdirilir. O, yüzlərlə alçaldıcı e-məktub və tvit almağa başlayır. Bəzilərində hətta təhdid edilir.
   - Real həyatda nəsə edilməlidirmi? Lazımdırsa, hansı miqyasda və niyə?
   - Ehtiyac yoxdursa, hansı səbəbə görə? Başqa nə edilə bilər?

NO HATE

NO HATE SPEECH MOVEMENT

SƏVIYYƏ 4

QRUP 12-24

VAXT 60'

# QRUP X

***İştirakçılar Avropa İnsan Hüquqları Konvensiyasında təsbit edilən hüquqları gənc qaraçıların tez-tez üzləşdiyi pis rəftar halları ilə uyğunlaşdırırlar.***

| | |
|---|---|
| MÖVZULAR | İrqçilik və ayrı-seçkilik, insan hüquqları, şəxsi həyat və toxunulmazlıq |
| MÜRƏKKƏBLİK | Səviyyə 4 |
| QRUP ÜZVLƏRİNİN SAYI: | 12 – 24 |
| VAXT: | 60 dəqiqə |
| MƏQSƏDLƏR | • Nifrət nitqi qurbanlarının neçə başqa insan hüquqlarından da məhrum edildiyini nəzərdən keçirmək<br>• Qaraçıların hüquqları və onların tez-tez üzləşdirkləri insan hüquqları pozuntuları barədə məlumatlılığı yüksəltmək<br>• Avropa İnsan Hüquqları Konvensiyasında (AHİK) təsbit edilən hüquqları real pozuntu nümunələri ilə əlaqələndirmək |
| MATERİALLAR | • X qrupu barədə məlumatın surətləri (hər bir kiçik qrup üçün bir nüsxə)<br>• AİHK-in bir neçə nüsxəsi (qısaldılmış variant). Hər bir kiçik qrup üçün azı 2 nüsxə lazım olacaq<br>• Flipçart kağızı və markerlər<br>• Qayçı və yapışqan (istəkdən asılı olaraq) |
| HAZIRLIQ | • Hər bir kiçik qrup üçün bir flipçart vərəqi hazırlayın. X qrupu haqqında məlumatı flipçart kağızının ortasına yapışdırın. |

## TƏLİMATLAR

1. X qrupu haqqında hekayəni oxuyun (səh.83). Hekayədəki bütün nümunələrin müəyyən bir azlığı təmsil edən, öz ölkəsi olmayan və dünyanın çoxsaylı ölkələrində mövcud olan insanların yaşadıqları səciyyəvi təcrübələr olduğunu izah edin. İştirakçılara söhbətin hansı azlıqdan getdiyini təxmin etmək şansı verin və daha sonra nümunələrin qaraçıların bütün Avropa ölkələrində yaşadıqları səciyyəvi təcrübələri əks etdirdiyini təsdiq edin.

2. İştirakçılardan mətnə qısaca münasibət göstərməyi xahiş edin. Nümunələrin əksəriyyətinin Avropanın hər bir ölkəsində insan hüquqları normaları çərçivəsində qeyri-qanuni olduğunu izah edin. Zəruri olarsa, iştirakçıların ümumilikdə insan hüquqları və xüsusilə AİHK barədə biliklərini yeniləyin. Təmin edilən qısa məlumatdan istifadə edin (səh. 215).
3. İştirakaçıların kiçik qruplar daxilində çalışacaqlarını (4-5 nəfər mətndəki nümunələri Konvensiyaya daxil olan hüquqlarla uyğunlaşdırmaq üçün AHİK-in qısaldılmaış variantından istifadə edəcəklərini izah edin .
4. AİHK-in surətlərini hər kəsə paylayın və iştirakçılar xatırlatmaya ehtiyac duyarsa, onu oxuyun. Hüquqların məzmunu ilə əlaqədar hər hansı suala cavab verin.
5. İştirakçılardan təxminən 5 nəfərdən ibarət kiçik işçı qruplar yaratmağı xahiş edin və hər bir qrupa X qrupu barədə mətn ilə birlikdə bir flipçart vərəqi təqdim edin. Uşağın hekayəsindən məqamların konkret bir insan hüququ ilə bağlılıqlarını flipçart vərəqəsində, mətnin kənarında işarələnməyi xahiş edin.
6. Uyğunlaşdırmanın tamamlanması üçün təqribən 20 dəqiqə vaxt ayırın. Sonda flipçart vərəqini divara yapışdırın və iştirakçılara başqa qrupların işinə baxmaq imkanı verin - hər hansı bənzərlik və ya fərqləri qeyd edin.
7. Təhlil və qiymətləndirməyə keçin.

### TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

İştirakçıları qrupa qaytarın və məşğələ barədə təhlil və qiymətləndirmə üçün aşağıdakı suallardan istifadə edin.

- Qaraçı icmasının üzvlərinin tez-tez yaşadığı müxtəlif hüquq pozuntularının sayı sizi təəccübləndirdimi? Bu nümunələrdən hər hansının/hamısının ölkənizdə təkrarlandığını düşünürsünüzmü?
- Heç qaraçı icmalarına qarşı təhqiramiz nitq nümunələri ilə qarşılaşmısınızmı? İnternetdə belə bir şeylə rastlaşmısınızmı?
- Kiminsə sosial profilində qaraçılar haqqında son dərəcə xoşagəlməz şərhlə qarşılaşdığınızı təsəvvür edin: bu halda nə edərdiniz? Sizcə, insanlar belə şərhlərə etiraz etməyə və ya əvəzində müsbət hekayələr paylaşmağa başlasa, vəziyyət dəyişərmi?

İştirakçıların qaraçılar barədə hər hansı qərəzli münasibətinin olub-olmadığını öyrənmək üçün aşağıdakı suallardan istifadə edin:

- AİHK və UİHB-ni tərtib edənlər heç vaxt kiminsə haqqında mənsub olduğu "qrup" əsasında mülahizə yürütməməli olduğumuzu düşünürdülər. Razısınızmı?
- Uşağın hər bir icmada cinayətkarların olduğu, lakin onlardan bir icma daxilində hər kəsin cinayətkar olduğunu demək üçün istifadə olunmadığına dair şərhi haqqında nə düşünürsünüz? "Bütün qaraçıları" tanımırıqsa, niyə "bütün qaraçılar" deyirik?
- AİHK-i tərtib edənlər həmçinin düşünürdülər ki, necə davrandıqlarından asılı olmayaraq, bəzi hərəkətləri heç kimə qarşı nümayiş etdirməməliyik. Razısınızmı?
- Daim icmanın başqa üzvlərinin pis rəftarına məruz qalsaydınız, özünüzü necə hiss edərdiniz? Necə davranardınız?
- Qaraçı icmalarının həyatı haqqında nə bilirsiniz? Onların qarşılaşdıqları problemlər haqqında necə?

## FASİLİTATORLAR ÜÇÜN PRAKTİK MƏSLƏHƏTLƏR

- Çox sayda iştirakçının qaraçılara qarşı güclü qərəzli münasibətinin olduğunu görə bilərsiniz. Qruplar flipçartlar üzərində işləyənə qədər bunu müzakirə etməməyə çalışın. Məşğələdən sonra suallardan bir neçəsindən təhlil və qiymətləndirmə bölməsində nəzər salmaq üçün istifadə edin.
- Qruplar flipçartlar üzərində işləyən zaman, insan hüquqları ilə bağlılıqları təsvir etmək üçün hər hansı metoddan istifadə edə biləcəklərini söyləyin: məlumat vərəqələrini kəsə, yaxud kartları kəsə və flipçart vərəqinə yapışdıra bilərlər. Yaxud maddələri yazmaq, oxlar çəkmək və s. üçün markerlərdən istifadə edə bilərlər. Müəyyən hüquqlara aid kartlar qurtararsa, əlavə bağlılıqları təsvir etmək üçün təxəyyüllərindən istifadə etməyi xahiş edin!
- Əslində, bu hekayət qaraçı uşaq tərəfindən danışılmayıb, lakin haqqında danışılan nümunələrin hər biri demək olar ki hər bir Avropa ölkəsi üçün çox realdır. Təsvir edilən pis rəftar halları haqqında daha ətraflı danışmaq üçün sondakı elektron keçidlərin bəzilərindən istifadə edə bilərsiniz.
- İştirakçılara AİHK yalnız bəzi insan hüquqlarını əhatə etdiyinə görə sahib olduğumuz bütün insan hüquqlarının kartlara daxil edilmədiyini izah edə bilərsiniz. Onlar insan hüquqlarının daha müfəssəl siyahısı üçün ÜİHB-ə istinad edə bilərlər.
- Hazırlanmış flipçartlar haqqında rəylər üçün "Əlaqəli hüquqlar" adlı resurs vərəqəsindən istifadə edin (səh. 84). Hekayədəki pis rəftar hallarının çoxunun birdən artıq hüquqla əlaqəli olduğunu və onların demək olar ki, hər birinin ayrı-seçkiliyin yol verilməzliyi hüququ ilə bağlılığı olduğunu qeyd edin.
- İştirakçılara insan hüququ pozuntularının "normal" cinayətlərdən bir qədər fərqləndiyini: onların hökumətlərin və ya müəllim, polis məmuru və ya həbsxana rəsmisi kimi vəzifəli şəxslərə şamil edildiyini xatırladın. Dövlət məmurları insanlarla pis rəftar etməmək, eyni zamanda onların başqaları tərəfindən pis rəftara məruz qalmamasını təmin etmək öhdəliyi daşıyırlar. Pozuntu barədə şikayətə ciddi yanaşmayan polis məmuru insan hüquqları ilə bağlı öhdəliklərini yerinə yetirməmiş sayıla bilər.

## VARİANTLAR

Bu məşğələdə Avropa Konvensiyası (AİHK) əvəzinə Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (ÜİHB) istifadə edilə bilər.

## FƏALİYYƏT ÜÇÜN FİKİRLƏR

İştirakçılardan qaraçıların ölkələrindəki vəziyyətini araşdırmağı xahiş edin. Müxtəlif qruplar müxtəlif mövzular üzərində çalışa bilərlər.

Alternativ olaraq, iştirakçılar tez-tez daxil olduqları saytları yoxlaya, orada qaraçılar haqqında yazılan mənfi rəyləri axtara bilərlər. Onlar fəaliyyətlərini davam etdirmək üçün nifrət nitqi ilə əksinə və alternativ mesajlarla mübarizə haqqında "Biz bacararıq" vəsaitindən istifadə edə bilərlər. İştirakçıları qaraçı xalqının Avropadakı keçmiş və hazırki vəziyyəti ilə tanış etmək üçün Avropa Şurası tərəfindən hazırlanmış, Qaraçı tarixi barədə məlumat vərəqəsindən istifadə edə bilərsiniz. Ətraflı məlumat üçün: www.coe.int/t/dg4/education/roma/histoCulture_en.asp

Həmçinin qaraçılar əleyhinə təlim barədə ətraflı məlumat əldə edə, məşğələnizi antigipsizmlə insan hüquqlarının təhsili vasitəsilə mübarizə vəsaiti olan "Güzgülər"dən istifadə etməklə davam etdirə bilərsiniz: https://www.coe.int/en/web/youth-roma/mirrors

**QRUP X**

Mən X qrupuna mənsub olan uşağam. Məktəbdə məni qaraçı uşaqlar üçün xüsusi sinfə yerləşdiriblər. Bizə 'normal' siniflərə getməyə icazə vermirlər. X qrupuna aid olduğuma görə mən – eləcə də dostlarım başqa uşaqlar tərəfindən bullinqə məruz qalırıq. Müəllimlər buna qarşı heç bir tədbir görmürlər. Bəzi müəllimlər hətta bizə sataşırlar. Onlar heç vaxt cəzalandırılmırlar. Bilirəm ki, bir ölkədə X qrupunun bütün uşaqları öyrənmə məhdudiyyəti olan uşaqlar üçün nəzərdə tutulmuş məktəbə göndəriliblər.

İnsanlar bizi ətraflarında görmək istəmirlər. Onlar bizi heç tanımırlar da, sadəcə üstümüzə qışqırır, bizi döyürlər, çünki bizi öz təsəvvürlərindəki insanlar zənn edirlər. Biz isə sadəcə uşağıq, onlar kimi. Kimsə üstümüzə qışqıranda, ya da bizi döyəndə necə hərəkət etməliyik? Buna görə onları xoşlamalıyıq?

Polisə müraciət etdikdə, polis çox vaxt qulaq asmır. Deyirlər ki, çox güman bizim təqsirimiz olub, çünki biz hər zaman problem yaradırıq. Haradan bilirlər? Elə bilirdim, buna qərar vermək məhkəmənin işidir. Küçələrdə polis bizi heç bir səbəb olmadan dayandırır. Nəyisə oğurladığımızı düşündüklərini, üstümüzü axtarmalı olduqlarını deyirlər. Bəzən məni həftədə 6 dəfə dayandırırlar, mənsə heç vaxt heç nə oğurlamamışam.

İcmamınızın həbsxanada olan üzvlərindən həbsxana işçilərinin onları döydüyünü eşitmişəm. Başqa bir insanı döyən insan nəyə görə cəzalandırılmamalıdır? Hətta həbsxana işçiləri də qanuna əməl etməlidirlər.

Keçən yay əleyhimizə mahnılar oxuyan bir qrup eyni geyimli insan kəndimizə yürüyüş etdi. Hamınız dəhşətli dərəcədə qorxmuşduq və evlərimizə girib qapılarımızı kilidlədik. Onlar evlərimizi daşladılar və onları kənarlaşdırmaq istəyən bir neçə gənci döydülər. Polis heç nə etmədi ...

Hökumət üzvləri tez-tez bizi təhqir edirlər, sanki X qrupundan hər kəs eynidir, X qrupunda hər kəs cinayətkardır. Deyilik. Hər icmada cinayət törədən insanlar var. Hökumət bir neçə şəxs cinayət törətdiyinə görə başqa icmaların bütün üzvlərini təhqir etmir. Niyə görə onlar sadəcə hamı kimi olan X qrupu haqqında müsbət hekayətlər danışa bilmirlər?

Televiziya və internetdə insanlar haqqımızda istədiklərini deyirlər. Onlayn qruplarda insanların bizi çirkli və ya axmaq adlandırdıqlarını və ya haqqımızda daha da dəhşətli fikirlər söylədiklərini görməkdən yorulmuşam. Ölkədən çıxmalı, evimizə getməli, hamı kimi işləməli olduğumuzu deyirlər. Atam işləməyi çox istərdi. X qrupundan olduğuna görə onu heç kim işə götürmür.

Biz necə yaşamalıyıq? Hər kəs bizi tanımadığı halda haqqımızda dəhşətli şeylər danışırsa, özümüzü necə hiss etməliyik? Çətindir: bəzən üstümə qışqıra və ya məni döyə biləcəklərinə görə küçəyə çıxmaq istəmirəm.

## PAYLANMAQ ÜÇÜN MATERİAL

### ƏLAQƏLİ HÜQUQLAR

Bütün nümunələrin ayrı-seçkiliyə məruz qalmamaq hüququ ilə bağlılıq ehtimalı yüksəkdir (13-cü maddə və ya 12 saylı protokol). Aidiyyəti ola biləcək digər hüquqlar:

| | |
|---|---|
| Qaraçı uşaqları üçün xüsusi siniflər və ya məktəblər | Protokol 1, Maddə 2 |
| Müəllimlərin uşaqlara sataşması | 8-ci maddə (Şəxsi həyata hörmət). Pozuntu çox ciddidirsə, bəlkə də 3-cü maddə. Təhsilə təsirdən söhbət gedirsə 1 saylı protokol, 2-ci maddə |
| Müəllimlərin "cəzalandırılmaması" | Heç kim şikayətləri ciddi qəbul etmirsə, 8-ci maddə (və ya pis rəftar xüsusilə amansızdırsa, 3-cü maddə). Ehtimal ki, 1 saylı protokol 2-ci maddə |
| Qaraçılara "qışqıran" insanlar, qaraçıların yaşadığı kəndə yürüyüş edən insanlar | Pis rəftar xüsusilə amansızdırsa, müntəzəm olaraq baş verirsə və polis buna qarşı heç nə etmirsə, 8-ci maddə |
| İnsanların onları döyməsi | Polis şikayətlərə cavab vermirsə, ehtimal ki, 8-ci maddə. Xüsusilə amansız döyülmə halında və müntəzəm olaraq baş verdikdə, 3-cü maddə |
| Polisin şikayətlərə məhəl qoymaması | Şikayətin ciddiliyindən asılı olaraq, 8-ci və ya 3-cü maddə. İnsanların həyatına qarşı hər hansı təhdid mövcuddursa, 2-ci maddə |
| Polisin qaraçıları saxlayıb üstlərini axtarması | İnsanlar çox tez-tez heç bir səbəb olmadan saxlanırlarsa, 5-ci maddə (azadlıq). Həmçinin 8-ci maddə (Şəxsi həyat) |
| Həbsxana işçilərinin qaraçıları döyməsi | Şiddətli döyülmə halında 3-cü maddədə tətbiq edilə bilər. Həmçinin maddə 8 |
| Həbsxana işçilərinin "cəzalandırılmaması" | Şiddətli döyülmə halında 3-cü maddədə tətbiq edilə bilər. Həmçinin maddə 8 |
| Hökumət üzvlərinin qaraçıları təhqir etməsi | Pis rəftar xüsusilə amansızdırsa və başqalarının qaraçılarla rəftarına təsir edirsə 8-ci maddə |
| İnternetdə/KİV-də pis rəftar | Bu, insan hüquqlarının ciddi pozuntusu olmaya bilər, çünki hərəkətə görə cavabdeh olan dövlət qulluqçusundan söhbət getmir Pis rəftar xüsusilə amansız olmalı, rəsmi şikayət mövcud olmalı, dövlət rəsmiləri məsələyə laqeyd yanaşmış olmalıdırlar. |
| "Qaraçı olduğuna görə" iş tapa bilməmək | Xüsusilə hər hansı dövlət təşkilatı qaraçı olduğuna görə kimisə işə qəbul etməkdən imtina edirsə - 8-ci maddə |
| Küçəyə çıxmaqdan qorxmaq | Küçələrdə qaraçı uşaqlara qarşı real təhlükə varsa və polis bu barədə heç nə etmirsə - 8-ci və ya 3-cü maddə (ya da 2-ci maddə) |

SƏVIYYƏ 3

QRUP 6+

VAXT 60'

# ONLAYN İNSAN HÜQUQLARI BARƏDƏ VİKTORİNA

***Məşğələ onlayn insan hüquqları barədə viktorinadan ibarətdir. İştirakçıların İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisindən istifadə etməklə onlayn hüquqlarını öyrənmələrinə kömək edir.***

| | |
|---|---|
| MÖVZULAR | İnsan hüquqları |
| MÜRƏKKƏBLİK | Səviyyə 3 |
| QRUP ÜZVLƏRİNİN SAYI | 6 və daha çox |
| VAXT | 60 dəqiqə |
| MƏQSƏDLƏR | • İnsan hüquqlarının internetdə necə tətbiq edildiyini başa düşmək<br>• İnsan hüquqlarının universallığı haqında təsəvvür əldə etmək<br>• Onlayn dünyada insan hüquqlarının müdafiəsi barədə götür-qoy etmək |
| MATERİALLAR | • Paylanmaq üçün material<br>• İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisi<br>• Qələm və ya sadə qələmlər, hər qrup üçün bir ədəd |
| HAZIRLIQ | Hər bir qrup üçün paylanacaq materialların bir surətini çıxarın, iştirakçılar üçün Bələdçini çap edin və onların kompüterlərdən istifadə imkanının olduğundan əmin olun. |

## TƏLİMATLAR

Başlamaq üçün material (istəkdən asılı olaraq) (insan hüquqları ilə tanış olmayan qruplar üçün)

1. İştirakçılardan insan hüquqları dedikdə, nə başa düşdüklərini soruşun. Flipçartda təkliflər yazın və zəruri olarsa, əlavə suallarla köməklik göstərin. Məsələn:
   - Kimin insan hüquqları var?
   - Hər hansı insan hüququnu qeyd edə bilərsinizmi?
   - İnsan hüquqların mənbəyi haradır?
   - İnsan hüquqları onlayn rejimdə tətbiq edilirmi?

2. İnsan hüquqlarının qısa icmalarını təqdim edin, məsələn:

*İnsan hüquqları hər kəs üçündür və onlar "hökumətlər üçün normalardır". İnsan hüquqları başqa amillərlə yanaşı hökumətlərin fərdlərin ədalətsiz rəftar, ekstremal pis rəftar və zorakılıqdan qorunmalı olduğunu nəzərdə tutur. İnsan hüquqları vacibdir, çünki onlar bizi qoruyurlar. Eyni zamanda insan hüquqları o deməkdir ki, başqaları ilə onların hüquqlarına zidd qaydada davranmamalıyıq.*

### ƏSAS MƏŞĞƏLƏ

1. Məşğələnin onlayn insan hüquqları barədə viktorinadan ibarət olduğunu, onlayn insan hüquqlarının öyrənilməsi üçün komanda oyunun keçiriləcəyini izah edin.
2. İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisinin sadələşdirilmiş variantını paylayın və ya vəsaitə elektron link təmin edin. İştirakçılara onu oxumaq üçün vaxt verin və başa düşmədikləri hər hansı hüquq olub-olmadığını soruşun.
3. Hər kəs hazır olanda qrupu 2-6 nəfərlik komandalara bölün. Materialları hər bir komandaya paylayın.
4. İştirakçılara viktorinanı komanda şəklində oynayacaqlarını və cavabları kağıza yazmaq üçün bir nəfər seçməli olduqlarını bildirin. Sualların mənbəyi kimi Bələdçidən istifadə etməklə viktorinanın tamamlamaq üçün 30 dəqiqə vaxtlarının olduğunu bildirin.
5. Viktorina tamamlandıqdan sonra iştirakçılarla birlikdə düzgün cavabları nəzərdən keçirin və ən yaxşı komandanı müəyyən edin. Düzgün cavablar: 1B, 2A və B, 3B, 4C, 5A, 6B, 7B, 8C, 9C, 10B, 11C, 12C, 13A, 14B.

## TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ:

### VİKTORİNA BARƏDƏ DÜŞÜNCƏLƏR:

- Ən çətin suallar hansılar idi? Niyə?

### İNSAN HÜQUQLARI HAQQINDA DÜŞÜNCƏLƏR:

- Hansısa hüququ başa düşmək sizin üçün xüsusilə çətin oldumu?
- Sizcə, bu hüquqlardan hər hansı olmadan keçinmək mümkündürmü? Mümkündürsə, bu hansı hüquqdur?
- Sizcə, bu hüquqlar "real" həyatla yanaşı onlayn dünyaya da şamil edilirmi? Bu hüquqlardan bəzilərinin onlayn fəaliyyətə tətbiq edilə biləcəyi nümunələr ağlınıza gəlirmi?
- Sizcə, internetdə insan hüquqlarına hörmət edilirmi?

### NİFRƏT NİTQİ HAQQINDA DÜŞÜNCƏLƏR:

- Nifrət nitqinin hər hansı qrup və ya qrup üzvünə qarşı yönələn, çirkin, incidici, qrup üzvlərinə qarşı zorakı tədbirləri təşviq etmək ehtimalı olan hər hansı nifrət "ifadəsi" olduğunu qısaca izah edin. İzah üçün bir neçə nümunə gətirməyi xahiş edin.
- Viktorinadakı hansı hüquqları nifrət nitqinə aidiyyəti ola bilər? Niyə?
- Onlayn nifrət nitqinin hədəfi olsaydınız, ən çox hansı hüquqlara ehtiyacınız ola bilərdi?
- Onlayn nifrət nitqinin yayılması barədə nə edilə bilər?

## PAYLANMAQ ÜÇÜN MATERİAL

### FASİLİTATORLAR ÜÇÜN PRAKTİK MƏSLƏHƏTLƏR

- İştirakçılar hüquqları iki nəfərlik qruplarla izah etməyə çalışa bilərlər. Onlara hüquqların nə demək olduğunu müzakirə etmək üçün vaxt vermək faydalı olsa da, bu, məşğələnin müddətini uzada bilər.
- Məsələləri daha hərtərəfli araşdırmaq üçün düşüncələri bir və ya iki sahə üzərində cəmləşdirə bilərsiniz.
- İnsan hüquqları və onlayn insan hüquqları haqqında daha ətraflı məlumatı 5-ci fəsildəki qısa məlumat bölməsindən əldə edə bilərsiniz.
- Qısa məlumat bölməsinə baxmaqla Bələdçi ilə əlaqədar mövzular barədə daha çox məlumat əldə edə bilərsiniz.

### FƏALİYYƏT ÜÇÜN FİKİRLƏR

İnsan hüquqlarının onlayn rejimdə necə tətbiq edildiyi barədə məlumatlılığı artırmaq üçün Bələdçi haqqında status və ya bloq yazısı yazın.

**I HİSSƏ: GİRİŞ**

1. Bələdçi nə vaxt nəşr edilib?

   A. 1990
   B. 2014
   C. 2010.

2. Bələdçi nə üçün hazırlanıb?

   A.İnternet istifadəçiləri üçün vasitə təmin etmək
   B.Onlayn insan hüquqları haqqında məlumatlığın artırılması
   C.İnsanların daha çox oxumasını təmin etmək üçün

3. 3. Bələdçi aşağıdakılara əsaslanır:

   A. Avropa İttifaqı Lissabon müqaviləsi
   B. Avropa İnsan Hüquqları Konvensiyası
   C. Yaxşı fikirlər toplusu.

4. Bələdçinin təlimatlarına kim əməl etməlidir?

   A. Yalnız Aİ-yə üzv dövlətlər
   B. Dünyanın bütün ölkələri
   C. Avropa Şurasına üzv olan bütün dövlətlər.

5. Avropa İnsan Hüquqları Konvensiyasının funksiyası nədir?

   A. İnsan hüquqlarına təminat verir
   B. İnsanları inandırır
   C. Yalnız böyüklərin hüquqlarına təminat verir.

6. İnsan hüquqları kimə məxsusdur?

   A. Yaxşı davranış nümayiş etdirmiş şəxslər
   B. Hər kəs
   C. Yalnız vergilərini ödəyən insanlar.

PAYLANMAQ ÜÇÜN MATERİAL

## II HİSSƏ: MÜYƏSSƏRLİK VƏ AYRI-SEÇKİLİYİN YOLVERİLMƏZLİYİ / İFADƏ AZADLIĞI VƏ İNFORMASİYA / TOPLAŞMA, BİRLƏŞMƏ VƏ İŞTİRAK

7. İnternetdə gəzişən və ya müxtəlif sosial şəbəkə kanallarından istifadə edərkən ayrı-seçkiliyə məruz qalmamalısınız, çünki
   A. Məsələn, gözünüzün rəngi
   B. Cinsiniz və diliniz
   C. Smartfon və ya kompüterdən istifadə.
8. Onlayn ifadə azadlığı nə deməkdir?
   A. İfadə azadlığına malik olmaq, lakin yalnız yazıda
   B. Müəyyən kanallarda özünü ifadə etmək azadlığı
   C. Onlayn rejimdə özünü ifadə etmək və məlumat əldə etmək azadlığı.
9. Aşağıdakılardan hansı ifadə azadlığına daxil deyil?
   A. Başqalarını alçalda, sarsıda və ya narahat edə biləcək rəy və ifadələr
   B. Siyasi nitq
   C. Din haqqında fikirlər
   D. Ayrı-seçkilik, nifrət və ya zorakılığa təhrik edən ifadələr.
10. Onlayn iştirak hüququna malik olmaq nə deməkdir?
   A. Hər hansı veb-sayt və ya proqramı seçmək azadlığı, lakin eyni zamanda yalnız dörd yerdə iştirak etmək
   B. Sosial qruplara və ya yığıncaqlara qoşulmaq, səfərbərlik və iştirak məqsədilə hər hansı veb-saytı, proqramı və ya başqa xidməti seçmək və/və ya yaratmaq azadlığı
   C. Hər hansı veb-sayt və ya proqramı seçmək azadlığı, lakin onlayn etiraz etməyə icazənin verilməməsi

**III HİSSƏ: ŞƏXSI HƏYAT VƏ MƏLUMATLARIN QORUNMASI / TƏHSIL VƏ SAVAD / UŞAQLAR VƏ GƏNCLƏR / SƏMƏRƏLI HÜQUQI MÜDAFIƏ VASITƏLƏRI**

11. Bələdçiyə əsasən hər kəsin təhsil hüququ var. "Onlayn" nə deməkdir?
    A. Məsələn, hər uşaq ev tapşırığını kompüterdə yerinə yetirməlidir
    B. Məsələn, hər kəsin onlayn qəzetlərə çıxışı olmalıdır
    C. Məsələn, hər kəsin onlayn kurslara və rəqəmsal təhsilə çıxışı olmalıdır
12. Kim internetdən istifadə ilə əlaqədar xüsusi müdafiə və bələdçilik hüququna malikdir?
    A. Hər kəs
    B. Yalnız uşaqlar və 14-16 yaşlı gənclər
    C. Uşaqlar və gənclər
13. İnternet provayderləri
    A. insanlara insan hüquqlarının pozulması barədə məlumat vermək və şikayət təqdim etmək üsulları barədə izahat vermək
    B. insanlara baş vermiş ayrı-seçkilik hallarının sayı barədə məlumat verməlidirlər
    C. insanlara hər bir şirkətdə nə qədər insanın çalışdığı barədə məlumat verməlidirlər.
14. Internetdən istifadə etməklə və ya internetdə törədilən cinayətlərdən qorunmaq üçün müraciət etməli olduğunu ilk instansiya hansıdır?
    A. Beynəlxalq səlahiyyətli orqanları
    B. Milli səlahiyyətli orqanlar
    C. Avropa orqanları.

SƏVIYYƏ 3

QRUP
Hər hansı

VAXT
45'

# ONLAYN İŞTİRAK

***Bu məşğələ iştirakçılara internetdən necə istifadə etdiklərini, onlayn iştirak səviyyələrini anlamağa kömək edir. İştirakçılar onlayn iştirak səviyyələrini müəyyən edəcək və ölçəcək, həmçinin gələcəkdə internetdə oynamaq istədikləri rolu planlaşdıracaqlar. İştirakçılar həmçinin nifrət nitqini necə ələ almalı olduqlarını, onlayn insan hüquqlarını daha effektiv şəkildə qorumağın yolunu öyrənəcəklər***

| | |
|---|---|
| MÖVZULAR | İnternet savadı, şəxsi həyat və toxunulmazlıq, insan hüquqları |
| MÜRƏKKƏBLİK | Səviyyə 3 |
| QRUP ÜZVLƏRİNİN SAYI | Hər hansı |
| VAXT: | 45 dəqiqə |
| MƏQSƏDLƏR | • Onlayn iştirak səviyyəsini və rolları müəyyən etmək<br>• Nifrət nitqini necə ələ alınmalı olduğunu, onlayn insan hüquqlarını daha effektiv şəkildə qorumağın yolunu öyrənmək<br>• Onlayn nifrət nitqinə qarşı hərəkət edən zaman meydana gələ biləcək riskləri başa düşmək |
| MATERİALLAR | • Böyük karton kağızlar<br>• Flipçart kağızı<br>• Rəngli qələmlər / markerlər<br>• Post-itlər<br>• İştirak nərdivanının surətləri |
| Hazırlıq | • Onlayn rolların əks olunduğu iri kartları hazırlayın və döşəməyə qoyun. Onlara yaradıcı, söhbətsevər/müzakirəçi, tənqidçi, toplayıcı, "qoşulan", tamaşaçı, qeyri-fəal və üzv kimi rollar yaza bilərsiniz.<br>• Paylanacaq materialın surətini çıxarın. |

## TƏLİMATLAR

1. İştirakçılara kartları döşəməyə yerləşdirdiyinizi, bütün kartların fərqli rolları əks etdir-

diyini izah edin: yaradıcı, söhbətsevər/müzakirəçi, tənqidçi, toplayıcı, "qoşulan", tamaşaçı, qeyri-fəal və üzv. Hər bir rolun mənasını izah edən nümunələr gətirin.

2. İştirakçılardan "ümumilikdə" internetdə nə etdiklərini nəzərə alaraq kartlardan birini seçməyi xahiş edin. İnternetdə rollarını necə görürlər? İnternetdə necə iştirak edirlər?
3. Onlar öz yerlərini seçdikdən sonra ətraflarına baxıb başqalarını özlərini yerləşdirdikləri mövqeyə nəzər salmağı xahiş edin. Həmçinin iştirakçılardan internetdə nə etdiklərinə dair nümunələr göstərməyi xahiş edə bilərsiniz.
4. İştirakçılardan onlayn nifrət nitqi ilə bağlı nə etdiklərini nəzərə alaraq yenidən kartlar üzərində yerlərini seçməyi xahiş edin Onlar öz yerlərini seçdikdən sonra ətraflarına baxıb başqalarını özlərini yerləşdirdikləri mövqeyə nəzər salmağı xahiş edin. Həmçinin iştirakçılardan onlayn nifrət nitqi ilə mübarizə üçün nə etdiklərini soruşa bilərsiniz.
5. İştirakçılardan bu gündən etibarən bir il ərzində onlayn nifrət nitqi ilə mübarizə sahəsində etmək istədiklərini nəzərə alaraq kartlar üzərində yerlərini yenidən seçməyi xahiş edin. Öz yerlərini seçdikdən sonra nəyə görə konkret bir rolu seçdiklərini izah etməyi xahiş edin.
6. İştirakçılardan 2-4 nəfərlik kiçik qruplara ayrılmağı xahiş edin. Qruplardan onlayn nifrət nitqi ilə mübarizədə seçdikləri iştirak səviyyəsinə nail olmaq üçün hansı fəaliyyətlər barədə düşündüklərini soruşun.
7. Qruplardan fəaliyyətlərini başqaları ilə paylaşmağı xahiş edin.

## TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

- Məşğələ haqqında nə düşünürsünüz?
- Onlayn rolunuzu müəyyən etmək necə bir hiss idi? Onlayn davranışınız barədə nə kəşf etdiniz?
- Onlayn nifrət nitqi ilə mübarizədə rolunuzu müəyyən etmək necə bir hiss idi?
- Onlayn nifrət nitqi ilə mübarizədə hansı rolu oynamaq istədiyinizi müəyyən etmək necə bir hiss idi? Onlayn rejimdə daha nə edə biləcəyinizi düşünmək necə bir hiss idi?
- Bu onlayn iştirak nümunələri haqqında nə düşünürsünüz? Onların "oflayn" iştirak ilə bağlılığı nədən ibarətdir? İnsanlar eyni "oflayn" mühitlə eyni səviyyəli "onlayn" iştiraka nail ola bilərlərmi?
- Ümumiyyətlə, onlayn nifrət nitqinin ələ alınması vacibdirmi? Niyə və ya niyə yox?
- Nifrət nitqinə qarşı onlayn fəaliyyətlər haqqında düşünmək sizin üçün nə dərəcədə asan oldu?
- Onlayn iştiraka sərbəst şəkildə nail ola biləcəyinizi düşünürsünüzmü?

## FASİLİTATORLAR ÜÇÜN PRAKTİK MƏSLƏHƏTLƏR

- Onlayn iştirak haqqında daha ətraflı məlumatı "Demokratiya və iştirak" adlı 5.6-cı fəsildən əldə edə bilərsiniz.
- Həmçinin İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisi, xüsusilə də onun "Yığıncaq, toplaşma və iştirak" bölməsi ilə tanış ola bilərsiniz. Eyni zamanda iştirakçılara Bələdçini təqdim etmək faydalı ola bilər. İnternet istifadəçilərinin insan hüquqları onlayn rejimdə qorunmalıdır. Bunun üçün hüquqlarını bilmək və hər hansı pis rəftara etiraz etmək vacibdir. Bələdçi ilə burada tanış olmaq olar: www.coe.int/en/web/internet-users-rights/guide.

### FƏALİYYƏT ÜÇÜN FİKİRLƏR

İştirakçılar internetdə necə daha aktiv olacaqlarını, onlayn nifrət nitqi ilə necə mübarizə aparacaqlarını planlaşdırmaq üçün öz "onlayn iştirak xəritələrini" yarada bilərlər.

İştirakçılar internet idarəçiliyi və gənclərin internetin formalaşdırılmasında necə iştirak edə biləcəyi haqqında biliklər əldə edə bilərlər.

---

*Bu məşğələ 2014-cü ilin oktyabr ayında Belçikada "Əlfəcinlər"ə əsaslanan ilk regional təlim kursu zamanı hazırlanmışdır.*

## PAYLANMAQ ÜÇÜN MATERİAL

### ONLAYN IŞTIRAK NƏRDIVANI*

**Yaradıcılar**

- Bloq hazırlayın
- Öz veb-səhifənizi yaradın
- Çəkdiyiniz videonu yükləyin
- Hazırladığınız audionu / musiqini yükləyin
- Məqalə və ya hekayələr yazın və paylaşın
- İctimai müzakirələr və ya dinc etirazlar başladın
- Onlayn kampaniyalar başladın

**Söhbət aparanlar**

- Sosial şəbəkə saytında status yeniləyin
- Twitter, Facebook və s.-də paylaşımları yeniləyin.

**Tənqidçilər**

- Məhsul və ya xidmət haqqında qiymətləndirmələr /rəylər yerləşdirin
- Başqasının blqounda şərh yazın
- Onlayn forumlarda iştirak edin
- Wiki məqalələrinə əlavələr/düzəlişlər edin
- Bəzi təşəbbüslər, məhsullar və s. barədə sorğularda iştirak edin
- Yerli / milli qanunvericilik barədə şərh yazın
- İctimai müzakirələri tənqid edin
- Dövlət orqanlarının işini müşahidə edin və onlar haqqında məlumat verin

**Toplayıcılar**

- RSS lentindən istifadə edin
- Onlayn veb-sayta səs verin
- Veb-səhifələri və ya fotoları "etiketləyin"

**"Qoşulanlar"**

- Sosial şəbəkə saytında profilinizi yeniləyin
- Sosial şəbəkə saytlarına baş çəkin

**Tamaşaçılar**

- Bloqları oxuyun
- Podkastlara qulaq asın
- Başqa istifadəçilərin paylaşdıqları videolara baxın
- Onlayn forumları oxuyun
- Müştərilərin qiymətləndirmələrini / rəylərini oxuyun
- Tvitləri oxuyun

* Bernoff, J. və Li, C.-nin 2010 modelinə əsaslanır (2010), 'Sosial texnoqrafiyaya təkrar baxış – onlayn iştirakın xəritələşdirilməsi'. İştirak modelləri: Onlayn Vətəndaşlar, Gənclər: www.nonformality.org/wp-content/uploads/2012/11/Participation_Models_20121118.pdf

NO HATE
NO HATE SPEECH MOVEMENT

SƏVIYYƏ 2

QRUP 14-35

VAXT 60'

# ONLAYN HÜQUQLARIMIZ

***İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisi iştirakçılara təqdim edilir. Onlar bələdçinin əsas mesaj və bəyanatlarını təhlil etməli, onun gündəlik həyatda tətbiqi barədə düşünməlidirlər.***

| | |
|---|---|
| MÖVZULAR | İnsan hüquqları, demokratiya və iştirak |
| MÜRƏKKƏBLİK | Səviyyə 2 |
| QRUP ÜZVLƏRİNİN SAYI | 14-35 |
| VAXT: | 60 dəqiqə |
| MƏQSƏDLƏR | • İştirakçılarla birlikdə İnternet istifadəçilərinin onlayn insan hüquqlarını araşdırmaq<br>• İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisinin sadələşdirilmiş variantını təqdim etmək<br>• Bələdçinin gündəlik həyatda tətbiqi üsullarını müzakirə etmək<br>• İştirakçıların Bələdçinin təbliğ edilməsində rolu barədə götür-qoy etmək |
| MATERİALLAR | • Bələdçinin sadələşdirilmiş variantının surəti (səh. 98)<br>• Qeydlərin aparılması üçün qələm və kağız<br>• Flipçart kağızı və markerlər<br>• Kiçik qrupların işləməsi üçün yer |
| HAZIRLIQ | • Bələdçinin sadələşdirilmiş variantının surətini çıxarın və kiçik qruplarda iş üçün 7 yerə bölün. |

## TƏLİMATLAR

1. Aşağıdakı təsvirdən və ya 224 səhifəsindəki qısa variantda istifadə edərək İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisi barədə kiçik təqdimat edin

*İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisi Avropa Şurası tərəfindən 47 üzv dövlət üçün qəbul edilmiş tövsiyənin bir hissəsidir.*

*Bələdçi İnternetdə insan hüquqlarının həyata keçirilməsi ilə əlaqədar bəyanat və prinsiplər toplusudur.*

*Bələdçi xüsusilə onlayn insan hüquqları və azadlıqları, onların mümkün məhdudlaşdırılması və mövcud müdafiə vasitələri haqqında bilik əldə etmək istəyən şəxslər, pedaqoqlar və gənclər üçün yararlıdır.*

*Bələdçi yeni insan hüququ müəyyən etmir. O, Avropa İnsan Hüquqları Konvensiyası, Avropa Şurasının digər konvensiyaları və insan hüquqlarının müdafiəsi haqqında başqa sənədlərə əsaslanır.*

*Bələdçi aşağıdakı sahələrdə insan hüquqların necə həyata keçirilə və qoruna biləcəyini təsvir edir: Müyəssərlik və ayrı-seçkiliyin yolverilməzliyi, ifadə azadlığı və informasiya, toplaşma, birləşmə və iştirak, şəxsi həyatın toxunulmazlığı və məlumatların qorunması, təhsil və savad, uşaqlar və gənclər, səmərəli hüquqi müdafiə vasitələri.*

*Bələdçi istifadəçilərin, dövlət orqanlarının, internet provayderlərinin və onlayn məzmun provayderlərinin onlayn insan hüquqlarının həyata keçirilməsi ilə əlaqədar hansı öhdəliklərinin olduğunu önə çəkir.*

2. İştirakçılara Bələdçidə əksini tapan 7 müxtəlif sahə haqqında oxuyacaqlarını və bu istiqamətdə çalışacaqlarını izah edin.
3. İştirakçıları 7 kiçik qrupa bölün. Hər bir Qrupa Bələdçinin sadələşdirilmiş variantında əks olunan bir sahəni verin (səh. 98) və oxumağı xahiş edin.
4. Hər bir qrupdan haqqında oxuduqları sahəyə aid insan hüquqları barədə qısa səhnə hazırlamağı xahiş edin. Qruplardan səhnənin nə haqqında olacağını başqalarına deməməyi xahiş edin.
5. 15 dəqiqəlik hazırlıqdan sonra hər bir qrupun səhnəciyini təqdim etməsini təmin edin.
6. Hər bir səhnədən sonra rəylərin söylənməsi üçün bir neçə dəqiqə vaxt ayırın. Başqa qruplardan insan hüquqları barədə səhnəciyin nə haqda olduğunu təxmin etməyi xahiş edin.
7. Daha sonra oxuduqları hansı məzmunu əks etdirməyə çalışdıqları barədə qısa izahat vermək üçün qruplara bir dəqiqə vaxt verin. Onların fikir və ya mesajlarını flipçart kağızına yazın.
8. Hər səhnəcikdə bunu təkrar edin.
9. Təhlil və qiymətləndirməyə keçin.

## TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

- Bu məşğələ haqqında nə düşünürsünüz?
- Bu məşğələ nəticəsində hüquqlarınız haqqında hansı yeni məlumatı öyrəndiniz?
- Onlayn və oflayn insan hüquqları arasında hər hansı fərq varmı?
- Bu onlayn hüquqların tətbiqinə kim cavabdehdir?

## PAYLANMAQ ÜÇÜN MATERİAL

- Bu hüquqların internetdə tətbiq edildiyindən necə əmin ola bilərsiniz? Nə edə bilərik? Hökumətimiz nə etməlidir? Veb-sayt sahibləri nə etməlidirlər?
- Bələdçinin məzmunu ilə tanış olduqdan sonra onlayn nifrət nitqi ilə qarşılaşan başqa internet istifadəçilərinə nə demək istərdiniz?
- Onlayn nifrət nitqi ilə mübarizə üçün Bələdçidən necə yardım almaq olar?
- Fasilitatorlar üçün praktik məsləhətlər
- Təqdimata və iştirakçıların suallarına hazır olmaq üçün Bələdçinin tam variantı ilə tanış olun.
- İştirakçılardan səhnəcik hazırlayarkən başqalarının diqqətinə çatdırmaq istədikləri məqamlar barədə düşünməyi xahiş edin.
- Təhlil və qiymətləndirmə zamanı qrup səhnəcikləri nəticəsində hazırlanmış əsas ideyaları əks etdirən flipçart kağızına diqqət yetirin. İştirakçılar onlayn insan hüquqlarının təbliğində rollarını müzakirə edən zaman, gənclərin gündəlik onlayn fəaliyyətlərində tətbiq edə biləcəkləri konkret nümunələr göstərməyi xahiş edin.

### VARİANTLAR

Qrup səhnəciklər hazırlamaqda tərəddüd edirsə, oxuduqları məzmunu çəkməyi və ya başqa məqsədəuyğun və ya yaradıcı üsulla fikirlərini ifadə etməyi xahiş edin. Eyni qaydada məşğələdən gəncləri internetdə fəaliyyətə cəlb etmək üçün istifadə edə bilərsiniz: onlar bloq post hazırlamağı, afişa və ya vizual material, gif və ya video hazırlamaq üçün onlayn vasitələrdən istifadə etməyi öyrənə bilərlər.

### FƏALİYYƏT ÜÇÜN FİKİRLƏR

Qrupunuzla birlikdə internet istifadəçilərinin onlayn hüquqları ilə əlaqədar bilməli olduqları əsas məqamların siyahısını hazırlaya bilərsiniz.

Qrupunuzla birlikdə ölkənizdə onlayn insan hüquqlarının qorunması istiqamətində çalışan qurum və təşkilatların hansılar olduğunu araşdıra bilərsiniz.

Məşğələ nəticəsində iştirakçılar dostları, məktəb yoldaşları və s. arasında onlayn insan hüquqlarını təbliğ edən fəaliyyət planları hazırlaya bilərlər.

## İNTERNET İSTİFADƏÇİLƏRİ ÜÇÜN İNSAN HÜQUQLARI BƏLƏDÇİSİ

SADƏLƏŞDİRİLMİŞ VARİANT

### Qrup 1

**İnternetə çıxış və ayrı-seçkiliyin yolverilməzliyi**

Hər kəs cinsi, yaşı, irqi, dərisinin rəngi, dini və ya etiqadına, siyasi və ya başqa əqidəsinə, milli mənsubiyyətinə və ya cinsi oriyentasiyasına görə ayrı-seçkiliyə məruz qalmadan internetə çıxışa malik olmalıdır.

Kənddə və ya coğrafi baxımdan ucqar ərazidə və ya aztəminatlı, yaxud xüsusi ehtiyacları və ya əlilliyi olan şəxsinizsə, dövlət orqanları sizin internetə çıxışınızı asanlaşdırmalıdırlar.

### Qrup 2

**İfadə azadlığı və informasiya**

Hər kəsin özünü internetdə ifadə etmək və internetdən məlumat almaq azadlığı var. Ayrı-seçkilik, nifrət və ya zorakılığa təhrik edən ifadələrə məhdudiyyətlər qoyula bilər. Onlayn rejimdə, məsələn təxəllüsdən istifadə etməklə kimliyinizi gizlədə bilərsiniz, lakin, bəzi hallarda hakimiyyət orqanları kimliyinizi aşkara çıxara bilərlər.

### Qrup 3

**Toplaşma, birləşmə və iştirak**

Hər kəsin internetdən istifadə etməklə başqaları ilə birləşmək və onlayn rejimdə dinc etiraz hüququ var. Hər hansı sosial qruplara qoşulmaq və ya ictimai debatlarda iştirak etmək üçün hər hansı onlayn vasitəni seçə bilərsiniz.

### Qrup 4

**Şəxsi həyata hörmət və məlumatların qorunması**

Hər kəs internetdə şəxsi həyata və ailə həyatına hörmət hüququna malikdir. Buna onlayn yazışma və ünsiyyətinizin məxfiliyinə hörmət də daxildir. Şəxsi məlumat yalnız əvvəlcədən razılıq alındığı halda internetdə istifadə edilməlidir.

Dövlət hakimiyyəti orqanları və özəl şirkətlər şəxsi məlumatlarınızı işləyərkən konkret qayda və prosedurlara əməl etmək öhdəliyi daşıyırlar.

## PAYLANMAQ ÜÇÜN MATERİAL

**Qrup 5**

**Təhsil və savadlılıq**

Hər kəsin onlayn təhsil, mədəniyyət və bilik hüququ var.

Müxtəlif internet vasitələrini anlamaq, onlardan istifadə etmək, çıxış əldə etdiyiniz məzmun və xidmətlərin dəqiqlik və etibarlılığını yoxlamaq bacarıqlarının inkişaf etdirilməsində sizə dəstək göstərilməlidir.

**Qrup 6**

**Uşaqlar və gənclər**

Uşaqların və gənclərin internetdən istifadə ilə əlaqədar xüsusi müdafiə və bələdçilik hüququ mövcuddur.

Müəllimlərinizdən, pedaqoqlardan və valideynlərinizdən internetdən təhlükəsiz istifadə barədə təlimin təmin edilməsini gözləyə bilərsiniz.

Səlahiyyətli orqanlardan, internet xidməti və məzmun provayderlərindən qeyri-qanuni onlayn məzmun və ya sizə zərər verə biləcək davranış barədə aydın məlumat almaq hüququna maliksiniz.

**Qrup 7**

**Dəstək və yardım**

Hər kəs onlayn rejimdə hüquqları qorunmayan zaman məhkəməyə müraciət imkanı daxil olmaqla, dəstək və yardım almaq hüququna malikdir.

İnternet provayderləri (onlayn məzmuna çıxışı təmin edən provayderlər) sizə hüquqlarınız, pozuntular barədə şikayət qaydası haqqında məlumat verməlidirlər.

Rəqəmsal kimliyiniz, kompüteriniz və onlara daxil olan məlumatlar səlahiyyətli orqanlar tərəfindən qeyri-qanuni girişdən, saxtalaşdırılmaqdan və başqa fırıldaq məqsədli manipulyasiyalardan qorunur.

NO HATE

NO HATE SPEECH MOVEMENT

SƏVIYYƏ 2

QRUP 10-20

VAXT 60'

# BİR DAHA OYNA XÜLASƏ

***Bu məşğələ rol oyununa əsaslanır: kimsə həmyaşıdlarının təzyiqi ilə bullinqə cəlb olunur. İştirakçılardan hadisələrin nəticəsini dəyişdirmək üçün ssenarini yenidən canlandırmaq xahiş edilir.***

| | |
|---|---|
| MÖVZULAR | Kiberbullinq, demokratiya və iştirak, irqçilik və ayrı-seçkilik |
| MÜRƏKKƏBLİK | Səviyyə 2 |
| QRUP ÜZVLƏRİNİN SAYI | 10 - 20 |
| VAXT | 60 dəqiqə |
| MƏQSƏDLƏR: | • Bullinqin necə təsir etdiyini anlamaq<br>• Bullinqdən qurbanları ilə həmrəylik və onlara qarşı empatiya formalaşdırmaq<br>• İştirakçıları onlayn bullinq və nifrət nitqinə qarşı tədbir görməyə həvəsləndirmək |
| HAZIRLIQ | • Məşğələ başlamazdan əvvəl 4 könüllü müəyyən edin. Onlardan qrupun qalanı üçün qısa rol oyunu hazırlamaq xahiş ediləcək (5 dəqiqədən artıq olmamaqla). Əvvəlcədən hazırlaşa bilmələri üçün onlara ssenarinin surətini təqdim edin Zəruri olarsa, onlara başlamağa kömək edin.<br>• Rol oyunu üçün kifayət qədər yerinizin olduğundan əmin olun. |

## TƏLİMATLAR

1. Qrupa məşğələnin kiçik bir rol oyunu ilə başlayacağını bildirin. Ssenari barədə aşağıdakı qısa məlumatı ucadan oxuyun, sonra könülləri təqdim edin və rol oyununa başlamağa dəvət edin.

**Ssenari**

Albert "sakitdir" və bir qədər "fərqli" olduğu düşünülür. Onun çox dostu yoxdur və tez-tez sinifdə çoxları onu xoşlamadığına görə narahat olur. Bəzən müəllimi təqdir etməsə də, başqa uşaqları güldürmək üçün özünü axmaq yerinə qoyur və bu, onda çox yaxşı alınır.

Bütün sinfi güldürdüyü bir dərsdən sonra məktəbdən çıxarkən məktəbin ən populyar oğlanları Derek və Cared ona yaxınlaşırlar. Uşaqlardan üçü birlikdə onun davranışına güldülər, sonra isə piyada evə getdilər. Albert özü ilə çox fəxr edir, nəhayət ki, onu qəbul etmişdilər.

2. 2İndi isə rol oyununu başladın.
3. Rol oyunundan sonra iştirakçılardan münasibətlərini soruşun. Zəruri olarsa, bir neçə sualla kömək edin, məsələn:
   - Sizcə ssenari həqiqətə uyğundur?
   - Albertin davranışı haqqında nə düşünürsünüz?
   - Sizcə, Əhməd özünü necə hiss edib?
4. İştirakçılardan Albertin yerində olsaydılar, necə davranacaqları barədə düşünməyi xahiş edin. Daha sonra rol oyununu yenidən başladın, lakin bu dəfə başqalarını Əhməd (və Albert) üçün daha yaxşı nəticə əldə edə bilib-bilməyəcəklərini yoxlamaq üçün hadisələrə müdaxilə etməyə dəvət edin.
5. Rol oyununu (eyni könüllülərlə) yenidən başladın, müəyyən məqamlarda oyunu dayandırın və könüllülərdən rollarını dəyişməyi xahiş edin. Məşğələdə daha çox insanın iştirakına imkan yaratmaq üçün bunu bir neçə dəfə təkrar edə bilərsiniz.
6. Rol oyunundan sonra hər kəsi orijinal ssenarinin sonunda Albertin vurulmuş zərəri aradan qaldıra biləcək bir paylaşım edə bilməsi üçün fikirlər formalaşdırmağa dəvət edin. Bu, tvit, şəxsi mesaj, şərh və ya başqa bir şey ola bilər. Sonra təhlil və qiymətləndirməyə keçin.

## TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

Rol oyununda iştirak edənlərin obrazdan çıxdıqlarından əmin olun. Aşağıdakı sualları rol oyununda canlandırdıqları xarakterin deyil, öz baxış bucaqlarından cavablandırmalı olduqlarını vurğulayın.

- Bu məşğələ haqqında nə düşünürsünüz?
- Alberti bullinqə qoşulmağa vadar edən amillər nələr idi?
- Öz həyatınızda bu təzyiqlərə nə dərəcədə asanlıqla müqavimət göstərə bilirsiniz?
- Bu hadisə internetdə baş versəydi necə? Bənzər cəhətlər nələr olardı? Nə fərqli ola bilərdi?
- Kiminsə şəxsi profilində və ya internetdə başqa yerdə kiminsə Albetin ssenaridə nümayiş etdirdiyi bulinqdə olduğu kimi hədəfə alındığını görmüsünüzmü?
- Belə şeylərinin paylaşılmasını və ya onların təsirini azaltmaq üçün ata biləcəyiniz hər hansı addım varmı?
- Məşğələdən nəsə öyrəndinizmi, yaxud məşğələ nəticəsində bullinqə baxışınız dəyişdimi?

## FASİLİTATORLAR ÜÇÜN PRAKTİK MƏSLƏHƏTLƏR

- Məşğələyə başlamazdan əvvəl qrup daxilində baş verə biləcək hər hansı gərginlik barədə məlumatlı olduğunuzdan əmin olun. Ssenarini qrupdakı insanlara qarşı güclü mənfi münasibətləri əks etdirməyəcək şəkildə dəyişdirməli ola bilərsiniz. Xüsusilə də Əhmədin milliyyətini və ya Albertin şərhlərini dəyişə, yaxud ssenaridəki kişiləri qadın xarakterlərlə əvəzləyə bilərsiniz.
- Könüllüləri seçərkən ehtiyatlı olun: ssenaridə qaldırılan məsələlərlə hər hansı aidiyyəti olmayacağını düşündüyünüz könüllüləri seçməyə çalışın. İlk könüllülərə rol oyunun uzun olmasına ehtiyac olmadığını bildirin.
- Rol oyunundan sonra iştirak imkanı qazanmamış şəxslərin öz təkliflərini irəli sürə bilməsi üçün bir qədər vaxt ayıra bilərsiniz. Rol oyununu 3 dəfədən artıq oynatmaq çox təkrara yol

vermək olardı, lakin iştirakçılardan nəticəni dəyişdirməyin başqa mümkün yollarını soruşa bilərsiniz.

- Rol oyunu iştirakçılar arasında güclü emosiyalara səbəb olarsa, təhlil və qiymətləndirmədən əvvəl onlara obrazlarından çıxmağa imkan yaratmaq üçün əlavə qısa məşğələ həyata keçirmək faydalı ola bilər. Adətən onlardan adlarını ucadan deməyi xahiş etmək və ya gümrahlıq üçün kiçik fiziki hərəkətlər etdirmək kifayət edir.
- Rol oyununda hər hansı davranış haqqında öz mülahizənizi söyləməyə çalışmayın: əvəzində iştirakçıların fərqli bucaqlardan baxa bilmələri üçün suallardan istifadə edin. İştirakçıların yaşıdlarının təzyiqlərinə boyun əyməməyin çətinlikləri daxil olmaqla, öz münasibət və ya davranışları haqında sərbəst şəkildə açıq danışa biləcəklərini hiss etmələri vacibdir.

## VARİANTLAR

Rol oyunundan istifadə əvəzinə kiçik qruplar və ya bütöv qrup daxilində alternativ ssenarilərin müzakirəsi ilə nümunədən kazus təhlili üçün istifadə edilə bilər.

## FƏALİYYƏT ÜÇÜN FİKİRLƏR

İştirakçıları bullinq və kiberbullinqin qurbanı olanlar üçün həmrəylik mesajları və ya bullinqə qoşulmağa vadar edilmək üçün təzyiqə məruz qalan insanlar üçün təkliflər siyahısı hazırlamağa dəvət edin. Bu mesajlar sosial media platformalarında və ya məktəb icmasının kommunikasiya kanallarında paylaşıla bilər.

İştirakçıların internetdə qurban və ya müşahidəçi qismində kiberbullinqlə üzləşə biləcəyi hallar üçün fəaliyyət planı hazırlayın. Qrup üzvləri onlayn bullinqlə üzləşdikdə fəaliyyət planında əks olunan bir tədbiri görəcəklərinə dair razılığa gələ bilər.

İnternetdə kiberbullinq ilə məşğul olan çoxsaylı təşkilatlar və saytlar mövcuddur. Belə bir ehtiyac olduğunu düşündükdə, isterikaçıların müraciət edəcəkləri hər hansı dəstək xidmətini tanıdıqlarından əmin olun. Yerli təşəbbüsləri tapmaq üçün axtarış mühərrikindən istifadə edin və ya aşağıdakı saytlarda ümumi məlumatlara nəzər salın: https://www.stopbullying.gov/cyberbullying/what-is-it and https://www.cybersmile.org və (könüllülərə paylanmaq) üçün çap materialı

**TƏLİMATLAR:**

Aşağıdakı ssenarini əks etdirmək üçün qısa rol oyunu hazırlayın. Oyun Cared və Derekin məktəbdən sonra Albertə yaxınlaşdığı andan başlamalıdır. Derek, Cared, Albert və Əhmədin rollarını kimin oynayacağını qərarlaşdırın.

- Derek, Cared – məktəbdəki populyar oğlanlar. Onlar bullinqi başladırlar.
- Albert – özünə dost tapmaqda çətinlik çəkən oğlan. Derek və Cared onu aralarına qəbul edirlər.
- Əhməd – Efiopiyadan gəlmiş yeni şagirddir.

**ROL OYUNUNU BURADAN BAŞLADIN:**

Derek, Cared və Albert evə gedərkən irəlidə Əhmədin tək getdiyini görürlər. Əhməd sinfə təzə gəlib və başqa ölkədəndir. Bəzi uşaqlar məktəbdə istifadə edilən dildə pis danışdığına, sinifdəki çox şagirddən qısa olduğuna və nimdaş geyimlərinə görə ona sataşırlar.

Derek və Cared Əhmədə çatmaq üçün daha sürətlə addımlayırlar. Onlar qışqıra-qışqıra Əhmədi təhqir etməyə, çantasını çəkib Efiopiyada hər kəsinmi bu cür geyindiyini soruşmağa, məktəbdə istifadə edilən dildə belə danışdığına görə körpələr üçün məktəbə getməli olduğunu deməyə başlayırlar.

Albert özünü çox narahat hiss edir. Derek və Cared ondan gözlərini çəkmir, onu özlərinə qoşulmağa, nə düşündüyünü deməyə çağırırlar. Sonda Albert Efiopiyada insanların ağacda yaşayıb meymun dilində danışdıqlarını deyib, hazırcavab olduğunu düşündüyü bir şərh verir. Derek və Cared xeyli gülürlər, amma Albert Əhmədin çox məyus olduğunu və bu üç oğlandan qorxduğunu görür.

Albert evə çatanda özünü pis hiss edir. O, başqa uşaqların sənə sataşmağının nə demək olduğunu bilirdi və Əhmədə dediyi sözlər insanların ona söylədiklərindən dəfələrlə daha pis idi. Amma Derek və Cared ilə birlikdə gülmək gözəl idi və onların dostluqları çox şeyə dəyərdi. O, internetə qoşulub Derek və Cared ilə "dostlaşdı". Sonra profilində efiopiyalılar haqqında şərh paylaşdı.

NO HATE

NO HATE SPEECH MOVEMENT

SƏVIYYƏ 1

QRUP 10-16

VAXT 60'

# HÜQUQLAR ÜÇÜN YARIŞ!

## XÜLASƏ

***Bu məşğələdə komanda oyunu vasitəsilə insan hüquqları ilə ilin tanışlıq təmin edilir. İştirakçılar sözlərdən başqa istədikləri şeydən istifadə etməklə, komandalarının üzvlərinə müxtəlif hüquqları təsvir etməlidirlər!***

| | |
|---|---|
| MÖVZULAR | İnsan hüquqları, irqçilik və ayrı-seçkilik, şəxsi həyat/ toxunulmazlıq |
| MÜRƏKKƏBLİK | Səviyyə 1 |
| QRUP ÜZVLƏRİNİN SAYI | 10 - 16 |
| VAXT | 60 dəqiqə |
| MƏQSƏDLƏR | • Ümumdünya İnsan Hüquqları Bəyannaməsində (ÜİHB) təsbit olunan hüquqları başa düşmək<br>• Onlayn mühitdə insan hüquqlarının müdafiəsi barədə düşünmək<br>• İnsan hüquqları və onlayn nifrət nitqi arasındakı bağlılıqları müzakirə etmək |
| MATERİALLAR | • Hüquq kartlarının surətləri: hər komanda üçün bir nüsxə hazırlayın<br>• Təxmin kartlarının surətləri: 5 nüsxə çıxarın<br>• ÜİHB-in (xülasə) surətləri: hər kəsə kifayət edəcək qədər nüsxə çıxarın<br>• Flipçart kağızı və markerlər (istəyə bağlı)<br>• Iki və ya daha artıq komandanın ayrı-ayrılıqda, yaxşı olar ki, müxtəlif otaqlarda işləyə bilməsi üçün yer<br>• 2 fasilitator (ideal halda) |
| HAZIRLIQ | • Hüquq və təxmin kartlarını kəsin<br>• "Toplayıcılar üçün məlumat kartının" surətini çıxara və ya mətni flipçartda/proyektorda nümayiş etdirə bilərsiniz. |

## TƏLİMATLAR

**BAŞLAMAQ ÜÇÜN MATERİAL** (İNSAN HÜQUQLARI İLƏ TANIŞ OLMAYAN QRUPLAR ÜÇÜN)

1. İştirakçılardan insan hüquqları dedikdə, nə başa düşdüklərini soruşun. Flipçartda təkliflər yazın və zəruri olarsa, əlavə suallarla köməklik göstərin. Məsələn:
   - Kimin insan hüquqları var?
   - Hər hansı insan hüququnu qeyd edə bilərsinizmi?
   - İnsan hüquqlarına hörmət edilməsini kim təmin etməlidir?
   - Onların mənbəyi haradır?
   - İnsan hüquqları onlayn rejimdə tətbiq edilirmi?
2. İnsan hüquqlarının qısa xülasəını təqdim edin, məsələn:

İnsan hüquqları hər kəs üçündür və onlar "hökumətlər üçün normalardır". İnsan hüquqları başqa amillərlə yanaşı hökumətlərin fərdlərin ədalətsiz rəftar, ekstremal pis rəftar və zorakılıqdan qorunmalı olduğunu nəzərdə tutur. İnsan hüquqları vacibdir, çünki onlar bizi qoruyurlar. Eyni zamanda insan hüquqları o deməkdir ki, başqaları ilə onların hüquqlarına zidd qaydada davranmamalıyıq.

**ƏSAS MƏŞĞƏLƏ**

3. 3. Məşğələyə iştirakçılara ÜİHB-də təsbit edilən hüquqları xatırlatmaq üçün komanda oyununun daxil olduğunu izah edin. Oyunun məqsəd və qaydalarını qısaca təsvir edin (səh. 108) qrupu 5-8 nəfərlik komandalara bölün. Aşağıdakıları hər bir komandaya paylayın:
   - ÜİHB icmanın surətləri
   - 2 təxmin kartı
   - Toplayıcılar üçün məlumatlar və ya onları flipçarta yazın.
   - Hər bir komanda üçün flipçart vərəqələri və markerlər (istəyə bağlı)
4. İştirakçılar ÜİHB ilə tanış deyillərsə, onlara bir neçə maddəni oxumaq və hər hansı hüququ başa düşmədikləri təqdirdə sual vermək üçün bir qədər vaxt verin.
5. Qaydaları nəzərdən keçirin (səh. 108) hər kəsin başa düşdüyündən əmin olun. Sonra oyunu başladın!
6. Hansısa komanda bütün hüquqları təxmin etdikdə, ya da komandanın təxmin kartları bitdikdə, oyun sona çatır. Rəyləri soruşun və qızğın müsabiqədən sonra iştirakçılara sakitləşmək üçün vaxt verin! Məşğələ barədə təhlil və qiymətləndirmə üçün aşağıdakı sualların bəzilərindən istifadə edin:

## TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ:

**OYUN HAQQINDA DÜŞÜNCƏLƏR:**

- Hansı hüquqları çatdırmaq daha çətin oldu? Niyə?
- Ünsiyyət haqqında hansı qənaətə vardınız: nə üçün bir-birini başa düşmək çox vaxt çətin olur? Bu, "danışanın", "dinləyənin" yoxsa hər ikisinin təqsiridir?
- İndi komandanıza qarşı nə hiss edirsiniz? Digər komandaya qarşı nə hiss edirsiniz?

- Rəqabətin güclü olduğu oyunlar haqqında düşünün: nəyə görə özümüzü bu və ya digər komanda ilə eyniləşdiririk? Bu bağlılığın bir səbəbi varmı? Real həyatla bənzər paralellər apara bilərsinizmi?

**İNSAN HÜQUQLARI HAQQINDA DÜŞÜNCƏLƏR:**

- Hansısa hüququ başa düşmək sizin üçün xüsusilə çətin oldumu?
- Sizcə, bu hüquqlardan hər hansı olmadan keçinə bilərdinizmi? Mümkündürsə, bu hansı hüquqdur?
- Sizcə, bu hüquqlar "real" həyatda olduğunu kimi internet dünyasına da şamil edilməlidirmi? Bu hüquqlardan bəzilərinin onlayn fəaliyyətə tətbiq edilə biləcəyi nümunələr ağlınıza gəlirmi?
- Sizcə, internetdə insan hüquqlarına hörmət edilirmi?

**NİFRƏT NİTQİ HAQQINDA DÜŞÜNCƏLƏR:**

- Nifrət nitqinin hər hansı qrup və ya qrup üzvünə qarşı yönələn, çirkin, incidici, qrup üzvlərinə qarşı zorakı tədbirləri təşviq etmək ehtimalı olan hər hansı nifrət "ifadəsi" olduğunu qısaca izah edin. İzah üçün bir neçə nümunə gətirməyi xahiş edin.
- Oyundakı hansı hüquqlar nifrət nitqi ilə əlaqəli ola bilər? Niyə?
- Onlayn nifrət nitqinin hədəfi olsaydınız, ən çox hansı hüquqlara ehtiyacınız ola bilərdi?
- Onlayn nifrət nitqinin yayılmasına qarşı nə edilə bilər?

## FASİLİTATORLAR ÜÇÜN PRAKTİK MƏSLƏHƏTLƏR

- Oyun 2 fasilitatorla daha effektiv ola bilər. Fasilitatorlar Toplayıcıların rəsmi olmayan təxminlərə cavab verməməsini təmin etməlidirlər (məsələn, başlarını tərpətməklə və ya həvəsləndirici mimika ilə).
- İştirakçılar hüquqları iki nəfərlik qruplarla izah etməyə çalışa bilərlər. Onlara hüquqların nə demək olduğunu müzakirə etmək üçün vaxt vermək faydalı olsa da, bu, məşğələnin müddətini uzada bilər.
- Toplayıcılar yeni hüquq kartlarını almaq üçün yaxınlaşdıqda, istifadə edilmiş hər hansı təxmin kartını təhvil verməli olduqlarını xatırladın. Kartlarda nə yazıldığını yoxlayın və zəruri olarsa, yeni təxmin kartları paylayın.
- Məsələləri daha hərtərəfli araşdırmaq üçün düşüncələri bir və ya iki sahə üzərində cəmləşdirə bilərsiniz. Bütün sualları əhatə etməyə çalışmayın!
- Komandaya "mənsubiyyət" barədə düşüncələr başqa mənsubiyyətlər (məsələn, ölmə və ya etnik qrup) haqqında düşünmək üçün istifadə edilə bilər. İnsanların çox vaxt "öz qruplarına" qarşı bəslədikləri emosional bağlılıqları araşdırın və bundan irqçilik və ayrı-seçkilik barədə sualları müzakirə etmək üçün istifadə edin.
- İnternetdə tətbiq edilən insan hüquqları haqqında danışmaq üçün vaxt varsa, siz və iştirakçılar Avropa Şurasının İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisi ilə tanış ola bilərsiniz.

**VARİANTLAR**

Məşğələ yalnız rəsm fəaliyyəti və ya yalnız dramaturgiya və ya hər ikisindən təşkil edilə bilər.

## FƏALİYYƏT ÜÇÜN FİKİRLƏR

İştirakçılardan insan hüquqları pozuntusundan bəhs edən onlayn xəbər məqaləsi müəyyən etməyi xahiş edin. İnsan hüquqları pozuntularının hər zaman "adi" cinayətlər olmadığını: bunların hökumətlərin insanları qoruya bilməməsini göstərə biləcəyini xatırladın.

## KOMANDA OYUNU: OYUN QAYDALARI

**Oyunun məqsədi:** bütün insan hüququ kartlarını rəqib komanda(lar)dan əvvəl təxmin etmək və ya oyunu əlində daha çox təxmin kartının qalması ilə bitirmək

**Qaydalar:**

- Hər bir komandadan bir nəfər (Toplayıcı) fasilitatordan insan hüququ kartı alır. Onların vəzifəsi kartda yazılmış insan hüququnu danışmadan komandanın qalan üzvlərinə izah etməkdir. Onlar kartda yazılan hüququ çatdırmaq üçün şəkil çəkə, jest və mimikalardan istifadə edə bilsələr də, hər hansı başqa vasitələrdən yararlana bilməzlər.
- Komandanın qalan üzvlərində ÜİHB-də təsbit olunan hüquqların siyahısı var və onlar kartda yazılmış insan hüququnu təxmin etməlidirlər. "Rəsmi" təxmin söylənənə qədər komandanın bütün üzvləri arasında müzakirə aparılmalı, razılıq əldə edilməlidir. Komandanın təxmini razılaşdırıldıqdan sonra təxmin kartlarından birinə qeyd edilməli və Toplayıcıya verilməlidir. Bundan sonra Toplayıcl cavab verir.
- Hər bir hüquq üçün maksimum 2 təxmin kartından istifadə edilə bilər. İki dəfədən sonra hüquq "təxmin edilməmiş" hesab olunur və növbəti Toplayıcı fasilitatordan yeni bir kart alır. Onlar həmçinin istifadə etdikləri hər hansı Təxmin kartını da təqdim etməlidirlər.

İlk təxmin doğru olarsa, komandaya 2 yeni təxmin kartı verilir.

İkinci təxmin doğru olduqda isə, komandaya 1 təxmin kartı verilir.

Hüquq 'təxmin edilə bilmədikdə' (2 dəfəyə), əlavə təxmin kartı verilmir.

- Hər bir kartı almağa başqa Toplayıcı göndərilməlidir. Hər kəsin növbəsi çatdıqdan sonra yenidən birinci şəxsdən başlaya bilərsiniz.
- Oyun komanda bütün kartları düzgün təxmin etdikdə və ya təxmin kartı bitdikdə sona çatır.

**Unutmayın!**

- Oyuna bütün hüquqlar daxil edilməyib: ÜİHB-də 30 fərqli hüquq əksini tapsa da, yalnız 12 kartı təxmin etmək lazım gələcək.
- Hər bir komanda oyuna yalnız 20 təxmin haqqı ilə başlayır. Onlar ehtiyatlı olmalı və təxmin haqlarını boşa sərf etməməlidirlər! Təxmin kartları birinci bitən komanda uduzacaq.

## TOPLAYICILAR ÜÇÜN MƏLUMAT KARTI

Toplayıcı olmaq növbəsi sizə çatdıqda danışmağınıza icazə verilmir! Komandanıza kartda nə yazıldığını təxmin etməyə kömək etmək üçün şəkillər çəkə, jest və mimikalardan istifadə edə bilərsiniz. Başqa vasitələrdən istifadə etməməyə çalışın.

Komandanız "qeyri-rəsmi" təxminlər edərsə, başqa sözlə, təxmini karta yazmasa, cavab

verməməlisiniz! Başqa şeylər haqqında sual verdikdə isə komanda üzvlərinizi həvəsləndirə və başınızı tərpədərək cavab verə bilərsiniz, məsələn, "döşəməni süpürürsən?", "həbsxanadasan?",

"dondurma yeyirsən?", amma DANIŞMAQ OLMAZ!

**TƏXMİN KARTLARI**

| Təxmin kartı | Təxmin kartı |
|---|---|
| *Təxmininizi bura yazın* | *Təxmininizi bura yazın* |
| **Təxmin kartı** | **Təxmin kartı** |
| *Təxmininizi bura yazın* | *Təxmininizi bura yazın* |
| **Təxmin kartı** | **Təxmin kartı** |
| *Təxmininizi bura yazın* | *Təxmininizi bura yazın* |
| **Təxmin kartı** | **Təxmin kartı** |
| *Təxmininizi bura yazın* | *Təxmininizi bura yazın* |
| **Təxmin kartı** | **Təxmin kartı** |
| *Təxmininizi bura yazın* | *Təxmininizi bura yazın* |

**İNSAN HÜQUQLARI KARTLARI**

| | |
|---|---|
| **Maddə 1** | **Maddə 14** |
| Bütün insanlar eyni insan hüquqlarına malikdirlər | Ölkəsində təqib edilən hər kəs başqa ölkədən sığınacaq istəmək hüququna malikdir |
| **Maddə 2** | **Maddə 18** |
| Heç kimə qarşı ayrı-seçkilik edilməməlidir | Hər bir insanın din azadlığı hüququ var |
| **Maddə 3** | **Maddə 19** |
| Hər kəsin yaşamaq hüququ var | Hər kəsin ifadə azadlığı (istədiyini demək) hüququ var |
| **Maddə 5** | **Maddə 20** |
| Hər kəsin işgəncəyə məruz qalmamaq hüququ var | Hər kəsin birliyə qoşulmaq və başqaları ilə görüşmək hüququ var. |
| **Maddə 11** | **Maddə 21** |
| Hər kəsin təqsiri sübut edilənə qədər təqsirsiz hesab edilmək hüququ var | Hər kəsin seçkidə səs vermək və dövlət idarəçiliyində iştirak etmək hüququ var. |
| **Maddə 12** | **Maddə 27** |
| Hər kəsin şəxsi həyatı toxunulmazlığı hüququ var | Hər kəs öz icmasının mədəni həyatında iştirak etmək hüququna malikdir |

NO HATE
NO HATE SPEECH MOVEMENT

SƏVIYYƏ 3

QRUP
Hər hansı

VAXT
60'

# QAYDALARI OXUMAQ

***İştirakçılar veb-saytın/platformanın istifadə şərtlərini və ya icma üçün təlimatlarını oxuyur, uyğun gəlməyən məzmunu veb-sayta/platformaya bildirmək üçün addımlar alırlar. Həmçinin iştirakçılar xüsusilə Web 2.0 imkanları nəzərə alınmaqla məlumat verməyin müsbət və mənfi cəhətlərini müzakirə edirlər.***

| | |
|---|---|
| MÖVZULAR | Kampaniya üçün strategiyalar, internet savadı, demokratiya və iştirak |
| MÜRƏKKƏBLİK | Səviyyə 3 |
| QRUP ÜZVLƏRİNİN SAYI | Hər hansı |
| VAXT | 60 dəqiqə |
| MƏQSƏDLƏR | • Onlayn nifrət nitqini qadağan edən qaydalar daxil olmaqla, internetdə məzmunu tənzimləməyin yollarını başa düşmək<br>• Bəzi populyar veb-saytların şərt və qaydalarını nəzərdən keçirmək, müvafiqliyini qiymətləndirmək<br>• Nifrət nitqi ilə mübarizə məqsədilə onlayn şikayət mexanizmlərindən istifadənin effektivliyini müzakirə etmək |
| MATERİALLAR | • İnternetə çıxışı olan kompüterlər<br>• Qələmlər və anketlər(səh. 116-117) |
| HAZIRLIQ | • Anketin surətini çıxarın (səh. 116-117). Hər bir kiçik qrup (4 nəfər) üçün 2 nüsxə lazım olacaq. |

## TƏLİMATLAR

1. İştirakçılardan internetdə qaydaları kimin müəyyən etdiyini soruşun. Hər hansı qayda varmı? Onlar harada yazılıb?
2. İnternetdə müxtəlif "səviyyələrdə" qaydaların olduğunu izah etmək üçün təmin edilmiş məlumatlardan istifadə edin (səh. 115-116): veb-saytların sahibləri (və ya hostinq provayderləri), ölkələrin hökumətləri tərəfindən və beynəlxalq hüquq, xüsusi ilə insan hüquqları normaları çərçivəsində müəyyən edilə bilər. Məşğələdə birinci səviyyəyə, veb-saytların özləri tərəfindən müəyyən edilən qaydalara nəzər salınacaq.
3. İştirakçılar arasında istifadə etdiyi veb-saytların "qaydalarına" baxanların olub-olmadığını

soruşun! Kimsə onlardan istifadə edibmi, məsələn, qaydalarda qadağan olunduğu halda, veb-sayt sahibinə təhqiramiz şərh və ya paylaşım barədə məlumat veribmi? Heç bunun mümkünlüyü barədə və ya şikayətin necə edilməli olduğu ilə maraqlanan olubmu?

4. Veb-saytların istifadəçilər üçün müəyyən etdiyi qaydaların çox vaxt "şərtlər və qaydalar" adlandırıldığını və əksər veb-saytların belə qaydalarının olduğunu izah edin! Çox vaxt şərtlər və qaydalar onlayn nifrət nitqi ilə mübarizədə faydalı vasitə ola bilir, belə ki, çox sayda veb-saytda buna icazə verməyən müddəalar olur. Məsələ burasındadır ki, insanlar qaydalardan hər zaman effektiv istifadə etmirlər və veb-sayt sahibləri qaydaları əsasında məzmunu izləmirlər.
5. İştirakçıları 4 nəfərlik qruplara bölün və hər bir qrupa təmin edilən anketin surətini verin: (səh. 115-116). Hər bir qrupun tez-tez istifadə etdiyi bir veb-saytı seçməli və anket üzərində çalışmalı olduğunu izah edin. Zəruri olarsa, iştirakçıların nəyi axtarmalı olduqlarını bildiyindən əmin olmaq üçün sualları qrupla birlikdə nəzərdən keçirin.
6. Onlara tapşırığı tamamlamaq üçün 20 dəqiqə vaxt verin, daha sonra iştirakçıları təhlil və qiymətləndirmə üçün bir araya gətirin.

### TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

Anketi nəzərdən keçirib, iştirakçıların tapdıqlarını müqayisə etməklə başlayın.

- Nəticələriniz arasında əhəmiyyətli fərqlər var idimi, məsələn, icazə verilən məzmunun növündə və ya şikayət verməyin asanlıq dərəcəsində?
- Şərt və qaydaların "mükəmməl" bir nümunəsinə rast gələn oldumu?
- Qruplar arasında nifrət nitqi əhatə olunmadığına və ya şikayət proseduru həddən artıq mürəkkəb olduğuna görə şərt və qaydaların tamamilə qeyri-adekvat olduğunu düşünən varmı?
- Artıq şərt və qaydaları oxuduğunuzu nəzərə alsaq, sizcə, nə vaxtsa veb-saytda təhqiramiz bir paylaşımı şikayət edəcəksinizmi? Niyə və ya niyə yox?
- Sizcə, heç kim heç vaxt təhqiramiz paylaşımları şikayət etməsə, nə olar!?
- Sizcə, veb-saytın istifadəçiləri kimi şərt və qaydaları təkmilləşdirə bilməli və ya onlara daha ciddi əməl edilməsini təmin etməlisinizmi? Bu necə edə bilərdiniz?
- Sizcə, şikayətləri daha effektiv etmək üçün daha nə edilə bilər? Sizcə eyni vaxtda bir istifadəçinin və ya 1000 istifadəçinin şikayət etməsi arasında fərq varmı? Veb-saytdan reklam üçün istifadə edən şirkət veb-saytı təhqiramiz məlumatı silmədiyi halda reklamı geri çəkməklə təhdid edərsə necə?
- Onlayn nifrət nitqi ilə şikayət prosedurundan istifadə xaricində başqa mübarizə üsulları ağlınıza gəlirmi? Başqa metodlar nə vaxt məqsədəuyğun ola bilər?

### FASİLİTATORLAR ÜÇÜN PRAKTİK MƏSLƏHƏTLƏR

- Araşdırmağa başlamağı xahiş etməmişdən əvvəl iştirakçılarla birlikdə bir nümunəni nəzərdən keçirə bilərsiniz. Bir veb-sayt seçərək şərt və qaydaları necə tapa biləcəklərini, müvafiq bəndləri tapmaq üçün sürətlə nəzərdən keçirmə qaydasını izah edə bilərsiniz. Nəzərə alın ki, hər saytda şərt və qaydalar olmur və bəzən onlar başqa cür, məsələn "icma üçün təlimatlar"

və ya "paylaşım təlimatları" adlandırıla bilərlər. İştirakçılar belə halla qarşılaşdıqda, bunu qeyd etməlidirlər.

- Fərqli saytlara baxdıqlarından əmin olmaq üçün iştirakçılar üçün saytlar seçə və ya araşdırmaya başlamazdan əvvəl hansı sayta baxacaqlarını qərarlaşdırmaq üçün onlara bir neçə dəqiqə vaxt verə bilərsiniz. Müxtəlif saytların seçilməsini təmin etməyə çalışın, məsələn, video saytı, sosial media saytı, mərkəzi xəbər portalı, oyun saytı və s.
- Hər hansı müvafiq amilin qeyd edilməsi üçün anketin qeyd bölməsindən istifadə edilə bilər, məsələn, əsas səhifədə link varmı, şikayət forması varmı, saytlar şikayətlərə hansı müddətdə cavab verəcəklərini bildiriblərmi və s.
- İştirakçılara şərt və qaydaların uzun olduğunu, axtarış üçün "nifrət nitqi", "pis rəftar", "irqçilik" və bənzər söz və ifadələrdən açar söz kimi istifadə edə biləcəklərini xatırladın.
- Qrup şəklində anketi nəzərdən keçirmək çox vaxt apara və iştirakçılar üçün darıxdırıcı ola bilər! Araşdırma apardıqdan sonra onlara başqa qrupla bir araya gəlib nəticələri müqayisə etmək üçün 5 dəqiqə vaxt verə bilərsiniz. Yaxud da müzakirədən əvvəl hər kəsin nəzər salması üçün anketlər bir qrupdan digərinə ötürülə bilər.
- İştirakçılara şikayət etməzdən əvvəl veb-saytın qaydalarını bilməyin vacib olduğunu, amma bunun pis rəftar hesab etdikləri, lakin veb-saytda lazımınca toxunulmayan (və ya şərt və qaydalarda əhatə edilməyən) məsələni şikayət edə bilməyəcəklərini göstərmədiyini bildirin. Misal üçün iştirakçılara Facebook əleyhinə Seksizm kampaniyasınpı nümunə göstərə bilərsiniz. Bax: www.bbc.co.uk/news/technology-22689522 və www.bbc.co.uk/news/technology-22699761 .
- Həmçinin iştirakçılara şikayət etməyin onlayn nifrət nitqi ilə mübarizə üçün yeganə və çox vaxt ən yaxşı strategiya olmadığını xatırlatmağa dəyər. Başqa cavab tədbirləri barədə öyrənmək üçün 5-ci fəsildə Kampaniya üçün strategiyalar haqqında məlumata baxın.
- Həmçinin İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisindən istifadə etməklə insan hüquqlarının onlayn rejimdə tətbiqi barədə daha çox məlumat əldə etmək maraqlı ola bilər.

## VARİANTLAR

Həmçinin iştirakçılar seçdikləri saytda nifrət nitqi nümunələrini axtarmaq üçün bir qədər vaxt sərf edə bilərlər. Bu, onlarda şərt və qaydaların faktiki olaraq nə dərəcədə effektiv olduğu haqqında təsəvvür formalaşdıracaq. Onlar "neqr", "petux", "qəhbə" kimi açar sözlərdən və ya başqa təhqiramiz ifadələrdən istifadə etməklə axtarış apara bilərlər. Bu, bir az daha çox vaxt aparsa da, veb-sayta məlumat vermək üçün şikayət prosedurunun istifadə edilməsində faydalı material təmin edəcək.

Veb-sayta/platformaya qeyri-adekvat məzmun haqqında məlumat vermək sadəcə atıla biləcək birinci addımdır. Başqa bir addım məzmunu birbaşa ayrı-seçkiliklə mübarizə sahəsində çalışan dövlət orqanına və ya polisə şikayət etməkdir.

İştirakçılardan veb-saytda pis rəftar ehtiva edən məzmunu polisə və ya ölkənizdə mövcud bərabərlik məsələləri ilə məşğul olan başqa orqanlara şikayət etməyi xahiş edərək məşğələnin fərqli variantından istifadə edə bilərsiniz. Bəzi ölkələrdə INACH kimi QHT-lər də aktiv fəaliyyət göstərir və şikayət prosedurlarından istifadə edirlər. Həmçinin Birləşmiş Krallıqdakı "True Vision" nümunəsinə nəzər sala bilərsiniz: www.report-it.org.uk .

Kampaniya çərçivəsində əsas sosial media platformalarına şikayət prosedurlarının: https://www.coe.int/en/web/no-hate-campaign/reporting-on-social-media-platforms , eləcə də dövlət

orqanlarına şikayət prosedurlarının toplusu hazırlanmışdır: https://www.coe.int/en/web/no-hate-campaign/reporting-to-national-bodies.

### FƏALİYYƏT ÜÇÜN FİKİRLƏR

Fəaliyyətdə yuxarıda qeyd edilən variantdan istifadə edilməzsə, iştirakçılardan məşğələ zamanı nəzər saldıqları veb-saytlarda əlavə araşdırma aparmağı xahiş edə bilərsiniz Onlar nümunələrin sayını, hədəf auditoriyanı və nə dərəcədə "pis" olduğunu qeyd etməklə, qarşılarına çıxan nifrət nitqi nümunələrini təhlil edə bilərlər. Əhəmiyyətli sayda hala rast gəlinərsə, onlara təhlildən sonra bəzi mümkün fəaliyyət istiqamətləri təklif edin:

- Şikayəti dəstəkləmək üçün şərt və qaydalardan istifadə etməklə ən pis nümunə və təhlilləri veb-saytın sahibinə göndərin.
- Seçilən sayt sosial media platformasıdırsa, iştirakçılar saytda profil yaradıb nəticələrini orda yerləşdirə bilərlər
- Nümunələri ciddilik dərəcələrinə görə sıralayın (müəyyən istiqamət almaq üçün ‘Daha pis ifadə’ bölməsinə baxın). Sonda müxtəlif nümunələr üçün strategiyaları müəyyən edin, məsələn, saxta məlumata əsaslanma halında paylaşımların bəzilərinə və ya onları paylaşanlara cavab vermək.
- EULAlyzer onlayn alətinə nəzər salın (www.brightfort.com/eulalyzer.html ), bu vasitə istifadəçilərə şərt və qaydaları gözdən keçirmək imkanı verir və maraq doğura biləcək ifadələri və istifadəçilərin xəbərdar olmalı olduqları əsas məqamları vurğulayır.

## İNTERNETDƏN İSTİFADƏNİ TƏNZİMLƏYƏN QANUNLAR

İnternet əsas etibarilə özəl şirkətlərə məxsusdur. Hətta fərdi bloqda da hostinq çox vaxt özəl server tərəfindən həyata keçirilir. Serverin məxsus olduğu şirkət bloqda müəyyən növ məzmunun yerləşdirilməsini məhdudlaşdıra və ya məhdudlaşdırmaya bilər! İstifadəçilərin əməl etməli olduqları qaydalar çox vaxt "şərt və qaydalar" bölməsində müəyyən edilir. Bu qaydalar veb-saytdan asılı olaraq dəyişə bilər.

Şərt və qaydalardan əlavə, hökumət tərəfindən internet və veb-sayt sahiblərinə tətbiq edilən qanunlar qəbul edilə bilər. Şəxsi həyata hörmət və toxunulmazlıqla əlaqədar olan və ya ekstremal nifrət nitqini əhatə edən qanunlar buna nümunə ola bilər. Hətta ölkədə insanların onlayn təhlükəsizliyini qoruyan xüsusi qanun olmasa da, bu məsələ çox vaxt beynəlxalq insan hüquqları aktlarında əksini tapır (aşağıdakı nümunəyə nəzər salın).

Buna görə də internet müəyyən qədər alış-veriş mərkəzi və ya gecə klubu kimidir! Cins geyməyi və ya səliqəsiz görünməyi qadağan edən qanun mövcud olmasa da, gecə klubunun qaydalarına əsasən icazə verilmədiyinə görə içəri buraxılmaya bilərsiniz. Bənzər qaydada veb-saytlar da internetdəki "xüsusi əraziləri" üçün öz qaydalarını hazırlaya bilərlər. Lakin onların qaydaları həm də ölkənin qanunlarına uyğun olmalıdır.

Avropa İttifaqında Fərdi məlumatların mühafizəsinə dair ümumi reqlamentin qəbul edilməsi bütün platformalar qarşısında şərt və qaydaları istifadəçilər üçün asan başa düşülən dildə yazılması, razılığın aktiv şəkildə tələb edilməsi və istifadəçinin razılığını geri götürə bilməsi tələbini qoymaqla bu sahədə standartı müəyyən etdi.

**Nümunə: Hökumətlər insanları həm onlayn rejimdə, həm də gerçək həyatda qorumalıdırlar**

**K.U. Finlandiyaya qarşı**

*1999-cu ilin mart ayında internetdə görüş saytında 12 yaşlı oğlanın adından reklam yerləşdirilmişdi. Reklama oğlanın veb-saytına elektron keçid daxil edilmişdi. Reklamda deyilirdi ki, o öz yaşıdı olan və ya ondan böyük olan oğlanla "dərs keçmək üçün" intim əlaqəyə girmək istəyir. Oğlan yalnız tanış olmaqda maraqlı olan kişidən e-məktub aldıqdan sonra reklamdan xəbər tutur. Xidmət provayderi bunun məxfiliyin pozulması demək olacağını iddia etməklə, reklamın yerləşdirilməsinə görə cavabdeh şəxsin kimliyini müəyyən etməkdən imtina edir. Finlandiya məhkəmələri qanuna əsasən xidmət provayderinin məlumatı açıqlamağa vadar edilə bilməyəcəyi barədə qərar qəbul edir.*

*İş Avropa İnsan Hüquqları Məhkəməsi qarşısına çıxır. Məhkəmə Finlandiya dövlətinin uşaqları və başqa zəif fərdləri qorumaq vəzifəsini yerinə yetirmədiyini müəyyən edir. Reklam uşağı pedofillərin hədəfinə çevirmiş, onun şəxsi həyatın və ailə həyatının toxunulmazlığı hüququnu pozmuşdu. (Avropa Konvensiyasının 8-ci maddəsi)*

**QANUNUN SƏVIYYƏLƏRI**




**ANKET**

**1. Şərt və qaydaları tapmaq nə dərəcədə asandır?**

| Çox asan | Olduqca asan | Çətin | Çox çətin |
|---|---|---|---|
| ○ | ○ | ○ | ○ |

**Qeydlər:**

**2. Şərt və qaydaları başa düşmək nə dərəcədə asandır?**

| Çox asan | Olduqca asan | Çətin | Çox çətin |
|---|---|---|---|
| ○ | ○ | ○ | ○ |

**Qeydlər:**

**3. Şikayət etmək üçün ata biləcəyiniz addımlar aydındırmı?**

| Çox aydın | Olduqca aydın | Çox aydın deyil | Heç aydın deyil |
|---|---|---|---|
| ○ | ○ | ○ | ○ |

**Qeydlər:**

**4. Şikayəti aldıqdan sonra nə edəcəkləri aydındırmı?**

| Çox aydın | Olduqca asan | Olduqca çətin | Çox çətin |
|---|---|---|---|
| ○ | ○ | ○ | ○ |

**Qeydlər:**

### NIFRƏT NITQI

5. **Şərt və qaydalarda nifrət nitqi ilə əlaqədar hissə varmı?**

Bəli ○ Xeyr ○ Əmin deyiləm / başqa ○

**Qeydlər:** *Şərt və qaydalarda müxtəlif pis rəftar növləri sıralanırsa, məsələn, irqi zəmində təhqir və ya homofobik münasibət, bunu qeyd edin.*

6. **Kiberbullinq qeyd edilibmi?**

Bəli ○ Xeyr ○ Əmin deyiləm / başqa ○

**Qeydlər:**

### QEYRI-ADEKVAT MƏZMUN

7. **Şərt və qaydalarda qeyri-adekvat məzmun barədə başqa söz deyilirmi, məsələn saytda pornoqrafiyaya icazə verilirmi?**

Bəli ○ Xeyr ○ Əmin deyiləm / başqa ○

**Qeydlər:**

### İCMA ÜÇÜN TƏLIMATLAR?

8. **Veb-sayta təşviq edilən məzmun barədə hər hansı qeyd daxildirmi? Məsələn, daha asanlıqla nəzərə çarpan yerdə, "haqqımızda", "təlimatlar" bölməsində qısa bəyanat və s.?**

Bəli ○ Xeyr ○ Əmin deyiləm / başqa ○

**Notes:**

SƏVIYYƏ 2

QRUP 12 - 20

VAXT 45'

# KÖKLƏR VƏ BUDAQLAR

***İştirakçılar "problem ağacı" yanaşmasından istifadə edərək onlayn nifrət nitqinin səbəb və nəticələrini araşdırırlar. Bu məşğələ X qrupu məşğələsinin davamı kimi və ya ayrı-ayrılıqda istifadə edilə bilər.***

| | |
|---|---|
| MÖVZULAR | İrqçilik və ayrı-seçkilik, insan hüquqları, kampaniya strategiyaları |
| MÜRƏKKƏBLİK | Səviyyə 2 |
| QRUP ÜZVLƏRİNİN SAYI | 12 – 20 |
| VAXT | 45 dəqiqə |
| MƏQSƏDLƏR | • Onlayn nifrət nitqinin səbəb və nəticələrini başa düşmək<br>• Onlayn nifrət nitqi ilə real həyatda davranış arasında bağlılığa nəzər salmaq<br>• Onlayn nifrət nitqi ilə problemin kökünün araşdırılması vasitəsilə mübarizə üsullarını araşdırmaq |
| MATERİALLAR | Flipçart kağızı və markerlər |
| HAZIRLIQ | İştirakçılar üçün "Nifrət nitqi ağacının" surətlərini çıxarın və ya flipçartda çəkin |

## TƏLİMATLAR

1. Həyata keçirdiyiniz ilk məşğələdirsə, onlayn nifrət nitqi və Avropa Şurası Kampaniyası haqqında qısa məlumat verin. Nifrət nitqini təqdim etmək üçün "Daha pis ifadə" məşğələsində əksini tapan 1-ci və 2-ci maddədən və ya Kampaniya haqqında danışmaq üçün 2-ci fəsildə əksini tapan məlumatdan istifadə edin.
2. Onlayn nifrət nitqini başa düşmək və ona qarşı tədbir görmək üçün problemi başqa məsələlərlə və "real" dünya ilə çoxsaylı əlaqəsi olan məsələ kimi görməli olduğumuzu izah edin. Xüsusilə nifrət nitqi ilə mübarizə aparmağa çalışan zaman dərində gizlənən səbəblərə nəzər salmaq faydalı ola bilər. Çox vaxt bunu həll etməyə çalışmaq ayrı-ayrı nifrət nitqi hallarını ələ almaqdan daha səmərəli olur.
3. İştirakçılara "nifrət nitqi ağacını" göstərin və onlara onlayn nifrət nitqi ilə nəticələnən bəzi amilləri (ağacın "kökləri") və nifrət nitqinin bəzi təsirlərini ("budaqlar") müəyyən etmək üçün işçi qruplar daxilində çalışacaqlarını bildirin.

4. Ağacla necə işləməli olduqlarını izah edin. Ağacı başqa bir xanaya aparan hər bir xana "niyə" sualına cavab verir. Bu həm budaqlara, həm də köklərə aiddir. Bunu daha ətraflı izah etmək üçün bir nifrət nitqi nümunəsindən istifadə edə bilərsiniz (bax: Fasilitatorlar üçün praktik məsləhətlər).
5. **Köklər üçün:** İştirakçılar ağacın aşağı hissələrinə doğru hərəkət etdikcə "bu nə üçün baş verir" sualının cavabını araşdırmağa başlayırlar?' "Kökləri" mümkün qədər çox səbəblə doldurmalıdırlar. Onlara bir "səbəbin" öz nəticələrini necə doğura bildiyini izah edin. Məsələn, onlardan nə üçün "hər kəsin müəyyən bir qrup haqqında mənfi şeylər söylədiyini" soruşun. Müəyyən qruplar haqqında inandığımız mənfi münasibətləri haradan öyrəndiyimizi soruşaraq iştirakçılara kömək edə bilərsiniz (nümunələrə KİV, ictimai xadimlər, cəmiyyət daxilində formalaşmış əsassız qərəzli münasibət və ya savadsızlıq daxil ola bilər).
6. **Budaqlar üçün**: burada iştirakçılar budaqların aşağı hissələrindəki elementlərin mümkün nəticələrini araşdırmalıdırlar. İştirakçılardan nifrət nitqinin hədəfinə çevrilmiş fərd və ya qrupun nəylə qarşılaşa biləcəyini soruşun. Onlardan bunun nəticəsində nə baş verə biləcəyini soruşun.
7. İştirakçıları qruplara bölün və onlara ağacı çəkmək üçün flipçart vərəqi verin. Onlardan aşağıdakı mətni və ya özlərinin nümunələrinin ağacın gövdəsinə yazmağı, daha sonra bacardıqları qədər çox budaq və kökü doldurmağa çalışmağı xahiş edin. Onlar mətnin internetdə paylaşıldığını təsəvvür etməlidirlər:

**"[X qrupu] murdar cinayətkarlardan ibarətdir. Onlar oğrudurlar və bura aid deyillər. Onları qovun!"**

8. Qruplara ağaclarını tamamlamaq üçün təxminən 15 dəqiqə vaxt verin. Sonra qruplardan öz nəticələrini təqdim etməyi, otaqda dolanaraq ağacları başqalarına göstərməyi xahiş edin.

## TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

- Qrupların hazırladığı ağaclar arasında maraqlı fərqlər diqqətinizi çəkirmi? Digər qruplar üçün hər hansı sualınız varmı?
- Nifrət nitqinin "köklərini" tapmaq nə dərəcədə asan idi? Qruplar daxilindəki hər hansı çətinlik və ya fikir ayrılıqlarını izah edin.
- Kök və ya budaqlarınız "real" dünyayla əlaqələnirdimi? Bu, bizə onlayn nifrət nitqi haqqında nə deyir?
- Məşğələ məsələni daha dərindən başa düşməyinizə kömək etdimi? Sizcə, nifrət nitqinin internetdə yayılmasına son qoymaq üçün yollar tapmaq nə dərəcədə vacibdir?
- Məşğələ bu məsələdə sizə kömək etdimi? [Hədəf qrupunuza] qarşı nifrət nitqi ehtimalını azaltmaq üçün problem ağacınızdan necə istifadə edə bilərsiniz?

Məşğələyə daha çox praktiklik qatmaq üçün bəzi kök məsələləri götürüb onlar üzərində fikir mübadiləsi apara bilərsiniz. Məsələn, iştirakçılar "önmühakimə" və ya "X qrupunun savadsızlığını" dərinlikdə gizlənən səbəb olaraq müəyyən ediblərsə, onlardan problemin necə həll edilə biləcəyini soruşun. Kampaniya planlaşdırması zamanı problemi hissələrə bölmək və yanaşma üsullarını tapmaq üçün çox vaxt problem ağacından istifadə edildiyini izah edin.

## FASİLİTATORLAR ÜÇÜN PRAKTİK MƏSLƏHƏTLƏR

- Problem ağacı verilən məsələnin daha dərindən başa düşülməsi üçün geniş istifadə edilən üsuldur. Nümunə göstərməklə izah etmək daha asandır, odur ki, ağacları təqdim etmək üçün fərqli fikirdən istifadə edə bilərsiniz, məsələn: "Gənclər avara və eqoistdirlər. Böyüyüb normal insan olana qədər cəmiyyətdən gizlədilməlidirlər".
- İştirakçılar öz "ağacları" üzərində çalışan zaman onları A3 vərəqəsində materialla təmin edə və ya öz flipçart kağızlarında çəkməyi xahiş edə bilərsiniz. İkinci metod onlara kök və budaqlarını daha da genişləndirmək imkanı verməkdir, lakin çox sayda xananı doldurmaq daha çətin görünə bilər. Qrupların həm fərdlərə, həm də cəmiyyətə təsiri nəzərə aldıqlarından əmin olun.
- İştirakçılar tərəfindən müzakirə ediləcək fikirdə "X qrupunu" cəmiyyətinizdə tez-tez hədəfə çevrilən başqa qrupla əvəzləyə bilərsiniz. Həmçinin kiberbullinq nümunəsini seçib, xəyali bir şəxsi hədəf adlandıra bilərsiniz.
- Mühüm səbəb və ya təsirlərinin ötürüldüyünü görsəniz, onlara yön vermək üçün köməklik göstərə bilərsiniz. Həmçinin onlar ağacı çəkən köməklik üçün aşağıdakı siyahını təmin edə bilərsiniz. Onlar siyahıdakı amil və ya subyektlərin problemlə əlaqəsinin olub-olmadığını, ağacın hansı hissəsinə uyğun gələ biləcəklərini nəzərdən keçirə bilərlər:
  - KİV
  - Siyasətçilər / ictimai xadimlər
  - Oflayn nifrət nitqi
  - X qrupu ilə cəmiyyətin qalan hissəsi arasında qarşılıqlı fəaliyyətin az olması
  - Yaşıdların təzyiqi
  - İş yerində ayrı-seçkilik
  - İqtisadi amillər
  - Məktəblər / təhsil
- Həmçinin İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisinə nəzər salmaqla insan hüquqlarının onlayn rejimdə tətbiqi barədə daha çox məlumat əldə edə bilərsiniz. Konkret desək, "Müyəssərlik və ayrı-seçkiliyin yolverilməzliyi" bölməsi nifrət nitqinin hədəfi olan insanlara onlayn rejimdə hansı növ hüquqların tətbiq olunduğu haqqında fikir formalaşdırır.

## FƏALİYYƏT ÜÇÜN FİKİRLƏR

İştirakçılar müəyyən etdikləri səbəblərdən birini seçə və bu problemin həlli üçün strategiya hazırlaya bilərlər. Onlar qrup formasında iş üçün bir onlayn və bir oflayn məşğələ seçə bilərlər.

"Nifrət nitqinə yox hərəkatı" kampaniyası çərçivəsində hazırlanmış resurslara nəzər salmaqla insan hüquqları uğrunda necə hərəkətə keçə biləcəyiniz haqqında daha ətraflı məlumat əldə edin.

İnsan hüquqları naminə necə hərəkətə keçə biləcəyiniz haqqında daha ətraflı məlumat almaq üçün Kompas - gənclərin iştiraki ilə insan hüquqlarinin təhsili üzrə təlimat vəsaitinə nəzər salın, www.coe.int/compass, vəsaitdə bütöv bir fəsil bunun üçün tələb olunan addımlara həsr olunub.


X qrupuna qarşı amansız hücumlar
TƏSİR
TƏSİR
TƏSİR
TƏSİR
TƏSİR
TƏSİR
TƏSİR
TƏSİR
İnsanlar incidilirlər
İnsanların bunu deməsi nəticəsində nə baş verə bilər?
ONLAYN NİFRƏT NİTQİ
SƏBƏB
SƏBƏB
SƏBƏB
Niyə insanlar belə deyirlər?
Hamı mənfi sözlər deyir!
SƏBƏB
SƏBƏB
SƏBƏB
SƏBƏB
Heç kim cəzalandırılmır
SƏBƏB

SƏVIYYƏ 1

QRUP
10 - 25

VAXT
45'

# DAHA PİS İFADƏ

***Bu məşğələ onlayn nifrət nitqi ilə tanışlıq məşğələsidir. İştirakçılar "ən pis" hesab etdiklərindən başlayaraq geylər əleyhinə müxtəlif nifrət nitq nümunələrini sıralayırlar.***

| | |
|---|---|
| MÖVZULAR | İrqçilik və ayrı-seçkilik, demokratiya və iştirak |
| MÜRƏKKƏBLİK | Səviyyə 1 |
| QRUP ÜZVLƏRİNİN SAYI | 10 – 25 |
| VAXT | 45 dəqiqə |
| MƏQSƏDLƏR | • Onlayn nifrət nitqinin müxtəlif formalarını başa düşmək və onların təsirini qiymətləndirmək<br>• Geylər əleyhinə stereotipləri və əsassız qərəzli münasibəti ələ almaq<br>• Müxtəlif onlayn nifrət nitqi insidentlərində adekvat cavab tədbirlərini nəzərdən keçirmək |
| MATERİALLAR | • 126 səhifəsində kartlar<br>• Kartların yerləşdirilməsi üçün masa və ya döşəmədə yer |
| HAZIRLIQ | • Hər bir kiçik qrup (4-5 nəfər) üçün kartların bir surətini çıxarın.<br>• Onları kart formasında kəsin və bu kartların 9 və ya 12-ni qruplar tərəfindən müzakirə edilmək üçün seçin. |

## TƏLİMATLAR

1. İştirakçılardan onlayn insan hüquqları dedikdə, nə başa düşdüklərini soruşun. Kiminsə hər hansı fərdə və ya xüsusi bir qrupun nümayəndələrinə ünvanlanmış onlayn nifrət nitqi ilə qarşılaşıb-qarşılaşmadığını soruşun (məsələn, geylər, zəncilər, müsəlmanlar, yəhudilər, qadınlar və s.). İnsanlar bununla qarşılaşdıqda nə edirlər? Sizcə, qurbanlar özlərini necə hiss edirlər?
2. "Nifrət nitqi" ifadəsi geniş çeşiddə məzmunu əhatə etmək üçün istifadə edilir:
   - Əvvəla o, ümumi mənadakı "nitq" sözündən daha çox anlam ifadə edir və video, rəsm, musiqi və s. kimi başqa ünsiyyət formalarına münasibətdə də istifadə edilə bilər.
   - İkincisi, bu ifadə çox alçaldıcı, hətta təhdidedici davranışı, eləcə də "sadəcə" təhqira-

miz şərhləri təsvir etmək üçün istifadə edilə bilər. Nifrət nitqinə nələrin daxil olduğu haqqında universal razılaşma mövcud olmasa da, onun insan hüquqlarının pozulmasını və pis rəftarı əhatə etdiyinə şübhə yoxdur.

3. Nifrət nitqinə qarşı cavab tədbirinin necə görüləcəyinin çox vaxt onun nə dərəcədə "pis" olduğunun qiymətləndirilə bilməsindən asılı olduğunu izah edin: bütün nifrət nitqləri pis olsa da, bəzi nümunələr digərləri ilə müqayisədə daha pisdir.
4. İştirakçılar almazşəkilli qiymətləndirmə sistemi ilə tanış deyirlərsə, onlara sistemin iş prinsipini göstərin (Fasilitatorlar üçün praktik məsləhətlər bölməsində diaqram və izahata nəzər salın). İştirakçılara geylərə qarşı internetdə paylaşılan bir sıra nümunələrinin veriləcəyini və onların həmin nümunələri "daha az pis olandan" "ən pisə" doğru sıralamağa çalışmalı olduqlarını izah edin. "Ən pis" nümunələr iştirakçıların çoxunun gələcəkdə internetdən tamamilə yox olmasını istəyəcəkləri nümunələr olmalıdır.
5. İştirakçıları qruplara bölün və hər bir qrupa kartların surətini verin.
6. Kartları müzakirə etmək üçün 20 dəqiqə vaxtlarının olduğunu, onları necə sıralamalı olduqlarını razılaşdırmağa çalışmalı olduqlarını bildirin. İyirimi dəqiqə sonra iştirakçıları başqa qrupların "almazlarına" nəzər salmağa dəvət edin. Təhlil və qiymətləndirmə üçün onları təkrar qrupa dəvət edin.

## TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

### MƏŞĞƏLƏ HAQQINDA SUALLAR:

- Məşğələ barədə nə düşünürsünüz? Müxtəlif nümunələri qiyətləndirmək asan idimi?
- Qrupunuz daxilində güclü fikir ayrılıqları oldumu, yaxud da öz qrupunuzla digər qrupların hazırladığı almazlar arasında əhəmiyyətli fərqlər gördünüzmü?
- Hansı nümunələrin "ən pis" olduğunu qərarlaşdırmaq üçün hər hansı meyardan istifadə etdinizmi? Məsələn, bəyanatı kimin verdiyini və ya onu görən insanların sayını nəzərə aldınızmı?

### ONLAYN NİFRƏT NİTQİ İLƏ NECƏ MÜBARİZƏ EDİLMƏLİ OLDUĞUNA DAİR SUALLAR:

- Sizcə, internetdə belə bəyanatlara icazə verilməlidirmi? Lehinə və əleyhinə arqumentlər nələrdir?
- Sizcə, "daha pis" nifrət ifadələri üçün fərqli qaydalar mövcud olmalıdırmı? Tamamilə qadağan edilən ifadələr olmalıdırmı?
- Bəzi ifadələrin qadağan edilməli olduğunu düşünürsünüzsə, bəs aradakı cizgini necə müəyyən edərdiniz?
- Onlayn nifrət nitqi ilə mübarizə üçün istifadə edilə biləcək başqa metodlar ağlınıza gəlirmi?
- Internetdə belə nifrət nümunələri ilə qarşılaşsaydınız, necə münasibət göstərərdiniz?

### HOMOFOBİYA HAQQINDA SUALLAR

- Nəyə görə homoseksual tez-tez nifrət nitqinin hədəfi olurlar? Önmühakimə ilə mübarizə üsullarını ağlınza gəlirmi?
- Sizcə, fərdi baxışlarından asılı olmayaraq, hər hansı şəxslə belə rəftar edilməsi ədalətlidirmi?

### FASİLİTATORLAR ÜÇÜN PRAKTİK MƏSLƏHƏTLƏR

- Qrupda güclü anti-gey mövqeyinin olub-olmadığından, hər hansı iştirakçının bundan məyus ola bilib-bilməyəcəyindən xəbərdar olmalısınız. Belə bir riskin olduğunu düşünürsünüzsə, bu vəsaitə daxil olan "Faktların yoxlanması" məşğələsini həyata keçirin və ya "Gender məsələləri", yaxud "Hamı fərqlidir, hamı bərabərdir" təhsil paketinə nəzər salın.
- Onlayn nifrət nitqinə qarşı kampaniya haqqında daha ətraflı məlumatı 2-ci fəsildə tapa bilərsiniz. Onlayn nifrət nitqi haqqında qısa məlumatla 5-ci fəsildə tanış ola bilərsiniz.
- Onlayn insan hüquqları haqqında daha ətraflı məlumatı İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisindən əldə edə bilərsiniz. Xüsusilə "Müyəssərlik və ayrı-seçkiliyin yolverilməzliyi" başlıqlı hissədə ayrı-seçkiliyə məruz qalmadan internetə çıxış hüququ haqqında daha ətraflı məlumat təmin edilir.
- Almaz qiymətləndirmə sistemi müxtəlif nümunələri "ən yaxşıdan", "ən pisə" doğru sıralamaq üçün istifadə edilən metoddur. (və ya daha pisdən ən pisə doğru) Kartlar aşağıdakı sxem əsasında aşağıdakı diaqramdakı kimi düzülməlidir.

Ən pis nümunə diaqramın aşağısında (1-ci mövqe), ən pis nümunə yuxarıda (birinci diaqramda 7-ci, ikinci diaqramda 5-ci mövqe) yerləşdirilməlidir. Yuxarıdakı kartlar aşağıdakılardan daha pis olmaqla qalan kartları digər sıralara yerləşdirin (4-cü sıradakı kartlar, 3-cü sıradakı kartlarla müqayisədə daha pisdir).

**Normal almaz (9 kartdan istifadə edilməklə)**




**"İri" almaz (12 kartdan istifadə)**




- Onlayn nifrət nitqi haqqında 5-ci fəsildə yer verilən məlumata nifrət nitqi hallarının qiymətləndirilməsi üçün "meyarlar" daxildir. Bu meyarlar aşağıdakılardır:
  - İfadənin **məzmunu** və **tonu**: burada istifadə edilən dil mətn nəzərdə tutulur
  - Bəyanatı verən şəxsin **niyyəti**, başqa sözlə, niyyət kimisə incitməkdirmi
  - **Hədəf auditoriya**. Hədəf auditoriya eyni (geylər) olduğuna görə bu məşğələyə aid deyil.
  - Nitqin söyləndiyi **kontekst**. Bura geylər əleyhinə qanunvericiliyin təklif edildiyi faktı (kart 6) və ya ölkədə anti-gey əhval ruhiyyəsinin güclü olması faktı daxil ola bilər.
  - **Təsir**, başqa sözlə, bəyanatın fərdlər və ya bütövlükdə cəmiyyət üzərində təsiri necə ola bilər.
- Nümunələrə qarşı nə edilməli olduğunu müzakirə edən zaman ifadə azadlığı barədə bir qədər məlumat təmin edə bilərsiniz. Daha ətraflı məlumatı 5-ci fəsildən əldə edə bilərsiniz.

Həmçinin İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisində, xüsusən "Söz və məlumat əldə etmək azadlığı" bölməsində daha ətraflı məlumatla tanış ola bilərsiniz.

## VARİANTLAR

Sıralama almaz formasında olmaq əvəzinə düz xətt formasında ola bilər, yəni hər sıraya bir kart yerləşdirməyə icazə verilə bilər. Bu bir qədər daha çətindir və daha çox vaxt tələb edə bilər.

- 12 kartın hamısından istifadə edə bilərsiniz, lakin bunun üçün daha çox vaxt tələb olunacaq və almazın formasını təhrif olunacaq! Alternativ olaraq, 9 kart seçə, daha az məqsədəuyğun və ya qrupunuz üçün daha az yararlı hesab etdiyiniz kartları kənarlaşdıra bilərsiniz. Yuxarıdakı iki diaqramda hər iki seçmə izah edilir.

## FƏALİYYƏT ÜÇÜN FİKİRLƏR

- Onlayn nifrət nitqi ilə mübarizə metodlarını müzakirə edən zaman, homofibiya, bifobiya, transfobiyaya qarşı kampaniya resursları toplusundan nümunələr göstərə bilərsiniz, məsələn, aksiya günü - homofobiya, bifobiya, transfoibiya ilə beynəlxalq mübarizə günü.
- Aşağıdakı tədris resurslarını nəzərdən keçirməklə mövzunu daha çox araşdıra bilərsiniz: *http://ifm-sei.org/publications-2/educational-resources/rainbow-resources/*

## PAYLANMAQ ÜÇÜN MATERİAL

1. Dosta yazılan şəxsi e-məktubda "zarafat" kimi deyilib.

**Geyləri yox etməliyik!**

2. Facebook səhifəsində 1,000-dən artıq 'dostla' paylaşılmış petisiya

**Geyləri ictimai həyatdan uzaqlaşdırın. Siyasətçilərimizə bildirmək üçün imzanızı**

3. Neo-nasist saytda 576 nəfərin bəyəndiyi şərh

**Hitler geyləri qaz kameralarına göndərməkdə haqlı idi.**

4. Geylər əleyhinə mahnı. Onlayn video 25,000 dəfə izlənib.

**Geyləri yox et!**

5. Avropa Məhkəməsinin qərarından şikayətlənən onlayn qəzet

**Homoseksuallığı "təbii" hesab edən cəmiyyət xəstə cəmiyyətdir**

6. Yeni qanunvericilik təklifi barədə danışan daxili işlər naziri ilə müsahibə

**Geylərə tolerant yanaşmağa yox, onları müalicə etməyə çalışmalıyıq**

7. Homoseksual olduğu bilinən jurnalistin məqalənin sonunda yazdığı şərh

**Səni və ananı ***. Xəstə ******

8. Gey olduğu bilinən məşhurun şəklinin altındakı yazı; az sayda oxucusu olan şəxsi bloqda.

**Gey, yoxsa korazehin? Geylərin çoxunun əqli geriliyi var**

9. Geyləri "çıxdaş edən" populyar veb-sayt, məktəbin adı və foto nümayiş etdirilməklə

**Bu insan GEYdir. Və uşaqlara müəllimlik edir!**
**Burada şikayət et**

10. Gey olmağın siqaret çəkməkdən daha təhlükəli olduğunu irəli sürən (QİÇS-ə görə) geylər

**Sən daha tez öləcəksən**

11. Siyasətçinin 350,000 izləyicisinə göndərdiyi tvit

**Köhnə məktəbimdə oxuyan heç bir gey həyatda uğur qazana bilmədi**

12. Buynuzları və quyruğu olan stereotipik "geyin" əks olunduğu karikatura

**Homoseksuallar iblislərin əsarətindədirlər**

NO HATE
NO HATE SPEECH MOVEMENT

SƏVIYYƏ 1

QRUP 12 +

VAXT 45'

# SƏSİNİ UCALTMAQ

***Cəmiyyətdə müəyyən qruplara münasibətdə geniş yayılmış önmühakimələri nəzərdən keçirmək üçün "dairəvi qab müzakirəsindən" istifadə edilir, iştirakçılar ümumi qəbul edilmiş inanclar barədə tənqidi düşünməyə, nifrət nitqinə qarşı arqumentlər formalaşdırmağa cəlb edilirlər.***

| | |
|---|---|
| MÖVZULAR: | Kampaniya üçün strategiyalar, irqçilik və ayrı-seçkilik, internet savadı |
| MÜRƏKKƏBLİK: | Səviyyə 1 |
| QRUP ÜZVLƏRİNİN SAYI: | 12 və daha çox |
| VAXT | 45 dəqiqə |
| MƏQSƏDLƏR | • Müəyyən qruplara qarşı önmühakimlərə və mənfi stereotiplərə nəzər salmaq<br>• Onlayn nifrət ifadələrinə qarşı arqumentlər hazırlamaq və cavab tədbirlərini araşdırmaq<br>• Çox vaxt cəmiyyət tərəfindən yanlış anlaşılan qruplara qarşı empatiya formalaşdırmaq, anlayışdakı boşluqları doldurmaq |
| MATERİALLAR | • 3 stul<br>• İştirakçıların dairə formasında əyləşməsi və hərəkət etməsi üçün yer<br>• Kiçik kağız parçaları və qələmlər<br>• Şlyapa (və ya kiçik konteyner) |
| HAZIRLIQ | • Kiçik kağız parçaları kəsin – qrupdakı hər kəs üçün təqribən 2 parça (bir neçəsini ehtiyat üçün saxlayın).<br>• "Hədəf" qrupuna aid ola biləcək qrup üzvlərinin mövcud ola biləcəyini nəzər alın. Çətinliklər yarana biləcəyini düşünürsünüzsə, əvvəlcədən fərdləri kənara çəkin və məşğələni onlara izah edin. Onlara qrup üçün çox faydalı resurs ola biləcəklərini bildirin və məşğələyə görə özlərini narahat hiss etmədiklərindən əmin olun.<br>• Qrupun malik ola biləcəyi bəzi ümumi narahatlıqlara və ya yanlış anlaşmalara qısa cavablar hazırlamaq faydalı ola bilər. |

## TƏLİMATLAR

### BAŞLAMAQ ÜÇÜN

1. Aşağıdakı uydurulmuş fikirləri "həqiqi fakt" adı ilə flipçarta/slayda yerləşdirin, bütün iştirakçılar onları oxuya bilməlidir. Özünüzün variantlarınızı da uydura bilərsiniz.

**Faktlar:**

- Bütün mühacirlər evlərinə getsəydilər, hər kəs üçün kifayət qədər iş olardı.
- Qızlar onlayn oyunlarda oğlanlara nisbətən zəifdirlər.
- Elmi araşdırmalar avropalıların beyinlərinin asiyalılarla müqayisədə daha kiçik olduğunu göstərir.
- Geylik müalicə oluna bilən əlillikdir.

2. İştirakçıların münasibətlərini soruşun. Bir neçə cavab aldıqdan sonra bu bəyanatların tamamilə uydurma olduğunu söyləyin! Əslində bütün fikirlər saxtadır. Yenə də münasibətləri soruşun, iştirakçılarla bu bəyanatlara nə üçün inandıqlarını (əgər inandılarsa!) qısaca araşdırın.
3. İştirakçılardan internetdə belə şeylər oxuyub -oxumadıqlarını, bunun doğru olmadığını bilib-bilmədiklərini və ya bu haqda düşünüb-düşünmədiklərini soruşun. Bununla bağlı nəsə edirlərmi?

### ƏSAS MƏŞĞƏLƏ

4. Xeyli nifrət nitqinin və çox saylı irqçi münasibətin savadsızlıqdan irəli gəldiyini izah edin. İnsanlar heç vaxt qarşılaşmadıqları insanlar haqqında müəyyən şeylərə inanmağa yönləndirilirlər! Yalnız 1 şəxs barədə aldıqları məlumat əsasında bütöv icma haqqında fikirlərə inanırlar! Bu inanclar geniş müzakirə edildikdə və şübhə altında alınmadıqda "fakt" olaraq qəbul edilməyə başlayırlar. Nəyisə harada eşitdiyimizi, saxta və ya sadəcə kiminsə fikri ola biləcəyini unudur və özümüz də bunlara inanmağa başlayırıq.
5. İştirakçılara internetdə hər kəsin qarşılaşdığı "faktların" və ya rəylərin doğruluğunun şübhə altına alınmasında əhəmiyyətli rol oynaya biləcəyini söyləyin. Səbəbi soruşmaq və ya əksini izah etmək saxta və ya zərərli fikirlərin yayılmasının qarşısını almağın ən əhəmiyyətli yollarından biridir. Özümüz üçüm etibarlı rəy formalaşdırmağın ən yaxşı üsulu budur!
6. Məşğələ çərçivəsində müəyyən qruplar haqqında hazırda geniş yayılmış bəzi mənfi "faktların" və ya rəylərin araşdırılacağını izah edin. İştirakçılar qrupun bilik və səriştəsindən istifadə etməklə, arqumentlər formalaşdırmağa və geniş yayılmış mifləri alt-üst etməyə çalışacaqlar. Onlar bunu biliklərini/təcrübələrini paylaşmaq, daha yaxşı anlayış əldə etmək üçün fürsət olaraq görməlidirlər.
7. Kağız parçalarını təqdim edin (hər iştirakçı üçün iki ədəd), qalan parçaları bir yerdə qalaqlayın və lazım olarsa, əlavə kağız götürə biləcəklərini izah edin. İştirakçılardan müəyyən qruplar haqqında ifadə edilmiş, müzakirə etmək istədikləri mənfi fikirləri və ya "faktlar"ı yazmağı xahiş edin. Bir neçə nümunə göstərin:
   - İnsanlar öz ölkələrində yaşamalı, planet üzərində hərəkət etməməlidirlər!

   - Qadının yeri evidir: qadınlar işləri kişilərin əlindən almağı dayandırmalıdırlar.
   - Qaraçılar olduqları ölkənin ənənələrinə uyğun yaşamağa başlamalıdırlar.
8. İştirakçılara özlərinin fikrə inanmaqlarına ehtiyac olmadığını, sadəcə ümumi qəbul edilmiş "inanclara" qarşı cavab tədbirlərini araşdırmaq istəyə biləcəklərini izah edin. Kağızlar imzalanmamalı, hazır olduqda, şlyapaya və ya başqa konteynerə qoyulmalıdır.
9. Üç stulu qrupun qarşısında yarım dairə formasında yerləşdirin. Yalnız stullardan birində əyləşənlər müzakirədə iştirak edəcəklər; qrupun qalan üzvləri müşahidəçi olacaqlar.
10. Üç könüllünü söhbətə qoşulmağa dəvət etməklə başlayacağınızı izah edin. Hər hansı məqamda istəyən söhbətə qoşula bilər, lakin həmsöhbətlərin sayı 3 nəfəri keçməməlidir, ona görə də kimsə onunla yerini dəyişməli olacaq. Söhbətə qoşulmaq istəyən irəli çıxmalı və yavaşca həmsöhbətlərdən birinin çiyninə toxunmalıdır. Bu iki nəfər yerlərini dəyişirlər və əvvəlki həmsöhbət müşahidəçi olur.
11. İştirakçıları irəli çıxaraq öz fikirlərini, eləcə başqalarının şərik olmadıqları fikirlərini ifadə etməyə təşviq edin. Beləliklə, mübahisə doğuran "siyasi baxımdan düzgün sayılmayan" və ya ağla gəlməyən baxış bucaqları səsləndirilə və mövzu müxtəlif perspektivlərdən hərtərəfli müzakirə edilə bilər. Qrup daxilindəki fərdlərə yönəlmiş təhqiramiz və ya incidici şərhlərə icazə verilmir.
12. Könüllülərdən birindən şlyapadan bir sual çəkib onu müzakirə etməyə başlamağı xahiş edin. Müzakirənin iştirakçılar mövzunu müzakirə edib bitirənə, toxunulan məqamlar təkrarlanmağa başlayana qədər davam etməsinə icazə verin. Sonra üç könüllüdən başqa mövzunu müzakirə etməyi xahiş edin və eyni qayda ilə davam edin.
13. Vaxtın imkan verdiyi qədər çox sayda sualı müzakirə edin. Müzakirədən sonra "sakitləşmək" üçün bir qədər vaxt ayırın və bütövlükdə məşğələ barədə götür-qoy edin.

## TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ:

Məşğələnin fikirlərini dəyişib-dəyişmədiyini müzakirə etmək üçün iştirakçılara aşağıdakı sualları ünvanlayın və ya onlara önmühakimələrə qarşı arqumentlər verin:

- Kimsə əvvəllər bilmədiyi bir şey öyrəndimi?
- Kiminsə müəyyən bir qrup və ya məsələyə münasibəti dəyişdimi?
- Önmühakimələr barədə müzakirələrdə daha yaxşı iştirak edə biləcəyinizi düşünürsünüzmü? Sizcə, bunu onlayn yoxsa oflayn rejimdə edə bilərsiniz? Niyə hə və ya niyə yox?
- Onlayn rejimdə bənzər müzakirəyə necə qoşula bilərdiniz? Bənzər cəhətlər nələr olardı? Nə fərqli ola bilərdi?
- İnanclar barədə tərəddüd etdikdə nə etmək lazımdır?

## FASİLİTATORLAR ÜÇÜN PRAKTİK MƏSLƏHƏTLƏR

- Qrup daxilində mövcud ola biləcək müxtəlif həssaslıqlardan və ya mənsubiyyətlərdən xəbərdar olmalı, müzakirələr zamanı iştirakçıları onları nəzərə almağa təşviq etməlisiniz.
- İştirakçıların və ya sizin birbaşa toxuna bilməyəcəyinizi düşündüyünüz məsələlər və ya fikirlər ola bilər. Bunları flipçarta yazın, ya özünüz nəzərdən keçirin, ya da daha sonra rəyinizi bilin, yaxud araşdırmağı və rəy bildirməyi iştirakçılara həvalə edin.

- həmsöhbətin qərəzli münasibətlərə qarşı arqumentlər tapmaqda çətinlik çəkdiyini görsəniz, çəkinmədən söhbətə daxil ola bilərsiniz. Bunu tez-tez təkrar etməyin: bəzən söhbəti dayandırmaq, qrupda başqalarının alternativ həll yolunun olub-olmadığını soruşmaq faydalı ola bilər.
- Müzakirəni açıq saxlamaq, iştirakçıların fikirlərini sərbəstcə ifadə edə biləcəklərini hiss etmələri vacibdir. Eyni zamanda söhbət amansız və əsassız mənfi stereotiplərin təkrarlanmasından ibarət olmamalıdır. İştirakçıları şərhlərini mümkün qədər həssaslıqla ifadə etmək üçün sual tonundan istifadə etməyə təşviq edin. Zəruri olaraq onlara bir neçə düstur verin, məsələn:
  - “Eşitmişəm ki, ...”
  - “Görünür, bəzi insanlar düşünürlər ki ...”
  - “Mənə izah edə bilərsinizmi ...?”
  - “Sizcə, bu münasibət niyə səhv ola bilər?”
  - Hər kəsi hansısa məqamda söhbətə daxil olmağa təşviq etməyə çalışın!

## VARİANTLAR

İştirakçılardan sualları topladıqdan sonra müzakirəyə başlamazdan əvvəl onlara şərhlərdən bəzilərini araşdırmaq üçün vaxt verə bilərsiniz. Suallar / bəyanatlar paylana və iştirakçılardan qısa arqumentlər hazırlamaq xahiş edilə bilər. Bu halda müzakirə daha yüksək məlumatlılıq üzərində qurula bilər.

Bu məşğələ bir neçə hissədən ibarət ola bilər, məsələn, hər bir hissədə cəmiyyət daxilində konkret qrupa təsir edən önmühakimənin seçilməsi ilə. Hər dəfə ölkənizdəki konkret qrupun vəziyyəti haqqında məlumat hazırlaya və ya könüllülər qrupundan bu məlumatı hazırlamağı xahiş edə bilərsiniz.

## FƏALİYYƏT ÜÇÜN FİKİRLƏR

- İştirakçılar ümumi qəbul edilmiş inanclara alternativ məlumatları təqdim edən məlumatlandırıcı videolar hazırlaya bilərlər.
- İştirakçılara müzakirələrdə tam toxunulmayan məsələləri daha sonra araşdırmaq və qrupa rəylərini bildirmək tapşırıla bilər.
- Onlar "alt-üst edilmiş miflər" siyahısı hazırlamaqla başlaya bilərlər. Bu, konkret nifrət hədəfləri barədə geniş yayılmış önmühakimələrdən, bu önmühakimələri alt-üst edən məlumat və statistikalardan təşkil edilə bilər. Həmçinin iştirakçılarla birlikdə önmühakimələr və ya irqçi nitqə qarşı mübarizədə istifadə etmək üçün əks arqumentlər siyahısı hazırlaya bilərsiniz. Həmçinin onların yumor, məlumat və ya elektron keçidlərin paylaşılması ilə bu arqumentləri internetdə necə təqdim edə biləcəklərini müzakirə etmək vacibdir.

Səviyyə 4

Qrup 9-15

Vaxt 120'

# ONLARIN DANIŞDIQLARI HEKAYƏLƏR

***İştirakçılar immiqrantları və immiqrasiyanı təsvir edən xəbər nəşrini təhlil etmək üçün kiçik qruplar daxilində çalışırlar. Nəticələr kollaj formasında təqdim edilir.***

| | |
|---|---|
| MÖVZULAR | İrqçilik və ayrı-seçkilik, İnsan hüquqları, ifadə azadlığı |
| MÜRƏKKƏBLİK | Səviyyə 2 |
| QRUP ÜZVLƏRİNİN SAYI | 20 – 25 |
| VAXT | 60 dəqiqə |
| MƏQSƏDLƏR | • İmmiqrantların mətbuatda necə təqdim edildiyinə nəzər salmaq, bunun cəmiyyətin onlara münasibətinə necə təsir edə biləcəyini müzakirə etmək<br>• "Gizli" mesajlar, selektiv məlumat təqdimatı, şəkillərdən istifadə kimi gizli irqçilik formalarını və onların nifrət nitqini necə alovlandırdığını müəyyən etmək<br>• İmmiqrantlar və immiqrasiya haqqında pozitiv hekayələri müzakirə etmək/araşdırmaq |
| MATERİALLAR | • 5 fərqli qəzetin / jurnalın təxminən 3 nüsxəsi (qrup üzvlərinin say tərkibindən asılı olaraq)<br>• Bir neçə flipçart vərəqəsi<br>• Markerlər, yapışqan və qayçı<br>• 4 və ya 5 nəfərin iri kollaj hazırlaması üçün kifayət qədər yer<br>• İnternetə çıxış (istəyə bağlı) |
| HAZIRLIQ | • Hər bir işçi qrup üçün 4 flipçart vərəqəsini bir-birinə yapışdırın.<br>• Hər bir qrupu marker, yapışqan, qayçı və seçilmiş xəbər nəşrlərindən birinin nüsxələri ilə təmin edin.<br>• Hər bir qrup üçün yaddaş siyahısının surətini çıxarın (səh. 134). |

## TƏLİMATLAR

1. İştirakçılardan aşağıdakı ifadələri necə başa düşdüklərini soruşun:

**Stereotip, irqçilik, ayrı-seçkilik**

2. Terminləri qısaca izah edin (zəruri olarsa qısa məlumatlar bölməsinə istinad edin (səh. 180-184)), aşağıdakıları aydınlaşdırın:
   - İnsan qrupları haqqında geniş ümumiləşdirmələr (stereotiplər) çox nadir hallarda hər kəsə aid olur!
   - Belə ümumiləşdirmələr ümumi qəbul edildikdə, çox vaxt ayrı-seçkiliyi, pis rəftarı və daha pis məqsədləri əsaslandırmaq üçün istifadə edilir.
3. İştirakçılarda ədalətsiz stereotiplərə məruz qalmış hər hansı qrup tanıyıb-tanımadıqlarını soruşun. Məşğələdə KİV-in belə qrupları, yəni immiqrantları necə təqdim etdiyinə nəzər salınacağını izah edin.
4. İştirakçılara seçdiyiniz nəşrləri göstərin, immiqrantların KİV-də necə əks etdirildiyinin təhlili məqsədilə qruplar daxilində çalışacaqlarını izah edin. Müxtəlif nəşrlərin immiqrantları necə təqdim etdiyi barədə düşünməli olacaqlarını bildirin ...
   - əsasən müsbət yöndən
   - əsasən mənfi yöndən və ya
   - neytral qaydadamı.
5. Yaddaş siyahısını nəzərdən keçirin (səh. 134) və iştirakçıların təhlil aparan zaman nəyi axtarmalı olduqlarını anladıqlarından əmin olun. Onları uyğun hesab etdikləri hər hansı başqa məlumatı əlavə etməyə təşviq edin!
6. İştirakçıları 5 və ya 6 nəfərlik qruplara bölün, hər bir qrupa eyni qəzetin 2 və ya 3 nüsxəsini, iri flipçart vərəqələri, qələm, yapışqan, qayçı və s. verin. Onlara hər hansı mümkün qərəz halını müəyyən etmək üçün yaddaş siyahısında istifadə etməli, təhlillərinin nəticələrini kollaj formasında təqdim etməli olduqlarını izah edin. Onlar qəzetləri kəsməli, onlar üzərində qeydlər etməli və öz şəkil və ya mətnlərini əlavə etməlidirlər. Bütün kollajların məşğələnin sonunda nümayiş etdiriləcəyini izah edin.
7. Qruplar işlərini tamamladıqdan sonra plakatları nümayiş etdirin və hər kəsə hər bir qrupun işinə baxmaq üçün vaxt verin. Daha sonra onları Təhlil və qiymətləndirmə üçün təkrar bir araya gətirin.

## TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

- İştirakçılardan məşğələ barədə ümumi təəssüratlarını soruşun: məşğələni faydalı/təəccüblü hesab edirlərmi? İmmiqrantların KİV-də təqdim edilməsi ilə bağlı ümumi təəssüratları necədir, onların ədalətlə işıqlandırıldığını düşünürlərmi?
- Qruplar kollajlarında toxunmayıblarsa, alternativ baxışın təqdim edilməsi üçün hansı xəbər materiallarından istifadə edilə biləcəyini soruşun. Məsələn, "immiqrant olmayanlar" haqqında yaxşı xəbərlər var idimi?
- İştirakçıların fikrincə, immiqrantlar nə üçün bütün dünya ölkələrində ayrı-seçkilik, təqib və nifrət nitqinin hədəfinə çevriliblər? KİV-in mənfi stereotiplərinin möhkəmləndirilməsində rolu nə qədərdir?

- İştirakçılar daxil olduqları veb-saytlarda bənzər qərəzli və ya dözümsüz münasibətlərlə qarşılaşıblarmı? Nümunələr göstərməyi xahiş edin.
- Onların immiqrantlar, onların ailələri, uşaqları üzərində (eləcə də cəmiyyətin çoxsaylı problemlərinə görə günahlandırıldıqlarına görə) cəmiyyət üzərində mümkün təsirləri nə ola bilər? Bu, nifrət nitqinin hədəfi olan immiqrantlara necə təsir edir?
- Gənclər immiqrantlara pozitiv münasibəti təbliğ etmək üçün nəsə edə bilərlərmi? Onlar immiqrantlar haqqında pozitiv xəbərlərin olduğu internet saytları və səhifələri ilə qarşılaşılaşıblarmı?

### FASİLİTATORLAR ÜÇÜN PRAKTİK MƏSLƏHƏTLƏR

- Siyasi / mədəni baxışların geniş diapazonunu əks etdirən qəzetləri və ya jurnalları seçməyə çalışın. Hətta immiqrantlara ən çox rəğbətlə yanaşanlar belə cəmiyyətdə mövcud mənfi düşüncələrə etiraz etməyə cəhd etməyə, məsələn immiqrant icmaları və ya fərdlər barədə yaxşı xəbərlərə yer verməyə bilərlər.
- Qrupda çoxları nəşrlərdə yer alan mənfi münasibətləri bölüşə, bu münasibətlərin əsaslı olduğunu düşünə bilər. İştirakçıları öz fikirlərini səsləndirməyə təşviq edin. Əvvəlcədən nəşrlərdə işıqlandırılmış ola biləcək yaxşı xəbərləri araşdırmaq və ya immiqrantların gəldikləri ölkələrdən bəzilərində şəraitə nəzər salmaq faydalı ola bilər. İştirakçılardan, məsələn, müharibənin ölkənin böyük hissəsinə zərər verdiyi İraq və ya Əfqanıstanda yaşayan bir gənc olduqlarını təsəvvür etməyi xahiş edin.

### VARİANTLAR

İştirakçılar həmçinin çap edilmiş nəşrlər yerinə onlayn xəbər agentliklərinin araşdırmalarını seçə bilərlər. Konkret səhifələri təklif etmək, məsələn, yükü azaltmaq üçün 5 gün müddətində ön səhifə ilə məhdudlaşmaq təklif edilə bilər. Eyni yanaşmadan TV xəbərlərinə münasibətdə də istifadə edilə bilər.

### FƏALİYYƏT ÜÇÜN FİKİRLƏR

İştirakçılara immiqrantlar haqqında müsbət hekayələri nümayiş etdirən veb-sayt və ya sosial media profili yaratmağa kömək edin. Onlar öz cəmiyyətlərində müəyyən immiqrant icmalarını araşdıra, onların gəldikləri ölkələrə, regionlara, miqrasiyanın səbəblərinə və immiqrantların fərdi hekayələrinə nəzər sala bilərlər. Qiymətləndirmənin bir hissəsi olan qəzetlərin jurnalistlərinə elektron keçid göndərin və saytın onların qəzetində təsvir edilən mənfi obrazlardan ilham aldığını bildirin.

İnternetə çıxışınız varsa, əsas xəbər saytlarına baxa və tapşırığı birbaşa onlayn rejimdə idarə edə bilərsiniz. Bu halda həminin onlayn forumların və istifadəçilərin şərh yaza bildiyi məqalələrin rolu ilə əlaqədar suallar verə bilərsiniz. Bəzən bu şərhlər irqçi səciyyə daşıyır. Bu halda qrupla belə forumların məqbul hesab edilib-edilməməli olduğunu və hansı şərtlərin irəli sürülməli olduğunu müzakirə edə bilərsiniz.

İstinad edilən qrupu öz vəziyyətinizə uyğunlaşdırmaqla məşğələyə dəyişikliklər də edə bilərsiniz.

NO HATE SPEECH MOVEMENT

## PAYLANMAQ ÜÇÜN MATERİAL

### QRUPLAR ÜÇÜN YADDAŞ SIYAHISI

**İmmiqrantları əks etdirən fotolar/ şəkillər varmı?**

- Onlar arasında 'pozitiv' olanlar varmı?
- 'Mənfi' səciyyə daşıyanlar varmı?

**Xəbər materialına immiqrantlarla əlaqədar olan neçə mesaj daxildir?**

- İmmiqrantların müsbət yöndən təqdim edildiyi "yaxşı xəbər materialları" ilə qarşılaşdınızmı?
- Neqativ mesajlar mövcuddurmu?

**Seçdiyiniz qəzetdə immiqrantları təsvir etmək üçün hansı sözlərdən istifadə edilir?**

- Bu sözlər əsasın müsbət, mənfi, yoxsa neytral xarakterlidir?

**Açıq-aşkar irqçi xarakterli bəyanatlar var idimi?**

- Var idisə, ictimai xadimlərə məxsus idi, yoxsa jurnalistlərin rəyləri idi?

*İmmiqrant olsaydınız və bu qəzeti oxusaydınız, hansı hisləri keçirərdiniz? Əlavə etmək və ya dəyişdirmək istəyəcəyiniz bir şey varmı?*

NO HATE
NO HATE SPEECH MOVEMENT

SƏVIYYƏ 2

QRUP 10-25

VAXT 60'

# NİFRƏT NİTQİNİN BAŞA DÜŞÜLMƏSİ

***İştirakçılar nifrət nitqi nümunələrinə baxır, onların fərdlər və cəmiyyət üçün mümkün nəticələrini müzakirə edirlər.***

| | |
|---|---|
| MÖVZU | İnsan hüquqları, irqçilik və ayrı-seçkilik |
| MÜRƏKKƏBLİK | Səviyyə 2 |
| QRUP ÜZVLƏRİNİN SAYI | 10 – 25 |
| VAXT | 60 dəqiqə |
| MƏQSƏDLƏR | • Onlayn nifrət nitqinin müxtəlif formalarını və onların qurbanlar və cəmiyyət üçün nəticələrini anlamaq<br>• Onlayn nifrət nitqinə qarşı mümkün tədbirləri araşdırmaq |
| MATERİALLAR | • Nifrət nitqi nümunələrinin surətlər<br>• Kağız və qələm<br>• Flipçart kağızı |
| HAZIRLIQ | • Nifrət nitqi nümunələrinin surətlərini çıxarın<br>• "Qurbanlar üçün nəticələr", "Cəmiyyət üçün nəticələr" başlıqları ilə iki flipçart vərəqəsi hazırlayın. |

## TƏLİMATLAR

1. İştirakçılardan onlayn insan hüquqları dedikdə, nə başa düşdüklərini soruşun. Kiminsə hər hansı fərdə və ya xüsusi bir qrupun nümayəndələrinə ünvanlanmış onlayn nifrət nitqi ilə qarşılaşıb-qarşılaşmadığını soruşun (məsələn, geylər, zəncilər, müsəlmanlar, yəhudilər, qadınlar və s.). Iştirakçılar bununla qarşılaşdıqda nə hiss edirlər? Sizcə, qurbanlar özlərini necə hiss edirlər?

"Nifrət nitqi" ifadəsi geniş çeşiddə məzmunu əhatə etmək üçün istifadə edilir:

- Əvvəla o, ümumi mənadakı "nitq" sözündən daha çox anlam ifadə edir və video, rəsm, musiqi və s. kimi başqa ünsiyyət formalarına münasibətdə də istifadə edilə bilər.
- İkincisi, bu ifadə çox alçaldıcı, hətta təhdidedici davranışı, eləcə də "sadəcə" təhqiramiz şərhləri təsvir etmək üçün istifadə edilə bilər.

2. İştirakçılara bəzi real onlayn nifrət nitqi nümunələrini təhlil edəcəklərini, bu zaman xüsusilə qurbanların özləri və cəmiyyət üçün nəticələrə nəzər salacaqlarını izah edin.
3. İştirakçıları qruplara bölün və hər bir qrupa bir onlayn nifrət nitqi nümunəsi verin (səh. 138-140).
4. Onlardan öz nümunələrini müzakirə etməyi və suallara cavab verməyi xahiş edin. Tapşırığı yerinə yetirmək üçün 15 dəqiqə vaxtlarının olduğunu bildirin.

## TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

Qrupdan cavabları soruşa-soruşa nümunələri nəzərdən keçirin. Suallara verilən cavabları flipçarta qeyd edin. Qruplar bənzər cavablar verərlərsə, bunu eyni cavabın altından xətt çəkməklə və ya birdən artıq qrupun eyni nəticəyə gəldiyini bildirmək üçün ilk cavabın yanına nömrə yazmaqla göstərin. Bütün qruplar nəticələrini təqdim etdikdən sonra, iki flipçart vərəqəsini nəzərdən keçirin, qrupun bütün üzvləri ilə birlikdə məşğələ barədə müzakirə aparmaq üçün aşağıdakı suallardan istifadə edin:

- Məşğələ haqqında nə düşünürsünüz? Təhlil etdiyiniz nümunə haqqında nə düşünürsünüz?
- Nifrət nitqinin qrup tərəfindən sıralanan nəticələri arasında ən çox rast gəlinən hansı idi?
- Nümunələrdəki nifrət nitqinin hədəfi olan qruplar arasında ortaq cəhət var idimi?
- Nifrət nitqinin yönəldiyi hədəf qrupundan asılı olmayaraq, nəticələr arasında oxşarlıqlar var idimi?
- Bu davranış internetdə yayılarsa və heç kim problemi həll etmək üçün addım atmazsa, hansı nəticələr meydana gələ bilər?
- Onlayn nifrət nitqi ilə mübarizə üçün istifadə edilə biləcək başqa metod və ya vasitələr ağlınıza gəlirmi?
- İnternetdə belə nümunələrlə qarşılaşdıqda nə edə bilərik?

## FASİLİTATORLAR ÜÇÜN PRAKTİK MƏSLƏHƏTLƏR

- Onlayn nifrət nitqinə qarşı kampaniya haqqında daha ətraflı məlumatı 2-ci fəsildə tapa bilərsiniz. Onlayn nifrət nitqi haqqında qısa məlumatla 5-ci fəsildə tanış ola bilərsiniz.
- Həmçinin İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisindən istifadə etməklə iştirakçılara onlayn hüquqları haqqında daha ətraflı məlumat verə bilərsiniz.

## VARİANTLAR

Vaxt imkan verərsə, iştirakçılardan hər bir nümunədəki nifrət nitqinin təsirinə məruz qalmış qurbanlar üçün həmrəylik mesajları hazırlamaq xahiş edilə bilər.

Bu nümunələrə həmçinin nifrət nitqi ilə ifadə azadlığı arasındakı bağlılığa nəzər salmaq üçün istifadə edə bilərsiniz. Bu halda iştirakçılarla hər bir hala tətbiq edilə biləcək məhdudiyyətlər (və ya onların olmaması) barədə müzakirə apara bilərsiniz.

## FƏALİYYƏT ÜÇÜN FİKİRLƏR

İştirakçılar onlayn nifrət nitqi ilə qarşılaşdıqları təqdirdə, bu halları necə şikayət edə biləcəklərini araşdıra bilərlər.

Həmçinin iştirakçılarla birlikdə "Hate Speech Watch" arxivini nəzərdən keçirə, orada toplanan nümunələri müzakirə edə bilərsiniz. İştirakçılar öz məktəbləri və ya gənclər mərkəzi üçün onlayn nifrət nitqi əleyhinə "xartiya" hazırlaya bilərlər. Onlar həmçinin nifrət nitqinə qarşı məktəb günü təşkil edə və xüsusi günlərdən problem haqqında məlumatlılığı artırmaq üçün istifadə edə bilərlər. Onlar onlayn nifrət nitqinə qarşı tədbir təşkil etmək üçün 21 mart Beynəlxalq irqçilik və ayrı-seçkiliklə mübarizə günündən istifadə edə bilər.

## PAYLANMAQ ÜÇÜN MATERİAL

**Nümunə 1:**

Bir gənc sosial media profilində millətçi partiyanın nəhəng bayrağını nümayiş etdirir və "İslam ölkəmdən rədd olsun - insanlarımızı qoruyun" kimi şərhlər paylaşır. O, ay və ulduzu qadağan işarəsi içərisində paylaşır. Bu məlumatı sosial media və şəxsi veb-saytı vasitəsilə yayır.

- Bu nümunədə nifrət nitqinin qurbanları kimlərdir? Nifrət nitqinin onlara təsiri nə olmuşdur?
- Bu nifrət nitqi özünü bu hadisənin baş verdiyi icma ilə eyniləşdirən insanlara və ümumilikdə cəmiyyətə necə təsir edə bilər?

**Nümunə 2:**

A. yazdığı məqalədə holokostun "heç vaxt baş vermədiyni" nümayiş etdirir, eyni zamanda yəhudilərə qarşı təhqiramiz və irqçi fikirlər səsləndirir. A. nəşri öz bloqunda və bir neçə antisemit veb-sayda paylaşır. A. məzmunu həmçinin onlayn "wiki" məqalələrinə daxil edir və onu holokost haqqında "elmi məlumat" kimi təqdim edir.

- Bu nümunədə nifrət nitqinin qurbanları kimlərdir? Nifrət nitqinin onlara təsiri nə olmuşdur?
- Bu nifrət nitqi özünü bu hadisənin baş verdiyi icma ilə eyniləşdirən insanlara və ümumilikdə cəmiyyətə necə təsir edə bilər?

**Nümunə 3:**

Aparıcı jurnalist iqtidar partiyasına yaxın bir qəzetdə yazdığı məqalədə qaraçıları "heyvan" adlandırır və onların hər hansı üsulla aradan qaldırmağa çağırış edir. Qəzetin onlayn variantına bağlı forumda jurnalistin fikirləri ilə razılaşan çox sayda şərh yazılır.

Qəzet bu fikirlərə görə izahat vermir və ya üzr istəmir. İnternetdə eyni mövqeyi dəstəkləyən və eyni tondan istifadə edən başqa məqalələr də peyda olur, forumda şərh yazan insanların sayı artır.

- Bu nümunədə nifrət nitqinin qurbanları kimlərdir? Nifrət nitqinin onlara təsiri nə olmuşdur?
- Bu nifrət nitqi özünü bu hadisənin baş verdiyi icma ilə eyniləşdirən insanlara və ümumilikdə cəmiyyətə necə təsir edə bilər?

**Nümunə 4.**

Ölkədəki iqtisadi böhranın təqsirkarının immiqrantlar və qaçqınlar olduğunu irəli sürən onlayn kampaniya təşkil edilir. Sosial media platformalarında paylaşımlar dolanmağa başlayır: qaçqınları aqressiv insanlar kimi təqdim edən fotolar, qaçqınların alçaldıcı vəziyyətdə şəkilləri və onların işləri yerli əhalidən oğurladıqları barədə şərhlər. Sosial media saytlarında immiqrantların zorakılıq nümayiş etdirdiklərinə və problemlərə səbəb olduqlarına dair saxta statistik məlumat daxil olmaqla, xeyli yanlış məlumat yayılır.

- Bu nümunədə nifrət nitqinin qurbanları kimlərdir? Nifrət nitqinin onlara təsiri nə olmuşdur?
- Bu nifrət nitqi özünü bu hadisənin baş verdiyi icma ilə eyniləşdirən insanlara və ümumilikdə cəmiyyətə necə təsir edə bilər?

**Nümunə 5:**

Müxtəlif xəbər saytlarında əcnəbilərin ölkədə olmaq hüququna malik olmadıqlarını iddia edən şərhlər yerləşdirilir. Bəzi şərhlər insanları ağdərili olmayana qarşı zorakılıq tətbiq etməyə çağırır.

- Bu nümunədə nifrət nitqinin qurbanları kimlərdir? Nifrət nitqinin onlara təsiri nə olmuşdur?
- Bu nifrət nitqi özünü bu hadisənin baş verdiyi icma ilə eyniləşdirən insanlara və ümumilikdə cəmiyyətə necə təsir edə bilər?

**Nümunə 6:**

İnternetdə LGBT fərdlərin "sapqın" və "xəstə" olduqlarını, cəmiyyətin ənənələrini və davamlılığını məhv etdikləri üçün cəmiyyətdən uzaq durmalı olduqlarını irəli sürən videolar ortaya çıxır. Videolarda "elmi araşdırmaya" istinad edilir, lakin istinadlar çox vaxt qərəzli olaraq seçilir və ya yanlış sitatlar gətirilir. Bəzi videolarda LGBT ailələrinin uşaqları ilə birlikdə şəkilləri göstərilir.

- Bu nümunədə nifrət nitqinin qurbanları kimlərdir? Nifrət nitqinin onlara təsiri nə olmuşdur?
- Bu nifrət nitqi özünü bu hadisənin baş verdiyi icma ilə eyniləşdirən insanlara və ümumilikdə cəmiyyətə necə təsir edə bilər?

**Nümunə 7:**

Futbol oyunu azarkeşlərin "qara" olaraq gördükləri oyunçuya qarşı səsləndirdikləri təhqir və şüarlara görə yarımçıq qalır. Oxunan şüarın və oyunun videosu internetə yerləşdirlir və geniş yayılır. İrqçi şərhlər bir neçə veb-saytda rezonans yaradır. Şikayətlər təqdim edildikdən sonra şərhləri dəstəkləyən çox sayda insan senzuranın qurbanı olduğunu iddia edir.

- Bu nümunədə nifrət nitqinin qurbanları kimlərdir? Nifrət nitqinin onlara təsiri nə olmuşdur?
- Bu nifrət nitqi özünü bu hadisənin baş verdiyi icma ilə eyniləşdirən insanlara və ümumilikdə cəmiyyətə necə təsir edə bilər?

**Nümunə 8:**

İnternetdə bir müddət bir cins reklamı dolanır. Reklamda bir qadının kişilərlə əhatələndiyini əks etdirən səhnə göstərilir. Səhnə seksual çalarlara malikdir, lakin ümumilikdə cinsi zorakılıq və zorlama təəssüratı yaranır. Ölkələrdən birində bir neçə təşkilat şikayət edir. İnternetdə bu məsələ ilə bağlı xəbərlərə çox rəy gəlir, bunların əksəriyyəti kişilərin qadınlarla oynaya biləcəyini və onlara zorakılıq tətbiq edə biləcəyini təsdiqləyir.

- Bu nümunədə nifrət nitqinin qurbanları kimlərdir? Nifrət nitqinin onlara təsiri nə olmuşdur?
- Bu nifrət nitqi nümunəsi özünü bu hadisənin baş verdiyi icma ilə eyniləşdirən insanlara və ümumilikdə cəmiyyətə necə təsir edə bilər?

## PAYLANMAQ ÜÇÜN MATERİAL

**Nümunə 9:**

Siyasətçi müsəlmanları ağdərili qızlara qarşı törədilən cinayətlərin əsas səbəbi olmaqda ittiham edir. O, ümumi biliklərə müraciət edir və bir neçə nümunə göstərir. Məqaləyə əlavə edilən videoya çox sayda şərh gəlir və şərhlərin çoxu irqçi və zorakı xarakter daşıyır. Bu çıxış eyni mövqeyi paylaşan başqa insanlar tərəfindən paylaşılır və nüfuzlu, savadlı rəy kimi təqdim olunur.

- Bu nümunədə nifrət nitqinin qurbanları kimlərdir? Nifrət nitqinin onlara təsiri nə olmuşdur?
- Bu nifrət nitqi özünü bu hadisənin baş verdiyi icma ilə eyniləşdirən insanlara və ümumilikdə cəmiyyətə necə təsir edə bilər?

**Nümunə 10:**

İki ölkə arasındakı keçmişdə baş vermiş şiddətli münaqişələr haqqında video internet kanalında mühafizə edilir. Ölkələrin birinin əhalisi haqqında irqçi ifadələrin istifadə edildiyi çox sayda şərh əlavə edilir İki icma nümayəndələri arasında irqçilik və pis rəftar uzun müddət davam edir.

- Bu nümunədə nifrət nitqinin qurbanları kimlərdir? Nifrət nitqinin onlara təsiri nə olmuşdur?
- Bu nifrət nitqi özünü bu hadisənin baş verdiyi icma ilə eyniləşdirən insanlara və ümumilikdə cəmiyyətə necə təsir edə bilər?

**Nümunə 11:**

Milliyyətçi məzmunu olan musiqi nümunəsi onlayn musiqi kanalı vasitəsilə yayılır. Keçmişdə aralarında kəskin münaqişə baş vermiş iki etnik icmanın üzvləri tərəfindən bəzi mahnılar paylaşılır. Mahnıların çoxu digər etnik qrupunun insanlarına qarşı zorakılığı təşviq edirdi.

- Bu nümunədə nifrət nitqinin qurbanları kimlərdir? Nifrət nitqinin onlara təsiri nə olmuşdur?
- Bu nifrət nitqi özünü bu hadisənin baş verdiyi icma ilə eyniləşdirən insanlara və ümumilikdə cəmiyyətə necə təsir edə bilər?

NO HATE
NO HATE SPEECH MOVEMENT

SƏVIYYƏ 3

QRUP 12 +

VAXT 60'

# VİRTUAL AKSİYA

***Bu məşğələ çərçivəsində iştirakçılar irqçilik əleyhinə aksiyalardan ilham alacaq və birlikdə bənzər aksiyaları onlayn rejimdə necə hazırlaya biləcəklərini götür-qoy edəcəklər.***

| | |
|---|---|
| MÖVZULAR | Kampaniya üçün strategiyalar, irqçilik və ayrı-seçkilik, insan hüquqları |
| MÜRƏKKƏBLİK | Səviyyə 3 |
| QRUP ÜZVLƏRİNİN SAYI | Minimum 12 |
| VAXT | 60 dəqiqə |
| MƏQSƏDLƏR | • İnternetin gənclərin hörmət və azadlıq uğrunda mübarizəsi üçün məkana çevrilmək potensialını başa düşmək<br>• Gənclərin insan hüquqları dəyər və prinsiplər uğrunda səfərbər edilməsində internetin məhdudiyyətləri və oflayn məkanlarla əlaqəsi |
| MATERİALLAR | • kağız və qələm<br>• İnternetə çıxış (istəyə bağlı) |
| HAZIRLIQ | • Gənclərin irqçilik əleyhinə fəaliyyətləri ilə tanış olmaq üçün məşğələ müddətində təşəbbüsləri həyata keçirən təşkilatların veb-saytlarına daxil olun<br>• İştirakçılara paylanacaq materialların surətini çıxarın |

## TƏLİMATLAR

1. İştirakçılardan irqçilik və ayrı-seçkiliyin digər formalarına qarşı tədbirlərin görüldüyü hər hansı təşəbbüs və ya aksiyalarla tanış olub-olmadıqlarını soruşun. Onların göstərdiyi nümunələri qısaca müzakirə edin.
2. İştirakçılara irqçilik əleyhinə bəzi nümunələrə nəzər salacaqlarını və bu aksiyaların onlayn rejimə necə keçirilə biləcəyi haqqında düşünəcəklərini söyləyin.
3. İştirakçıları kiçik qruplara bölün (hər bir qrupda 5 iştirakçıya qədər) və hər bir qrupa kazus təhlillərinin nüsxələrini paylayın. Onlardan kazus təhlillərini oxumağı və aşağıdakı suallara cavab verməyi xahiş edin:

- Layihə hansı problemlə məşğul olur?
- Layihənin məqsədi nədir?
- Layihə məqsədlərinə çatmaq üçün hansı metodlardan istifadə edir?

4. Qruplara sualları müzakirə etmək üçün təqribən 10 dəqiqə vaxt verin. 10 dəqiqə sonra onlara yeni tapşırıq verin: bənzər məsələni oflayn rejimdə deyil, internetdə necə həll etməyə çalışa biləcəklərini müzakirə etməyi xahiş edin. Onlardan kazuslarda təsvir edilən oflayn fəaliyyətləri təcəssüm etdirəcək hansı aksiyaların internetdə həyata keçirilə biləcəyi haqqında düşünməyi xahiş edin. Onlar aşağıdakı sualları nəzərə almalıdırlar:
   - Onlar məqsədlərinə çatmaq üçün hansı onlayn metodlardan istifadə edə bilərdilər?
   - İstədikləri nəticələri əldə etmək üçün internet hər hansı məhdudiyyət yaradırmı?
5. İştirakçılara tapşırığı yerinə yetirmək üçün 20 dəqiqəyə yaxın vaxt verin, daha sonra onları plenar iclasda başqa qruplarla fikir mübadiləsinə dəvət edin.

## TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

İşçi qrupların nəticələrini iştirakçılarla birlikdə müzakirə etmək və irqçiliyə və ayrı-seçkiliyə qarşı internetdən istifadənin üstünlükləri və çatışmazlıqları barədə düşünmək üçün Təhlil və qiymətləndirmə dən istifadə edin. Aşağıdakı sualların bəzilərindən istifadə edin:

- Sizcə, qrupların təklifləri uğurla icra edilə bilərmi?
- Sizcə, onlar məqsədin həyata keçirilməsinə yardım edə bilərmi?
- Kampaniyanın aparılması üçün internetdən istifadə etməyin üstünlükləri nədən ibarətdir?
- Onlayn kampaniyanın mənfi cəhətləri və ya məhdudiyyətləri nələrdir?
- Nümunədəki kimi kampaniyalara dəstək verə biləcək başqa onlayn vasitələr və ya təşəbbüslər haqqında məlumatınız varmı?
- İrqçilik və ayrı-seçkiliyə qarşı onlayn kampaniyalar haqqında məlumatınız varmı?
- İrqçilik və ayrı-seçkiliyə qarşı kampaniya aparmaq üçün internetdən necə istifadə edə bilərsiniz?

## FASİLİTATORLAR ÜÇÜN PRAKTİK MƏSLƏHƏTLƏR

- İştirakçıların nifrət nitqi, irqçilik / ayrı-seçkilik haqqında baza bilikləri varsa, məşğələyə bu anlayışlar barədə fikir mübadiləsi daxil edilə bilər.
- İştirakçılar bu təşəbbüslərin onlayn variantını təsəvvür etməkdə çətinlik çəkirlərsə, internetdən tədbirlərin görülməsi üçün necə istifadə edilə biləcəyini göstərən bir neçə nümunə göstərin.
- Vəsaitin qısa məlumatlar bölməsində kampaniya strategiyaları və onlayn iştirak haqqında daha çox məlumat əldə edə bilərsiniz, fəsil: 5.6 və 5.7. İştirak nərdivanı ilə bu səhifədə tanış ola bilərsiniz: 188-192.
- Həmçinin İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisi, xüsusilə də onun "Yığıncaq, toplaşma və iştirak" bölməsi ilə tanış ola bilərsiniz.

## PAYLANMAQ ÜÇÜN MATERİAL

### VARİANTLAR

Nümunələri yerli və ya milli reallıqlarınızı əks etdirmək üçün uyğunlaşdıra bilər və qrupunuz üçün daha uyğun ola biləcək digər məşğələ nümunələrini seçə bilərsiniz. İştirakçıların tədbirin görülməsi üçün çox sayda üsulun olduğunu başa düşməsi üçün fərqli təşəbbüslər seçməyi unutmayın.

Məşğələni əksinə də yerinə yetirə bilərsiniz: qrupların nəzərə alması üçün onlayn aksiyalar seçilə bilər. Tapşırıq daha sonra onları oflayn  aksiyalara  çevirməkdən ibarət olmalıdır.

### MƏŞĞƏLƏDƏN SONRA

İrqçiliklə mübarizə fəaliyyəti ilə məşğul olan yerli təşkilatlarla əlaqə saxlayın, onları iştirakçılar qarşısında gördüyü işlər və iş qaydaları haqqında danışmağa dəvət edin.

İştirakçılarla tapdıqları fikirlərin təcrübədə tətbiq edilə bilib-bilməyəcəyini müzakirə edin və onları bu fikirləri həyata keçirməyə təşviq edin! Həmçinin qrupunuz üçün bloq yarada, iştirakçıları geniş yayılmış əsassız qərəzli münasibətlərə düzəliş etmək, onların zərərli təsirləri barədə məlumatlığı artırmaq məqsədilə irqçilik zəminində hədəfə götürülən qruplar haqqında məlumatlar paylaşmağa dəvət edə bilərsiniz.

**Nümunə 1. İdmanda irqçilik**

“Sanki kabus görürdüm. Ora getməmişdən əvvəl bu qədər təsirlənəcəyimi təsəvvür etmirdim”

22 yaşlı futbol azarkeşi

Alman futbol azarkeşləri futbol oyunları zamanı müntəzəm olaraq antisemit şüarlar səsləndirir, mahnılar oxuyurlar. "Dem Ball Ist Egal Wer Ihn Tritt" (Topa kimin vurduğunun top üçün fərqi yoxdur) təşəbbüsü bu problemi həll etməyə çalışır və müxtəlif futbol klublarının azarkeşlərini köhnə Osvensim həbs düşərgəsinə aparır.

Niyə Osvensim? Təşəbbüs azarkeşlərin "Monxenqladbaxdan Osvensimə yeraltı keçid çəkəcəyik" mahnısını oxumalarından çıxış edirdi. Hazırda ‘Osvensim mahnısı’ bütün ölkə ərazisində kök salıb və ölkənin bütün futbol stadionlarında və klublarında eşidilə bilər.

Futbolda antisemitizm və irqçilik barədə dərin müzakirəni tətikləmək məqsədilə təşkilat müxtəlif klublardan 18-28 nəfər azarkeşin keçmiş ölüm/həbs düşərgələrinə üç günlük səfərini nəzərdə tutan pilot layihə başladır. Bu təcrübə azarkeşlərə çox güclü təsir edir və çoxları təəssüratlarını daha geniş auditoriyalarla bölüşməyə gedirlər. Klub veb-saytları üçün broşuralar hazırlanır və təşəbbüs güclü media kampaniyası ilə müşayiət olunur.

((yekun qeyd)) (Amadeu Antonio təşkilatının təşəbbüsündən ilham alınıb)

https://www.amadeu-antonio-stiftung.de/w/files/pdfs/1_living-equality.pdf

**Nümunə 2. İrqçi qraffitinin silinməsi**

Krakovda yerləşən "Never Again" (bir daha heç vaxt) təşkilatı şüarı "Krakovun divarlarını boyayaq!" olan kampaniya çərçivəsində nifrət qrafftilərinə qarşı yerli aksiyalar təşkil edir. "Never Again" bir il ərzində mümkün qədər çox sayda fəal və vətəndaşı cəlb etmək üçün yerli tərəfdaşlarla çalışır:

- Gənclər irqçi stiker və qraffitiləri silmək və boyamaq üçün toplanırlar.
- Ev sahibləri ağartma aksiyasına qoşulmağa dəvət edilmişdilər.
- Müəllimlərin və şagirdlərin köməyi ilə məktəblərdə irqçilik əleyhinə qraffitilər çəkilmişdi.
- Jurnalistlər kampaniya haqqında məlumat verməyə dəvət edilmiş və yerli qəzet və jurnallarda məqalələr dərc etmişdirlər.

Beləliklə, ayrı-ayrı kiçik fəaliyyətlər böyük bir aksiyaya çevrilmiş, güclü bir mesaj ötürməyə nail olmuşdu: “Krakovu nifrət qraffitilərindən azad et”.

http://www.unitedagainstracism.org/wp-content/uploads/2014/05/GraffitiLeaflet_GB.pdf

www.nigdywiecej.org

**Nümunə 3. Canlı kitabxana**

Canlı kitabxana Avropa Şurası tərəfindən formalaşdırılan, ön-mühakimə və ayrı-seçkiliyə meydan oxumaq məqsədi daşıyan ideyadır. Canlı kitabxananın iş prinsipi adi kitabxana kimidir: qonaqlar istədikləri başlıqları tapmaq üçün kataloqları nəzərdən keçirə, oxumaq istədikləri Kitabı seçib məhdud müddətə borc ala bilərlər. Mütaliə etdikdən sonra kitabı başqalarının da oxuya bilməsi üçün kitabxanaya qaytarırlar. İstəyən başqa bir kitabı da müvəqqəti borc götürə bilər.

Yeganə fərq budur ki, Canlı kitabxanada "kitablar" insanlardır, mütaliə isə "kitabla" söhbətdən ibarətdir.

Canlı kitabxana iki insan arasında söhbəti dəstəkləməklə önmühakiməyə meydan oxumağa çalışır: Kitablar və oxucular. Kitablar ya ayrı-seçkiliklə üzləşmiş, ya da cəmiyyət daxilində pis rəftar, stiqma, qərəzli münasibət və ya ayrı-seçkilikdən əziyyət çəkmək riski olan qrup və ya fərdləri təmsil edən könüllülərdir. "Kitablar" çox vaxt Oxucularla paylaşmaq istədikləri ayrı-seçkilik və ya sosial təcrid təcrübəsi yaşamış insanlar olurlar. Ən əsası, Kitablar Oxuculara geniş qəbul edilmiş önmühakimə və stereotipləri sındıracaqları, bununla da daha geniş cəmiyyətin münasibət və davranışlarına təsir göstərəcəkləri ümidi ilə onlarla dialoqa girməyə icazə verir. "Kitabın üz qabığına aldanma": https://rm.coe.int/16807023dd

**Nümunə 4. Musiqini sev, irqçiliyə nifrət et**

**“Musiqimiz mədəniyyətlərin qaynayıb-qarışa biləcəyinin və qarışdığının canlı təcəssümüdür.”**

"Love Music Hate Racism" (Musiqini sev, irqçiliyə nifrət et) (LMHR) musiqi vasitəsilə irqçilik və faşizm əleyhinə milli hərəkat yaratmağa çalışır. O, 2002-ci ildə irqçiliyin yayılmasına və ifrat sağçı partiya olan Britaniya Milli Partiyasının (BNP) seçkidəki uğurlarına cavab olaraq quruldu. Təşkilat müxtəlifliyi tərənnüm etmək, insanları irqçilik və faşizm əleyhinə fəaliyyətə cəlb etmək, eləcə də seçkilərdə faşist namizədlər əleyhinə səs verməyə çağırmaq üçün musiqinin enerjisindən istifadə edir.

Geniş açıq hava festivallarından yerli tədbir və klub gecələrinə qədər yüzlərlə LMHR tədbiri həyata keçirilmişdir. LMHR tədbirlərində Ms Dynamite, Hard-Fi, Babyshambles, Akala, Get Cape Wear Cape Fly, Estelle, The View, Lethal Bizzle, Roll Deep və Basement Jaxx kimi məşhur ifaçılar çıxış etmişlər. Çox sayda gələcək vəd edən qruplar, DJ və MC-lər də öz yerli LMHR gecələrini təşkil etmiş və ya onlarda çıxış etmişlər.

http://lovemusichateracism.com/about

SƏVIYYƏ 1

QRUP
Hər hansı

VAXT
40'

# GEYİN VƏ PAYLAŞ

***İştirakçılar müəyyən məlumatı internetdə paylaşmaq üçün etdikləri seçimləri göstərmək üçün diaqramı tamamlayır, şəxsi məlumatları internetdə paylaşan zaman ehtiyatlı olmağın yollarını müzakirə edirlər***

| | |
|---|---|
| MÖVZULAR | Şəxsi həyat və toxunulmazlıq, internet savadı, kiber-bullinq |
| MÜRƏKKƏBLİK | Səviyyə 1 |
| QRUP ÜZVLƏRİNİN SAYI | Hər hansı |
| VAXT | 40 dəqiqə |
| MƏQSƏDLƏR | • Müxtəlif onlayn 'münasibətləri' nəzərdən keçirmək<br>• Onlayn paylaşım və ünsiyyətdə öz "müqayisə meyarlarını" formalaşdırmaq<br>• İnternetdə şəxsi həyatın toxunulmazlığı ilə bağlı məlumatlılığı artırmaq və şəxsi həyatımızı və insan hüquqlarımızı onlayn rejimdə qorumaq üçün ata biləcəyimiz addımlar öyrənmək |
| MATERİALLAR | • Diaqramın surətləri (səh. 149)<br>• Flipçart və markerlər |
| HAZIRLIQ | Diaqramın Hər kəs üçün yetərli sayda surətini çıxarın. |

## TƏLİMATLAR

1. 1. İştirakçılardan, məsələn, bir ticarət mərkəzində tanımadığı insanlar qarşısında məxfiliklərini qorumaq üçün hansı tədbirləri gördüklərini soruşun. Zəruri olarsa, suallar vasitəsilə istiqamət verin:
   - Çimərlikdə geyindiklərinizlə eyni geyimdən istifadə edirsiniz?
   - Mobil telefon nömrənizi üzünüzə yazırsınız?
   - Onlayn fəaliyyətləriniz üçün istifadə etdiyiniz parolunuzu başqalarına söyləyirsiniz?
2. Belə şeylərin "real" həyatda tərəddüd doğurmadığını, lakin internetdə hər zaman ehtiyatlı olmadığımızı izah edin. İştirakçılardan şəxsi məlumatlarını qorumaq üçün internetdə də real həyatda olduğu kimi ehtiyatlı olduqlarına inanıb-inanmadıqlarını soruşun. Məşğələnin internetdə müxtəlif insanlarla paylaşmağa hazır olduğumuz məlumatlara nəzər salacağını izah edin.

3. Diaqramın bir nüsxəsini asın (səh. 149) (və ya flipçarta çəkin) və iştirakçılara tapşırığa necə yanaşmalı olduqlarını göstərmək üçün bir neçə nümunəni nəzərdən keçirin. Cavabların fərdi xarakter daşımalı olduğunu izah edin, çünki fərqli insanlar özləri haqqında fərqli şeylər paylaşmaq istəyə bilərlər.
4. Tapşırığı tamamlamaq üçün onlara təqribən 15 dəqiqə vaxt verin, daha sonra diaqramlarını iki və ya üç nəfərlə bölüşməyi xahiş edin. İştirakçılar ya diaqramlarını başqalarına göstərərək otaqda dolana bilərlər, yaxud zaman/məkan və qrupun ölçüsündən asılı olaraq onları kiçik qruplara daxil etmək istəyə bilərsiniz.
5. Onlar diaqramları bir neçə nəfərlə müqayisə etdikdən sonra qrupu ümumi müzakirə üçün bir araya gətirin.

## TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

**Bir neçə ümumi sual verməklə başlayın:**

- Heç kimlə paylaşmağa hazır olmadığınız hər hansı məlumat var idimi? Səbəblərini soruşun.
- Hər kəslə paylaşmağa hazır olduğunu məlumat var idimi? Qrup daxilindəki hər hansı fikir ayrılıqlarını araşdırın.
- Diaqramınızı başqaları ilə müqayisə edərkən hər hansı fərq diqqətinizi cəlb etdimi, bu fərqləri izah edə bilərsinizmi?
- Sizcə, özünüz haqqında məlumatları tanımadığınız şəxslərlə bölüşən zaman ehtiyatlı olmaq nə üçün vacib ola bilər? Nəticələr nə ola bilər?
- Sizcə, "başqaları" haqqında məlumatları paylaşan zaman ehtiyatlı olmaq nə üçün vacib ola bilər?
- Kimsə sizinlə bilmək istəmədiyiniz bir məlumat paylaşıbmı? Bu, insan hüquqlarınızı poza bilərmi? Bu, onlayn nifrət nitqi üçün istifadə edilə bilərmi?

MəşğələniIştirakçılardan internetdəki qarşılıqlı fəaliyyətlərinin fərqinə varmağa kömək edib-etmədiyni soruşmaqla məşğələni bitirin. Dəyişikliklər etmək niyyətində olanlar varmı? İştirakçıların fikrincə, şəxsi məlumatları internetdə paylaşmazdan əvvəl nəzərə alınmalı olan amillər hansılardır?

## FASİLİTATORLAR ÜÇÜN PRAKTİK TÖVSİYƏLƏR:

- Diaqramdakı bağlantıların çoxu üçün "düzgün" cavab mövcud olmaya bilər; bu, qismən fərdi seçimlərdən asılıdır. Bununla belə, iştirakçıları internetdə məxfiliyi qorumaq üçün tədbir görməməyin bəzi təhlükələri barədə xəbərdar etmək vacibdir. Özləri məsələni qaldırmadığı halda iştirakçıları kiberbullinq və maliyyə istismarı riskləri barədə xəbərdar etməlisiniz. Şəxsi həyat və toxunulmazlığa kifayət qədər diqqət yetirilməməsi bu riskləri əhəmiyyətli dərəcədə artıra bilər. Kiberbullinq, şəxsi həyat və toxunulmazlıq haqqında daha ətraflı məlumat üçün 5-ci fəslə nəzər sala bilərsiniz.
- Təhlil və qiymətləndirmə zamanı, internetdə şəxsi həyatımızın toxunulmazlığının qorunmasının qismən təhlükəsizlik baxımından və qismən şəxsi bütövlüyümüz / ləyaqətimiz üçün vacib olduğunu qeyd edə bilərsiniz. Ətrafda yarı çılpaq gəzməklə və ya başqaları haqqında axmaq/ədalətsiz şərhlər söyləməklə özümüzü təhlükəylə üz-üzə qalmaya bilərik (kifayət

qədər şanslıyıqsa); lakin daha sonra buna görə heyfslənəcəyik! İnternetdə paylaşdığımız məzmun virtual olmayan dünyada etdikləriizlə müqayisədə daha "daimi" xarakterlidir və çox vaxt onu silə bilmirik.

- İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisi hər kəsin şəxsi həyata hörmət və məlumatların qorunması hüququ haqqında daha ətraflı məlumat təmin edir.

## VARİANTLAR

Məşğələdə əsas diqqət öz şəxsi həyatının toxunulmazlığını qorumağa yönəlsə də, ondan başqalarının şəxsi həyatının toxunulmazlığının qorunması ətrafındakı məsələləri araşdırmaq üçün də istifadə edə bilərsiniz. Məsələn, iştirakçılardan başqaları haqqında məlumat paylaşmazdan əvvəl icazə alıb-almadıqlarını, bunun nə üçün vacib ola biləcəyini soruşa bilərsiniz. Bunun insan hüquqları aspektlərindən danışmaq üçün 5-ci fəsildəki şəxsi həyata hörmət və toxunulmazlıq haqqında məlumatdan istifadə edin.

## FƏALİYYƏT ÜÇÜN FİKİRLƏR

İştirakçılar bir həftə ərzində 'paylaşdıqlarının' qeydiyyatını apara bilərlər: hansı məlumat paylaşılıb və nə dərəcədə böyük auditoriya ilə? Məzmunun dəqiq təfərrüatlarını göstərmək lazım deyil, lakin diaqramda müəyyən edilmiş qruplar (valideynlər, dostlar, müəllimlər və s.) üçün təmin edilənləri yoxlaya bilərlər. Onlar özləri haqqında və başqaları haqqında paylaşdıqları məlumatları qeyd edirlər.

## PAYLAŞDIĞINIZ ISTIFADƏÇILƏR:

KIMƏ DEYƏRDINIZ?




Paylaşdığınız istifadəçilər: Nümunə



NO HATE

NO HATE SPEECH MOVEMENT

SƏVIYYƏ 3

QRUP 10-20

VAXT 90'

# VEB-HÜCUM

***İştirakçılar yerli icmanın çoxsaylı irqçi şərhlərinin öhdəsindən gəlmək üçün (xəyali) kampaniya veb-saytını yenidən dizayn edirlər.***

| | |
|---|---|
| MÖVZULAR | İnternet savadı, kampaniya üçün strategiyalar, irqçilik və ayrı-seçkilik, |
| MÜRƏKKƏBLİK | Səviyyə 3 |
| QRUP ÜZVLƏRİNİN SAYI | 10 – 20 |
| VAXT: | 90 dəqiqə |
| MƏQSƏDLƏR: | • İrqçiliyə qarşı əsas mesajları nəzərdən keçirmək<br>• Onlayn nifrət nitqi və irqçiliyə qarşı kampaniyanın aparılması üsullarını araşdırmaq<br>• Təqdimat, qarşındakını inandırmaq və onlayn ünsiyyət bacarıqlarını inkişaf etdirmək |
| MATERİALLAR: | • Flipçart kağızı və rəngli qələmlər / markerlər |
| HAZIRLIQ | • Paylanacaq materialın surətini çıxarın (səh. 153-154).<br>• Məşğələdən əvvəl iştirakçılardan öz "ən yaxşı" və "ən pis" veb-saytlarını müəyyən etməyi xahiş edin (istəyə bağlı).<br>• İnternetə çıxış (istəyə bağlı) |

## TƏLİMATLAR

1. Məşğələnin məktəb kampaniyası üçün veb-saytın yenidən tərtib edilməsini əhatə edəcəyini izah edin. İştirakçılara aşağıdakı qısa məlumatı verin:

Məktəbiniz böyük immiqrant icmasının olduğu ərazidə yerləşir. Məktəb yaxşı etnik münasibətlər yarada bildiyinə görə fəxr edir və şagirdlər arasında irqçilik hallarına az-az rast gəlinir. Lakin məktəbdən kənarda münasibətlər olduqca problemli olaraq qalır. Etnik azlıqlar tez-tez çoxluğu təşkil edən "ağ" əhali və təsir dairəsi güclənməkdə olan neo-nasist qruplar tərəfindən pis rəftar və zorakılığa məruz qalırlar.

Məktəb rəhbərliyi hər kəsin icmaya qəbul edilməsinin nə üçün vacib olduğunu izah edən maarifləndirici internet kampaniyası vasitəsilə bu problemi həll etməyə çalışmaq qərarına gəlir. Qısa müddətdə şərhlərə və ictimaiyyətin suallarına yer verilən forumum daxil olduğu veb-sayt hazırlanır. Lakin insanlardan forumda qeydiyyatdan keçmək tələb olunmurdu və tezliklə forum irqçi şərhlərlə dolub-daşdı.

2. İştirakçılara "kampaniya səhifəsini" göstərin və onlardan nə düşündüklərini soruşun. Bir neçə sual yönəltməklə onlara köməklik göstərin:
   - Kampaniyanın mesajı aydındırmı?
   - Ümumi tərtibat və məlumatların təqdim edilmə forması haqqında nə düşünürsünüz?
   - Yaxşı kampaniya səhifəsidirmi? Niyə hə və ya niyə yox?
3. Məşğələnin veb-saytın yenidən tərtib edilməsini və zəruri olarsa, onlayn forum siyasətinin yenidən baxılmasını əhatə edəcəyini izah edin. Tapşırıq vərəqəsini təqdim edin (səh. 153) və iştirakçıları qruplara bölün (hər bir qrupda maksimum 6 nəfər olmalıdır).
4. Qruplara sualları müzakirə etmək üçün təqribən 20 dəqiqə vaxt verin, sonra isə hər bir qrupa flipçart vərəqəsi və bir neçə rəngli qələm təqdim edin.
5. 20 dəqiqə sonra hər bir qrupa flipçart vərəqəsi və rəngli qələmlər verin. Onlara üz qabığının ilkin variantını hazırlamaq üçün əlavə 15 dəqiqə vaxtlarının olduğunu bildirin. Onlara müxtəlif vəzifələri paylaşdırmağı, qrup üzvlərinin bəzilərinə məzmun, qalanlarına isə dizayn üzərində çalışmağı həvalə etməyi təklif edin (bax: Fasilitatorlar üçün praktik məsləhətlər).
6. Qruplar işlərini tamamladıqdan sonra otaqdakı "veb-saytları" nümayiş etdirin, iştirakçıları təhlil və qiymətləndirmə  üçün bir araya gətirin.

## TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

- Sizcə, tapşırıq nə dərəcədə asan idi? Ən çətin tapşırıq nə oldu, ən çox qaydasında gedən nə oldu?
- İşin sonunda əldə etdiyiniz nəticədən razı qaldınızmı?
- Veb-saytınızın dizaynını hazırlayan zaman hədəf auditoriyanı nə dərəcədə nəzərə aldınız: bu qrupa xitab edə bilmək üçün nəsə etdinizmi? (Məsələn, xüsusi bir yazı üslubundan istifadə?)
- Veb-saytın ziyarətçilərinin veb-saytda fəaliyyət və ya kampaniyaya qoşulmaq üçün nə edə biləcəklərini müəyyən etdinizmi? Sizcə, bu nə dərəcədə vacibdir?
- Qruplar arasında müxtəlif forum siyasətlərini müqayisə edin. Siyasət seçimlərinin səbəblərini soruşun. Nəzərə aldığınız ən vacib aspektlər hansılar idi?
- Sizcə, irqçilik sizin icmanızda problem təşkil edirmi? (Səbəbləri soruşun)
- İnternetdə irqi zəmində təhqirə rast gəlmisinizmi? Belə halla qarşılaşsaydınız, nəsə edərdinizmi?

## FASİLİTATORLAR ÜÇÜN PRAKTİK MƏSLƏHƏTLƏR

- İştirakçıların məktəbin "kampaniya səhifəsində" nəyin çatışmadığına dair fikirlərini qeyd etməyə çalışın. Məqamları bir flipçart kağızı üzərində, ortasından bir xətt çəkərək yaza bilərsiniz: "piluslar" səhifənin bir yarısında, "minuslar" digər yarısında yazıla bilər.

- Rəylər bir-birindən fərqlənərsə, onları da qeydə aldığınızdan əmin olun: veb-sayt bəzi insanların zövqüncə ola, bəzi insanların isə xoşuna gəlməyə bilər. Həmçinin onlar hədəf auditoriyaları haqqında düşünən və saytları üzərində işləyən zaman bundan istifadə etmək faydalı ola bilər.
- Qrup işi üçün daha çox vaxt ayırmaq faydalı ola bilər. Dizayn mərhələsində iştirakçılara "real" saytların necə olduğuna baxmaq üçün internetdən istifadə etməyə icazə verə bilərsiniz. Bu, onlarda səhifəyə nə qədər məzmun sığdıra biləcəkləri və məlumatı təqdim etməyin müxtəlif üsulları barədə təsəvvür oyadacaq.
- Qruplar flipçartlarla işləməyə başlayanda onları işləri qrup üzvləri arasında bölüşdürməyə təşviq edin Məsələn, bəziləri kampaniyanın mesajının təkmilləşdirilməsi, digərləri başqa saytlara (və ya səhifələrə) elektron keçidlərin təklif edilməsi, digərləri isə faktiki dizayn üzərində işləyə bilərlər. Onlara məzmun və üslubun ən az dizayn qədər vacib olduğunu xatırladın!
- Kampaniya üçün strategiyalara dair məlumat və nümunələrlə 5.7-ci fəsildə tanış ola bilərsiniz.
- İlham mənbəyi kimi "Nifrət nitqinə yox hərəkatının" resurslar toplusunu araşdıra bilərsiniz.

## VARİANTLAR

Kampaniyanı nifrət nitqinin müxtəlif hədəflərinə, məsələn, qadınlara, əlilliyi olan gənclərə, dini azlıqlara və ya qaraçı xalqına ünvanlamaq üçün dəyişdirə bilərsiniz.

Qrup üzvlərinin yaxşı İT bacarıqları varsa, veb-sayt word proqramı və ya ödənişsiz veb-sayt hazırlama xidməti vasitəsilə dizayn edilə bilər. Bunun üçün daha çox vaxt tələb olunardı.

Nə qədər vaxtınızın olduğundan asılı olaraq, bundan sonra iştirakçılardan ən sevdikləri və sevmədikləri bir neçə saytı saymağı xahiş edə bilərsiniz. Bu, onların kampaniya səhifəsinin dizaynında vacib hesab etdikləri başqa məqamları ortaya çıxara bilər.

Vaxt imkan verərsə, bütöv qrup daxilində forum siyasəti barədə müzakirə başladıla bilər. Bütün şərhlərə icazə verən, qeydiyyat tələb etməyən siyasətlərin müsbət və mənfi cəhətlərinin siyahısını hazırlaya bilərsiniz.

## FƏALİYYƏT ÜÇÜN FİKIRLƏR

Təhlil və qiymətləndirmədən sonra Avropa Şurasının "Nifrət nitqinə yox hərəkatı" haqqında bir qədər məlumat təmin edin və iştirakçıları kampaniya çərçivəsində hazırlanmış resurslardan istifadə etməyə təşviq edin.

Qrupların veb-sayt planlarından real kampaniya veb-saytı üçün istifadə edilə bilər. Fikirlər birləşdirilməlidir ki, yekun məhsul bütün qrupa aid olsun və iştirakçılar sayt üçün məzmun hazırlamaq üzərində işləməli olacaqlar. Bu daha uzunmüddətli layihə ola, məzmunun internetə səriştəli şəxslər tərəfindən yerləşdirilməsini tələb edə bilər. Onlar həmçinin sosial media saytında qrup səhifəsi yarada bilərlər.

İştirakçılar öz icmalarında etnik münasibətlərin real vəziyyətini araşdıra bilərlər. Yerli QHT-lər yaxşı başlanğıc nöqtəsi ola bilər.

**Tapşırıq vərəqəsi**

**Qrupunuzla aşağıdakıları müzakirə edin:**

1. Əsas hədəf auditoriyanız kimdir? Məsələn, gənclər, yerli icmanın bütün üzvləri, etnik azlıqların nümayəndələri, "ağ" çoxluğunun nümayəndələri, ... dünya?
2. Kampaniyanızın məqsədi nədir və insanlar ona necə qoşula bilərlər?
3. Yazılan şərhlərə hansı siyasəti tətbiq edirsiniz?

- Şərhin yazılmasından əvvəl qeydiyyatdan keçmək tələb olunmalıdırmı?
- Forum "siyasətiniz" nədən ibarətdir: insanlar istədiklərini paylaşa bilərlərmi, yoxsa qəbuledilməz şərhlər varmı?

# SIDLFILD ORTA MƏKTƏBI

## Etnik qruplar arasında uzunmüddətli anlayış və insan hüquqları sahəsində irəliləyişə nail olmaq

### The Forum

*Bu forumda istədiyinizi deyə bilərsiniz. Biz ifadə azadlığına inanırıq!*

**Ən qızğın müzakirələr:**

| | |
|---|---|
| • İşimiz xoşunuza gəlirmi? | 7,345 post |
| • Məktəbləri təmizləyin (burada imzalayın) | 3,231 posts |
| • **** apar evinə | 3,123 posts |
| • Ağlar birgə təhsilə qarşı | 2,898 posts |
| • Təbriklər, Sidlfild! | 1,002 posts |
| • *** burdan. Sizdən bura gəlməyi xahiş etməmişik | 976 posts |
| • Beyinsiz necə öyrənə bilərsən | 535 posts |
| • Valideynlərin irqçiliyə qarşı petisiyası | 812 posts |

Müzakirəyə qoşulmaq üçün bura klikləyin!

### Bloqumuz

Sidlfild orta məktəbi sağlam təhsil mühitində mədəniyyətlərarası anlaşmaya böyük önəm verir. Ətraflı

Sidlfild ali təhsil müəssisələrində müsbət fəaliyyətə dair son konsultasiyası barədə aralıq hesabatı İrqi Bərabərlik Komissiyasına təqdim edir. Daha ətraflı

### Başqa bölmələr

- Baş müəllimdən bəyanat
- Yerli özünü idarəetmə orqanının bəyanatı
- Rəsmi sənədlər
- İqtisadi göstəricilər
- Statistika və məlumat

### Kampaniya haqqında

Kampaniyanız məktəbdə və yerli icma daxilində etnik qruplar arasında qarşılıqlı anlaşmanı artırmaq üçün nəzərdə tutulub. İrqindən, etnik mənşəyindən, dini əqidəsindən və mədəni kimliyindən asılı olmayaraq, şagirdlər üçün pozitiv təhsil mühiti yaratmaq üçün proaktiv yanaşma tətbiq edirik. Ətraflı



NO HATE
NO HATE SPEECH MOVEMENT

SƏVİYYƏ 1

QRUP 10–20

VAXT 60'

# VEB-PROFİLLƏR

***Məşğələ xəyali internet forumda baş verir. İştirakçılardan bir-birlərini müəyyən qruplar haqqında geniş yayılmış stereotiplərə müvafiq qaydada salamlamaq xahiş ediləcək. Onlar bu məşğələdən internetdə qarşılıqlı fəaliyyət üçün təlimatlar toplusu hazırlamaq üçün istifadə edirlər.***

| | |
|---|---|
| MÖVZULAR | İrqçilik və ayrı-seçkilik, internet savadı, demokratiya və iştirak |
| MÜRƏKKƏBLİK | Səviyyə 1 |
| QRUP ÜZVLƏRİNİN SAYI | 10 – 20 iştirakçı |
| VAXT | I Hissə: 35 dəqiqə<br>II Hissə: 25 dəqiqə |
| MƏQSƏDLƏR | • Müəyyən qruplara münasibətdə qərəzli önmühakimə və nifrət nitqini müzakirə etmək<br>• Onlayn və oflayn qarşılıqlı münasibətlər arasında fərqləri götür-qoy etmək<br>• Onlayn rejimdə qarşılıqlı ünsiyyət üçün təlimatlar hazırlamaq |
| MATERİALLAR | • Yapışqan lent<br>• Kağız və qələmlər (lövhələr və ya kağızları qoymaq üçün başqa şeylər)<br>• Flipçart və markerlər<br>• Hərəkət etmək üçün yer |
| HAZIRLIQ | • Qrupdakı hər kəs üçün yetərli sayda profil hazırlayın (təmin edilənlərdən (səh.159) istifadə edin və ya özünüz hazırlayın).<br>• Hər bir profili kağız parçasına yazın (təxminən A5 ölçüsündə) və kağızları insanların kürəyinə yapışdırmaq üçün yapışqan lentləri hazırlayın.<br>• Hər bir iştirakçı üçün Avropa Şurasının nifrət nitqi üçün müəyyən etdiyi tərəfin surətini çıxarın.<br>• İştirakçıların hərəkət edə bilmələri üçün yetərli yer təmin edin. |

## TƏLİMATLAR

### I HİSSƏ. FORUMDA (15 DƏQİQƏ)

1. İştirakçılardan futbol (xokkey və ya başqa idman növü) üzrə internet forumunda olduqlarını təsəvvür etməyi xahiş edin. Hər kəsə yeni profilin veriləcəyini və iştirakçıların həmin şəxsləri təmsil edəcəyini izah edin. Lakin heç kim profilində nə yazıldığını bilməyəcək!
2. Məşğələnin iştirakçıların özlərini təqdim etmələrini və başqalarını salamlamalarını nəzərdə tutduğunu izah edin. Müzakirələr qısa olmalıdır: iştirakçılar verilən vaxt müddətində forumda mümkün qədər çox istifadəçini salamlamağa çalışmalıdırlar.
3. Məşğələnin məqsədinin cəmiyyətdə müxtəlif qruplarla bağlı ümumi təsəvvürlərin və önmühakimlərin araşdırılması olduğunu müzakirə edin. İştirakçılar başqaları ilə görüşən zaman insanların onların kimliyindəki şəxslərə (onlayn rejimdə) nə deyə biləcəkləri haqqında düşünməlidirlər, məsələn, idman qrupunda əlilliyi olan şəxsə, qaradərili afrikalıya, nisbətən yaşlı qadına və s. İnsanlar başqaları ilə real "mənlərinə" uyğun olaraq ünsiyyət qurmalı deyil, onlayn rejimdə mövcud rəylərin növlərini düşünməli, onları təmsil etməyə çalışmalıdırlar. Xoşagəlməz rəylərə icazə verilir: heç kim məşğələ müddətində yazdığı şərhə görə cavabdeh sayılmayacaq.
4. İştirakçılardan otaqda dolaşdıqca başqaların onları salamlamaq üçün istifadə etdikləri sözləri qeyd etməyi xahiş edin.
5. Görməsinə icazə vermədən hər kəsin kürəyinə bir kimlik yapışdırın. Hər kəsə kimliklərinə münasibətdə söylənən sözləri qeyd etmək üçün kağız və qələm verin.
6. Onları otağı dolaşmağa dəvət edin. Görüşmək və salamlaşmaq üçün 10 dəqiqə vaxt ayırın. 10 dəqiqə sonra iştirakçılardan dayanmağı xahiş edin, kimliklərini çıxarın və təhlil və qiymətləndirməyə keçin.

### TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ (20 DƏQİQƏ)

Məşğələnin müzakirəsindən əvvəl iştirakçıların obrazlarından çıxdıqlarından əmin olun: onlardan real adlarını deməyi və bir-birləri haqqında bir söz söyləməyi xahiş etməklə başlayın. Aşağıdakı sualların bəzilərindən istifadə edin.

- Kimsə profilin hansısa aspektlərini təxmin edə bildimi? Onlarda bir neçə səbəb göstərməyi, onları salamlamaq üçün istifadə olunan bəzi sözləri sadalamağı xahiş edin.
- Məşğələdən zövq alan oldumu? Məşğələni bəyənməyən oldumu? Niyə?
- İştirakçıları öz profillərinə baxmağa dəvət edin
- Onu salamlamaq üçün istifadə edilən sözə görə təəccüblənən oldumu?
- Sizcə profillər həqiqətəuyğun hazırlanmışdımı? İnsanlar ictimaiyyətə açıq profillərinə belə məlumatlar yerləşdirərlərmi?
- Başqalarına xoşagəlməz sözlər demək asan idimi? Müəyyən profillər üçün xoşagəlməz sözlər tapmaq asa oldumu?
- Sizcə, onlayn rejimdə, yəni sözügedən "şəxs qarşınızda olmasaydı, xoşagəlməz sözləri demək daha asan olardımı? Bunun nəyə görə təsiri olmalıdır?

## II HİSSƏ. TƏLİMATLARIN HAZIRLANMASI (25 DƏQİQƏ)

1. İştirakçıları Avropa Şurasının nifrət nitqi üçün müəyyən etdiyi təriflə tanış edin

Nifrət nitqi irqi nifrəti, ksenofobiyanı, antisemitizmi və ya nifrətin dözümsüzlüyə (o cümlədən, aqressiv milliyyətçilik və etnosentrizmlə ifadə edilən dözümsüzlüyə) əsaslanan digər formalarını, eləcə də milli azlıqlara, miqrantlara və immiqrant mənşəli insanlara qarşı ayrı-seçkiliyi və düşmənçiliyi yayan, təhrik və təşviq edən və ya bütün bunlara haqq qazandıran bütün ifadə formalarını əhatə edir.

(Avropa Şurası, Nazirlər Komitəsi)

2. Aşağıdakı suallar barədə bir neçə rəyi soruşub öyrənin və qruplarda bunların müzakirə ediləcəyini izah edin:
   - Sizcə, onlayn rejimdə nifrət nitqinə icazə verilməlidir?
   - Niyə insanlar başqaları haqqında nifrət nitqi paylaşırlar?
   - Başqaları üçün təhqiramiz olmamalarını təmin etmək üçün öz paylaşımlarını yoxlamaq məqsədilə hansı yolları təklif edə bilərsiniz?
3. İştirakçılara onlayn fəaliyyət təlimatları toplusunu hazırlamaq üçün kiçik qruplar (4-5 nəfər) daxilində çalışacaqlarını izah edin. Bu tapşırıq üçün onlara 10 dəqiqəyə yaxın vaxt verin, daha sonra qrupları müxtəlif təkliflərə nəzər salmaq üçün bir araya gətirin.

### TƏHLİL VƏ QİYMƏTLƏNDİRMƏ

- Müxtəlif təkliflər haqqında hər hansı şərhiniz varmı? Sizin unutduqlarınızı başqaları xatırladımı?
- Forumda hər kəs üçün müsbət və təhlükəsiz ab-havanın təmin edilməsi üçün hansı təlimatlar mütləq mövcud olmalıdır?
- Sizcə təlimatlarınıza sadiq qalmaq mümkün olacaqmı?
- İcma forumun qayda və təlimatları barədə qərarların qəbul edilməsinə necə cəlb edilə bilər?
- İştirakçılardan forum və icmalarda yaşadıqları real təcrübələr barədə soruşun. Belə icmalarda qaydalara necə əməl edilir, onlar necə icra edilir və razılaşdırılırlar?

## FASİLİTATORLAR ÜÇÜN PRAKTİK MƏSLƏHƏTLƏR

- Kimlik seçimi bu məşğələ üçün çox vacibdir: qruplarınıza daha uyğun gələn adlar seçmək və ya bəzi profilləri uyğunlaşdırmaq istəyə bilərsiniz. İnsanlara profillər təyin edən zaman kiməsə real kimliyinə yaxın profil verməmək üçün ehtiyatlı olun.
- Profilləri təyin edən zaman insanlara adlarını deyə bilərsiniz. Onlara əlavə heç bir məlumat verməyin və başqalarından etiketlərində nə yazıldığını soruşmamalı olduqlarını deyin.
- İştirakçılara forum haqqında məlumat verərkən, onları bir neçə müsbət və ya neytral salamlamanı bəzi mənfi nümunələrlə qarışdırmağa təşviq edin. İştirakçılara şərhlərin real şəxs haqqında biliklərindən deyil, profildə yazılanlardan irəli gəlməli olduğunu bildirin. Məşğələyə başlamazdan əvvəl bir neçə nümunə gətirmək faydalı ola bilər, məsələn:
   - "Salam, idmançı!"
   - "Futbol oynamaq üçün çox deformasiya olmusan!"

- "Ey gəlmə - burda neynirsən?"

- Məşğələdən sonra məşğələ müddətində heç kimin "real" məninin incinmədiyindən və ya təhqir olunmadığından əmin olun. Bəzi mənfi şərhləri birbaşa ələ almaq vacib ola bilər: məsələn, təhqiramiz salamlamadan istifadə edənlərdən bu şəxs haqqında həqiqətən nə düşündüklərini soruşa bilərsiniz.
- İştirakçılar otaqda hərəkət edərkən qeyd yazmaqda çətinlik çəkərlərsə, otaqda müxtəlif yerlərə bir neçə masa yerləşdirmək faydalı ola bilər. Alternativ olaraq fəaliyyətdə iştirak etməyən, lakin insanların nə dediklərini (və insanların münasibətlərini) qeyd edən bir neçə müşahidəçi ola bilər.
- Qruplar təlimatları hazırladıqdan sonra, onlar otaqda müxtəlif yerlərdə yerləşdirilə bilər ki, başqaları gəzib onlara baxa bilsinlər.

## VARİANTLAR

Məşğələ yazı məşğələsi kimi həyata keçirilə bilər. Profillərin 3 və ya 4 surətini çıxartmalı (səh. 159) kart şəklində kəsməlisiniz. İnsanlara öz profillərini (kürəklərində) verdikdən sonra, onlara 3 və ya dörd təsadüfi kart təqdim edin. Onlar salamlamalarını hər bir kartın arxa üzündə yazmalıdırlar. Kartlar aid olduğu profili təmsil edən şəxsə veriləcək.

Bu metod insanların onlayn rejimdə malik olduqları nisbi anonimliyi daha yaxşı əks etdirə, lakin bir qədər daha çox vaxt apara bilər.

## FƏALİYYƏT ÜÇÜN FİKİRLƏR

İştirakçılar təlimatlar üzərində işi davam etdirə, qrup üçün vahid toplu hazırlaya bilərlər. Bundan sonra başqa bir tarixdə təlimatlara qayıda, insanların onlara hansı səviyyədə əməl edə bildiklərini soruşa bilərsiniz.

Müəyyən qruplara qarşı güclü önmühakimələrin mövcud olduğunu görsəniz, bu məsələyə daha çox planlı məşğələ həsr edə bilərsiniz. Əsassız qərəzli münasibət və ayrı-seçkiliklə mübarizə fəaliyyətlərini müəyyən edən Təhsil Paketi və Kompassa nəzər salın. Ətraflı məlumat üçün: www.coe.int/compass

| | | |
|---|---|---|
| Alla (Q)<br>Yaş: 19<br>Lezbian | Pier (K)<br>Yaş: 9<br>Onlayn şəbəkə oyunlarını sevir | Migel (K)<br>Yaş: 16<br>Ölkə üzrə riyaziyyat çempionu |
| Stefen (K)<br>Yaş: 33<br>Futbol məşqçisi | Hüqo (K)<br>Yaş: 21<br>Venesuelalı | Kris (K)<br>Yaş: 43<br>Yol hərəkəti nizamlayıcısı |
| Dafne (Q)<br>Yaş: 65<br>Sahibkar | Amlin (K)<br>Yaş: 27<br>Somalili | Sonia (Q)<br>Yaş: 33<br>İşsiz |
| Hanzi (K)<br>Yaş 23<br>Qaraçı | Slava (K)<br>Yaş: 26<br>Saç ustası | Liza (Q)<br>Yaş: 30<br>Aşpaz |
| Rebekka (Q)<br>Yaş: 28<br>Öyrənmə məhdudiyyətli şəxs | İohann (K)<br>Yaş: 31<br>Yehova şahidləri | Steffi (Q)<br>Yaş: 12<br>Eşitmə məhdudiyyətli şəxs |
| Liana (Q)<br>Yaş: 13<br>Məktəbin futbol komandasında oynayır | Rikardo (K)<br>Yaş: 72<br>Gey | Sem (K)<br>Yaş: 21<br>Peşəkar tennis oyunçusu |
| Devid (K)<br>Yaş: 26<br>Müharibə veteranı (qazi) | Leon (K)<br>Yaş: 29<br>İmam | Coe (M)<br>Yaş: 37<br>Xeyriyyə işçisi |

FƏSİL 5:

# İLKİN MƏLUMAT


5.1 Onlayn nifrət nitqi . . . . . . . . . . 161

5.2 İnsan Hüquqlari. . . . . . . . . . 167

5.3 İfadə azadlığı . . . . . . . . . . 173

5.4 İrqçilik və ayrı-seçkilik . . . . . . . . . . 179

5.5 Şəxsi həyat və təhlükəsizlik. . . . . . . . . . 184

5.6 Demokratiya və İştirakçılıq . . . . . . . . . . 188

5.7 Kampaniyaların aparılması strategiyaları . . . . . . . . . . 192

5.8 İnternet Savadlılığı. . . . . . . . . . 197

5.9 Kiberbullinq . . . . . . . . . . 206

5.10 Avropa Şurası və onlayn nifrət nitqi . . . . . . . . . . 210

# 5.1 ONLAYN NİFRƏT NİTQİ

*(...) "Nifrət nitqi" irqi nifrəti, ksenofobiyanı, antisemitizmi və ya nifrətin dözümsüzlüyə (o cümlədən, aqressiv milliyyətçilik və etnosentrizmlə ifadə edilən dözümsüzlüyə) əsaslanan digər formalarını, eləcə də milli azlıqlara, miqrantlara və immiqrant mənşəli insanlara qarşı ayrı-seçkiliyi və düşmənçiliyi yayan, təhrik və təşviq edən və ya bütün bunlara haqq qazandıran bütün ifadə formalarını əhatə edir.*

*Avropa Şurası, Nazirlər Komitəsi, Tövsiyə № (97) 20*

## NİFRƏT NİTQİNİN MÜƏYYƏN EDİLMƏSİ

Nifrət nitqi nadir hallarda ağ-qara, hə və ya yox şəklində təzahür edir. Rəylər həm təsnifləndirilmə qaydası, həm də onunla bağlı nə etməli olduğumuzla əlaqədar olaraq bir-birlərindən fərqlənirlər. Fikir ayrılıqlarının səbəblərinin bir hissəsi əksər insanların bu mövzuları bir-birləri əlaqəli hesab etməsi ilə bağlıdır: nifrət nitqi olaraq təsnifləndirilirmə bəzi fəaliyyətlərə də zəmanət verirmiş kimi görülür. Əks halda biz onun qəbul ediləcək və ya ən azından dözüləcək olduğunu fərz edirik. Bu o deməkdir ki, istifadə etdiyimiz tərif bizə nə vaxt hərəkət etməli olduğumuzu da söyləyir.

Bəzi insanlar nifrət nitqinə qarşı fəaliyyəti ifadə azadlığına yolverilməz məhdudiyyət kimi gördüklərindən buna həvəssizdirlər. Bu səbəbdən onlar "nifrət nitqi" terminini yalnız ən pis hallara, məsələn, kiminsə həyatına və ya təhlükəsizliyinə qarşı birbaşa təhlükəyə istinad edərkən istifadə edirlər.

Bu vəsait Avropa Şurasının nifrət nitqini daha geniş aspektdə nəzərə alan tərifinə əsaslanır. Bu mətndə istifadə edilmiş yanaşma bu tərifə uyğun gələn hər şeylə bağlı "bir şey edilməlidir" fikrini də qəbul edir. Lakin yadda saxlamaq lazımdır ki, "bir şey etmək" nitqin məhdudlaşdırılması və qadağan edilməsi kimi anlaşılmamalıdır: cavab tədbirlərinin bir çox başqa yolları mövcuddur! Kampaniya strategiyaları haqqında qısa məlumatlar bölməsində bu məsələ daha ətraflı nəzərdən keçirir.

Bu fəslin son bölməsində nifrət nitqi hallarının təsnifləndirilməsi və qiymətləndirilməsi üsulları nəzərdən keçirilir. Lakin bundan öncə onlayn nifrət nitqinin qarşısının niyə alınmalı olduğu və ya ümumiyyətlə alınmalı olub-olmadığı məsələsi ortaya çıxır. Bəzi insanlar hesab edir ki, "internet öz-özünü tənzimləyəcək", biz isə nitqin azadlığına ən azı bu sahədə imkan verməliyik!

Avropa Şurasının nifrət nitqi tərifi "bütün ifadə formalarını", başqa sözlə, sadəcə nitq vasitəsilə deyil, həmçinin şəkil, video və ya onlayn fəaliyyətin hər hansı digər forması vasitəsilə ifadəni əhatə edir. Bu səbəbdən kibernifrət də nifrət nitqidir.

## İNTERNETDƏ NİFRƏT NİTQİNİN QARŞISI NİYƏ ALINMALIDIR?

### NİFRƏT NİTQİ İNCİDİR

Sözlər incidir və nifrət incidir! Nifrət nitqi ciddi problemdir və insan hüquqlarının pozulmasına səbəb ola bilər. Onlayn nifrət nitqi oflayn formadan daha az əhəmiyyətli deyil, lakin adətən onu müəyyən etmək və həll etmək daha çətindir.

### MÜNASİBƏTLƏR HƏRƏKƏTLƏRİ BƏSLƏYİR

Nifrət nitqi təkcə öz-özlüyündə zərər verdiyi üçün deyil, həm də daha ciddi insan hüquqlarının pozulması hallarına, o cümlədən fiziki zorakılığa səbəb ola biləcəyi üçün təhlükəlidir. Nəzarət edilməzsə, onlayn nifrət nitqi irqi gərginliyi və ayrı-seçkiliyin və pis rəftarın digər formalarını daha da qızışdıraraq oflayn aləmə qayıdır. Nifrətin virtual aləmdə sürətli yayılma potensialı onun potensial zərərini artırır.

### ONLAYN NİFRƏT NİTQİ SADƏCƏ "SÖZLƏRDƏN" İBARƏT DEYİL.

İnternet bizə sürətli və çoxsaylı üsullarla, o cümlədən, məsələn, sosial media və onlayn rejimdə oyunlar vasitəsilə və çox vaxt həm də anonim olaraq ünsiyyətə imkan verir. Onlayn nifrət nitqi videolar və fotoşəkillər, eləcə də, daha çox bilinən "mətn" forması ilə ifadə edilə bilər. Vizual və ya multimedia formaları adətən şüurlu və şüuraltı münasibətlərə daha böyük təsir edə bilər.

*İnsanlar onlayn rejimində "nifrətlərini" hansı üsullarla büruzə verrlər?*

*Mahnı, video, tvit, karikatura, üzərində düzəliş edilmiş şəkil...*

### NİFRƏT HƏM FƏRDLƏRƏ, HƏM DƏ QRUPLARA YÖNƏLDİLƏ BİLƏR

Onlayn nifrət qruplara yönəldilə bilər və hədəflər adətən hər hansı bir şəkildə artıq həssas olan qruplar, məsələn, sığınacaq axtaran şəxslər, dini azlıqlar və ya sağlamlıq imkanları məhdud olan şəxslər olur. Lakin, fərdlər də getdikcə daha çox onlayn nifrətin hədəfi olmağa başlayır. Təsir bəzən ölümcül olur, məsələn, qeydə alınmış bir sıra hallarda intihara gətirib çıxaran kiberbullinq kimi. Nifrət nitqi həmçinin özünün nifrət nitqinin hədəfi ilə eyniləşdirən istənilən şəxsin təhlükəsizliyini və özünə inam hissini təhdid edir.

*Üz-üzə görüş zamanı deməyəcəyiniz sözləri onlayn rejimdə demisinizmi?*

*Kimliyinizin müəyyən edilməyəcəyini düşünsəydiniz, belə edərdinizmi?*

### İNTERNETİ İZLƏMƏK ASAN DEYİL

Onlayn nifrət nitqinə internetdən kənar nifrət nitqindən daha çox dözümlülük göstərilir və daha az nəzarət edilir. Həmçinin adətən insanlar anonimlik maskası arxasında gizlənə bildiklərindən internetdən kənar aləmdən daha çox onlayn rejimdə pis rəftar nümayiş etdirmək "heyterlər" üçün daha asandır (və daha az risklidir).

### ONLAYN NİFRƏT NİTQİNİN KÖKLƏRİ DƏRİNDİR

Onlayn nifrət nitqini doğuran münasibətlər və sosial gərginliklər cəmiyyətin dərinliklərində gizlidir və adətən internetdən kənar aləmdə nifrət nitqinə səbəb olanlarla eyniyyət təşkil edir. Onlayn nifrət problemini həlli üzərində işləməklə biz həm də oflayn nifrət hallarını azaltmağa çalışırıq.

### İNTERNET ADA DEYİL

Onlayn fəaliyyət müasir cəmiyyətin böyük və böyüməkdə olan xüsusiyyətidir, lakin ona insan davranışının normal qaydalarının tətbiq edilməli olmadığı sahə kimi baxılmamalıdır. İnsanların virtual mövcudluğu onların "real" mövcudluğu ilə sıx bağlıdır. Həyatımızın iki sahəsi bir-birindən ayrılmamışdır: virtual aləm sadəcə "real" aləmin mühüm hissəsinə çevrilmişdir. Onlayn nifrət

nitqi adətən gündəlik həyatda nəticələrə səbəb olur: onlayn aləmdə də, internetdən kənarda da insanlar, hisslər, təcrübələr və dinamika eynidir.

### İNTERNET HƏLƏ GƏNCDİR!

Virtual aləm haqqında anlayışımız bir çox cəhətdən qeyri-virtual aləm haqqında anlayışımızdan daha az inkişaf etmişdir və daha da əhəmiyyətlisi, bu, ümumilikdə nəyin məqbul, nəyin qəbul edilməz olduğunu tənzimləyən qanun və qaydalara da aiddir. Onlayn fəaliyyət bizi internetdən kənar fəaliyyətimizdə yönləndirən eyni ümumi dəyərlər prizmasından nəzərdən keçirilməlidir. Eyni zamanda ona eyni qanunvericilik tətbiq edilməlidir: xüsusilə, o insan hüquqları sahəsində mövcud qanunlarla tənzimlənməlidir.

### İNTERNET DAHA YAXŞI OLA BİLƏR!

İnterneti insanların davranışları formalaşdırır. Real cəmiyyətdə olduğu kimi müəyyən davranış üsulları "məqbul" olursa, yəni normaya çevrilirsə, çox güman ki, həmin davranış üstünlük təşkil edəcəkdir. Hansı onlayn davranışın məqbul olmasını istədiyimiz barədə təsəvvürümüz olmalıdır. Bundan əlavə biz məhz bu davranış üsullarının qəbul edilməsinə çalışmalıyıq. Bu o deməkdir ki, biz vətəndaşlar və bütün yaş qruplarından olan gənclər olaraq həm də İnternetin necə idarə edildiyi və nə üçün bəzi şeylərə icazə verildiyi, digərlərinə isə icazə verilmədiyi ilə maraqlanmalıyıq.

Bəzi forumların və ya vebsaytların öz "mədəniyyətləri" var.

Gənclər üstünlük verdikləri "internet mədəniyyətini" necə yarada bilərlər?

### ANONİMLİK VƏ CƏZASIZLIQ BARƏDƏ MİFLƏR

Onlayn nifrət nitqi onun insanlara məhvedici təsirinin düzgün qiymətləndirilməməsi və onlayn sosial qarşılıqlı əlaqə ilə bağlı iki mif: anonimlik və cəzasızlıq səbəbindən yayılır və güclənir. Onlayn rejimdə hər bir hərəkət nəticədə müəllifinə və ya vasitəçisinə qədər izlənə bilər; bu hüquq-mühafizə orqanlarının nə qədər irəliləmək istədiyindən asılıdır. Bununla belə, bir insanın nifrət nitqi ehtiva edən məzmunu iz buraxmadan dərc edə və ya yenidən dərc edə bilməsi təəssüratının mövcudluğu nifrət nitqinin ifadə edilməsini cinayətkarın kimliyinin hər kəsə məlum olacağını bildiyi halla müqayisədə asanlaşdırır.

Anonimliklə birgə cəzasızlıq hissi gəlir: nifrət nitqi yayanlar hərəkətlərinin qanunazidd, ədalətsiz və ya qeyri-əxlaqi olduğundan məlumatlı ola bilərlər, lakin onlar əmindirlər ki, onlara heç nə olmayacaq. Cəzasızlıq da mifdir, çünki nifrət nitqi əslində bir çox üzv ölkədə məhkəmə təqibi üçün əsas ola bilər.

Anonimlik və cəzasızlıqla bağlı hər iki mif nəzərdən keçirilməli və aradan qaldırılmalıdır.

## NİFRƏT NİTQİNİN TƏSNİFATI

### PİS NİFRƏT, DAHA PİS NİFRƏT

Nifrət nitqinə qarşı istənilən cavab addımı "nifrət"in müəyyən bir spektr üzrə yayıldığını qəbul

etməlidir: nifrətin bütün ifadə formalarının müəyyən dərəcədə pis olmasına baxmayaraq, bir hal yenə də digərindən daha pis ola bilər, məsələn, o daha təhqiramiz ola bilər, daha çox sayda insana təsir edə bilər, daha qızışdırıcı, potensial olaraq daha ziyanlı və s. ola bilər.

Nifrət nitqinə qarşı istənilən cavab addımı bunu nəzərə almalıdır, çünki ifadə edilmiş nifrətin dərəcəsindəki fərqlər bizim cavab addımımızda fərqlərə səbəb olur. Nifrət nitqinə müvafiq cavab ifadə azadlığını həddindən artıq məhdudlaşdırmamalı, lakin nifrət nitqinin vurduğu (və ya vuracağı ehtimal olunan) zərəri tanımalı və aradan qaldırmağa cəhd etməlidir. Aşağıdakı siyahıda ayrı-ayrı halların qiymətləndirilməsi zamanı nəzərə alınmalı olan faydalı məqamlar təqdim edilir.

İfadə azadlığı, o cümlədən onun qanuni məhdudlaşdırılması haqqında daha ətraflı məlumatla 160-cı səhifədə tanış ola bilərsiniz.

### İFADƏNİN MƏZMUNU VƏ TONU




Bəzi nifrət ifadələri daha kəskindir, daha çox təhqiredici sözdən istifadə edir və ola bilsin ki, başqalarını fəaliyyətə səsləyir. Spektrin digər ucunda müəyyən qrupları və ya fərdləri pis imicdə təqdim edən (yanlış da ola bilər) yüngül təhqirlər və ya geniş ümumiləşdirmələr var.

Yalnız məzmun və tona əsaslanan şərti təsnifat aşağıdakı ifadələri pisdən daha pisə doğru sıralaya bilər:

Təcrübədə məzmun və ya tonu ümumi kontekstdən ayırmaq çox çətindir. Başqa amillərin nəzərə alınması (bax: aşağı) bu bəyanatların ifadə edilmə formasını dəyişə bilər, məsələn, immiqrantlar barədə şərhin təsiri - məhz daha ölçülüb-biçilmiş üslubdan istifadə edildiyi üçün - daha dağıdıcı ola bilər.

### İFADƏYƏ MƏSULİYYƏT DAŞIYAN ŞƏXSİN NİYYƏTİ

İnsanlar sözləri, xüsusilə, onlayn rejimdə, lazımınca ölçüb-biçmədən söyləyirlər. Biz adətən bilmədən incikliyə səbəb oluruq və daha sonra peşman oluruq və hətta ola bilsin ki, sözümüzü geri götürürük. Aşağıdakı iki nümunədə hər iki ifadə dözülməz və iyrəncdir, lakin biri incitmək məqsədilə deyilmişdir. Ən azı bu iki hal fərqli cavab tələb edir.




**HƏDƏFLƏR VƏ YA POTENSİAL HƏDƏFLƏR**

Bəzi qruplar və ya fərdlər müəyyən tənqidlərə münasibətdə digərlərinə nisbətən daha həssas ola bilər. Bu adətən cəmiyyətin onlara baxışı və ya onların media tərəfindən təqdim edilmə forması ilə bağlı ola bilər və ya onların şəraitlərinin özlərini müdafiə etməyə daha az imkan verməsindən irəli gələ bilər. Məsələn, müsəlmanlara qarşı təhqir əhalinin böyük əksəriyyətinin qeyri-müsəlman olduğu ölkələrdə daha zərərli ola bilər; Xristianlar azlıq təşkil etdikləri yerlərdə daha çox təhlükə hiss edə bilər. Uşaqlara demək olar ki, hər cəmiyyətdə xüsusi diqqət və qayğıya ehtiyacı olan qrup kimi baxılır.






Nifrət nitqinin ən çox hədəfə aldığı qruplar bu bölmənin başlanğıcında verilmiş tərifdə müəyyən edilmişdir, lakin hər kəs, qeyd edilmiş dözümsüzlük formalarının hər hansı birinə aid deyilsə belə, nifrət nitqinin hədəfi ola bilər.

Aşağıdakı nümunə müxtəlif qruplara tətbiq edilən eyni ifadənin tam fərqli təsirlər yarada biləcəyini nümayiş etdirir. İkincisi çox güman ki çox daha sarsıdıcı təsirə malik olacaq.

#### KONTEKST

Konkret ifadənin konteksti nifrət ifadəsi ilə əlaqəli tarixi və mədəni şərtləri əhatə edir. O həmçinin mühit və potensial hədəf auditoriya, mövcud gərginliklər və ya qərəzli fikirlər, ifadə üçün məsuliyyət daşıyan şəxsin nüfuzu və s. kimi digər amilləri də ehtiva edə bilər.

*İnsan hüquqları və insan hüquqları sahəsində beynəlxalq normalar haqqında ətraflı məlumatla İnsan hüquqları haqqında 5.2-ci bölmədə tanış olmaq mümkündür.*

#### TƏSİR VƏ YA POTENSİAL TƏSİR

Fərdlərə, qruplara və ya cəmiyyətə bütövlükdə faktiki və ya potensial təsir nifrət ifadəsinin qiymətləndirilməsində və cavab addımımızın ölçülməsində ən əhəmiyyətli mülahizələrdən biridir. Şəxs və ya qrupun faktiki olaraq necə təsirləndiyi adətən kənardakıların onların necə təsirlənmiş olmaları ilə bağlı düşüncəsindən daha əhəmiyyətlidir. Məsələn, uşaq başqalarının “dostcasına” deyildiyini iddia etdiyi şərhlərdən ciddi şəkildə narahatdırsa, faktiki acı yəqin ki sadəcə həmin başqalarına “öz fikirlərini ifadə etməyə” imkan verməkdən daha əhəmiyyətli olacaqdır.

### NİFRƏT, KİBERNİFRƏT VƏ BEYNƏLXALQ HÜQUQ

Bu vəsaitdə qanuni vasitələrin istifadəsi xüsusi olaraq önə çəkilməsə də, nifrət nitqi ilə bağlı həmçinin virtual aləmdə tətbiq edilən bəzi qanuni qadağaları qeyd etməyə dəyər.

- Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 20-ci maddəsində bəyan edilir ki, “ayrı-seçkilik, düşmənçilik və ya zorakılığa təkan verən istənilən milli, irqi və ya dini nifrətin təbliği qanunla qadağan edilməlidir”.
- İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın 4-cü Maddəsi irqi ayrı-seçkiliyi təşviq edən və alovlandıran bütün təbliğat fəaliyyətlərini qanuna zidd elan edir.
- Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsi ifadə azadlığını müdafiə edir, lakin onun “başqalarının nüfuz və ya hüquqlarının qorunması”, eləcə də bəzi digər məqsədlərlə məhdudlaşdırılmasına icazə verir. Bu maddə üzv dövlətlərin öz ölkələri daxilində konkret nifrət nitqi hallarını qadağan etməsinə imkan verir.
- Konvensiyanın 17-ci Maddəsi “[Konvensiyada nəzərdə tutulan] hüquq və ya azadlıqlardan hər hansı birinin ləğv edilməsinə yönəlmiş” istənilən fəaliyyəti qadağan edir. Bu maddə həmçinin hökumətin nifrət nitqinin bəzi formalarına tətbiq etdiyi qadağaların qanuniləşdirilməsi üçün istifadə edilmişdir. Avropa Şurasının digər müvafiq beynəlxalq hüquq aləti Kibercinayətkarlıq haqqında Konvensiyadır (həmçinin 2001-ci il Budapeşt Konvensiyası kimi tanınır). Avropa Şurasının Kibercinayətkarlıq haqqında Konvensiyası bu məsələ üzrə yeganə məcburedici

*Ölkənizdə nifrət nitqinin hansı formalarının qadağan edildiyini bilirsinizmi?*

beynəlxalq sənəddir. O, Kibercinayətkarlığa qarşı hərtərəfli milli qanunvericilik hazırlayan istənilən dövlət üçün direktiv və bu müqavilənin Tərəf Dövlətləri arasında beynəlxalq əməkdaşlıq üçün çərçivə kimi xidmət edir.

Kibercinayətkarlıq haqqında Konvensiyaya kompüter sistemləri vasitəsilə həyata keçirilən irqçi və ksenofobik xarakterli hərəkətlərin kriminallaşdırılmasına dair Əlavə Protokol (2003) Konvensiyaya Tərəf Dövlətlərin imzalamalı olduğu fakültativ protokoldur. O, "irqçi və ksenofobik materialı" "hər hansı fərdə və ya fərdlər qrupuna qarşı irq, dərinin rəngi, nəsil və ya milli və ya etnik mənşə, eləcə də bu amillərdən hər hansı biri üçün bəhanə olaraq istifadə edilirsə, din əsaslı nifrəti, ayrı-seçkilik və ya zorakılığı təbliğ edən, təşviq edən və ya ona təkan verən ideya və ya fərziyyələrin yazılı materialı, istənilən təsviri və ya hər hansı digər təqdimatı" kimi təyin edir. Protokol üzv dövlətlərdən irqçilik və ksenofobiyanın qadağan edilməsi və kriminallaşdırılmasına yönəlmiş konkret tədbirlər həyata keçirməsini tələb edir. Kibercinayətkarlıq üzrə Komitə Konvensiyanın üzv dövlətlərdə tətbiqi ilə bağlı müşavirələrin keçirilməsi və həyata keçiriləcək tədbirlərin dəstəklənməsi məqsədilə Konvensiyanın tərəflərinin nümayəndələrini bir yerə toplayır.

2014-cü ildə Avropa Şurası Nazirlər Komitəsi İnternet İstifadəçiləri üçün İnsan Hüquqları Bələdçisi (CM/Rec(2014)6) qəbul etdi. Bələdçi hüquq və azadlıqların İnternet kontekstində təcrübədə nə məna daşıdığı və onlara necə istinad edilə biləcəyi və necə tətbiq edilə biləcəkləri, eləcə də, hüquqi müdafiə vasitələrinin necə əldə edilə biləcəyi barədə məlumatları ehtiva edir. Bələdçi məsələn, ayrıseçkiliyin yolverilməzliyi və ifadə azadlığının internetdə necə tətbiq olunduğu barədə ümumi məlumat təqdim edir. 5.2-ci Fəsildə insan hüquqları və internetdə insan hüquqları haqqında daha geniş məlumatla tanış ola bilərsiniz. 5.3-cü Fəsildə ifadə azadlığının internetdə necə tətbiq edildiyi haqqında daha geniş informasiya əldə edə bilərsiniz. Bələdçi üçün keçid: www.coe.int/en/web/internet-users-rights/guide.

Avropa Şurası orqanı olan ECRI (İrqçilik və Dözümsüzlüyə qarşı Avropa Komissiyası) 2015-ci ildə Nifrət Nitqi ilə Mübarizəyə dair 15 saylı Ümumi Siyasət Tövsiyəsini qəbul etmişdir. Bu Tövsiyədə ECRI ictimai xadimlərin nifrət nitqinə sürətli reaksiyası verməsinə, medianın özünütənzimləməsinin təşviq edilməsinə, nifrət nitqinin təhlükəli nəticələri barədə məlumatlılığın artırılmasına, nifrət nitqini fəal şəkildə istifadə edən siyasi partiyalara maliyyə və digər dəstəyin geri çəkilməsinə və ifadə azadlığına riayət etməklə onun ən kəskin təzahürlərinin kriminallaşdırılmasına çağırır. Tövsiyədə vurğulanır ki, nifrət nitqinə qarşı tədbirlər əsaslandırılmış, proporsional, ayrı-seçkiliyə yol verməyən olmalı və ifadə və ya sərbəst toplaşma azadlığının məhdudlaşdırılması və ya rəsmi siyasətin, siyasi müxalifətin və dini inancların tənqidi iradlarının qarşısının alınması üçün istifadə edilməməlidir. Tövsiyəyə keçid: https://www.coe.int/en/web/european-commission-against-racism-and-intolerance/recommendation-no.15

## 5.2 İNSAN HÜQUQLARI

> *Bütün insanlar azad və bərabər ləyaqətə və hüquqlara malik olaraq doğulurlar.*
>
> *Maddə 1, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi*

İnsan hüquqları bir neçə cəhətdən nifrət nitqi ilə bağlıdır. Hüquqi nöqteyi-nəzərdən konkret insan hüquqları həm nifrət nitqinin ayrı-ayrı halları, həm də onun qadağan edilməsi və ya məhdudlaşdırılması cəhdlərinin təsirinə məruz qala bilər. Mövqelər və ya dəyərlər baxımından demək olar ki, nifrət nitqinin bütün növləri irqçi və ya ayrı-seçkilik edən baxışlardan yaranır və bunların

hər ikisi insan hüquqları ilə əlaqədardır. Ən geniş mənasında təhsil nöqteyi-nəzərindən insan hüquqları onlayn nifrət nitqinin anlaşılması və onunla mübarizə üçün ən effektiv çərçivələrdən birini təklif edir.

Bu bölmədə insan hüquqları prinsipləri, insan hüquqları hüququ və insan hüquqlarının onlayn nifrət nitqinə necə tətbiq edildiyi barədə əsas məlumatlar verilir. Onlayn nifrət nitqi ilə bilavasitə əlaqəli olan xüsusi hüquqların bəziləri digər bölmələrdə nəzərdən keçirilir.

## İNSAN HÜQUQLARI NƏDİR?

### ƏSAS FAKTLAR

- İnsan hüquqları dünyanın bütün hökumətləri ilə razılaşdırılmış ümumbəşəri dəyərlər toplusuna əsaslanan beynəlxalq səviyyədə qəbul edilmiş standartlardır.
- İnsan hüquqları bütün insanların hörmətə layiq olduğu və heç kimin insandan daha aşağı olduğunu hiss etməli olduğu dərəcəyə qədər əziyyət çəkməməli olduğu ideyasına əsaslanır. Bu baxımdan bütün insanlar bərabərdir; onların ləyaqətlərinə əsas dəyər kimi baxılmalıdır.
- İnsan hüquqları dünyanın bütün hökumətləri üçün öhdəliklər yaradaraq beynəlxalq hüquqa daxil edilmişdir. Hökumətlər hər bir fərdin əsas ehtiyaclarının, o cümlədən, şəxsi ləyaqətinin qorunması ehtiyacının qarşılanmasını təmin etməlidirlər.
- İnsan hüquqları bütün zərər və xətərlərdən azad lüks həyat təmin etmir. Onlar insanların ləyaqətli həyat sürməsi üçün tələb olunanları təyin edəcək təməl, minimum standartlar toplusu təqdim edir.
- İnsan hüquqlarının əksəriyyəti konkret şərtlər daxilində digər insanların hüquqlarını qorumaq üçün və ya ümumilikdə cəmiyyət üçün zəruridirsə, məhdudlaşdırıla bilər. Bəzi insan hüquqları, məsələn, yaşamaq hüququ və qeyri-insani və alçaldıcı rəftardan azad olmaq hüququ heç bir zaman məhdudlaşdırıla bilməz.

## İNSAN HÜQUQLARI VƏ HÜQUQ SİSTEMİ

İnsan hüquqları hökumətlər üçün bir sıra səviyyələrdə öhdəliklər yaradaraq müxtəlif hüquq sistemlərinə daxil edilmişdir. İnsan hüquqları sahəsində əsas sənədlər əhatə etdikləri hüquqlarla birgə (səh. 169) diaqramda göstərilmişdir.

### BEYNƏLXALQ SƏVİYYƏDƏ İNSAN HÜQUQLARI

Birləşmiş Millətlər Təşkilatı (BMT) insan hüquqları sahəsində fərdlərə münasibətdə hökumətin öhdəliklərini müəyyən edən bir sıra müqavilələr hazırlamışdır. Ən əhəmiyyətliləri bunlardır:

- BMT-nin İnsan Hüquqları Bəyannaməsi (ÜİHB). ÜİHB 1948-ci ildə İkinci Dünya Müharibəsindən dərhal sonra tərtib edilmişdir. O dünyanın bütün hökumətləri tərəfindən qəbul edilmişdir və insan hüquqları sahəsində hər bir sonrakı müqavilədə rast gəlinən əsas hüquqları və fundamental prinsipləri təsbit edir.
- Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt (MSHBP) BMT Baş Assambleyası tərəfindən 1966-cı ildə qəbul edilmişdir. O, (səh. 169) diaqramda təsvir olunduğu kimi ÜİHB-də təsbit edilmiş hüquqların bir çoxunu genişləndirir.
- İqtisadi, Siyasi və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt (İSMHBP) Baş Assambleya

tərəfindən MSHBP ilə eyni vaxtda qəbul edilmişdir. O diaqramda göstərildiyi kimi ÜİHB-dəki hüquqların qalan hissəsini əhatə edir.

Bütün Avropa hökumətləri Hüquqlar haqqında Beynəlxalq Billdə təsbit edilmiş hüquqlara hörmət etməyə, onları müdafiə etməyə və həyata keçirməyə razılaşmışdır. Onlar həmçinin insan hüquqları sahəsində digər müxtəlif müqavilələrə, o cümlədən, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına qoşulmuşdur.

### REGİONAL SƏVİYYƏDƏ

Avropa insan hüquqları çərçivəsi Avropa Şurası tərəfindən və daha aşağı səviyyədə Avropa İttifaqı tərəfindən yaradılmışdır və onun tərəfindən tənzimlənir.




Avropa səviyyəsində Avropa Şurasının iki əsas müqaviləsi daha əvvəl qəbul edilsələr də ÜİHB-dəki hüquqları yuxarıda qeyd edilmiş iki Beynəlxalq Pakta bənzər şəkildə bölür.

- Avropa İnsan Hüquqları Konvensiyası 1953-cü ildə qəbul edilmişdir və demək olar ki MSHBP-da əks edilənlərlə eyni hüquqları ehtiva edir. Avropa İnsan Hüquqları Məhkəməsi 1959-cu ildə Avropa Şurasına üzv dövlətlərin Konvensiyaya riayət etməsinə nəzarət etmək məqsədilə yaradılmışdır.
- Avropa Sosial Xartiyası 1961-ci ildə qəbul edilmişdir və demək olar ki, İSMHBP-da təsbit edilənlərlə eyni hüquqları əhatə edir. Bu hüquqlara nəzarəti hökumət (və bəzən həmkarlar ittifaqları və digər QHT-lər kimi digər subyektlər) tərəfindən təqdim edilən hesabatları nəzərdən keçirən Avropa Sosial Hüquqlar Komitəsi həyata keçirir.

### MİLLİ SƏVİYYƏDƏ

Bir çox ölkələr insan hüquqlarının müdafiəsini öz milli qanunvericiliklərinə də daxil etmişdir. Belə hallarda insan hüquqlarının pozulması ilə bağlı potensial hallara yerli məhkəmələrdə baxıla bilər.

### HANSI HÜQUQLARIMIZ VAR?

# İNSAN HÜQUQLARI VƏ NİFRƏT NİTQİ

İnsan hüquqları bir neçə müxtəlif səviyyədə nifrət nitqi ilə əlaqəlidir:

### ƏSAS SƏBƏBLƏR

Nifrət nitqi bəzi qrupları və ya fərdləri aşağı səviyyədə, fərqli və daha az hörmətə layiq görən mənfi stereotiplərdən qaynaqlanır. İnsan hüquqları insanları insan hüquqları nöqteyi-nəzərindən bərabər və eyni qədər hörmətə layiq qəbul edir. Ayrı-seçkiliyə yol verməmək fundamental prinsipdir.

İnsan hüquqlarına hörmətin inkişaf etdirilməsi nifrət nitqinə səbəb olan mövqelərin rövnəqlənməsinə yol verilməməsini təmin etməyin üsullarından biridir.

### BİRBAŞA TƏSİR

Nifrət nitqinin ən pis ifadələri özü-özlüyündə ayrı-seçkilik növü və insan hüquqlarının pozulmasıdır. Nifrət nitqi çox vaxt artıq başqa cəhətdən həssas olan insanları kənarlaşdırır, marginallaşdırır və şəxsi ləyaqətini zədələyir. Nifrət nitqinin hədəfinin fərdiləşdirildiyi hallarda, məsələn, kiberbullinq hallarında nifrət nitqi həm də şəxsi həyatın toxunulmazlığı hüququnu poza bilər və qeyri-insani və alçaldıcı rəftar təşkil edə bilər. Bununla belə nifrət nitqi həm də nifrət nitqinin hədəfə aldığı qruplara mənsub olan hər kəsin özünə inam hissini, şəxsi ləyaqətini və təhlükəsizliyini zədələyir.

### NİFRƏT NİTQİNİN NƏTİCƏLƏRİ

Nifrət nitqinin qarşısı alınmazsa, on insan hüquqlarının daha da çox pozulmasına səbəb olur: mənfi stereotiplər bütün cəmiyyətə yayılır, qruplar daha artıq marginallaşır və təcrid olunur, münaqişə və bölünmə böyüyür və yeni sərhədlər sınaqdan keçirildikcə pis rəftar və ya təhdidlər artır. Ən pis hallarda sadə "ifadə" fiziki zorakılığa çevrilir. Nifrət nitqi şəxsi təhlükəsizliklə bağlı insan hüquqlarını ehtiva edən nifrət zəminində cinayətə səbəb ola bilər. Nifrət zəminində cinayətlər, o cümlədən soyqırım, hər zaman nifrət nitqi ilə müşayiət olunur. Heç də bütün nifrət nitqləri nifrət zəminində cinayətlə nəticələnmir, lakin nifrət zəminində cinayətlər hər zaman nifrət nitqi ehtiva edir.

### İFADƏ AZADLIĞI?

Nifrət nitqi ilə mübarizə məqsədilə həyata keçirilən tədbirlər də müəyyən insan hüquqlarına toxuna bilər, çünki ifadə azadlığı, eynilə də düşüncə, vicdan və din azadlığı fundamental insan hüququdur. "Nifrət"i təbliğ etməkdə günahlandırılan şəxslər çox vaxt bu hüquqlara istinad edirlər.

İnsan hüquqlarının düzgün başa düşülməsi bu aydın görünən ziddiyyəti həll etməyə kömək edə bilər. Nifrət nitqi ilə mübarizə fəaliyyətində əsas problemlərdən biri ifadə azadlığına imkan verməklə eyni zamanda onun daha zorakı formalarının təsirinə məruz qalacaq digər hüquqları qorumaq arasındakı ən münasib tarazlığı müəyyən edə bilməkdir.

### İNSAN HÜQUQLARININ NİFRƏT NİTQİNİN ARADAN QALDIRILMASI ÜÇÜN İSTİFADƏSİ

İnsan hüquqları sahəsində təhsil nifrət nitqi problemini insan hüquqlarına əsaslanan yanaşma mövqeyindən həll etmək məqsədilə gənclərin bilik, bacarıq və baxışlarını inkişaf etdirərək onlayn nifrət nitqinin aradan qaldırılması üçün güclü alət təmin edir. İnsan hüquqlarına əsaslanan yanaşma təkcə empatiya və başqalarına hörmət hissini inkişaf etdirməyə kömək etmir, o həm də fəal iştirakçılığı və fərdilik hissini təşviq edir.

Kompasın 4-cü Fəslində İnsan Hüquqları barədə daha geniş məlumatla tanış ola bilərsiniz : www.coe.int/compass

## İNSAN HÜQUQLARI VƏ İNTERNET

### ƏSAS FAKTLAR

- İnsan hüquqları və onların müdafiəsi hər zaman özəl şirkətlərin müəyyən etdiyi qayda və normalardan daha vacibdir.
- İnternetdə insan hüquqlarından istifadə edərkən hər kəs qanunsuz müdaxilə və təqibdən qorunmalıdır.
- İnternetdə hüquq və azadlıqları pozulmuş hər bir şəxsin yardım və dəstək almaq hüququ vardır.

İnternet əksər hallarda özəl şirkətlərin mülkiyyətində və nəzarətindədir. Bu insan hüquqlarının müdafiəsini daha da çətinləşdirir, çünki insan hüquqları əslində özəl şirkətlər deyil, "hökumətlər üçün qaydalardır". Hər hansı bir alış-veriş mərkəzi və ya özəl gecə klubu insanların "ifadə" formalarından olan cins geyinməyi, etiraz etməyi və ya başqa şirkət haqqında məlumat yaymağı qadağan etmək istəyirsə, siz ifadə azadlığına istinad edərək onları Avropa İnsan Hüquqları Məhkəməsinə çıxara bilməzsiniz! Eyni şəkildə özəl şirkətlər əksər hallarda İnternetin onlara məxsus hissəsindən istifadə edərkən insanların riayət etməli olduğu qaydalar müəyyən edə bilər. İnsanlar qaydaları bəyənmirsə, şikayət edə bilərlər, lakin son qərar sadəcə xidmətdən istifadə etməməkdir.

Lakin bu o demək deyil ki, dünyanın özəl şirkətlərə məxsus olan hissələri, o cümlədən İnternet insan hüquqları sahəsində qanunlarla tənzimlənmir! İnsan hüquqları hökumətlərin üzərinə iki (ən azı) fərqli öhdəlik qoyur:

1. Onlar hökumətlərin fəal şəkildə həyata keçirmələrinə icazə verilən fəaliyyətlərə məhdudiyyətlər müəyyən edir, məsələn, onların bütün siyasi fikir ayrılıqlarını qadağan etməsinə, işgəncədən istifadə etməsinə və ya kimisə əsaslı səbəb olmadan azadlıqdan məhrum etməsinə icazə verilmir.
2. Onlar hökumətlərin üzərinə hüquqların müvafiq şəkildə qorunmasını təmin etmək üçün

müsbət addımlar atmaq öhdəliyi qoyur. Bu ayrı-seçkiliyi qadağan edən qanunların qəbulu, zorakılıq aktlarının cinayət məsuliyyətinə cəlb edilməsinin (və cəzalandırılmasının) təmin edilməsi və ya qurbanların lazımi müdafiə ilə təmin edilməsi ola bilər.




Başqa sözlə, hökumətlər həm də “özəl” məkanların insan hüquqlarının pozulmasına səbəb olmamasını təmin etməlidirlər.

İnternetdə insan hüquqlarının pozulması ilə bağlı məhkəmə işlərinin sayı artmaqdadır.

Avropa İnsan Hüquqları Məhkəməsi öz qərarlarında Dövlətlərin İnternetdə fərdlərin fundamental hüquq və azadlıqlarının qorunması üçün öhdəlik daşıdığını təsdiqləmişdir. Xüsusilə, ifadə azadlığı, uşaq və gənclərin müdafiəsi, əxlaq normalarının və başqalarının hüquqlarının qorunması irqçilik, ksenofobiya və ayrı-seçkiliyin digər formaları ilə mübarizə yolu ilə təmin edilməlidir.

Bundan əlavə özəl və dövlət sektoru arasındakı fərq aydın deyil və müzakirəyə uyğundur. Heç də bütün sahələr özəl mülkiyyətdə deyil və hətta elə olan hallarda belə ictimaiyyət məsələsi aktual olaraq qalır. 500 milyon insanı bir yerə toplayan sosial şəbəkə sırf özəl müəssisədirmi?

Avropa Şurasında gənclərin nümayəndələrinin çağırdığı Nifrət Nitqinə Yox Hərəkatı İnternetin internet bizneslərinin maraqlarından çox daha kənara çıxan maraqlara malik ictimai məkan olduğunu bəyan etmişdir.

**Yadda saxlayın:** Hüquqların internetdə istifadəsi və onun müdafiəsi sahəsində qanunvericilik daim inkişaf edir. Virtual məkan qeyri-real və nəzarətsiz görünsə də, bu fərdlərin istədikləri hər şeyi deməyə və etməyə təşviq edildiyi demək deyil! İnternet onun istifadəçilərinin olmasını istədikləri şey olacaq və gənclərin hər kəs qədər buna təsir etmək imkanı var!

# 5.3 İFADƏ AZADLIĞI

> Hər bir insan əqidə azadlığı və onu sərbəst ifadə etmək azadlığı hüququna malikdir; bu hüquqa maneəsiz olaraq öz əqidəsində qalmaq azadlığı və istənilən vasitələrlə və dövlət sərhədlərindən asılı olmayaraq, informasiya və ideyalar axtarmaq, almaq və yaymaq azadlığı daxildir.
>
> Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (ÜİHB), Maddə 19,

## İFADƏ AZADLIĞI VƏ NİFRƏT NİTQİ

İfadə azadlığı insan hüquqlarının müdafiəsi və nifrət nitqinin aradan qaldırılması sahəsində istənilən fəaliyyətdə mühüm əhəmiyyət daşıyır. Pis rəftar və nifrətin bütün formaları xoşagəlməz olsa da və bir çoxu irqçi xarakter daşıya bilsə da, nifrətin ifadə edilməsinin məhdudlaşdırılması və ya aradan qaldırılması üçün istənilən cəhdlər hər iki tərəfin hüquqlarını nəzərə almalıdır. Bura "nifrət"i ifadə edənlərin hüquqları da daxildir.

Bu qəribə görünə bilər, lakin insan hüquqlarına hörmət demək olar ki, həmişə hüquqlara dair fərqli iddiaları tarazlaşdırma məsələsidir. Bununla belə pis rəftar edənləri, cinayətkarları və ya hətta öz sözləri ilə başqalarına zərər verənləri nə qədər sevməsək də, insan hüquqları ilə bağlı onlara da tətbiq edilən müdafiə vasitələri mövcuddur.

> Söz azadlığı və ya ifadə azadlığı hüququ iki əsas səbəbdən fundamental insan hüququ kimi qəbul edilir: birincisi, bu insanlar üçün əhəmiyyətlidir, ikincisi isə bu cəmiyyət üçün əhəmiyyətlidir. İfadə azadlığı insan ləyaqəti üçün zəruri olan "təməl ehtiyaclar"dan biridir, o həm də demokratik cəmiyyətdə aparıcı rol oynayır.
>
> *İfadə azadlığı olmadan demokratiya fəaliyyət göstərə bilməz; demokratiya olmadan insan hüquqları qorunmur.*

İfadə azadlığı "[demokratik cəmiyyətin] əsas təməllərindən birini, onun tərəqqisi və hər bir insanın inkişafı üçün təməl şərtlərdən birini təşkil edir". Avropa İnsan Hüquqları Məhkəməsi: Hendisayd Birləşmiş Krallığa qarşı Məhkəmə İşi

## ONLAYN NİFRƏT NİTQİ

Gündəlik danışıq dilində insanlar adətən "söz azadlığı" hüququna istinad edir. Əslində ifadə azadlığı yazılı mətn, vizual görüntülər, bədii əsər, videolar, musiqi və s. daxil olmaqla insanın bütün özünüifadə formalarını əhatə edir. Buna görə o onlayn fəaliyyət üçün daha aktualdır: internetdəki hər şey "ifadə" formasıdır və potensial olaraq bu hüququn əhatə dairəsindədir.

## İFADƏ AZADLIĞI NIYƏ ƏHƏMIYYƏTLIDIR?

### İNSAN OLMANIN TƏRKİB HİSSƏSİDİR!

İnsanların düşüncələri, fikirləri və inancları şəxsiyyətlərinin mühüm tərkib hissələrindən biridir. Kiminsə özünü "ifadə etməsinə" mane olmaq onun fərdiliyini azaldaraq şəxsi keyfiyyətlərinin bir

hissəsindən məhrum edir. İnsan hüquqları əhəmiyyətli dərəcədə şəxsi nəzarətin – öz həyatlarımız üzərində muxtariyyətin saxlanması ilə bağlıdır.

İnsanların ifadə azadlığının məhdudlaşdırılması onların cəmiyyətin həyatında iştirak etmək imkanlarını da məhdudlaşdırır. İştirakçılıq özü-özlüyündə həm sosial qarşılıqlı əlaqə forması, həm də bizim adımızdan qəbul edilə biləcək qərarlara təsir etmə üsulu kimi əsas insan hüquqlarından biridir. İştirakçılıq demokratiya və vətəndaşlıq üçün həlledici rol oynayır.

### DEMOKRATİYA ÜÇÜN VACİBDİR

Debat və müzakirə demokratik cəmiyyətin ayrılmaz tərkib hissəsidir. İdeyalar onları başqaları ilə bölüşmək, təkmilləşdirmək, birləşdirmək, digər şərhlərlə uyğunlaşdırmaq yolu ilə yaranır. Yaradıcılıq və “həqiqət” fikirlərin qarşılıqlı mübadiləsindən asılıdır, “sərbəst” fikir mübadiləsi isə cəmiyyətin zənginliyini artırır.

Debat və müzakirə həm də insanların daha effektiv qarşılıqlı fəaliyyətinə imkan yaratmaq üsuludur. Biz başqalarının düşüncələrini dinləyərək, ola bilsin ki, onlarla razılaşmayaraq, lakin hər iki tərəfə birgə yanaşı yaşamaq imkanı verən ümumi yol taparaq onları başa düşürük. Bütöv cəmiyyət üçün bu da mühüm əhəmiyyət daşıyır.

Beləliklə ifadə azadlığı həm cəmiyyətin inkişaf etməsinə və rövnəqlənməsinə imkan verdiyi, həm də fərdlərin inkişaf etməsinə və rövnəqlənməsinə imkan verdiyi üçün vacibdir. İfadə azadlığından məhrum etmək üçün bizə əsaslı səbəb lazım olduğu qəbul edilir.

## QANUN NƏ DEYİR

### İFADƏ AZADLIĞINA MƏHDUDİYYƏTLƏR



Diaqram beynəlxalq insan hüquqları hüququna əsasən məhdudlaşdırıla bilən və ya məhdudlaşdırılmalı olan geniş ifadə formalarını əks etdirir. Siz bu hüdudlarla və məhdudiyyətlərlə razılaşırsınızmı? Sizcə daha çox (və ya daha az) nitq məhdudlaşdırılmalıdırmı?

İfadə azadlığının qorunması üçün güclü səbəblər olmasına baxmayaraq insan hüquqları sahəsindəki müqavilələr həm də nitqin özünün başqa insanlara zərər vermə potensialına malik olan və hətta bütövlükdə cəmiyyəti təhdid edə biləcək bir "fəaliyyət" olduğunu qəbul edir. Bu səbəbdən ifadə azadlığı konkret şərtlər daxilində məhdudlaşdırıla biləcək və bəzən məhdudlaşdırılmalı olan hüquqlardan biridir. İnsanların daxili düşüncələrini ifadə etməsinə imkan verilməsi ilə onun digər insanların hüquqlarına xələl gətirməməsinin və ya cəmiyyətə daha böyük zərər vurmamasının təmin edilməsi arasında tarazlıq olmalıdır.

ÜİHB-nin 19-cu Maddəsi və Avropa İnsan Hüquqları Konvensiyasının (AİHK) 10-cu Maddəsi ifadə azadlığını müdafiə edir. 10-cu Maddə hökumətin ifadə azadlığına məhdudiyyət qoymaq və ya yolverilməz ifadə formalarını cəzalandırmaq istəyəcəyi təqdirdə yerinə yetirməli olduğu şərtləri açıqlayır. Bu şərtlərə riayət edilməlidir, əks halda istənilən məhdudiyyət hüquqların pozulması kimi qəbul ediləcəkdir. Bununla belə müxtəlif ölkələrin konkret problemlərə ən uyğun şəkildə reaksiya verə bilməsi məqsədilə şərtlərin geniş təfsiri üçün müəyyən rahatlıq mövcuddur.

## AVROPA İNSAN HÜQUQLARI KONVENSİYASI NƏ DEYİR?

Hər bir insan ifadə azadlığı hüququna malikdir. Bu hüquqa öz əqidəsində qalmaq azadlığı, dövlət orqanları tərəfindən müdaxilə olmadan və dövlət sərhədlərindən asılı olmayaraq informasiya və ideyaları almaq və yaymaq azadlığı daxildir ...

*AİHK. Maddə 10, paraqraf 1*

İlk növbədə, Konvensiya ifadə azadlığının vacib olduğunu və qorunmalı olduğunu təsbit edir.

İkincisi, Konvensiya ifadə azadlığına aşağıdakıları daxil edir:

- Öz əqidəsində qalmaq azadlığı
- "dövlət orqanları tərəfindən müdaxilə olmadan" informasiya almaq azadlığı
- "dövlət orqanları tərəfindən müdaxilə olmadan" informasiya yaymaq azadlığı

Üçüncüsü, konkret şərtlər daxilində "sosial zərurət" olduqda 10-cu Maddə ifadə azadlığına bəzi məhdudiyyətlər qoyulmasına icazə verir. Bununla belə hər bir məhdudiyyət konkret bir sosial ehtiyacı qarşılamaq üçün zəruri olmalı və bu ehtiyaca proporsional olmalı, başqa sözlə, o həddindən artıq olmamalıdır.

**Maddə 10**

*Feret Beçikaya qarşı*

Seçki kampaniyası ərzində "Belçikanın İslamlaşdırılmasına qarşı durun", "Saxta inteqrasiya siyasətini dayandırın" və "Qeyri-Avropalı işaxtaranları evlərinə göndərin" şüarlarını əks etdirən bir neçə növdə bukletlər paylanıldı. Bu səbəbdən Belçika Parlamentinin üzvü və Belçika Milli Cəbhəsi Partiyasının sədri irqi ayrı-seçkiliyə təhrik etməkdə ittiham edildi.

O ifadə azadlığı hüququnun pozulduğunu iddia edərək Avropa İnsan Hüquqları Məhkəməsinə

şikayət etdi. Məhkəmə ifadə azadlığının pozulmasını təsdiqləmədi; həmçinin Məhkəmə seçki kontekstində çatdırılan mesajın açıq şəkildə irqi nifrətə təhrik etdiyini müəyyən etdi.

Bu "proporsionallıq" tələbi senzuranın ümumi məhdudiyyət kimi insanların ifadə azadlığı hüququ ilə uzlaşmadığı deməkdir. İşlər özünəməxsus xüsusiyyətləri nəzərə alınaraq qiymətləndirilməlidir və mümkün hallarda ifadəyə icazə verilməlidir. Konkret hallardan təsirlənə biləcək insanları qorumaq üçün alternativ üsullar axtarılmalıdır.

### AİHK-İN 17-Cİ MADDƏSİ

İfadə azadlığı hüququndan başqa AİHK həmçinin "Konvensiyadakı hüquqlardan hər hansı birini məhv etmək məqsədi daşıyan" istənilən fəaliyyəti qadağan edən bir maddə ehtiva edir. Bura nifrət nitqinin kəskin halları (və onlayn nifrət nitqi) aid edilə bilər.

17-ci Maddə o deməkdir ki, müəyyən qruplara qarşı zorakı hərəkətlərə çağıran istənilən şəxs ifadə azadlığı hüququ ilə bağlı şikayət edə bilməyəcək. İnsanlara hücum etmək və ya onları öldürmək çağırışı edə bilmək hüququ mövcud deyil.

**Maddə 17**

*Norvud Birləşmiş Krallığa qarşı*

Birləşmiş Krallıqda Britaniya vətəndaşı dini qrupa qarşı düşmənçiliyə görə mühakimə edilmişdi. O öz pəncərəsində Britaniya Milli Partiyasının "İslamı Britaniyadan çıxarın – Britaniya Əhalisini Qoruyun" sözləri və qadağa işarəsi içərisində aypara və ulduz simvolları ilə Əkiz Qüllələrin alovlar içərisində olan fotoşəklini əks etdirən böyük plakatını nümayiş etdirmişdi. O ifadə azadlığı hüququnun pozulduğu iddiası ilə Avropa İnsan Hüquqları Məhkəməsinə şikayət etdi. Avropa Məhkəməsi onun tələbini qəbuledilməz elan etdi və bir dini qrupa qarşı qrupu bütövlükdə ciddi terror aktı ilə əlaqələndirən bu cür ümumi, hiddətli hücumun Konvensiyanın elan etdiyi və zəmanət verdiyi dəyərlərlə, xüsusilə dözümlülük, ictimai sülh və ayrı-seçkiliyə yol verilməməsi dəyərləri ilə uzlaşmadığını və şikayətçinin 10-cu Maddənin (ifadə azadlığı) müdafiəsini tələb edə bilməyəcəyini təsbit etdi.

*Qarodi Fransaya qarşı*

"Müasir İsrailin Təməl Mifləri" adlı kitabın müəllifi Fransada insanlığa qarşı cinayətlərin mövcudluğunun mübahisələndirilməsi, bir insan qrupunun - bu halda – yəhudi icmasının cəmiyyət içərisində böhtana uğradılması və irqi nifrətə təhrik edilməsi cinayətlərinə görə mühakimə edilmişdi. O ifadə azadlığı hüququnun pozulduğunu iddia edirdi. Avropa Məhkəməsi onun tələbini qəbuledilməz elan etdi və şikayətçinin bəyanatlarının məzmununun Holokostun inkar edilməsindən ibarət olduğuna qərar verdi və aydın şəkildə təsbit edilmiş tarixi hadisələrin gerçəkliyinin mübahisələndirilməsinin elmi və ya tarixi araşdırma təşkil etmədiyini; əsl məqsədin Milli Sosialist rejimin bərpa edilməsi və qurbanların özünü tarixin saxtalaşdırılmasında ittiham etmək olduğunu qeyd etdi. Bu cür hərəkətlər Avropa Konvensiyasının təbliğ etməyə çalışdığı fundamental dəyərlərlə açıq şəkildə uzlaşmadığından Məhkəmə 17-ci Maddəni (hüquqlardan sui-istifadənin qadağan edilməsi) tətbiq etdi və şikayətçinin 10-cu Maddəyə (ifadə azadlığı) istinad etmək haqqının olmadığına qərar verdi.

### 10-CU MADDƏNİ KİM İSTİFADƏ EDİR?

Hökumətlərin ifadənin zərərli olma ehtimalı olduğu halda ifadə azadlığını məhdudlaşdırmaq öhdəlikləri ola bilsə də, 10-cu Maddə üzrə Avropa Məhkəməsində irəli sürülən işlər adətən hökumətlərin fəaliyyətsizliyi ilə bağlı deyil. Əksinə onlar hökumətin çox güman ki, müəyyən qrup və ya fərdləri qorumaq məqsədilə ifadə azadlığını məhdudlaşdırmaq üçün tədbir gördüyü və bu məhdudiyyətin lazımından artıq hesab edildiyi problemli hallarla bağlıdır. İfadə azadlığı hüququ nifrət nitqi üçün vacibdir, çünki o, demokratik cəmiyyətdə dözümsüzlüyün müəyyən (mülayim) formalarına tolerant yanaşmağın niyə lazım gələ biləcəyini görməyimizə kömək edir və o, insanların nəyi deməsinə icazə verilməli olduğuna müəyyən məhdudiyyətlər müəyyənləşdirir.

Nifrət nitqinin qurbanları adətən öz hüquqları ilə bağlı narahatlıqlarını digər maddəyə, məsələn, ayrı-seçkilikdən məruz qalmamaq hüququ və ya şəxsi həyatın toxunulmazlığı hüququ maddələrinə uyğun olaraq ifadə etməli olurlar.

## İFADƏ AZADLIĞI VƏ İNTERNET

Virtual aləmdə insan hüquqlarına hörmətin təmin edilməsi inkişaf etməkdə olan sahədir və onlayn nifrət nitqi problemi bu mövzuya xüsusi aktuallıq qazandırır. Avropa Şurası insanların internetdəki hüquqlarını başa düşmələrinə kömək etmək məqsədilə İnternet İstifadəçiləri üçün İnsan Hüquqları üzrə Bələdçi hazırlamışdır. Bələdçi Avropa İnsan Hüquqları Konvensiyasına (AİHK) əsaslanır və insan hüquqlarının həm internetdə, həm də ondan kənarda tətbiq edildiyinə dair uğurlu bir xatırlatmadır. Bələdçi həmçinin ifadə azadlığı və informasiya hüququnun internetdə necə tətbiq olunduğunu ətraflı izah edir.

İnsan hüquqları hüququnun virtual aləmə necə tətbiq olunduğu barədə əlavə məlumatı 169 səhifəsində insan hüquqları bölməsində əldə edə bilərsiniz. İfadə azadlığına gəldikdə aşağıda bəzi əsas məqamlar qeyd edilir:

### İNTERNETİN "QEYRİ-COĞRAFİ" TƏBİƏTİ

Xidmət provayderlərinin və ən populyar sosial şəbəkə saytlarının və axtarış motorlarının bir çoxu ABŞ-da və ya məhkəmə təhqiqatı vasitələrinin məhdud olduğu digər ölkələrdə yerləşir. ABŞ-ın ifadə azadlığına baxışı Avropa insan hüquqları hüququnda əks edilənlərdən, xüsusilə, bu qanunlara Avropa Məhkəməsi tərəfindən verilən təfsirdən fərqlənir. ABŞ qanunlarına əsasən ifadə azadlığını məhdudlaşdırmaq hətta bu ifadə açıq şəkildə irqçidirsə və ya zorakılığa səsləyirsə belə çox daha çətindir. Bu o deməkdir ki, ABŞ serverlərində yaradılmış nifrət məzmunlu saytlar asanlıqla silinə bilməz və nifrət tərəfdarları heç də hər zaman cinayət məsuliyyətinə cəlb edilə bilməz.

### KİBERMƏKANA NƏZARƏTİN ÇƏTİNLİYİ

İnternet böyük hissəsi istifadəçilər tərəfindən idarə edilən və xaricdən nəzarət və idarə edilməyən geniş bir məkandır. Saytı silmək üçün çox güman ki, müəyyən bir qrupa qarşı zorakılığı müdafiə etdiyinə görə əsaslı səbəb olsa belə, saytın sahibləri və ya menecerləri üçün yeni bir yer açmaq və ilkin məzmunu yenidən yerləşdirmək nisbətən asandır.

## İNTERNETİN FAYDALARININ SAXLANILMASI EHTİYACI

İnsanların bir çoxu düşünür ki, İnternetin insanların istədikləri şəkildə ünsiyyət qurmaq üçün ondan asanlıqla istifadə edə bilməsi aspekti onun əsas güclü cəhətlərindən biridir. Daha ciddi nəzarət və senzura virtual aləmdə nifrət nitqinin azaldılmasında uğurlu ola bilər, lakin bu cür sistemin yaradılması insanların öyrəşdikləri İnternetdən istifadə şəkillərində əhəmiyyətli dərəcədə əks olunar. Bu onun sərbəst müzakirə və debat forumu kimi mühüm rolunu azaldar.

## MÜLKİYYƏT: ÖZƏL ŞİRKƏTLƏRİN ROLU

Saytların əksəriyyətinin fərdi şəxsləri və ya özəl şirkətlərin "mülkiyyəti"ndə olması faktı o deməkdir ki, nifrətə və ya zorakılığa çağırışlara necə cavab verməli olduqlarını tənzimləyən qanunlar olmadan onlar istədikləri məzmuna icazə verməkdə "sərbəst"dirlər. İnsan hüquqları hökumətlərin riayət etməli olduqları qanunlardır: özəl şirkətlər yalnız hökumətin zəruri hesab etdiyi qanunlara riayət etməlidirlər!

Şübhəsiz özəl şirkətlər "bazarın qanunlarına" da riayət edirlər və adətən onların xidmətlərindən istifadə edənlərin təzyiqləri böyük ehtimalla siyasətlərinin dəyişməsinə gətirib çıxarır.

Bu gənclərin onlayn nifrət ilə bağlı fikirlərini istifadə etdikləri saytlara cavabdeh şəxslərə çatdırmasını xüsusilə əhəmiyyətli edir. 2013-cü ildə müxtəlif QHT-lər tərəfindən Feysbukdan qadınlara qarşı zorakılığı qanuniləşdirən məzmunları silmək üçün həyata keçirilmiş kampaniya kimi uğurlu onlayn kampaniyalar yenə də internetdə özəl və ictimai məkan arasındakı sərhədlərin getdikcə daha çox qarışdığını işıqlandırır. Bundan əlavə bu cür kampaniyalar dövlətlərin yalnız özünütənzimləməyə əsaslanmasının qeyri-mümkün olduğunu vurğulayır. Onlayn məkan həm də ictimai məkandır.

# 5.3 İRQÇİLİK VƏ AYRI-SEÇKİLİK

"İrqi ayrı-seçkilik" termini məqsədi, yaxud nəticəsi ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və ya hər hansı digər sahəsində insanın hüquq və azadlıqlarının bərabər əsasda tanınmasını, istifadə olunmasını, yaxud həyata keçirilməsini ləğv etmək və ya pisləşdirmək olan, irq, dərinin rəngi, nəsil, milli, yaxud etnik mənşə əlamətlərinə əsaslanan hər hansı fərqləndirmə, istisna, məhdudiyyət, yaxud üstün tutulma deməkdir.

*Maddə1, BMT-in İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyası*

## NİFRƏT NİTQİ İLƏ ƏLAQƏSI

Nifrət nitqi demək olar ki, həmişə irqçi və ayrı-seçkilik edən baxışların nəticəsində yaranır. O həm demək olar ki həmişə özü-özlüyündə ayrı-seçkilik ehtiva edir.

Ayrı-seçkiliyi ən yaxşısı bərabərliyin "əksi" kimi nəzərdən keçirməkdir. İnsan hüquqları hüququna əsasən insanların hüquqları bərabərdir. Kiminsə hüququ sadəcə başqalarının ona münasibətinə və ya özünün özü haqqında düşüncəsinə görə pozulursa, bu ayrı-seçkilikdir. Kiməsə qarşı "əcnəbi", sağlamlıq imkanı məhdud, gey, qadın hesab edildiyinə görə və ya hər hansı digər səbəbdən internetdə və ya real həyatda pis rəftar ayrı-seçkilik hesab edilir.

Ayrı-seçkilik adətən təbiət etibarı ilə irqçidir. Nifrət nitqi kimisə "irq"inə, milli və ya etnik mənşəyinə görə hədəfə alırsa, bu həm ayrı-seçkilik, həm də irqçilik nümunəsidir.

## MÜNASİBƏTLƏR VƏ HƏRƏKƏTLƏR

Nifrət nitqini yalnız təzahür etdikdə deyil, həm də kökündə, başqa sözlə, münasibətlər səviyyəsində həll etmək lazımdır. Nifrət nitqi irqçi baxışlar və mənfi stereotiplərdən cücərir, həm də onların güclənməsinə kömək edir. Qarşısı alınmazsa, o stereotipləri möhkəmlədərək və gələcəkdə pis rəftarın, o cümlədən, bəzi hallarda fiziki zorakılığın baş verməə ehtimalını gücləndirərək cəmiyyətə dönə bilər. Müşahidə edilmişdir ki, soyqırım və etnik təmizləmə kimi insan hüquqlarının kütləvi şəkildə pozulması həmişə ya nifrət nitqindən sonra baş vermişdir, ya da nifrət nitqi ilə müşayiət edilmişdir.

## ANLAYIŞLAR

### STEREOTİPLƏR

Stereotiplər müəyyən qruplar haqqında ortaq inanclar və ya düşüncələrdir və mənfi və ya müsbət (və ya neytral) ola bilər. Faydalı ola bilsələr də, stereotiplər sərt şəkildə fərdlərə tətbiq edildikdə və müxtəlif rəftar və davranışlar üçün səbəb kimi istifadə edildikdə zərərverici ola bilərlər. Stereotiplər ümümiləşdirmələrdir və hər bir fərdi hal üçün həmişə doğru olmayacaqdır!

Stereotiplərə nümunə kimi "kişilər qadınlar güclüdür", "futbolçular digər insanlardan daha sürətli qaça bilir" və "bütün qu quşları ağdır" ifadələrini qeyd etmək olar.

## ÖNMÜHAKİMƏ

Önmühakimə stereotipin qiymətləndirmə və mühakimədən ibarət xüsusi tipidir. Neytral görünən stereotiplərin çoxu əslində özündə mühakimə elementi ehtiva edir. Məsələn, “qadınlar kompüter oyunlarında bacarıqlı deyillər” cümləsi bir faktın təsdiqi kimi görünür, əslində isə qadınların texniki bacarıqları haqqında hökm verir.

Stereotiplər və ya önmühakimə müsbət göründükdə belə, onlar demək olar ki, həmişə mənfi aspektə malikdir. “Avstraliyalılar dünyanın ən səxavətli insanlarıdır” bəyanatı Avstraliyalılar barədə müsbətdir, lakin o özündə digər ölkələrdəki insanların daha az səxavətli olduğu hökmünü ehtiva edir! “Afrikalılar idmanda uğurludurlar” ifadəsi “Afrikalılar yalnız idmanda uğurludurlar” kimi şərh edilə bilər. Milliyyətçilik və vətənpərvərlik təbiətləri etibarı ilə müsbət görünə bilər, lakin onlar asanlıqla irqçiliyə çevrilə bilər.




## İRQÇİLİK

Hər hansı bir stereotip və ya önmühakimə kiminsə dərisinin rənginə və ya milli və ya etnik

mənşəyinə əsaslanırsa, o, müsbət və ya mənfi olmasından asılı olmayaraq, çox güman ki, irqçidir. İrqçilik insanlara qarşı onların uydurulma “aşağı səviyyəsinə” görə ayrı-seçkilik edən və ya təhqiramiz davranış ehtiva edən ideologiyadır. Qeyd etmək vacibdir ki, “irq” hazırda bioloji deyil, sosial təsnifat vahidi hesab edilir. Bir “irq” üçün ümumi olub, digərində rast gəlinməyən heç bir fiziki və ya genotipik əlamətə rast gəlinməmişdir.

### AYRI-SEÇKİLİK

Müəyyən bir qrupa qarşı mənfi münasibətlər həmin qrupun öz hüquqlarından istifadə edə bilməməsi və ya daha az istifadə edə bilməsi ilə nəticələnirsə, bu ayrı-seçkilik təşkil edir. Ayrı-seçkilik özü insan hüquqlarının pozulmasıdır və irqçi baxışların, yaxud da xarakter etibarı ilə irqçi olmayan, lakin birbaşa qurbanları və bütövlükdə cəmiyyət üçün nəticələri baxımından eyni qədər mənfi olan digər önmühakimənin nəticəsi ola bilər.

### ANLAYIŞLARIN BİRLƏŞDİRİLMƏSİ

**Nifrət cinayəti** bir qrup və ya fərdə qarşı onların dərk edilmiş kimlikləri ilə bağlı qərəzə əsaslanan qanunazidd hərəkətdir.

↑

**Nifrət nitqi** hər hansı bir fərd və ya qrup haqqında adətən qərəzə əsaslanan, irqi nifrət və dözümsüzlüyü yayan, qızışdıran, təbliğ edən və ya ona bəraət qazandıran mənfi ifadədir. Müvafiq ölkənin qanunlarından və nitqin kontekstindən asılı olaraq konkret halları cinayət ola və ya olmaya bilər.

↑

**Ayrı-seçkilik** hər hansı bir qərəz, o cümlədən irqi xarakter daşımayan qərəz nəticəsində ədalətsiz rəftardır.

↑

**İrqçilik** “irq” və ya etnik mənşə və ya bunlarla bağlı hər hansı digər xüsusiyyət ideyasına əsaslanan və adətən kiməsə qarşı ədalətsiz rəftarla nəticələnən qərəzdir.

↑

**Qərəz** başqa insanlar və ya sosial qruplar haqqında adətən mənfi mühakimə ehtiva edən ümumiləşdirmədir.

↑

**Stereotiplər** başqa insan qrupları haqqında mühakimə ehtiva edə bilən və ya etməyən ümumiləşdirmədir.




## İNSAN HÜQUQLARI VƏ AYRI-SEÇKİLİK

Bəşər ailəsinin bütün üzvlərinə xas olan ləyaqət hissinin və onların bərabər və ayrılmaz hüquqlarının tanınması bütün dünyada azadlıq, ədalət və sülhün əsasını təşkil edir.

*Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin Preambulası*

Hər bir insan, irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidəsi, milli və ya sosial mənşəyindən, əmlak vəziyyəti, doğum və digər statusu kimi əlamətlərə görə heç bir fərq qoyulmadan ÜİHB-də bəyan edilən bütün hüquq və azadlıqlara malikdir ...

*Maddə 22, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi*

Ayrı-seçkilik irqçilik kimi insan hüquqlarının pozulmasıdır və insan hüquqları sahəsində başlıca sənədlərin demək olar ki, hamısı ilə qadağan olunur. Konkret qruplar ayrı-seçkilikdən həmçinin xüsusi milli və ya beynəlxalq qanunlarla qoruna bilərlər.

- Avropa İnsan Hüquqları Konvensiyasının (AİHK) 14-cü Maddəsi bütün digər hüquqlara münasibətdə ayrı-seçkiliyi qadağan edir - Avropa Şurasına üzv dövlətlər bunun üçün öhdəlik daşıyır. Bu həm də o deməkdir ki, dövlət orqanları, internet xidməti provayderləri və onlayn məzmun və xidmət provayderləri ilə qarşılıqlı fəaliyyət zamanı və ya digər istifadəçilər və ya istifadəçi qrupları ilə qarşılıqlı fəaliyyət zamanı heç kəs cins, irq, dərinin rəngi, dil, dini

mənsubiyyət və ya inanc, siyasi və ya digər əqidə, milli və ya sosial mənşə, milli azlıqla bağlılıq, əmlak vəziyyəti, doğum statusu və ya digər status, o cümlədən etnik mənsubiyyət, yaş və ya seksual oriyentasiya kimi hər hansı bir əlamətə görə ayrı-seçkiliyə məruz qala bilməz.

Sizin ölkənizdə ayrı-seçkiliyə qarşı hansı qanunlar mövcuddur? Hökumətiniz AİHK-ın 12 saylı Protokolunu imzalamışdırmı?

- Üzv dövlətlərin çoxu həmçinin AİHK-a (istəkdən asılı olaraq) Protokolda (12 saylı Protokol) əks edilmiş ayrı-seçkiliyə qarşı daha geniş qadağalar toplusunu imzalamışdır. O, Konvensiyada nəzərdə tutulmuş hüquqlarla bağlı olan qanunlara deyil, bütün qanunlara münasibətdə ayrı-seçkiliyi qadağan edir.
- Həm Avropa səviyyəsində, həm də BMT səviyyəsində insan hüquqları sahəsində həssaslıqları səbəbindən bəzi spesifik qruplara, məsələn qadınltəivara, uşaqlara, sağlamlıq imkanları məhdud olan insanlara və müxtəlif milli və etnik qrupların nümayəndələrinə qarşı ayrı-seçkiliyi nəzərdən keçirən başqa müqavilələr də mövcuddur.
- Bir çox ölkələrdə həmçinin xüsusi qrupları və ya hər hansı qrupu ayrı-seçkilikdən müdafiə edən spesifik milli qanunvericilik mövcuddur.

# 5.5 ŞƏXSİ HƏYAT VƏ TƏHLÜKƏSİZLİK

### NİFRƏT NİTQ İLƏ ƏLAQƏ

Nifrət nitqi yalnız insanlar hədəf qrupu və ya fərd haqqında nə isə bildiklərini düşündükləri zaman baş verir. Tamamilə anonim şəxslər "anonimlik" konkret "şəxsi" keyfiyyətlərlə eyniləşdirildiyi hallar istisna olmaqla nifrət nitqinin hədəfi olmurlar! Bir çox qrup üçün şəxsiyyətlərinin əsas aspektlərini açıqlamaq asanlıqla nifrət nitqinin hədəfinə çevrilmələrinə gətirib çıxara bilər. Bu çox vaxt qadınlar, sağlamlıq imkanı məhdud şəxslər, etnik azlıqlar və s. ilə bağlı baş verir. Kimsə bu cür hədəf qrupuna aiddirsə, özləri haqqında məlumatı internetdə açıqlamaları və onların real kimlikləri ilə əlaqə yaratmağa imkan vermələri hətta təhlükəsizlikləri üçün riskə çevrilə bilər.

Özəl və ya şəxsi məlumat kiberbullinq və onlayn nifrət nitqi hallarında xüsusi risk təşkil edə bilər. Bir çox insan özləri haqqında şəxsi məlumatları, o cümlədən şəxsi fotoşəkillərini, münasibətləri haqqında məlumatları və ya harada yaşadıqları və ya təhsil aldıqları barədə təfərrüatları internetdə yerləşdirir. Kiberzorbalığın hədəfinə çevrildikləri halda bu məlumatlardan çox zaman onlara zərər vermək üçün istifadə edilə bilər.

### VİRTUAL ALƏMDƏ MƏXFİLİK

İnternet ictimai məkandır. O küçə və ya ticarət mərkəzi ilə eyni baxımdan ictimaidir: başqa insanlar "ətrafımızdadırlar" və nə etdiyimizi görürlər. Lakin virtual aləmdə həyatın xüsusi cəhətləri mövcuddur ki, onlar məxfiliyi küçədəkindən daha əhəmiyyətli edir.

Küçədə biz adətən başqa insanların baxdığını bilirik və ya baxacaqları halda görə bilirik. İnternetdə başqa insanların bizə "baxması"nın nə demək olduğu barədə çox az məlumat var, özümüzü onların nəzərindən necə qoruya biləcəyimizə dair isə daha da az məlumat var. Bu məlumat çatışmazlığı insanları həm fiziki, həm də psixoloji cəhətdən təhdidlərə və istismara açıq buraxa bilər. Zorbalıq etmək, əzab vermək, hədələmək və ya istismar etmək istəyən insanlar bunu "qurbanları" haqqında məlumatları olduğu halda çox daha asan edə biləcəklər. Buna görə məxfilik məsələləri kiberbullinq üçün xüsusilə aktualdır.

### ƏSAS MESAJLAR

- Gənclər İnternetin insanların hətta siz ehtimal verməsəniz belə, nə etdiyinizi, necə göründüyünüzü görə biləcəyi ictimai məkan olduğunu unutmamalıdırlar.
- İnternetin özünəməxsus təhlükələri mövcuddur: cinayət törətmək və ya zərər vermək üçün şəxsi məlumatları istifadə edə biləcək insanlar var. Gənclər müəyyən ehtiyat tədbirləri həyata keçirərək bu imkanı məhdudlaşdırmağa çalışmalıdırlar.
- İnternetdə dərc olunan hər şey həmişəlik orada qalır! Gənclər bunun fərqində olmalı və bu gün açıqladıqları şəxsi məlumatların daha sonra peşmanlıq hissi keçirə biləcəkləri şeylər olub olmayacağı ehtimalını düşünməlidirlər.
- Gənclər başqalarının şəxsi həyatına və təhlükəsizliyinə hörmət etməyi unutmamalıdırlar. Bu yalnız özlərinin zərərli və ya təhqiredici davranışlar sərgiləməməli olduqları deyil, həmçinin başqa insanlarla bağlı onlara zərər vermək üçün istifadə edilə biləcək məlumatları paylaşmaqla bağlı diqqətli olmaları da deməkdir.

- Başqalarının bizim haqqımızda icazə vermədiyimiz məlumatları əldə etdiyi və ya internetdə haqqımızda şəxsi toxunulmazlığımızı zədələyən məlumatlar dərc olunduğu hallarda tətbiq edilən insan hüquqlarının müdafiəsi vasitələri mövcuddur.
- Bu cür hallarda, xüsusilə gənclərlə bağlı hallarda kömək edə biləcək bir çox təşkilat və dövlət qurumu mövcuddur. Gənclər internetdə pis rəftara və ya istismara məruz qaldıqları hallar barədə məlumat vermək imkanına malik olmalıdırlar.
- Anonimlik mövcud deyil. İnternetdə hər bir addım onu dərc edən şəxsə qədər izlənə bilər. Cəzasızlıq da mövcud deyil; onlayn nifrət nitqinin bir çox formaları və kiberbullinq qanunla cəzalandırılır.

## ŞƏXSİ HƏYAT, İNTERNETDƏ ŞƏXSİ HƏYAT VƏ İNSAN HÜQUQLARI

Hər kəs öz şəxsi və ailə həyatına, evinə və yazışma sirrinə hörmət hüququna malikdir; bu İnternetə də aiddir.

*Maddə 8, Bənd 1, Avropa İnsan Hüquqları Konvensiyası (AİHK)*

1. Heç bir uşaq onun şəxsi həyat, ailə həyatı, və ya yazışma sirri hüququnun həyata keçirilməsinə özbaşına və ya qanunsuz müdaxilə və ya şərəf və nüfuzuna qanunsuz qəsd obyekti ola bilməz.

2. Uşağın belə müdaxilədən və ya qəsddən qanunla müdafiə olunmaq hüququ vardır.

*Maddə 16, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyası*

### ŞƏXSİ HƏYAT HÜQUQU

Şəxsi həyat hüququ insan hüquqları sahəsində müxtəlif müqavilələrlə qorunur. İnsan hüquqları hüququna əsasən "şəxsi həyat" sadəcə məxfilikdən daha çox şeyi əhatə edir və şəxsi həyatın insanın şəxsiyyəti və ləyaqəti üçün ən əhəmiyyətli olan aspektlərini ehtiva edir. İnternetə gəldikdə, şəxsi həyat yazışmaları, o cümlədən iş yerində elektron poçtu, şəxsin özünə məxsus fotoşəkilləri və video çarxları əhatə edir. Həyatımızın bu sahələri dövlət orqanlarının müdaxiləsindən azad olmalıdır, dövlət isə öz növbəsində bizi digər insanların müdaxiləsindən qorumalıdır. Avropa İnsan Hüquqları Məhkəməsi 8-ci Maddəyə əsasən irəli sürülmüş iddiaların bi çoxunun qiymətləndirilməsi üçün insanın "fiziki və psixoloji toxunulmazlığı" ideyasından istifadə edir. Bu onlayn həyata və münasibətlərə də aiddir.

Hökumətlər insanların şəxsi seçimlərinə uyğun olaraq, başqaları tərəfindən nə "hamıya uyğun" qəlibə uyğunlaşmağa məcbur edilmədən, nə də başqalarından fərqli ehtiyacları olduğuna görə təqib edilmədən normal həyatlarına davam edə bilməsini təmin etməlidirlər. Mühüm olan dövlətin etdiyi və ya etmədiyi şeylərin fərdə təsiridir: özəl həyatımız şəxsi məsələdir!

Bununla belə, şəxsi həyat hüququ "mütləq" hüquq deyildir; başqa sözlə, dövlət orqanları bir insanın şəxsi həyatını cəmiyyətin və ya başqa insanların digər tələbləri ilə tarazlaşdırmalıdır. Çox nadir hallarda dövlətin ola bilsin ki, başqalarını müdafiə etmək üçün insanların şəxsi məlumatlarını əldə etməsinə haqq qazandırıla bilər; bəzən də o ya əlaqədar şəxs üçün risk kifayət qədər ciddi olmadığı, yaxud da digərləri üçün dəyəri çox yüksək olduğu üçün həmin şəxsin məxfiliyini qorumamaq qərarı ala bilər.

Düzgün tarazlığı əldə etmək hər zaman asan deyil. Kopland Birləşmiş Krallığa qarşı işində Avropa

İnsan Hüquqları Məhkəməsi ali təhsil kollecinin işçilərin bütün elektron məktublarını və telefon danışıqlarını izləməsinin 8-ci Maddənin pozulması olub olmadığı məsələsinə baxmışdı. Məhkəmə bunun məxfilik hüququnun pozulması olduğuna qərar vermişdi.

K.U. Finlandiyaya qarşı işində Məhkəmə yetkinlik yaşına çatmayan insanın şəxsi həyatının gizliliyinin və təhlükəsizliyinin qorunmasının öz adından saxta elan yerləşdirən insanın şəxsi həyatının gizliliyinin qorunmasından daha vacib olduğuna qərar verdi.

Ümumiyyətlə bütün insan hüquqları kimi insanların şəxsi həyatları və ləyaqətlərinə nə dövlət, nə də digər tərəflər tərəfindən müdaxilə edilməməsini təmin etmək vəzifəsi də dövlət orqanlarının üzərindədir. Bu real həyatda olduğu qədər onlayn həyata da aiddir.

## MƏXFİLİK VƏ İNSAN HÜQUQLARI

Məxfilik "şəxsi həyat"ın xüsusi aspektidir və o da AİHK-ın 8-ci Maddəsi ilə qorunur. Məxfilik fiziki, sosial və ya emosional həyatımızın açıq şəkildə bölüşmək istəmədiyimiz sahələri ilə bağlıdır. Açıq şəkildə icazə vermədiyimiz müddətdə və ya başqa insanların hüquqlarının qorunması üçün güclü səbəblər olanadək gizli saxlamaq istədiyimiz şeylər gizli saxlanılmalıdır! Heç kimin və heç bir təşkilatın şəxsi həyatımız haqqında bilmələrini istəmədiyimiz şeyləri bilmək hüququ yoxdur.

Bununla belə, bir çox internet forumları və ya vebsaytlardakı standart parametrlər başa düşmək hər zaman asan olmur və onlar hər zaman ilkin olaraq istifadəçilərin məxfiliyinin qorunması üçün nəzərdə tutulmur. Saxlanılmış (həm verilmiş, həm də davranışlar kimi müşahidə olunan) və işlənmiş məlumatlar da şəxsin məxfiliyinin təmin edilməsi üçün vacib öhdəlikdir. Şəxsi məlumatların doğrudan da məxfi saxlanılmasının təmin edilməsi diqqət və ehtiyat, eləcə də, potensial təhlükələr barədə anlayış tələb edir.

Bununla əlaqədar olaraq Avropa Şurası 2016-cı ildə Fərdi Məlumatların Avtomatlaşdırılmış qaydada İşlənməsi ilə əlaqədar Şəxslərin Qorunması haqqında Konvensiyanın modernləşdirilmiş versiyasını qəbul etdi (Konvensiya 108+). Avropa İttifaqı fərdlərə şəxsi məlumatları üzərində nəzarəti həyata keçirmək imkanı vermək, beynəlxalq biznes üçün tənzimləmə mühitini sadələşdirmək və şəxsi məlumatların işlənməsi üçün şərtləri vahid şəklə salmaq məqsədilə Məlumat Mühafizəsinin Ümumi Qaydalarını (GDPR) qəbul etdi. Məlumatların nəzarətçisinin, operatorunun və ya məlumatlarının subyektinin (fərd) Avropa İttifaqında və Avropa İqtisadi Zonasında yerləşdiyi hallarda GDPR qlobal səviyyədə əhəmiyyətli təsir nümayiş etdirdi. O insanların məlumatların işlənməsinə məlumatlı şəkildə razılıq verməli olduğunu və istənilən an razılıqlarını geri götürmək imkanına malik olmalı olduğunu təsbit etdi. Eyni zamanda məlumat və bu məlumatın necə işləndiyi və paylaşıldığı barədə informasiya əldə etmək, məlumatın ötürülməsi üçün sorğu vermək hüququnu və fərdi məlumatın monitorinq, satış və xidmətlə bağlı olmayan digər məqsədlərlə işlənməsinə etiraz etmək hüququnu, eləcə də, fərdlərin 30 gün ərzində müxtəlif səbəblərdən öz şəxsi məlumatlarının silinməsini tələb etmələrinə imkan verən silmə hüququnu yaratdı. Həm Avropa Şurasının 108+ Konvensiyası, həm də GDPR bütün məlumat nəzarətçilərinin məxfiliyi layihələndirmə və başlanğıc mərhələsindən tətbiq etməsini və standart yüksək səviyyə ilə başlamasını tələb edir. Məxfiliklə bağlı məsələlər internetdə məzmun paylaşılması baxımından da mühüm əhəmiyyət daşıya bilər. Gənclər özlərinin məxfiliyinin əhəmiyyətli olduğu qədər başqalarının məxfiliyinin də əhəmiyyətli olduğunu dərk etməlidirlər. Şəkillərin, videoların, mesajların və ya digər məlumatların paylaşılmasının asanlığı diqqətsizliyə gətirib çıxara bilər, bu isə bəzi hallarda başqalarına zərər vura bilər. Gənclər üçün əsas mesaj ondan ibarətdir ki, bilavasitə başqa birinə aid olan material yalnız ya o artıq ictimai

sahədədirsə (və zərərli və təhqiramiz deyilsə), ya da əlaqədar şəxs onun paylaşılmasına icazə vermişdirsə, paylaşıla bilər.

Onu da qeyd etmək lazımdır ki, onlayn ünsiyyətin əksər hallarında material heç zaman həqiqətən də məxfi olmur. Elektron poçt mesajları və internetdə yerləşdirilən hər şey demək olar ki, həmişə başqaları tərəfindən əldə edilə bilir. O həm də heç vaxt virtual aləmdən tam silinə bilmir.

Zəif şifrələr və ya qeyri-kafi təhlükəsizlik tədbirləri başqa insanların istifadəçi profillərinin "şəxsi" bölməsində və ya elektron poçt qutularında saxlanan məlumatları əldə etməsinə imkan verə bilir. Hətta güclü şifrə belə hakerlərin və ya dövlət təhlükəsizliyi qurumlarının müdaxiləsindən müdafiəyə tam zəmanət verə bilmir!

Gənclər bu cür risklərdən xəbərdar olmalı həyatları ilə bağlı başqalarının bilməsini istəmədikləri təfərrüatları qorumaq üçün diqqət və məsuliyyət nümayiş etdirməlidirlər. Onlar həmçinin adekvat tədbirlər gördükləri halda kimsə onların şəxsi məlumatlarını əldə edə bilsə, bu böyük ehtimalla qanunsuz olacaq və onların məxfilik hüququnun pozulması olacaqdır.

*Kiberbullinqla bağlı bölmə gənclərin şəxsi məlumatlarının ictimai sahəyə düşməməsi üçün həyata keçirə biləcəkləri bəzi ehtiyat tədbirlərinə həsr edilmişdir.*

# 5.6 DEMOKRATİYA VƏ İŞTİRAKÇILIQ

## NİFRƏT NİTQİ İLƏ ƏLAQƏ

### İFADƏ AZADLIĞI VƏ DEMOKRATİK DİALOQ

Demokratiya və nifrət nitqi arasındakı əlaqəyə iki fərqli perspektivdən baxıla bilər. Bir nöqte-yi-nəzərdən demokratiyanın nifrət nitqi ehtimalını artırdığı və ya ola bilsin ki, onunla mübarizəni çətinləşdirdiyi düşünülə bilər. Bunu görməyin ən yaxşı yolu sərt senzuralı qeyri-demokratik cəmiyyət təsəvvür etməkdir: nəzəriyyədə belə bir cəmiyyətdə nifrət nitqini, eləcə də onlayn nifrət nitqini aradan qaldırmaq mümkün ola bilər. Başqalarına qarşı təhqiredici hesab edilən hər şey qadağan edilə bilər, bütün qanunpozmalar isə sərt şəkildə cəzalandırıla bilər. Lakin ifadə azadlığı olmadığından bu cür cəmiyyətin bir çox çatışmazlığı olacaqdır.

İnsanların fikirlərini azad şəkildə ifadə edə bildiyi demokratik cəmiyyətdə çox güman ki, biz razı-laşmadığımız fikirləri dinləməli olacağıq. Bəziləri qıcıqlandıracaq, bəziləri sərt və ya kədərləndirici olacaq, bəziləri isə sərhədi keçəcək və həddindən artıq təhqiredici, hətta təhlükəli olacaqdır. Bir az nifrət nitqi fikirlərimizi azad şəkildə ifadə etməyimizin və onların nəzərə alınmasının qaçınılmaz nəticəsi ola bilər. Heç bir demokratiya mükəmməl deyildir!

### MARAQ VƏ İŞTİRAK

Bununla belə, demokratiya və ifadə azadlığının üstün cəhətlərindən biri onun həm də bizi nifrət nitqi problemini çox güman ki, daha effektiv şəkildə və şübhəsiz ki, başqa azadlıqları daha yaxşı qoruyacaq şəkildə həll etmək üçün alətlərlə təmin etməsidir. Beləliklə digər nöqteyi-nəzərdən demokratiya özü insan hüquqlarını qorumaqla eyni zamanda nifrət nitqi ilə mübarizə üçün ən perspektivli ümid verir.

İnsanların hamının dəyər verdiyi hüquq və azadlıqların qorunmasında fəal rol oynadıqları düzgün şəkildə fəaliyyət göstərən demokratiya mühitində cəmiyyətin nifrət nitqinə qarşı müdafiəsi ciddi senzura rejiminə nisbətən daha çox təkmil və potensial olaraq daha əhatəli ola bilər. Nifrət nitqinin "monitorinqi" və onun ən pis nümunələri ilə işləmək vəzifəsi müstəsna olaraq hökumətin vəzifəsi və ya internet "polis"inin vəzifəsi kimi qəbul edilmirsə və "monitorinq" öz davranışlarımızın, eləcə də, başqalarının davranışlarının monitorinqinə qədər uzanırsa, fərdlərin pis rəftardan qorunmasını təmin etməklə eyni zamanda ifadə azadlığı hüququnu qorumaq mümkün olacaqdır.

Nifrət nitqinə effektiv cavab demokratik cəmiyyətin faydalarının, problemlərinin və tələblərinin tam dərk edilməsindən, eləcə də bu cəmiyyəti formalaşdıran fərdlərin fəal iştirakından asılıdır. Demokratiyanın effektiv şəkildə fəaliyyət göstərməsi üçün zəruri olan bacarıqların çoxu həm də nifrət nitqi ilə mübarizə üçün lazım olan bacarıqlardır, müxtəlifliyin və demokratik müzakirələrin dəyərinin dərk edilməsi iştirakçıların dözümsüzlüyün və ya nifrətin konkret ifadələrinə cavab verməyə hazırlanmasına kömək edə bilər.

## DEMOKRATİYA, İŞTİRAKÇILIQ VƏ İNSAN HÜQUQLARI

(1) Hər bir insan öz ölkəsinin idarə edilməsində bilavasitə və yaxud azad şəkildə seçilən nümayəndələr vasitəsilə iştirak etmək hüququna malikdir.

(3) Xalqın iradəsi hökumətin hakimiyyətinin əsası olmalıdır...

*Maddə 21, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (ÜİHB)*

Razılığa gələn Yüksək Tərəflər müvafiq vaxt aralıqlarında qanunverici orqanın seçimində xalqın fikirlərini sərbəst şəkildə ifadə etməyi təmin edəcək şərtlərdə gizli səsvermə yolu ilə azad seçkilər keçirməyi üzərinə götürür.

*Maddə 3, Protokol 1, Avropa İnsan Hüquqları Konvensiyası (AİHK)*

İnsan hüquqları dünyanın bütün hökumətləri üçün bənzər öhdəliklər yaratsa da, bu hər ölkədə qanunların və idarəetmə şəklinin eyni olmalı olduğu demək deyil. İnsan hüquqları əsas insan hüquqlarının təmin edilməsinin fərqli sistemlərinin və fərqli yollarının müxtəlifliyinə imkan verir.

Lakin, UİHB-in 21-ci Maddəsi (və AİHK-ın 1 saylı Əlavə Protokolu) hər idarəetmə formasının məqbul olmadığını qeyd edir. Dövlətlər qanunları hazırlayan şəxslərin "xalqın iradəsi"nin nümayəndələri olmasını təmin etmək öhdəliyi daşıyırlar. Başqa sözlə, yalnız demokratik sistem insan hüquqlarına uyğundur.

Bunun səbəblərindən biri muxtariyyət və iştirakçılığın insan hüquqları üzrə fundamental dəyərlər kimi əhəmiyyəti ilə bağlıdır.

## DEMOKRATİYANIN VƏZİFƏLƏRİ

İdarəetmənin demokratik forması hakimiyyət mövqeyində olmayanlara riayət etməli olduqları qanunlar üzərində müəyyən qədər nəzarəti saxlamağa imkan verir. İnsan hüquqları əhəmiyyətli dərəcədə fəaliyyətlərimizdə şəxsi muxtariyyəti saxlaya bilmək, başqa sözlə, özbaşına müdaxiləyə məruz qalmamaq və ya təməl ehtiyaclarımıza zərər verən sistemdə yaşamağa məcbur olmamaq imkanı ilə bağlı olduğundan bunun insan hüquqları ilə əlaqəsini görmək asandır.

Bununla belə, çoxsaylı faydalarına rəğmən demokratiya müəyyən mənada alternativlərinə nəzərən daha idarəetmənin daha tələbkar formasıdır. O həm etməli olduqlarımız baxımından, həm də dözümlü yanaşmalı olduqlarımız və ya qərar və ya mövqelərlə razılaşmadığımız hallarda necə davranmalı olduğumuz baxımından tələblər irəli sürür. Bu digər fərdlərin davranışlarına olduğu qədər hakimiyyətdə olanların qərar və ya fəaliyyətlərinə də aiddir. Demokratiya şəraitində sistemin işləmə şəkli üçün biz hamımız müəyyən dərəcədə "məsuliyyət daşıyırıq".

Aşağıdakı siyahıda demokratiyanın effektiv şəkildə fəaliyyət göstərməsi üçün zəruri olan əsas bacarıq və ya anlayış sahələri sadalanır. Siyahıdakı hər maddə həm də nifrət nitqinin aradan qaldırılması üçün əhəmiyyətlidir.

### FƏAL İŞTIRAKÇILIQ

"Xalq" öz iradəsini ifadə etməzsə, hökumət xalqın iradəsini təmsil edə bilməz! Biz yalnız hər kəs öz istəklərini açıqlayarsa, təmsilçi hökumətə nail ola bilərik. Bu açıq şəkildə təkcə seçkilər zamanı səs vermək deyil; həm də bizim yeni təşəbbüslərə reaksiya verməli, işlər qeyri-qənaətbəxş olduqda parlamentin üzvlərini və ya digər səlahiyyətli şəxsləri xəbərdar etməli, dəyişikliklər təklif etməli, daha yaxşı müdafiə üçün lobbiçilik etməli, daha çox aşkarlıq tələb etməli olduğumuz və s. deməkdir.

Demokratiya üçün vətəndaşlar tərəfindən iştirakçılıq zəruridirsə, hökumət də vətəndaşların fikirlərinin eşidilə bilməsini təmin etmək öhdəliyi daşıyır. Bu səbəbdən ən azından ifadə formaları

digər təməl dəyərlərə xələl gətirmədiyi və ya qrupları və ya fərdləri təhdid etmədiyi müddətdə ifadə azadlığı təmin edilməlidir.

İştirakçılıq həm internetdə, həm də ondan kənarda həyata keçirilə bilər. İnternet insanların demokratik cəmiyyətlərin qurulmasında və möhkəmləndirilməsində fəal rol oynamaları üçün istifadə edəcəkləri əhəmiyyətli bir vasitəyə çevrilmişdir. İnsanlar hətta evlərini tərk etmədən siyasi debatlarda, qanun layihələrinin hazırlanmasında, petisiyaların imzalanmasında, siyasətçilərə nəzarətdə və onlayn kampaniyaların aparılmasında iştirak edə bilər.

Hər bir insan internetdə iştirak edərək tamaşaçıdan yaradıcıya qədər fərqli rollar oynaya bilər.

### MƏLUMATLI OLMAQ

Onların adından qəbul edilmiş qərarlara reaksiya və cavab verə bilmələri üçün insanlar həm də bu qərarlar, eləcə də səslərini eşitdirməyin mövcud yolları barədə məlumatlı olmalıdırlar. Bu da həm fərdlər, həm də hökumətlər üçün tələblər yaradır: hökumətlər məlumatın əlçatan olmasını təmin etməlidirlər, məhz buna görə informasiya almaq hüququ ifadə azadlığının mühüm hissəsini təşkil edir. Fərdlər öz növbəsində özlərinin məlumatlı olduqlarından əmin olmalı və səlahiyyətli şəxslərə ictimaiyyətə açıqlanmayan istənilən təfərrüatı açıqlamaları üçün təzyiq göstərməlidirlər.

Əhalinin məlumatlılığının həyati əhəmiyyət kəsb etdiyi sahələrdən biri insan hüquqları barədə məlumatlılıqdır. İnsan hüquqlarına riayət edilməsi nə “peşəkar” insan hüquqları fəallarına buraxıla biləcək, nə də hökumətlərin hörmət edəcəklərinə hər zaman etibar ediləsi bir şeydir.

### DÖZÜMLÜLÜK

Təmsilçi hökumət hər bir fərdin bütün arzu və tələblərinin qarşılandığı demək deyil! İnsan hüquqlarının hər bir fərdin təməl ehtiyaclarını qarşılanmasını təmin etdiyi güman olunur, lakin, şübhəsiz, təkcə başqa ehtiyaclarla bağlı deyil, həm də təməl ehtiyaclar toplusunun qarşılanmasının ən yaxşı yolu ilə bağlı çox fərqli fikirlər olacaqdır. Demokratik cəmiyyətdə fikir ayrılığı qaçınılmazdır.

Razılaşmadığımız qərarlara “dözməli” olduğumuz həddi müəyyənləşdirmək asan deyil. Mövzu insanların insan hüquqları olduqda “dözümlülük” arzuolunmazdır və cavabdehlərin məsuliyyətə cəlb edilməsi çox vacibdir. Lakin narazı olduğumuz, bununla belə, sonunda yaşamalı və dözməli olduğumuz çoxsaylı hallar və çoxsaylı ictimaiyyətə açıqlanmış fikirlər olacaqdır. Bu tarazlıq ifadə azadlığı bölməsində daha ətraflı araşdırılır.

## İNTERNET İDARƏÇİLİYİ

“Real” aləmdə mövcudluğumuz müxtəlif səviyyələrdə qaydalar və qanunlarla tənzimlənir. İş yerində və ya özəl şirkətlərə məxsus “məkanlar”da bir qaydalar toplusu olacaq; yerli və milli hökumətlər əlavə qanun və normalar tətbiq edəcək; BMT və ya Avropa Şurası kimi beynəlxalq və ya regional təşkilatlar isə hökumətlərin özünə tətbiq edilən qayda və prinsiplər yarada bilər.

İnsan fəaliyyətinin müxtəlif formaları onlayn mühitdə getdikcə daha çox baş verdiyindən bu fəaliyyəti tənzimləyən “qaydalar” barədə suallar verilməyə başlayır. Hər bir vebsaytın, eləcə də hostinq provayderlərinin öz qaydaları və ya davranış normaları mövcuddur; bunlar internetdən kənar özəl məkanları tənzimləyən qanunlarla eyni qüvvəyə malikdir. Bəzi hökumətlərdə onlayn fəaliyyətə tətbiq edilən qanunlar mövcuddur, eləcə də, bəzi beynəlxalq qanunlar, xüsusilə, insan

hüquqlarının müdafiəsi vasitələri ilə bağlı olan qanunlar internetə də tətbiq edilir. Bununla belə, internet istifadəçilərinin öz onlayn fəaliyyətləri zamanı müvafiq şəkildə qorunmasını təmin edəcək ümumi prinsiplərə və qaydalara ehtiyac ola biləcəyi fikri getdikcə daha çox təsdiqini tapır. Bu prinsiplərin nə olacağı və necə tətbiq ediləcəyi məsələləri "İnternet idarəçiliyi" bölməsində izah edilmişdir.

İnternet idarəçiliyi onlayn nifrət nitqi problemi üçün xüsusilə aktualdır, çünki bəzi ölkələr, xüsusilə, ABŞ ifadə azadlığı ilə bağlı çox güclü müdafiə vasitələrinə malikdir. Saytların çoxu ABŞ-da yerləşdiyindən onlayn nifrət nitqinin hətta ən zorakı və təhqiramiz nümunələrinə etiraz etmək çox çətin ola bilər.

### İNTERNET İDARƏÇİLİYİ SAHƏSİNDƏ AVROPA ŞURASININ FƏALİYYƏTİ

*İnternetin onun fəaliyyətinə "heç bir zərər vurulmadan" qorunması və saxlanması Avropa İnsan Hüquqları Konvensiyasının 10 və 11-ci Maddələrinin onlayn mühitdə həyata keçirilməsinin təmin edilməsi üçün həyati əhəmiyyətlidir. Eyni zamanda azadlıqla bərabər vətəndaşların internet vasitəsilə təklif olunan xidmətlərə məsuliyyətli yanaşa bilməsinə imkan verən müvafiq məlumatlılığının olması zərurəti yaranır. İnsanların internetə etibar etməsi üçün şəxsi məlumatların qorunması və internetdə məxfiliyə riayət edilməsi mütləq şərtdir...*

*Avropa Şurasının İnternet İdarəçiliyi Strategiyası*

Avropa Şurası internet idarəçiliyi məsələsini gündəmə gətirmişdir. 2007-ci ildə Nazirlər Komitəsi "insanların internet xidmətlərinin əlçatan və əlverişli, təhlükəsiz, etibarlı və davamlı olması ilə bağlı qanuni gözləntilərinin olduğu " fikrini bəyan edən Tövsiyə qəbul etdi (CM/Rec (2007)16In). 2012-ci ildə Avropa Şurasına üzv 47 ölkə "internetdə insan hüquqlarını, qanunun aliliyini və demokratiyanı qorumaq və təşviq etmək" üçün ilk İnternet İdarəçiliyi Strategiyasını qəbul etdilər. 2016-cı ildə internetdə demokratiya yaratmaq, internet istifadəçilərini müdafiə etmək və internetdə insan hüquqlarına hörmət edilməsini və onların qorunmasını təmin etmək məqsədilə internetlə bağlı dövlət siyasətinin insan mərkəzli olmasını təmin etmək üçün 2016-2019-cu illəri əhatə edən yeni İnternet İdarəçiliyi Strategiyası qəbul edildi. Strategiya, xüsusilə, internet istifadəçilərinin azadlığının, məxfiliyinin və təhlükəsizliyinin qorunmasına, eləcə də onların maraqlı tərəflər kimi imkanlarının artırılması və internet idarəçiliyi dialoquna cəlb edilməsinə yönəlmiş bir sıra başlıca fəaliyyət və tədbirlərlə seçilir.

Avropa Şurası həm internetdə, həm də ondan kənarda insan hüquqları və fundamental azadlıqlar ideyasını təbliğ edir. 2014-cü ildə Nazirlər Komitəsi İnternet İstifadəçiləri üçün İnsan Hüquqları Bələdçisi qəbul etdi. Bələdçi internetdə insan hüquq və azadlıqlarının necə həyata keçirilə biləcəyi barədə məlumat verir. Həmçinin, hüquqlar pozulduğu təqdirdə mümkün müdafiə vasitələri qeyd edilir. 2018-ci ildə təşkilat üzv dövlətlərin bütün sahələr üzrə qanunvericiliklərini, siyasət və tədbirlərini təftiş etmələri üçün təməl qaydalar təklif edən rəqəmsal mühitdə uşaq hüquqlarına hörmət edilməsi, onların qorunması və yerinə yetirilməsi üzrə Göstərişlər (Tövsiyə CM(2018)7) qəbul etdi. Göstərişlər müştərək layihənin nəticəsi idi və uşaq və gənclər üçün iştirak mexanizmlərinin təmin edilməsini tövsiyə edir.

### İSTİFADƏÇİLƏRİN ROLU

İnternetin fəaliyyətinin müəyyən edilməsində istifadəçilərin özlərinin rolu da çox əhəmiyyətlidir.

“Demokratik” internet üçün “onlayn vətəndaşlar” olan internet istifadəçiləri icmasının ünsiyyət normaları və qaydalarının yaradılmasında iştirak etməsi və internetin necə fəaliyyət göstərməli olduğuna təsir etməsi zəruridir. Bunun necə işləyə biləcəyinin nümunəsini QHT və vətəndaş hərəkatlarının Avropa Parlamentində əqli mülkiyyət hüquqlarını bərqərar edəcək beynəlxalq razılaşma olan ACTA-nın qəbul edilməsinin dayandırılmasında oynadığı rolda görmək mümkündür. Razılaşmaya bir çox vətəndaş azadlıqlarına və insan hüquqlarına təhdid təşkil etdiyi üçün qarşı çıxıldı.

#### GƏNCLƏR ÜÇÜN MESAJLAR

Gənclərin internetin fəaliyyətinə təsir edilməsində fəal rol oynamasını təmin etmək üçün aşağıdakı prinsiplər mühüm əhəmiyyət kəsb edir:

- İnternet istifadəçiləri istehlakçıdan daha artıqdır! Onlar nüfuza malikdir və internetin insan hüquqlarını qoruma şəklinin formalaşdırılmasına daha fəal rol oynamaqla bunu aktivləşdirə bilərlər: bu kampaniyalar vasitəsilə, eləcə də, gənclərin internet istifadəçiləri kimi internetdə bir-birinə qaşı davranışı yolu ilə həyata keçirilə bilər .
- İnternet istifadəçilərinin internetdə insan hüquqlarının qorunmasına ehtiyacı var. Bunun baş verməsini təmin etmək üçün hüquqlarını bilmələri və onların istənilən pozulma halına etiraz etmələri vacibdir.
- İnternet dinamik arxitekturası hələ də həll edilməmiş bir ərazidir. Bir tərəfdən o insan hüquqlarının pozulmasına imkan verə bilər. Bununla belə, digər tərəfdən o hüquq və azadlıqların həyata keçirilməsi üçün alət, icmaların təhlükəsizliyinin təmin edilməsi məqsədilə səfərbər edilməsi üçün vasitə ola bilər.
- Uşaq və gənclərin, eləcə də digər istifadəçilərin internetdən səmərəli istifadə üçün lazım olan anlayış və bacarıqların inkişaf etdirilməsinə kömək edəcək maarifləndirmə proqramları vasitəsilə dəstəklənməsi lazımdır.
- Uşaq və gənclər internetdən istifadə edərkən fiziki, əqli və mənəvi rifahlarına müdaxilədən xüsusi müdafiə vasitələri ilə qorunmalıdır.
- İnternetin formalaşdırılmasında mühüm rol oynayan güclü iqtisadi və siyasi qüvvələr olsa da, onu istifadəçiləri onlayn aləmi insan hüquqları prinsiplərinin, dəyərlərinin və təcrübəsinin tətbiq edildiyi ictimai məkana çevirmək hüquqlarını müdafiə etməlidirlər.
- Uşaq və gənclər demokratik vətəndaşlıqla bağlı təhsillərinin bir hissəsi kimi internetin necə və kimlər tərəfindən idarə edildiyini öyrənə bilməli və öyrənməlidirlər. Bu səbəbdən gənclərin internet idarəçiliyinə, ən azından həm də internetin bir hissəsi olan ictimai məkana təsir yolları da daxil olmaqla internet idarəçiliyinin şəffaflığı və hesabatlılığı vacibdir.

## 5.7 KAMPANİYALARIN APARILMASI STRATEGİYALARI

Avropa Şurasının onlayn nifrət nitqinə qarşı Kampaniyası kampaniyaların aparılması strategiyaları və fəaliyyətlərlə bağlı qabaqcıl təcrübə və öyrənmə nümunələri təqdim etdi. “Nifrət Nitqinə Yox” Kampaniyası bitsə də, nifrət nitqinə qarşı kampaniya və fəaliyyətin bitməməsi vacibdir. Sizin və dostlar qrupunuzun nifrət nitqi ilə mübarizə aparmaq və Kampaniyanın mirasını davam etdirmək üçün istifadə edə biləcəyi çoxsaylı yollar mövcuddur. Kampaniya çərçivəsində hazırlanmış resurslar Məcmuəsi ilə tanış olun: https://www.coe.int/en/web/no-hate-campaign/compendium-of-resources.

Onlardan bəziləri bu bölmədə sadalanmışdır.

Siyahı aşağıdakı kateqoriyalar üzrə bölünmüşdür:

1. Təhsil və məlumatlandırma
2. İnternetdə artıq mövcud olan nifrət nitqinin aradan qaldırılması
3. Başqalarının səfərbər edilməsi
4. Qurbanlar və ya ümumi hədəf qrupları ilə həmrəyliyin ifadə edilməsi
5. Uzun müddətli strategiyalar

Bu kateqoriyalar tez-tez üst-üstə düşür, belə olmayan hallarda başqa bölmədən maddələr əlavə etməklə fəaliyyəti gücləndirmək mümkündür.

*Məsələn:*

- Nifrət nitqinin alternativ hekayə təqdim etməklə birbaşa həll edilməsi həm də maarifləndirici təsir göstərəcəkdir. Alternativ hekayə və ya dialoq sosial media vasitəsilə dərc edildikdə isə ondan başqalarının səfərbər edilməsi üçün də istifadə edilə bilər.
- Başqalarının onlayn nifrət nitqi problemləri barədə məlumatlandırılması üçün nəzərdə tutulmuş məlumatlandırma fəaliyyəti həm də nifrət nitqinin qurbanları ilə həmrəyliyin güclü ifadəsidir. O siyasətçiləri problemlə məşğul olmağa çağıran petisiyalara imzalar əlavə etmək üçün istifadə edilə bilər.
- Vebsayt menecerinin nifrət nitqi halını bildirməsi və cavab reaksiyası barədə bloggerliyi başqalarını bənzər hallara qarşı həssas olmağa və öz şikayətlərini bildirməyə sövq edə bilər.

Aşağıdakı siyahı tam əhatəli deyil və yalnız mümkün ideyalar mənbəyi kimi istifadə edilməlidir. Sizin qrupunuz demək olar ki, həmişə başqa fikirlər tapa bilər!

Təkliflərin bəziləri bütün hallara uyğun olmaya bilər. Məsələn, şərh və ya dərc edilmiş yazı barədə xəbər verilməsi bəzən həddindən artıq ola bilər: üslublarını dəyişdirib dəyişdirməyəcəyini və ya şərhini geri alıb almayacağını dəqiqləşdirmək üçün orijinal yazının müəllifinə sual göndərmək daha asan ola bilər. Digər hallarda təhqiramiz yazı dərc edən insanla birbaşa ünsiyyət çox vaxt qeyri-münasib ola bilər. Ən münasib və ya effektiv addımı seçmək üçün hər zaman mühakimə yürüdülməlidir.

Təklifləri bu vəsaitdə təsvir edilmiş fəaliyyətlərə əlavə olaraq və dostlarınızı və ya qrupunuzu fəaliyyətdə iştirak etməyə sövq etmək üçün istifadə edə bilərsiniz.

- Qrupunuzu və ya dostlarınızı istənilən fəaliyyətin seçilməsi və planlaşdırılmasına cəlb etdiyinizdən əmin olun. Fokus və metodları özləri seçdikləri halda onlar iştirakda daha maraqlı olacaqlar!
- Onlara yaradıcı fəaliyyətlərin daha çox diqqət çəkəcəyi ehtimalını xatırladın: internetdə insanların diqqətini cəlb etmək kütlədən seçilmək cəhdinə bənzəyir!
- Onlara informasiyanın şəkillər, videolar və musiqi vasitəsilə, eləcə də yalnız sözlərdən istifadə etməklə yayıla biləcəyini xatırladın. Mühit mesaj qədər əhəmiyyətli ola bilər.
- İlham mənbəyi üçün resurslar Məcmusuna baxın (https://www.coe.int/en/web/no-hate-campaign/compendium-of-resources))!

## MÜMKÜN FƏALİYYƏTLƏRİN SİYAHISI

### TƏHSİL VƏ MƏLUMATLANDIRMA

- İnsanların nifrət nitqinin qurbanı olduqları və ya hadisələrin şahidi olduqları təqdirdə nə edə biləcəkləri barədə məlumatlılığı artırmaq üçün bloqlardan və sosial media platformalarından istifadə edin
- İnsan hüquqları dilindən istifadə edin: bizi həm internetdə, həm də ondan kənarda qoruyan insan hüquqları, eləcə də insan hüquqlarının onlayn nifrət nitqi ilə əlaqəsi barədə məlumatlılığı artırın
- Daha tez-tez nifrət nitqinin hədəfi olan qruplar üçün "miflər" siyahısı hazırlayın. Onu sosial media platformalarına yerləşdirin və ya internetdən kənarda yaymaq üçün bukletlər hazırlayın
- Ümumi hədəf qruplarının müsbət xüsusiyyətlərini işıqlandıran saytları və ya yazıları paylaşın.
- İnternetdə və ya ondan kənarda nifrət nitqinin qurbanı olmuş insanlar barədə hekayələr danışın. Bunu problem haqqında məlumatı yaymaq və nifrət nitqinin hədəfi olmuş insanlara qarşı empatiya hissinin yaranması üçün istifadə edin
- Öz vebsaytınızı və ya sosial media profilinizi yaradın. Onu ümumi nifrət nitqinin hədəfi olan qruplar haqqında düzgün seçilmiş alternativ informasiya təqdim etmək üçün istifadə edin
- İnternetdən kənar fəaliyyətlər, təlim sessiyaları və ya məlumatlandırma tədbirləri təşkil edin. Onlar aşağıdakıları əhatə edə bilər:
  - onlayn və internetdən kənar nifrət nitqi probleminin ümumi mahiyyəti
  - konkret hədəf qrupu ilə bağlı önmühakimələr
  - onlayn və internetdən kənar nifrət nitqi ilə mübarizə metodları
  - nifrət nitqinin təsiri
  - insanların öz davranışları, eləcə də başqalarının davranışları üçün məsuliyyət daşıması zərurəti
  - digər gənclər qrupları tərəfindən həyata keçirilən təşəbbüslər, o cümlədən, Nifrət Nitqinə Yox Hərəkatı
  - Başqa nə isə!

### İNTERNETDƏ ARTIQ MÖVCUD OLAN ÖNMÜHAKİMƏ VƏ YA NİFRƏT NİTQİNİN ARADAN QALDIRILMASI

- Daha tez-tez nifrət nitqinin hədəfi olan qruplar haqqında qeyri-adekvat və ya yalan məlumat təqdim edən Vikipediya məqalələrini ya digər ödənişsiz məzmun saytlarında düzəliş edin
- Yanlış, qərəzli və ya irqçi xarakterli məzmun ehtiva edən saytlara rəy yazın. Dözümsüzlük və ya irqçilik nümayiş etdirən istənilən yazıların müəlliflərinə sual və ya şikayət göndərin
- Təhqiredici üslubdan istifadə edən istifadəçilərlə ünsiyyətə girin: onlara davranışlarının başqa insanlara təsirini göstərməyə çalışın
- Başqalarını təhqiramiz davranış sərgilədikləri zaman "trollara" məhəl qoymamağa təşviq edin
- Vebsayt sahiblərini nifrət nitqi nümunələri barədə xəbərdar etmək üçün onlayn hesabat mexanizmlərindən və ya şikayət prosedurlarından istifadə edin

- Nifrət nitqi halları barədə milli hesabat sistemləri və ya müvafiq media şəbəkələri vasitəsilə məlumat verin
- Onlayn hesabat mexanizmləri vasitəsilə nifrət nitqi halları barədə moderatorlara məlumat verin
- Nifrət nitqi nümunələri barədə bu sahədə fəaliyyət göstərən təşkilatlara və institutlara məlumat verin – nifrət nitqi barədə sosial media platformalarında (https://www.coe.int/en/web/no-hate-campaign/reporting-on-social-media-platforms ) və milli məsul orqanlara (https://www.coe.int/en/web/no-hate-campaign/reporting-to-national-bodies) necə məlumat verə biləcəyinizi kampaniyanın vebsaytından öyrənin.
- Nifrət saytlarını boykot edin – və başqalarını da bunu etməyə çağırın. Ölkənizdə qeydiyyata alınmış nifrət saytları barədə məlumat toplayın. Bunu parlamentdəki nümayəndənizə göndərin.

### BAŞQALARININ SƏFƏRBƏR EDİLMƏSİ

- Başqalarını nifrət nitqini qınamağa və ya barəsində məlumat verməyə, qurbanlarla həmrəyliyini ifadə etməyə və ya digər fəaliyyətlərdə iştirak etməyə çağırın
- Abunəçilərinizi faydalı vebsaytlara və ya maraqlı kampaniya təşəbbüslərinə cəlb etmək üçün sosial mediadan istifadə edin
- Müəyyən saytlardan nifrət nitqinin silinməsi ilə bağlı uğurlu halları ictimailəşdirin
- Nifrət Nitqinə Yox Kampaniyası haqqında məlumatlılığı artırın. Sosial media profilinizlə əlaqələndirin və ya loqotipini imzanıza əlavə edin
- Ümumi hədəf qruplarının nümayəndələri ilə təlim və ya məlumatlandırma sessiyaları təşkil edin. Onlara Kampaniyaya qoşularaq özlərini və başqalarını necə müdafiə edə biləcəklərini göstərin
- Digər bölmələrdə həyata keçirə biləcəyiniz istənilən fəaliyyəti ictimailəşdirmək üçün onlayn və internetdən kənar fəaliyyətlərdən istifadə edin!

### QURBANLARIN VƏ YA ÜMUMİ HƏDƏF QRUPLARININ DƏSTƏKLƏNMƏSİ VƏ YA ONLARLA HƏMRƏYLİYİN İFADƏ EDİLMƏSİ

- İctimaiyyətə açıq şəkildə nifrət nitqinin hədəfinə çevrilmiş şəxslərə şəxsi mesajlar göndərin : həmrəyliyinizi ifadə edin və onlara nə edə biləcəklərini deyin
- Ümumi hədəf qrupları haqqında önmühakimə və ya yanlış fikirləri ortadan qaldırmağa kömək edin. Alternativ hekayə hazırlayın və onu bacardığınız hər yerdə dərc edin
- Gəncləri hüquqları və özlərini müdafiə etmək üçün istifadə edə biləcəkləri metodlar barədə məlumatlandırın
- Nifrət nitqinin hədəfi olan qruplarla həmrəylikdə ictimai aksiya təşkil edin
- Siyasətçilər, media və ya ictimai xadimlər tərəfindən irqçi və ya ayrı-seçkilik edən ifadələrin istənilən nümunəsini ictimailəşdirin. Onları hesab verməyə çağırın!
- Daha tez-tez nifrət nitqinin hədəfi olan qruplarla işləyin: onları Kampaniyada iştirak etməyə təşviq edin.

**UZUN MÜDDƏTLİ STRATEGİYALAR**

- Yerli səviyyədə və ya internetdə öz kampaniyanızı təşkil edin; kampaniya videosu, mahnısı və ya əyləncə fəaliyyəti yaradın və onu internetdə yerləşdirin
- Onlayn nifrət nitqinə qarşı və ya müəyyən bir vebsaytın onlayn nifrət nitqi ilə bağlı siyasətinə qarşı onlayn petisiya tərtib edin
- Problemlə məşğul olan veb əsaslı təşkilatlarla əlaqə yaradın: onlara nə etdiyinizi deyin və onların fəaliyyətinə necə qoşula biləcəyinizi öyrənin
- İrqçilik və ayrı-seçkiliklə mübarizə və ya digər bənzər problemlər sahəsində fəaliyyət göstərən yerli təşkilatlarla əlaqə yaradın. Onları onlayn nifrət nitqi problem haqqında xəbərdar edin və Kampaniyaya qoşulmağa təşviq edin
- Problemi ya müəyyən bir saytda, yaxud da konkret qruplara təsirini izləyin. Araşdırmanızın nəticəsini Nifrət Nitqini İzləmə təşkilatına, bu sahədə fəaliyyət göstərən QHT-lərə, siyasət-çilərə və ya digər nüfuzlu insanlara göndərin
- Hökumət rəsmilərini problemin həllinə çağırın: parlamentdəki nümayəndənizlə əlaqə saxlayın.

# 5.8 İNTERNET SAVADLILIĞI

*İnternet savadlılığı internetdə informasiya və ünsiyyət məzmununu əldə etmək, anlamaq, tənqid etmək və yaratmaq bacarığı[dır]*

*Sonya Livinqston, "İnternet Savadlılığı: Gənclərin Yeni Onlayn Fürsətlər barədə Danışıqları."*

## İNTERNET SAVADLILIĞI EHTİYACI

İnternet Avropada gənclərin bir çoxu üçün yəqin ki, əsas informasiya mənbəyidir. Bəzən o birbaşa istinad vasitəsi kimi istifadə edilir, başqa vaxt informasiya "sosiallaşma" və ya başqa fəaliyyətlərlə məşğul olarkən əldə edilir. Hər iki halda istifadəçilərin həm açıq məzmunu, həm də hər hansı gizli mesajı anlamaq, təhlil etmək, qiymətləndirmək və yoxlamaq qabiliyyətində olması vacibdir. Nifrət nitqi ilə qarşılaşmaya gəldikdə isə mövzu daha da aktual olur.

Gənclərə informasiya əldə edə və onu işləyə bilmələri üçün lazım olan bacarıqlar toplusu və bilik sahələri media savadlılığının və ya xüsusilə onlayn aləmə aid olduğu üçün internet savadlılığının aspektlərindən biridir.

Lakin internet savadlılığı informasiyanın yığılması və işlənməsi çərçivəsini aşır və xüsusilə, gənclərin onlayn nifrət nitqi probleminin həll olunmasına hazırlanmasında aktual olan bir sıra digər bacarıq və vasitələr mövcuddur. Bunların arasında internetin daha çox texniki aspektləri ilə bağlı olanlar, eləcə də, məzmunun dərc edilməsi və paylaşılması zamanı tələb olunanlar var.

Əsas məqamlar (*İnternet İstifadəçiləri üçün İnsan Hüquqları Bələdçisinə əsasən*)

- Uşaqlar və gənc istifadəçilər interneti təhlükəsiz şəraitdə və məxfilikləri müvafiq şəkildə nəzərə alınaraq istifadə edə bilməlidir.
- Uşaqlar və gənc istifadəçilər müəllimlər, pedaqoqlar və valideynlərindən təlim və məlumat almalıdırlar.
- Uşaqlar və gənc istifadəçilər qanunsuz məzmun və davranışların müxtəlif növləri haqqında yaşlarına və şəraitlərinə uyğun informasiya ilə təmin edilməlidir.

### EDƏRƏK ÖYRƏNMƏK

Ümumiyyətlə, internetdən istifadə edən hər kəs öz fəaliyyətləri zamanı onlayn fəaliyyət üçün lazım olan metod və qaydaları seçir: onlar öz yollarını tapa və ehtiyaclarının əksəriyyətini qarşılaya bilmələrinə kifayət edəcək qədər "internet savadlı" olurlar. Bununla belə, gənclər yalnız onlayn nifrət nitqi ilə nəticələnən "pis" cəhətləri və pis vərdişləri təkrarlamaqla kifayətlənmirsə və xüsusilə, müəyyən hallara etiraz etməyi öyrənməli olurlarsa, onlayn savadlılıq daha böyük səviyyədə əhəmiyyət daşımağa başlayır. Bu bölmədə təqdim edilən siyahıda tapşırığın öhdəsindən gəlmək üçün lazım olan ən uyğun bacarıqların və bilik sahələrinin bəziləri qeyd edilir.

## FƏRQLİ ROLLAR ÜÇÜN FƏRQLİ VASİTƏLƏR

Qeyd etmək lazımdır ki, nifrət nitqi ilə bağlı gənclər müxtəlif vaxtlarda fərqli rollar oynaya bilər. Hər bir rol fərqli bacarıqlar toplusu tələb edir və istənilən təhsil fəaliyyəti bunu nəzərdə saxlamağa çalışmalıdır.

### İZLƏYİCİLƏR / MÜŞAHİDƏÇİLƏR

Hər dəfə başqalarına müəyyən dərəcədə zərər verən məzmunlarla qarşıladığımızda dialoqun iştirakçısına çevrilirik. Biz ona etinasız qala bilərik, onu bölüşməklə daha çox yaya bilərik və ya ona qarşı çıxmaq qərarına gələ bilərik. Bu vəsaitdəki fəaliyyətlərin çoxu gəncləri passiv "görüb- heç nə etməmək" mövqeyindən problemlə istənilən uyğun üsulla məşğul olduqları mövqeyə gətirmək üçün nəzərdə tutulmuşdur. Bunun üçün mühakimə yürütmək və tənqidi analiz bacarıqları, eləcə də mümkün fəaliyyət formaları barədə məlumatlılığın olması tələb olunur.

### QURBANLAR

Ya birbaşa onlayn nifrət nitqinin hədəfi olmuş, yaxud da təhqiredici və ya irqçi ifadənin və ya kiberzorbalığın ümumi hədəf qruplarından birinə aid olan insanlar özlərini müdafiə etmələri və nifrət ifadələrinin öhdəsindən gəlmələri üçün strategiyalarla təmin edilməlidir. Onların həm də məsələn, cavabdehin məsuliyyətə cəlb edilməsi, pis rəftar barədə məlumat verilməsi, başqalarını mövqe almağa təşviq etmək və s. kimi problemi həll etmələrinə kömək edəcək bacarıq və biliklərə ehtiyacı var.

### "HEYTERLƏR" VƏ POTENSİAL HEYTERLƏR

Bu qrupa öz məzmunlarını yaratmaq və ya başqalarının məzmunlarını paylaşmaqla onlayn nifrət nitqini yayan və ya bunu etməyə meylli olan insanlar daxildir. Yadda saxlamalıyıq ki, nifrət nitqinin digərlərinə nəzərən "daha pis" olanları mövcud olduğu kimi insanların "heyter" kimi rolları da az yaxud çox zərərli ola bilər. Mülayim həddə irqçi olan məzmunu paylaşanlar da hərəkətləri qanunsuz olmasa və başqalarını zorakılığa təhrik etməsə belə, ümumi problemə töhfə verirlər. Bu yenə də zərərli ifadə zəncirində ilk addımdır.

İnsanların çoxu nifrət nitqinin yayılmasına sadəcə zərərli, təhqiredici və ya saxta hesab etmədikləri məzmunun paylaşılması ilə töhfə verir. Bundan yayınmaq üçün onlayn məzmunda önmühakimə və ya qeyri-obyektivliyi sezmək bacarığı və bu cür məzmunların yaradılması və ya onun başqaları ilə paylaşılmasına görə daha çox məsuliyyət tələb olunur.

### FAƏLLAR VƏ KAMPANİYA TƏŞVİQATÇILARI

Onlayn nifrət nitqinə qarşı Kampaniya bütün gəncləri və bütün internet istifadəçilərini potensial kampaniya təşviqatçısı olaraq görür! Məqsədin bir hissəsi nifrət nitqinin izləyicilərini reaksiya verməyə və bütün dünyada insanların nifrət nitqinə qarşı mübarizə hərəkatına qoşulmağa təşviq etməkdir. İnternetdə kampaniya təşviqatı müxtəlif mesaj və hekayələrin dərc edilməsi, təbliğ edilməsi, dəstəklənməsi və hazırlanması da daxil olmaqla müəyyən bacarıqlar toplusu tələb edir.

## İNTERNETİN ONLAYN NİFRƏT NİTQİ İLƏ MÜBARİZƏ ÜÇÜN İSTİFADƏ EDİLMƏSİ

Aşağıdakı siyahıda internet savadlılığının bu vəsaitdəki fəaliyyətlərə və ümumilikdə Kampaniyaya aid daha mühüm sahələrinin bəziləri sadalanır. Bu sahələrin daha dərindən başa düşülməsi gənclərin Kampaniyada daha səmərəli rol oynamasına kömək edəcəkdir. O həm də onların öz onlayn davranışlarını dəyişdirməsinə kömək edəcəkdir.

## ONLAYN NİFRƏT NİTQİNİN TANINMASI

Onlayn nifrət nitqinə qarşı mübarizədə ilk vəzifə onunla qarşılaşdığımızda onu tanıya bilməkdir. Bunun üçün nifrət nitqinin nədən ibarət olduğunu və mümkün təsiri necə qiymətləndirmək lazım olduğunu bilmək tələb olunur, lakin həm də təməl mesajların daha dərindən dərk edilməsi və yalnız gizli olduqları hallarda qeyri-obyektivlik və önmühakimənin aşkarlanması bacarığı tələb oluna bilər.




## TƏNQİDİ DÜŞÜNCƏ VƏ MƏLUMATIN İŞLƏNMƏSİ

İnternetdə çox böyük həcmdə məlumat tapmaq olar, gənclərin gördükləri hər şeyi dəyərli qəbul etməmələri üçün müvafiq bacarıqları olmalıdır. Bu xüsusilə, müəyyən qruplara qarşı önmühakimə bəsləyən bəzi yanlış məlumatlara və ya qeyri-adekvat mənbələrə əsaslanan informasiyaya aiddir. İstifadəçilər arqumentlərdə mümkün səhvləri müəyyən edə bilməli və ən azından, kiminsə incidilə biləcəyi hallarda faktları yoxlamağın və "digər tərəfi dinləməyin" əhəmiyyəti barədə məlumatlı olmalıdırlar.



**Faydalı məsləhətlər: arqumentlərin yoxlanılması**

- İrəli sürülmüş iddialar üçün mənbələr təqdim edilmişdi, yoxsa arqumentlər "sağlam düşüncə"yə əsaslanmışdır?
- Mənbələr mövzu üzrə səlahiyyətli qurumlar kimi qeyd edilir və tanınırmı?
- Arqumentlər qəti idi, yoxsa başqa mümkün nəticələr mövcuddur?
- Arqumentlər "faktlara" əsaslanırdı, yoxsa onlar emosiyalarla, ənənəvi inanclarla və ya mümkün nəticələrə istinad edirdi?
- "Faktlar" təqdim edilə və ya arqumentlər yoxlanıla bildimi?
- Fərdlər və ya qruplar haqqında ümumiləşdirmələr aparıldımı?
- Ümumiləşdirmələrdən hər hansı bii irqçi və ya ayrı-seçkilik edən idimi?
- Başqa perspektivlər mümkündürmü və onlar arqumenti saxtalaşdıra bilərmi?
- İddialar "hissi" arqumentlərdən, başqa sözlə, qarşı tərəfə nə dediklərinə görə deyil, kim olduqlarına görə hücum edən arqumentlərdən istifadə edirmi?
- Arqument təqdimatın tərzi ilə, məsələn, cəlbedici şəkillər və ya multimedia istifadə edilməklə görə daha inandırıcı olurmu?

**MƏLUMAT AXTARIŞI**

Başqa mənbələr axtarmaq və səmərəli axtarış etmək bacarığı "faktları yoxlamaq" və "digər tərəfi dinləmə"nin bir hissəsidir. İnsanların əksəriyyəti axtarış motorundan necə istifadə etməli olduğunu bilir, lakin axtarış motorlarının necə işlədiyi və axtarışların təkmilləşdirilməsi və fərqli nəticələrin əldə edilməsi üçün əlavə alətlərdən necə istifadə edilə biləcəyi barədə ümumi məlumatlılıq daha azdır.

**Axtarış üçün məsləhətlər**

- Yalnız birinə güvənmək əvəzinə, fərqli axtarış motorlarında istifadə etməyə çalışın.
- Axtarış etməzdən əvvəl çərəzləri bloklamağa və tarixçəni silməyə çalışın! Bir qayda olaraq, nəticələr fərqli olacaqdır, çünki bir çox axtarış motoru (istifadəçi haqqında "bildiklərinə" əsaslanaraq) istifadəçinin görmək istədiyini düşündüyü nəticələri göstərir.
- Bir məsələni araşdırarkən belə fərqli terminlərdən istifadə edərək bir neçə axtarış aparın.
- Məsələn, axtarışı bir vebsaytla məhdudlaşdıraraq, konkret terminləri ehtiva edən məzmunun nəticələrdə görünmədiyindən əmin olaraq və ya bütün terminlərin əhatə edilməsini təmin etmək üçün "və" operatorundan istifadə edərək daha mürəkkəb axtarışlar aparmağa çalışın. Bunu etmək üçün təlimatlar hər bir axtarış motoru tərəfindən təqdim edilir.
- Müvafiq məzmunu müəyyənləşdirmək üçün axtarış nəticəsindən istifadə etməzdən əvvəl vebsaytların nüfuzunu yoxlayın.
- "Gizli" vebsaytlardan xəbərdar olun. Bunlar axtarış motorları tərəfindən bir şey kimi qeydiyyata alınıb, əslində isə onunla əlaqəsiz məzmun ehtiva edən saytlardır. Adətən onların məqsədi istifadəçini yanlış yönləndirmək və "bilik" adlandırdıqları, əslində isə ideoloji baxımdan qərəzli informasiya təqdim etməkdir.

### NÜFUZUN YOXLANILMASI

İnsanlar demək olar ki, istədikləri hər şeyi internetdə yerləşdirə bilərlər. Məzmunun həcmi və internetin böyük hissəsinin tənzimlənməyən xarakterini nəzərə aldıqda fikri "fakt" kimi təqdim etmək və etiraz edilmədən saxta iddialar irəli sürmək də nisbətən asandır. Təsadüfi müşahidəçiyə nifrət nitqinin böyük hissəsi yaxşı əsaslandırılmış və düzgün arqumentləndirilmiş kimi görünə bilər. Gənclərin nifrət nitqi ehtimalı barədə xəbərdar edilməsində fakt və arqumentləri yoxlamaq üçün tənqidi düşüncə bacarıqlarının istifadəsindən əlavə saytın tipi və müəllifin nüfuzu barədə məlumatlılıq da faydalı ola bilər.

İrqçiliyi və ya ayrı-seçkiliyin başqa formalarını təbliğ etmək üçün mövcud olan minlərlə vebsayt vardır. Bu cür "nifrət saytları" adətən bir-biri ilə əlaqəlidir və irqçi iddialara dəstək üçün başqa nifrət saytlarının nüfuzundan istifadə edə bilirlər. Bu gün irqçi saytların çoxu daha mahirdir və hətta məsələn, irqçi bəyanatlar verərkən "milli dəyərləri təbliğ etdiklərini" iddia edərək irqçiliklərini gizlətməyə çalışa bilərlər. Bəzi təməl yoxlamalar vebsaytların etibarlı olub-olmadığını müəyyənləşdirməyə kömək edə bilər.

**Faydalı məsləhətlər: nüfuzun yoxlanılması**

- Sayta informasiya və ya fikir mənbəyi kimi hörmət edilirmi? Başqa saytlar ona istinad edirmi?
- Saytın sahibləri və müəllifləri dəqiq müəyyənləşdirilibmi? Niyə onlara etibar edilməlidir?
- Sayt nə etməyə çalışdığını deyir?
- Saytın yerləşmə yerinə, müəlliflərin kimliyinə və ya missiyası haqqında söylədiklərinə görə qərəzli olma ehtimalı varmı?
- Vebsaytda birdən artıq mövqe təqdim edilirmi?
- Nə qədər tezliklə yenilənir, yaxın zamana aid məzmun varmı?
- Bənzər məzmunu başqa (nüfuzlu) saytlarda tapa bilərsinizmi?
- Məsələn, ticari maraqlar və ya siyasi mənsubiyyətlə bağlı hər hansı maraqlar toqquşması varmı?
- Məzmun üçün verilmiş istinad və mənbələr vebsaytda yerləşdirilirmi?
- İrqçi və ya ayrı-seçkilik məzmunu ilə bağlı siyasəti mövcuddurmu?
- Bu cür məzmunla necə işləyir və şikayətlərə necə cavab verir?

### MƏZMUNUN HAZIRLANMASI VƏ PAYLAŞILMASI

Başqaları tərəfindən asan əldə edilə bilən onlayn məzmun yaratmaq imkanları "adi" istifadəçilər üçün bir çox yeni imkanlar açdı, lakin müəyyən məsuliyyətlər də yaradır. Nifrət nitqi baxımından məsuliyyətlər və internetdə məlumat yerləşdirilməsi zamanı diqqətli olmaq xüsusilə əhəmiyyətlidir: məhz burada insanlar bilərəkdən və ya bilməyərəkdən asanlıqla nifrətin yayılmasının iştirakçısına çevrilə bilərlər.

Təşviqat məqsədləri üçün materialın yerləşdirilməsi ilə bağlı digər vacib məqamlar var. Uğurlu təşviqat kampaniyasının geniş əhatə ehtimalı olan və asan anlaşılan güclü mesajlara ehtiyacı var. Gənclər xüsusilə, sosial media vasitəsilə çox sayda insanı əhatə etmək üçün fərqli texniki imkanlar haqqında məlumatlı olmalıdırlar və mesajlarını başqalarının onları inandırıcı qəbul edəcəyi və ötürmək istəyəcəyi şəkildə formalaşdırmalıdırlar. Multimediadan səmərəli istifadə ciddi mesajı daha populyar cəlbedici bir şeyə çevirmək üçün faydalı vasitə ola bilər.

**Məzmunun paylaşılması üçün faydalı məsləhətlər**

- Paylaşdığınız heç bir məzmunda heç bir ayrı-seçkilik, önmühakimə, irqçilik və ya nifrət nümunəsi olmadığından əmin olun.
- Yanlış məlumat yaymamağınız üçün məlumatın etibarlı olduğundan əmin olun.
- Başqa insanlar haqqında onların məxfiliyini və ya təhlükəsizliyini təhdid edə biləcək heç nə paylaşmayın. Əmin olmadığınız hər bir halda soruşun!
- Müəllif hüquqları ilə qoruna biləcək məlumatı təkrar paylaşarkən diqqətli olun.
- Material yerləşdirərkən istənilən vebsaytın qayda və şərtlərini yoxlayın. Sizin yerləşdirə biləcəyiniz məzmunun növü ilə bağlı məhdudiyyətlər mövcud ola bilər, eləcə də sizin məzmununuz üzərində və ya sizin şəxsi məlumatlarınızla bağlı hüquqları öz üzərilərinə götürə bilərlər.
- Başqalarının yerləşdirdiyiniz informasiyadan yanlış təsvir yaratmaq və ya başqalarına zərər vermək üçün yanlış istifadə edə bilib bilməyəcəyi barədə düşünün. Məzmununuzun ikimənalı olmamasını yoxlayın.
- İnternetdə yerləşdirilmiş məzmunun asanlıqla yanlış anlaşıla biləcəyini və düzgün ifadə edilməmişdirsə, cinayət təşkil edə biləcəyini unutmayın. Dərc etdiyiniz hər şeyi “başqasının gözü ilə” oxumağa çalışın.

### QAYDALARIN BAŞA DÜŞÜLMƏSİ

İnternet fəaliyyətinə tətbiq edilən siyasət və qanunların bəziləri barədə daha yaxşı məlumatlılıq istifadəçilərin öz davranışlarının tənzimlənməsində kömək edə bilər və onlayn nifrət nitqi ilə mübarizədə mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən internet idarəçiliyi prosesləri və onun internet istifadəçilərinə təsiri barədə məlumatlılıq və onlarda iştirak internet savadlılığının və ümumilikdə demokratik vətəndaşlıq üçün təhsilin bir hissəsidir. İnternetin müasir vətəndaşlıq və iştirak formalarının şəkillənməsində rolu idarəetmə məsələlərini yalnız bizneslərin və mütəxəssislərin əlinə buraxa bilməz.

### QANUNLARIN TƏBƏQƏLƏRİ



İnternetin böyük hissəsi özəl şirkətlərin “mülkiyyətindədir”. Hətta özəl bir bloq bir qayda olaraq özəl serverdə yerləşdirilir. Serverin sahibi olan şirkət bloqda dərc edilən şeylərin növünü məhdudlaşdırmaq qərarı verə və ya verməyə bilər!

Bir qayda olaraq, vebsaytın istifadəçilərinin riayət etməli olduğu qaydalar adətən “qaydalar və şərtlər” bölməsində qeyd edilir. Bir saytdakı şərtlər digərinə görə çox fərqli ola bilər. Lakin qayda və şərtlərdən əlavə internet istifadəçilərinə və vebsayt sahiblərinə tətbiq edilən hökumətlərin müəyyənləşdirdiyi qanunlar mövcud ola bilər. Buna nümunələrə məxfilik və təhlükəsizliklə bağlı qanunlar və ya kəskin nifrət nitqini əhatə edən qanunlar daxildir. Hökumətin insanların internetdə təhlükəsizliyinin qorunması üçün xüsusi qanunları mövcud olmasa belə o, adətən, bu nümunədə olduğu kimi insan hüquqları sahəsində beynəlxalq qanunvericiliklə əhatə olunur.

**Nümunə: Hökumətlər insanları həm internetdə, həm də ondan kənarda qorumalıdır**

*K.U. Finlandiyaya qarşı*

*1999-cu ilin mart ayında internetdə tanışlıq saytında müəllifinin 12 yaşlı oğlan uşağı olduğu iddia edilən elan dərc edildi. Elanda oğlanın veb səhifəsinə keçid var idi və öz yaşıdı olan və ya “ona yolunu göstərməsi üçün” daha böyük yaşlı oğlanla intim münasibət axtardığı deyilirdi. Uşağın elandan yalnız maraqlanan bir kişidən elektron məktub aldığı zaman xəbəri oldu. Xidmət provayderi konfidensiallığın pozulması olacağını iddia edərək elanı yerləşdirilməsi üçün cavabdeh şəxsi müəyyənləşdirməkdən imtina etdi. Finlandiya məhkəmələri xidmət provayderinin hüquqi olaraq məlumat açıqlamağa məcbur edilə bilməyəcəyinə qərar verdilər.*

*İş Avropa İnsan Hüquqları Məhkəməsinə çıxarıldı. Məhkəmə Finlandiya Dövlətinin uşaqları və həssas fərdləri qorumaq vəzifəsini yerinə yetirmədiyini söylədi. Elan uşağı pedofillər üçün hədəfə çevirmiş və o öz şəxsi və ailə həyatını qoruya bilməmişdir.*

*(Avropa Konvensiyasının 8-ci Maddəsi)*

Bu səbəbdən internetin böyük hissəsi alış-veriş mərkəzi və ya gecə klubuna bənzəyir! Cins geyinmək və ya səliqəsiz görünməyə qarşı qanun olmasa belə, yenə də qaydalar cinsi qadağan edirsə, kimsə gecə klubunun qapısından qaytarıla bilər. Eyni şəkildə vebsaytlar internetdə öz “özəl məkan”ları üçün öz qaydalarını yarada bilərlər. Lakin onların qaydaları ümumilikdə ölkənin qanunlarına və beynəlxalq hüquqa da uyğun olmalıdır. Universal və bölünməz olan insan hüquqları və müvafiq standartlar internet istifadəçilərinə hər hansı bir özəl sektor subyekti tərəfindən qoyulan ümumi qaydalar və şərtlərdən üstündür.

**Bu istifadəçilər üçün nə ifadə edir**

Gənclər xüsusilə onlayn nifrət nitqi ilə bağlı olduğundan istifadə etdikləri vebsaytlara tətbiq edilən qanun və siyasətlərdən xəbərdar olmalıdır. Adətən nifrət nitqinə saytın öz prinsiplərindən və şikayətlərin verilməsi prosedurlarından istifadə etməklə etiraz edilə bilər. Bunlar yetərli olmayan hallarda kampaniya təşviqatçıları bəzən siyasətlərin özünə meydan oxuya bilər!

## TƏHQİREDİCİ DAVRANIŞ BARƏDƏ MƏLUMAT VERİLMƏSİ




## REAKSİYA VƏ KAMPANİYA TƏŞVİQATI

Nifrət nitqi halı ilə qarşılaşdığımızda onun haqqında məlumat vermə yeganə reaksiya yolu deyil. Gənclərin problemə digər yanaşma yollarından xəbərdar olmaları və konkret hallarda onlardan hansının daha uyğun olacağını qiymətləndirə bilmələri vacibdir.

Aşağıdakı ilk diaqram fərdi nifrət ifadələrinə mümkün cavab addımlarından bəzilərini əks etdirir. Kampaniyaların aparılması Strategiyaları bölməsində problemə ümumilikdə yanaşmanın müxtəlif yollarına aid əlavə nümunələr verilmişdir.

Konkret cavab addımı və ya strategiya seçilərkən ən uyğun cavab tədbiri adətən müvafiq halın ciddiliyindən asılı olacaqdır. Ayrı-seçkilik və ya önmühakimənin "mülayim" nümunəsini həll etmək üçün ən yaxşısı adətən bilavasitə müəllifə yanaşmaq və potensial zərəri göstərməkdir; daha çox nifrət nitqinə qarşı kampaniya təşviqatçılarının istifadə etdiyi saytda daimi "trol"a bəzən tamamilə məhəl qoyulmamalıdır; spektrin digər ucunda isə müəyyən qruplara qarşı zorakılığa təhrik edən nifrət saytını polisə şikayət etmək lazım gələ bilər.

Ən uyğun cavab addımının seçimində ən mühüm mülahizələrdən biri konkret ifadənin və ya ümumilikdə saytın ehtimal edilən təsiridir. Təsirin qiymətləndirilməsi zamanı araşdırılmalı olan bəzi suallar aşağıdakı ikinci diaqramda təqdim edilmişdir.







### TƏHLÜKƏSİZLİKDƏ QALMAQ

Gənclər internetdəki potensial təhlükələrdən xəbərdar olmalı və öz məxfiliklərini təhlükə altında qoymamaq üçün həyata keçirə biləcəkləri ehtiyat tədbirləri barədə məlumatlı olmalıdırlar. Həmçinin kiberzorbalığın hədəfi olma ehtimallarının daha az olmasını təmin etməyə kömək edəcək müəyyən tədbirlər də mövcuddur. Onlardan bəziləri Kiberbullinq bölməsində təsvir edilmişdir.

# 5.9 KİBERBULLİNQ

*"... kiberbullinq yazılı, şifahi və ya fiziki hərəkət və ya elektron ünsiyyətin aşağıdakı məqsədləri daşıdığı, o cümlədən, digərləri ilə yanaşı, motivinin tələbənin faktiki və ya fərz edilən irqi mənsubiyyəti, dərisinin rəngi, dini, milli mənşəyi, soyu və ya etnik mənşəyi, seksual oriyentasiyası, fiziki, əqli, emosional və ya öyrənmə imkanlarının məhdudluğu, cinsiyyəti, cinsi kimliyi və onu ifadə şəkli və ya digər fərqləndirici şəxsi keyfiyyətlərinin olduğu göstərilən və ya yuxarıda təsvir edilmiş istənilən şəxslə əlaqəyə əsaslanan istənilən elektron ünsiyyətdir:*

*(i) Tələbəyə fiziki zərər vermək və ya onun mülkiyyətinə ziyan vurmaq; və ya*

*(ii) Tələbənin təhsil imkanlarına əhəmiyyətli dərəcədə müdaxilə etmək; və ya*

*(iii) Qorxuducu və təhdidedici təhsil mühiti yaradacaq dərəcədə sərt, israrlı və ya nüfuzedici olmaq; və ya*

*(iv) Məktəbin nizamlı işini əhəmiyyətli dərəcədə pozmaq."*

*Kiberzorbalığa cavab, Fəaliyyət üçün Alətlər Dəsti (İftiraya Qarşı Liqa)*

Zorbalıq bir şəxs və ya insanlar qrupunun başqa bir fərdə qarşı qəsdən düşməncəsinə və ya təhqiredici şəkildə davrandığı zaman baş verir. Adətən, müəyyən müddət ərzində baş verir: qurban davamlı olaraq hədəfdədir.

Kiberbullinqda qurbanın hədəfə alınması onlayn və ya elektron formada baş verir. Kiberbullinq elektron məktublardan, sürətli mesajlardan, söhbət otaqlarından, peycerlərdən, mobil telefonlardan və ya informasiya texnologiyalarının digər formalarından istifadə edir. Insana təsiri zorbalığın internetdən kənarda baş verən hallarından heç də az ciddi olmaya bilər: kiberbullinq hələ də zorbalıq formasıdır.

İnternet internetdən kənar ünsiyyətə nəzərən daha çox anonimliyə imkan verdiyindən kiberzorbalığı aradan qaldırmaq xüsusilə çətin ola bilər. O həm də xuliqan fiziki olaraq iştirak etmədikdə belə baş verə bildiyindən daha müdaxiləçi və ya israrlı şəkildə müdaxiləçi ola bilər. Xuliqan "qurbanı" ilə necə əlaqə yaradacağını bildikdə zorbalıq daimi və ondan yayınmaq çətin ola bilər. Bu səbəbdən gənclərin şəxsi məlumatları açıqlamağın təhlükələri barədə məlumatlı olması vacibdir.

## KİBERZORBALIĞIN HƏDDİ

Kiberbullinq gənclər arasında ciddi və daimi problemdir. O davamlı zərərə səbəb ola və intihara gətirib çıxara bilər. Bir sıra müxtəlif tədqiqat bir çox gəncin problemin təsirinə məruz qaldığını göstərmişdir:

- 2014-cü il Aİ Şəbəkə Uşaqları Mobilə Keçir (Net Children Go Mobile) Hesabatı 9-16 yaşlı 3500 uşağın 12 %-in kiberzorbalığa məruz qaldığını qeyd edir.
- 2011-ci il Aİ Uşaqlar İnternetdə (Kids Online) hesabatı Avropa üzrə 9-16 yaşlı 25142 uşağın 6%-inin onlayn zorbalığa məruz qaldığını, 3 %-inin isə özünün onlayn zorbalıq həyata keçirdiyini üzə çıxardı.
- Kiberbullinq qurbanlarının qurban olmayanlara nəzərən onlayn zorbalıq etmə ehtimalı daha çoxdur.

- ABŞ Kiberzorbalığın Tədqiqatı Mərkəzi tərəfindən 12-17 yaşlılar arasında keçirilmiş 2019-cu il Kiberbullinq Məlumatları sorğusu tələbələrin 37%-in ömürləri boyunca bir dəfə də olsa qurban olduqlarını, 15%-inin isə başqalarına qarşı kiberbullinq etdiyini qəbul etdiklərini göstərir. Eynilə, kiberzorbalığın ən çox rast gəlinən formaları: kobud və təhqiredici şərhlər və şayiələr idi.

Ənənəvi zorbalıq və kiberbullinq bir-biri ilə sıx bağlıdır: məktəbdə zorbalığa məruz qalanlar internetdə də zorbalığa məruz qalır, məktəbdə zorbalıq edənlər isə, internetdə də zorbalıq edir.

### KİBERBULLİNQ VƏ İNSAN HÜQUQLARI

Həm zorbalıq, həm də kiberbullinq pis rəftar formalarıdır və halların bir çoxu müxtəlif insan hüquqlarının müdafiəsi vasitələrinin əhatə dairəsinə düşür. Daha "mülayim" hallarda şəxsi həyat hüququ ilə əlaqəlidir, daha tez-tez isə onunla bağlıdır. Daha kəskin hallarda, qeyri-insanı və alçaldıcı rəftara məruz qalmamaq hüququ ilə, hətta yaşamaq hüququ ilə bağlı ola bilər.

Qeyri-insanı və alçaldıcı rəftara cinsi zorakılıq, psixoloji zorakılıq və istismar halları aid edilə bilər. Yaşamaq hüququna gəldikdə, o həm internetdən kənar zorbalığın qurbanın həyatı üçün fiziki təhlükə yaratdığı, həm də qurbanın əzabın şiddətinə dözməyərək intiharı düşündüyü hallara aid edilə bilər. Kimisə bu cür riskdən qoruya bilməmək onun yaşamaq hüququnun pozulmasını təşkil edə bilər.

### KİBERBULLİNQ VƏ NİFRƏT NİTQİ ARASINDA ƏLAQƏ NƏDİR?

Kiberbullinq bir fərdə qarşı yönəldilmiş güc əlaqəsidir, nifrət nitqi isə adətən bütöv bir insan qrupuna qarşı düşmənçiliyə və zorakılığa çağırır. Bununla belə, qurbanları üçün onların hər ikisi zorakılıq və təhqir formasıdır. Nifrət nitqi və kiberbullinq eyni onlayn kanallardan istifadə edir. Onlar adətən ya mənşələri, məhdud imkanları, etnik mənşələri, ya da başqa səbəblərdən fərqli hesab edilən insanlara qarşı baş verir. Onlar hər ikisi təhqiredici və təcavüzkar ünsiyyətdən istifadə edir. Bir çox hallarda kiberbullinq və nifrət nitqi birləşir və bu fərdlər və qruplar üçün çox zərərlidir, məsələn, qurbanın cinsi kimliyindən, seksual oriyentasiyasından və ya etnik mənşəyindən yararlanan zorbalıq kimi.

Eyni zamanda, gənclərin nifrət nitqi ilə mübarizədə müqavimətliliyini artırmaq onların kiberbullinqla mübarizədə müqavimətinə dəstək ola bilər və əksinə. İnternet savadlılığı gənclərin internetdəki problemləri başa düşməsinə və özlərini qorumasına və ya pis rəftar baş verdikdə ona reaksiya verməsinə imkan yaradan dəstəkdir.

### ÖZÜNÜ TƏHLÜKƏSİZLİKDƏ SAXLAMAQ

Gənclər növbəti bölmədə sadalanan davranış formalarının yolverilməz və çox güman ki, qanunsuz olduğu barədə məlumatlı olmalıdırlar. Hətta tək bir hal uzunmüddətli kampaniyanın başlanğıcı və ya pis rəftarın daha şiddətli formalarının xəbərçisi ola bilər. Gənclər xəbərdarlıq işarələrini tanımağı, fərdi hallara cavab vermək üçün ən uyğun yol haqqında mühakimə yürütməyi bacarmalı və təhlükə real göründüyü hallarda həyata keçirə biləcəkləri ehtiyat tədbirlərini bilməlidirlər. Onlar həmçinin dəstək və məsləhət təklif edə biləcək və ya daha "rəsmi" addımların, o cümlədən hüquqi addımların atılması lazım olarsa, kömək edəcək təşkilatların olduğu barədə məlumatlı olmalıdırlar. Nifrət Nitqinə Yox Hərəkatının milli kampaniyalarından bəziləri polis orqanlarına

tabe olan yardım xətləri barədə informasiya verir. Məsələn, InSafe şəbəkəsi gənclərin məlumat verməsi və ya kömək istəyə bilməsi üçün məlumatverməyə dair məsləhətlər və yardım xətlərini təqdim edir: www.saferinternet.org. InSafe Nifrət Nitqinə Yox Hərəkatının Avropa tərəfdaşı Euroschoolnet şəbəkəsinin layihəsidir.

## ONLAYN PİS RƏFTARIN NÜMUNƏLƏRİ

- Təhdidlər, təxribatçı təhqirlər və ya irqi və ya etnik xarakterli böhtanlar göndərmək
- Geylərin vurulması, cinsi əsaslı böhtanlar və ayrı-seçkiliyin digər formaları
- Qurbanın kompüterini virusla yoluxdurmaq cəhdləri
- Elektron poçt qutusunu təhqiramiz mesajlarla doldurmaq
- Şəxs haqqında ona və ya nüfuzuna zərər vurmaq məqsədi ilə yanlış məlumatlar dərc etmək və ya yaymaq.
- Bir kəsin təklənməsi və başqalarının ona hücum etməyə və ya onunla əylənməyə çağırılması
- Başqa bir şəxsin onlar haqqında inanmadıqları və ya doğru olmayan şeylər dediyi kimi görünməsi üçün özünü fərqli bir adam kimi təqdim etmək.
- Bir insanın icazəsi olmadan onun, xüsusilə, utandırıcı vəziyyətdə şəklini paylaşmaq.
- Yazanın icazəsi olmadan elektron məktubları paylaşmaq
- Bir insanı icmadan çıxarmaq üçün başqalarına təzyiq göstərmək (internetdə və ya ondan kənar)
- Bir insana dəfələrlə pis, nalayiq və təhqiredici mesajlar göndərmək .

## ONLAYN TƏHLÜKƏSİZLİK: GƏNCLƏR ÜÇÜN YOXLAMA SIYAHISI

**Pis rəftar imkanlarının məhdudlaşdırılması**

- Sosial şəbəkə saytlarında məxfilik parametrlərinizi mütəmadi olaraq yoxlayın və yeniləyin.
- Tanımadığınız və etibar etmədiyiniz təqdirdə heç kimə mobil telefon nömrəsi, elektron poçt ünvanı və ya ev ünvanı kimi şəxsi məlumatlarınızı verməyin.
- Tanımadığınız insanlarla şəxsi məlumatlarınızı bölüşməyin (məsələn, yad insanlarla rastlaşa biləcəyiniz onlayn söhbət otaqları).
- İstifadə etdiyiniz "məkan"ı, qəbul edilmiş davranış qaydalarını və məkandan istifadə edən digər insanların tiplərini nəzərdən keçirin. İnternetdən kənar aləmdə müəyyən yerlər təhlükəsizlik üçün daha çox risk təşkil etdiyi kimi onlayn aləmdə də müəyyən kontekstdə uyğun reaksiya verməliyik.
- "Netiket"ə (internet etiketi) riayət edin: internetdə digər insanlara sizə davranılmasını istədiyiniz kimi davranın.
- Profillərinizi və elektron poçt ünvanlarınızı qorumaqda diqqətli olun: ictimai yerlərdəki kömpüterlərdən çıxış edin və parollarınızı mütəmadi olaraq dəyişin.
- İnternetdə rastlaşdığınız və ya sizə yönəldilmiş pis rəftar barədə məzmun və ya şərhlərin yerləşdiyi şəbəkəyə və ya ölkənizdəki ixtisaslaşdırılmış polis və ədliyyə xidmətlərinə bildirin (bəzi məsləhətlər üçün baxın: www.saferinternet.org).

## TƏHDİD VƏ YA PİS RƏFTARA MƏRUZ QALIRSINIZSA

Aşağıdakı fəaliyyətləri nəzərdən keçirin. Hər bir hal fərqlidir və gənclərin fəaliyyət istiqamətinə qərar verərkən diqqətli mühakimə yürütməyi öyrənməsi vacibdir. Hadisəni etibar etdikləri insanlarla müzakirə etmək hər zaman kömək edəcəkdir.

- Reaksiya verməyin! Adətən potensial cinayətkarın istədiyi məhz reaksiyadır. Heç vaxt qisas almayın, çünki bu problem daha da dərinləşdirəcəkdir.
- Problemi etibar etdiyiniz bir insanla bölüşün: onlardan məsləhət alın.
- Problemi gənclərin internetdə təhlükəsizliyi məsələləri ilə məşğul olan bir təşkilata bildirin. (218-219-ci səhifəyə bax).
- Davranış haqqında vebsaytın sahibinə /hostinq provayderinə məlumat verin.
- İstənməyən kontaktları və qeyri-münasib şəkildə davranan insanları bloklayın / bildirin.
- Elektron poçt ünvanınız və ya mobil telefon nömrənizdən hər hansı biri sizi hədəfə almaq üçün istifadə edilirsə, onları dəyişin.
- Zəruri hallarda davranış barədə polisə məlumat verin və ya hüquqşünas ilə əlaqə saxlayın. Onlayn pis rəftar kiminsə sağlamlığına, təhlükəsizliyinə və ya psixoloji rifahına ciddi təsir edirsə, qanunsuzdur.
- Hər zaman aldığınız təhqiredici mesajın, o cümlədən cinayətkarın elektron poçt adresini və ya profilinin sübutunu saxlayın. Rəsmi şikayət zərurəti yaranarsa, bu sübuta ehtiyacınız ola bilər.

## ONLAYN TƏHLÜKƏSİZLİK: MÜƏLLİMLƏR ÜÇÜN YOXLAMA SİYAHISI

Müəllimlər, valideynlər və ümumiyyətlə gənclərlə mütəmadi ünsiyyətdə olan insanlar onları kiberbullinq təhlükəsindən qorumaq üçün aşağıdakı şəkildə tədbirlər görə bilərlər:

• Proaktiv yanaşma tətbiq edilməsi, riskin gənclərlə müzakirə edilməsi və onların bu riskdən mümkün olduğu qədər yayınmasında dəstəklənməsi. Bunu müzakirə etməyə açıq olun. Sinifdə nümunələrdən istifadə edin və bu məsələləri qaldırmaqdan çəkinməyin. Məktəbinizdə kiberzorbalığa qarşı davamlı siyasəti dəstəkləyin.

• İnternetdə və ondan kənarda olan nifrət nitqi arasındakı əlaqənin dərk edilməsi: bu ikisi adətən yanaşı olur!

• Uşaqları məlumatlandırma və mövzunu onlarla müzakirə etmək yolu ilə onların imkanlarının genişləndirilməsi. Bunu etmək üçün kifayət qədər bacarığınız olmadığını düşünürsünüzsə, təşkilatlar və qurbanlar üçün yardım mərkəzləri ilə əlaqə saxlaya bilərsiniz. Gənclərə ehtiyac zamanı kömək ala biləcəkləri yerlərin əlaqə məlumatlarını göstərin.

• Kiberzorbalığın mövcudluğu və ona qarşı necə hərəkət edə biləcəklərini bilməli olan valideynlərin imkanlarının genişləndirilməsi.

# 5.10 AVROPA ŞURASI VƏ ONLAYN NİFRƏT NİTQİ

Avropa Şurası qitənin aparıcı insan hüquqları təşkilatıdır və 47 üzv dövlətdən ibarətdir. Avropa Şurasına üzv dövlətlərin hamısı insan hüquqlarının, demokratiya və qanunun aliliyinin qorunması məqsədilə hazırlanmış müqavilə olan Avropa İnsan Hüquqları Konvensiyasına (AİHK) qoşulmuşdur.

Avropa Şurasının demokratiya uğrunda fəaliyyəti əhəmiyyətli dərəcədə təhsilə əsaslanır: məktəblərdə təhsil və qeyri-formal təhsil fəaliyyətlərində olduğu kimi demokratiyanı tətbiq etmənin ömürboyu öyrənmə prosesi olaraq təhsil. İnsan hüquqları üzrə təhsil və demokratik vətəndaşlıq üçün təhsil demokratiyanın davamlı olması üçün təmin etməli olduqlarımızın tərkib hissəsini təşkil edir.

Avropa Şurasının Gənclər Departamenti 2013-2017-ci illərdə gənclərin internetdə nifrət nitqini tanıma və insan hüquqlarını müdafiə səriştələrini inkişaf etdirməsinə imkan verən vasitə kimi vətəndaşlıq və insan hüquqları üzrə təhsilə xüsusi diqqət ayıraraq Nifrət Nitqinə Yox Hərəkatı gənclik kampaniyasını həyata keçirdi.

Avropa Şurasının onlayn nifrət nitqi sahəsindəki fəaliyyəti 4 əsas sahədə mərkəzləşmişdir:

1. Problemə AİHK və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququndan istifadə etməklə hüquqi yanaşmalar
2. İnternet İdarəçiliyi sahəsində fəaliyyət və Avropa Şurasına üzv dövlətlərə ünvanlanmış bir sıra tövsiyələr və siyasət sənədləri vasitəsilə siyasət alətləri
3. İrqçilik ə Ayrı-seçkiliyə qarşı Avropa Komissiyasının və İnsan Hüquqları üzrə Komissarın fəaliyyəti vasitəsilə monitorinq fəaliyyətləri
4. Jurnalistlər, QHT fəalları, müəllimlər və gənclər daxil olmaqla müxtəlif sosial subyektlər üçün təhsil, profilaktika tədbirləri və potensialın genişləndirilməsi fəaliyyətləri.

Onlayn nifrət nitqi bir sıra fərqli problemlərlə sıx bağlıdır, bu səbəbdən mövzu digər müxtəlif sahələrdə də təşəbbüslərin bir hissəsi olmuşdur. Bunlardan hamısı deyil, lakin bəziləri aşağıdakılardan ibarətdir:

| | | |
|---|---|---|
| **Uşaq hüquqları** | **Azlıqların müdafiəsi** | **Hakimlərin təlimi** |
| **Kibercinayətkarlıqla mübarizə** | **Kiberbullinqla mübarizə və uşaqların müdafiəsi** | **Media savadlılığı** |
| **İfadə azadlığı** | **Plüralist cəmiyyətin təşviqi** | **Media təhsili** |
| **İrqçilik əleyhinə siyasətlər** | **Mədəniyyətlərarası dialoqun təbliği** | **Müəllimlərin təlimi** |

Bu siyahı onlayn nifrət nitqi ilə müəyyən dərəcədə əlaqəsi olan müxtəlif qayğı və problemlərin bir rəsmidir. Bu həm də problemin çoxsaylı metodlardan istifadə edərək müxtəlif mövqelərdən həll edilə biləcəyinə işarədir.

Aşağıdakı qısa məlumat yalnız fəaliyyətin ən böyük əhəmiyyət kəsb edən və ya onlayn nifrət nitqi ilə mübarizə fəaliyyətləri ilə daha çox əlaqəli olan sahələrini əhatə edir.

## HÜQUQİ ALƏTLƏR

- Avropa İnsan Hüquqları Konvensiyası Avropa Şurasının hər bir üzv dövləti tərəfindən ratifikasiya edilmişdir. O bir sıra mülki və siyasi hüquqları, o cümlədən, məxfilik, təhlükəsizlik və qeyri-insani və alçaldıcı rəftardan müdafiə hüquqlarını  qoruyur. Konvensiya ifadə azadlığını da qorusa da, bu hüquq ifadə formaları başqalarına təhlükə yarada və ya bütövlükdə cəmiyyətə zərər verə biləcəyi təqdirdə məhdudiyyətlərə icazə verir. Avropa İnsan Hüquqları Məhkəməsi Avropa Konvensiyasındakı hüquqların qorunmasına cavabdehdir. Bu məhkəmənin presedent hüququ "nifrət nitqi"nin ən pis həqarət nümunələrinin ifadə azadlığı hüququ ilə qorunmadığını  təsbit edən təfsirini vermişdir.
- Avropa Şurasının hazırladığı Kibercinayətkarlıq haqqında Konvensiya və onun Əlavə Protokolu bu mövzu üzrə yeganə öhdəlik yaradan beynəlxalq müqavilədir.  O 2004-cü ilin iyul ayında qüvvəyə minmişdir və kibercinayətkarlığa qarşı qanunvericilik hazırlamaq istəyən bütün hökumətlər üçün rəhbər prinsiplər müəyyən edir.

## STRATEGİYA VƏ SİYASƏT ALƏTLƏRİ

- Avropa Şurasının İnternet İdarəçiliyi strategiyası internetin ifadə azadlığını qoruyan və informasiyaya sərbəst çıxışı təmin edən təhlükəsiz məkan kimi gələcək inkişafının təmin edilməsini nəzərdə tutan bir sıra əsas sahələri müəyyən edir.
- Nazirlər Komitəsi və Avropa Şurası Parlament Assambleyası tərəfindən onlayn nifrət nitqi ilə mübarizəyə dair siyasət tövsiyələri hazırlanmışdır. Bura aşağıdakılar daxildir:
  - Nifrət nitqinə dair CM/Rec (1997)20 saylı Tövsiyə
  - Uşaqların zərərli məzmun və davranışdan müdafiə edilməsi və onlayn aləmdə fəal iştirakın təşviq edilməsi üçün tədbirlər nəzərdə tutan CM/Rec(2009)5 saylı Tövsiyə.
  - Uşaqların zərərli məzmun və davranışdan müdafiə edilməsi və onlayn aləmdə fəal iştirakın təşviq edilməsi üçün tədbirlər nəzərdə tutan Nazirlər Komitəsinin üzv Dövlətlərə rəqəmsal mühitdə uşaq hüquqlarına hörmət edilməsi, onların qorunması və yerinə yetirilməsi üzrə Göstərişlər üzrə CM(2018)7 saylı Tövsiyəsi
  - İnternet İstifadəçiləri üçün İnsan Hüquqları Bələdçisi Avropa İnsan Hüquqları Konvensiyasına və Avropa Şurasının insan hüquqlarının müdafiəsinin müxtəlif aspektlərinə dair digər konvensiya və sənədlərinə əsaslanır. Bələdçi internet istifadəçilərinin internetdə insan hüquqları, onlar üzərində mümkün məhdudiyyətlər və belə məhdudiyyətlər üçün mövcud hüquqi müdafiə vasitələri haqqında məlumat əldə etmələri üçün vasitədir. Bələdçi hüquq və azadlıqların İnternet kontekstində təcrübədə nə məna daşıdığı, onlara necə istinad edilə biləcəyi və necə tətbiq edilə biləcəkləri, eləcə də, hüquqi müdafiə vasitələrinin necə əldə edilə biləcəyi barədə məlumat təmin edir.

## MONİTORİNQ ALƏTLƏRİ

- İrqçilik və Dözümsüzlüyə qarşı Avropa Komissiyası (ECRI)  Avropa Şurasının insan hüquqları orqanıdır. O müstəqil ekspertlərdən təşkil olunmuşdur və nifrət nitqi problemi üzrə hesabatlar da daxil olmaqla, monitorinq hesabatları hazırlayır. ECRI nifrət nitqi problemini nifrət nitqi ilə mübarizə üzrə siyasət tövsiyəsində də nəzərdən keçirmişdir (Siyasət  Tövsiyəsi No. 15). ECRI bu problemi ölkə monitorinqi fəaliyyəti və tematik hesabatlar vasitəsilə izləyir.
- İnsan Hüquqları üzrə Komissar nifrət nitqinə insan hüquqları problemi kimi diqqət çəkmiş-

dir (misal üçün, Roma, qaçqınlar və sığınacaq axtaran şəxslər ilə bağlı). Komissar həmçinin nifrət nitqinə qarşı tədbirlər görməyə çağırmışdır.

### TƏHSİL, PROFİLAKTİKA VƏ POTENSİALIN GENİŞLƏNDİRİLMƏSİ

- Avropa Şurasının Rəqəmsal Vətəndaşlıq Təhsili layihəsi uşaqların imkanlarının təhsil və ya öyrənmə və rəqəmsal mühitdə fəal iştirak üçün lazımi səriştələrin əldə edilməsi vasitəsilə genişləndirilməsi məqsədi daşıyır. "Wild Web Woods" onlayn oyunu uşaqların internetdə təhlükəsizliyi qorumağın əsas metodlarını öyrənməsinə imkan verən alətdir.
- İnternet Savadlılığı Sorğu Kitabı valideynlər, müəllimlər və gənclər üçün internetdən istifadə bacarıqlarını inkişaf etdirmələrinə imkan verən onlayn öyrənmə alətidir.
- Avropa Şurasının gənclər sektoru gənclər təşkilatları və fəallar üçün gənclər üçün insan hüquqları üzrə təhsil proqramı təşkil edir. İrqçilik əleyhinə fəaliyyət və mədəniyyətlərarası dialoq mühüm yer tutur. Fəallar və insan hüquqları sahəsində müəllimlər üçün yerli və milli səviyyələrdə təlim kursları təşkil edilmiş, müxtəlif tədris materialları hazırlanmışdır, məsələn Kompas, Kompasito və Gender Məsələləri.

### GƏNCLƏR DEPARTAMENTİ TƏRƏFİNDƏN ONLAYN NİFRƏT NİTQİ İLƏ MÜBARİZƏ SAHƏSİNDƏ HƏYATA KEÇİRİLƏN DİGƏR TƏDBİRLƏR

- Onlayn nifrət nitqi haqqında tədqiqat və Onlayn Nifrət Nitqi ilə Mübarizə üçün Başlanğıc Nöqtələri nəşri: bu gənclər üçün nifrət nitqinin reallıqlarına toxunur və problemin həlli üçün nəzərdə tutulmuş bir sıra layihə və kampaniyaları təsvir edir.
- 2012 və 2015-ci illərdə gənclərin nifrət nitqini qavrayışının və onun gənclərə təsirinin təhlil edilməsi məqsədilə gənclər və nifrət nitqi bağlı sorğu keçirilmişdir.
- Avropa Gənclər Fondu tərəfindən gənclər təşkilatlarına onlayn nifrət nitqi ilə mübarizə ilə bağlı layihələr üçün qrantlar verilmişdir.
- Onlayn fəallar üçün təlim kursları
- Kampaniya təşviqatçıları və təşkilatçıları üçün seminarlar
- Beynəlxalq gənclər təşkilatları ilə iş sessiyaları.

## ƏLAVƏ MƏLUMATI HARADAN ƏLDƏ ETMƏK OLAR:

**Avropa İnsan Hüquqları Məhkəməsinin nifrət nitqi ilə mübarizə üzrə işləri**

https://www.echr.coe.int/Documents/FS_Hate_speech_ENG.pdf

**Avropa Şurasının ifadə azadlığı və İnternet İdarəçiliyi sahəsində fəaliyyətinin icmalı**

https://www.coe.int/en/web/freedom-expression/home

**Rəqəmsal Vətəndaşlıq Təhsili Layihəsi**

https://www.coe.int/en/web/digital-citizenship-education/home

**Wild Web Woods**

www.wildwebwoods.org/popup_langSelection.php

**Kompas – Gənclər üçün İnsan Hüquqları üzrə Təhsil üçün Vəsait**

www.coe.int/compass

**İnternet Savadlılığı Sorğu Kitabı**

www.coe.int/t/dghl/standardsetting/internetliteracy/Source/Lit_handbook_3rd_en.swf

**İnternet İstifadəçiləri üçün İnsan Hüquqları Bələdçisi**

www.coe.int/en/web/internet-users-rights/guide.

*Nifrət Nitqi üzrə Vəsait, En Veber, Avropa Şurası Nəşriyyatı, Strasburq 2009*

NO HATE
NO HATE SPEECH MOVEMENT

FƏSİL 6

# ƏLAVƏLƏR


6.1. Ümumdünya İnsan Hüquqlari Bəyannaməsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 214
6.2. İnsan Hüquqları haqqında Avropa Konvensiyası və onun protokolları . . . . . 216
6.3. Onlayn nifrət nitqi ilə mübarizəyə aid digər resurslar . . . . . . . . . . . . . . . . . . . .220
6.4. İnternet istifadəçiləri üçün insan hüquqları bələdçisi . . . . . . . . . . . . . . . . . . . . 222
6.5. "Əlfəcinlər" əsasında seminar təklifləri. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 225

# 6.1. ÜMUMDÜNYA İNSAN HÜQUQLARI BƏYANNAMƏSİ

***(İcmal)***

1. Bütün insanlar azad, ləyaqət və hüquqlarına görə bərabər doğulurlar.
2. Hər kəs irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi əqidəsindən, milli mənşəyindən və ya başqa statusundan asılı olmayaraq eyni cür rəftar edilmək hüququna malikdir.
3. Hər bir insan yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir.
4. Heç kəsin sizinlə kölə kimi rəftar etmək hüququ yoxdur və siz də heç kimi öz köləniz edə bilməzsiniz.
5. Heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır.
6. Hər bir insan hüquq subyekti kimi tanınmaq hüququna malikdir.
7. Qanun hər kəs üçün eynidir; hər kəsə eyni qaydada tətbiq edilməlidir.
8. Hər kəs hüquqlarına hörmət edilmədikdə, səmərəli hüquqi müdafiə vasitələri hüququna malikdir.
9. Heç kim sizi əsassız olaraq həbs edə, tuta və ya ölkənizdən sürgünə edə bilməz.
10. Hər kəsin ədalətli və açıq məhkəmə araşdırması hüququ var.
11. Hər kəs təqsiri  qanun əsasında sübut edilənədək təqsirsiz hesab edilir.
12. Hər kəs öz şəxsi və ailə həyatına, evinə və yazışma sirrinə  hörmət hüququna malikdir.
13. Hər kəs dövlət sərhədləri daxilində yaşamaq və sərbəst səyahət etmək hüququna malikdir.
14. Təqib edilən və ya təqib edilmək təhlükəsi olan hər bir şəxs başqa ölkədə təqibdən sığınacaq axtarmaq və bu sığınacaqdan istifadə etmək hüququna malikdir.
15. Hər bir insanın vətəndaşlıq hüququ var.
16. Hər kəsin nikaha daxil olmaq və ailə qurmaq hüququ var.
17. Hər bir şəxsin mülkiyyətə sahib olma hüququ var.
18. Hər bir şəxs istədiyinə inanmaq inanmaq azadlığına malikdir (din daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq)
19. Hər bir şəxs düşündüyünü demək, sərbəst şəkildə məlumat almaq və vermək hüququna malikdir.
20. Hər bir şəxs dinc yığıncaqlar və assosiasiyalar azadlığı hüququna malikdir.
21. Hər bir şəxs dövlətin idarə olunmasında bilavasitə və ya azad şəkildə seçilmiş nümayəndələr vasitəsilə iştirak etmək hüququna malikdir.
22. Hər kəsin sosial sığorta hüququ var.
23. Hər bir şəxsin əmək, sərbəst iş yeri seçmək, ədalətli və münasib iş şəraiti və işsizlikdən müdafiə hüququ var.

24. Hər bir insanın istirahət və asudə vaxt hüququ var.
25. Hər bir şəxs özünün və ailəsinin səhhət və rifahını təmin etmək üçün lazım olan qida, geyim, tibbi xidmət və lazımi sosial təminat da daxil olmaqla, adekvat həyat səviyyəsi hüququna malikdir.
26. Hər kəs ödənişsiz ibtidai təhsil daxil olmaqla təhsil hüququna malikdir.
27. Hər bir şəxs cəmiyyətin mədəni həyatında iştirak etmək hüququna malikdir.
28. Hər bir şəxsin bu Bəyannamədə ifadə olunmuş hüquq və azadlıqların tam şəkildə həyata keçirilə biləcəyi sosial və beynəlxalq nizam hüququ var.
29. Hər kəs başqalarının və icmanın hüquqlarına, eləcə də ictimai əmlaka hörmətlə yanaşmalıdır.
30. Heç kim bu bəyannamə çərçivəsindəki hər hansı hüququ ləğv edə bilməz.

# 6.2. İNSAN HÜQUQLARI HAQQINDA AVROPA KONVENSİYASI VƏ ONUN PROTOKOLLARI

## SEÇİLMİŞ MADDƏLƏRİN SADƏLƏŞDİRİLMİŞ VARİANTI

### PREAMBULANIN İCMALİ

Avropa Şurasına üzv olan ölkələrin hökumətləri sülh və insan hüquqları və fundamental azadlıqlara əsaslanan daha böyük birlik üçün çalışırlar. Bu Konvensiya ilə onlar Ümumdünya İnsan Hüquqları Bəyannaməsində təsbit olunan hüquqların çoxunu icra etmək istiqamətində ilk addımları atırlar.

### MADDƏ 1 - İNSAN HÜQUQLARINA HÖRMƏT OLUNMASI ÖHDƏLİYİ

Dövlətlər hər kəsin bu Konvensiyada bəyan edilən hüquqlara malik olmasını təmin etməlidirlər.

### MADDƏ 2 - YAŞAMAQ HÜQUQU

Yaşamaq hüququnuz var.

### MADDƏ 3 - İŞGƏNCƏLƏRİN QADAĞAN OLUNMASI

Heç kimin sizi incitmək və ya sizə işgəncə vermək hüququ yoxdur. Həbs zamanı belə insan ləyaqətinə hörmət edilməlidir.

### MADDƏ 4 - KÖLƏLİYİN VƏ MƏCBURİ ƏMƏYİN QADAĞAN OLUNMASI

Sizinlə kölə kimi rəftar və ya məcburi əməyə cəlb olunmağınız qadağandır.

### MADDƏ 5 - AZADLIQ VƏ TOXUNULMAZLIQ HÜQUQU

Azadlıq hüququnuz var. Həbs olunduqda səbəbini bilmək hüququnuz var. Həbs olunmusunuzsa, məhkəmə araşdırması hüququnuz və ya məhkəmə baş tutana qədər azad edilmək hüququnuz var.

### MADDƏ 6 - ƏDALƏTLİ MƏHKƏMƏ ARAŞDIRMASI HÜQUQU

Qərəzsiz və müstəqil hakim qarşısında ədalətli məhkəmə araşdırması hüququna maliksiniz. Cinayət törətməkdə ittiham olunan hər kəs onun təqsiri qanun əsasında sübut edilənədək təqsirsiz hesab edilir. Aztəminatlı olduğunuz halda ödənişi dövlət tərəfindən edilən vəkildən yardım almaq hüququnuz var.

### MADDƏ 7 - QANUNDA NƏZƏRDƏ TUTULMAMIŞ CƏZANIN YOLVERİLMƏZLİYİ

Heç kəs törədildiyi zaman milli və ya beynəlxalq hüquqa görə cinayət sayılmayan hər hansı hərəkət və ya hərəkətsizliyə görə cinayət törətməkdə təqsirli hesab edilə bilməz.

### MADDƏ 8 - ŞƏXSİ HƏYATA VƏ AİLƏ HƏYATINA HÖRMƏT HÜQUQU

Şəxsi və ailə həyatına, evinə və yazışma sirrinə hörmət hüququna maliksiniz.

### MADDƏ 9 - FİKİR, VICDAN VƏ DİN AZADLIĞI

Fikir, vicdan və din azadlığı hüququnuz var. Dininizə evdə və ya ictimai yerdə etiqad etmək, istədiyiniz təqdirdə dininizi dəyişmək hüququnuz var.

### MADDƏ 10 - SÖZ AZADLIĞI

Düşündüyünüzü məsuliyyətli şəkildə söyləmək və yazmaq, başqalarına məlumat vermək və məlumat əldə etmək hüququna maliksiniz. Bura mətbuat azadlığı daxildir.

### MADDƏ 11 - YIĞINCAQLAR VƏ BİRLƏŞMƏK AZADLIĞI

Dinc toplaşmaq, həmkarlar ittifaqları yaratmaq və ya onlara qoşulmaq hüququnuz var

### MADDƏ 12 - NİKAH HÜQUQU

Nikah və ailə hüququnuz var.

### MADDƏ 13 - SƏMƏRƏLİ HÜQUQİ MÜDAFİƏ VASİTƏLƏRİ HÜQUQU

Hüquqlarınız pozulubsa, məhkəmələrə və ya başqa dövlət orqanlarına rəsmi qaydada şikayət edə bilərsiniz.

### MADDƏ 14 - AYRI-SEÇKİLİYİN QADAĞAN OLUNMASI

Bu hüquqlara dərinizin rəngindən, dilinizdən, siyasi və ya dini əqidənizdən və ya mənşəyinizdən asılı olmayaraq maliksiniz.

### MADDƏ 15 -

Fövqəladə hallar zamanı öhdəliklərdən geri çəkilmə Müharibə və ya digər fövqəladə hallar zamanı hökumət yalnız son dərəcə zəruri olan hallarda hüquqlarınıza zidd tədbirlər görə bilər. Hətta bu hallarda belə hökumətlərə, məsələn, sizə işgəncə verməyə və ya sizi əsassız olaraq öldürməyə icazə verilmir.

### MADDƏ 16 - ƏCNƏBİLƏRİN SİYASİ FƏALİYYƏTİNİN MƏHDUDLAŞDIRILMASI

Hökumətlər 10, 11 və ya 14-cü maddəyə zidd olsa belə, əcnəbilərin siyasi fəaliyyətinə məhdudiyyətlər qoya bilərlər.

### MADDƏ 17 - HÜQUQLARDAN SUİ-İSTİFADƏNİN QADAĞAN OLUNMASI

Bu Konvensiyanın heç bir hissəsi Konvensiyada nəzərdə tutulan hüquq və azadlıqlara zərər vermək üçün istifadə edilə bilməz.

### MADDƏ 18 -

Hüquqlarla bağlı məhdudiyyətlərdən istifadənin hədləri Bu Konvensiyaya daxil olan hüquqların çoxu hər kəsə şamil olunan ümumi qanun əsasında məhdudlaşdırıla bilər. Belə məhdudiyyətlərə yalnız mütləq zərurət hallarında icazə verilməlidir.

### 19-51-Cİ MADDƏLƏR

Bu maddələr Avropa İnsan Hüquqları Məhkəməsinin iş prinsipini izah edir.

### MADDƏ 34 - FƏRDİ ŞİKAYƏTLƏR

Bu Konvensiyada təsbit olunana hüquqlarınız üzv dövlətlərdən birində pozulubsa, əvvəl ölkədəki bütün səlahiyyətli orqanlara şikayət verməlisiniz. Bununla probleminiz həll olunmazsa, birbaşa Strasburqdakı Avropa İnsan Hüquqları Məhkəməsinə şikayət edə bilərsiniz.

### MADDƏ 52 - BAŞ KATİBİN SORĞULARI

Avropa Şurası Baş katibi sorğu verdikdə, hökumət ölkədaxili qanunvericiliyin bu Konvensiyada təsbit olunan hüquqları necə qoruduğunu izah etməlidir.

## KONVENSİYA PROTOKOLLARI

### 1 SAYLI PROTOKOLUN 1-Cİ MADDƏSİ - MÜLKİYYƏTİN MÜDAFİƏSİ

Sizin əmlaka sahib olmaq və ondan istifadə etmək hüququnuz var.

### 1 SAYLI PROTOKOLUN 2-Cİ MADDƏSİ - TƏHSİL HÜQUQU

Məktəbə getmək hüququnuz var.

### 1 SAYLI PROTOKOLUN 3-CÜ MADDƏSİ - AZAD SEÇKİ HÜQUQU

Ölkənizin hökumətini gizli səsvermə yolu ilə seçmək hüququna maliksiniz.

### 4 SAYLI PROTOKOLUN 2-Cİ MADDƏSI - HƏRƏKƏT AZADLIĞI

Qanuni əsaslarla hər hansı dövlətin ərazisində olan hər kəsin həmin ərazidə sərbəst hərəkət etmək və özünə yaşayış yeri seçmək hüququ var.

### 6 SAYLI PROTOKOLUN 1-Cİ MADDƏSİ - ÖLÜM CƏZASININ LƏĞVİ

Dövlət tərəfindən ölümə məhkum oluna və ya edam edilə bilməzsiniz.

NO HATE SPEECH MOVEMENT

### 7 SAYLI PROTOKOLUN 2-Cİ MADDƏSİ - CİNAYƏT İŞLƏRİNƏ DAİR HÖKMLƏRDƏN İKİNCİ İNSTANSİYAYA ŞİKAYƏT VERMƏ HÜQUQU

Cinayətə görə məhkum edilmisinizsə, daha yüksək instansiya məhkəməsinə şikayət verə bilərsiniz.

### 7 SAYLI PROTOKOLUN 3-CÜ MADDƏSİ - MƏHKƏMƏ SƏHVİNƏ GÖRƏ KOMPENSASIYA

Cinayətə görə məhkum edildiyiniz halda təqsirsiz olduğunuz aşkara çıxarsa, kompensasiya almaq hüququnuz var.

### 12 SAYLI PROTOKOLUN 1-Cİ MADDƏSİ - AYRI-SEÇKİLİYƏ ÜMUMİ QADAĞA

Dəri rəngi, cins, dil, dini və ya siyasi baxış və ya mənşəyinizə görə dövlət orqanları tərəfindən ayrı-seçkiliyə məruz qala bilməzsiniz.

# 6.3. ONLAYN NİFRƏT NİTQİ İLƏ MÜBARİZƏYƏ AİD DİGƏR RESURSLAR

Vaxtınız varsa və onlayn nifrət nitqi və qrupunuzla birlikdə istifadə edə biləcəyiniz başqa tədris fəaliyyətləri haqqında daha çox məlumat almaqda maraqlısınızsa, başalanğıc nöqtələri üçün bura baxa bilərsiniz. Bunlar müfəssəl siyahı deyil, sadəcə bəzi təkliflərdir!

## AVROPA ŞURASI

- **"Kompas"** - Gənclərin insan hüquqları təhsili üçün vəsait; "Kompasito" – Uşaqların insan hüquqları təhsili üçün vəsait və gənclərin insan hüquqları və irqçilik əleyhinə təhsili üçün başqa vəsaitlər www.coe.int/compass
- **Biz bacararıq!** Nifrət nitqinə qarşı əksinə və alternativ mesajlar vasitəsilə mübarizə gənclərə və digər hüquq müdafiəçilərinə nifrət nitqinə qarşı əks və alternativ mesajlar formalaşdırmaq üçün kommunikativ və maarifləndirici yanaşma və vasitələr təqdim edir. O, "Əlfəcinlər"-i tamamlayır. https://www.coe.int/en/web/no-hate-campaign/we-can-alternatives1
- **İnternet savadlılığı üzrə məlumat kitabçası** – valideyn, müəllim və gənclərin internetdən istifadə bacarıqlarını inkişaf etdirmələri üçün onlayn tədris vasitəsi www.coe.int/t/dghl/standardsetting/internetliteracy/Source/Lit_handbook_3rd_en.swf
- **Vəhşi veb meşə**– uşaqların əsas internetdən təhlükəsiz istifadə qaydalarını öyrənmələri üçün onlayn oyun
www.wildwebwoods.org/popup_langSelection.php
- **Nifrət nitqi barədə vəsait**, müəllif: Anne Weber, Avropa Şurası nəşriyyatı, Strasburq 2009
- **Onlayn nifrət nitqi ilə mübarizə üçün başlanğıc nöqtələri** – Onlayn nifrət nitqi və onun həlli yolları haqqında üç araşdırma, müəlliflər: Gavan Titley, Ellie Keen və László Földi; Avropa Şurası nəşriyyatə, Strasburq 2012
- **Avropa Şurası media və söz azadlığı, əsas səhifə**
www.coe.int/t/dghl/standardsetting/media/Themes/Education_en.asp
- **Rəqəmsal vətəndaşlıq təhsili layihəsi**
Rəqəmsal vətəndaşlıq təhsili layihəsinin məqsədi uşaqların imkanlarının təhsil və ya öyrənmə və rəqəmsal cəmiyyətdə fəal iştirak bacarıqlarının əldə edilməsi yolu ilə genişləndirməkdir.
https://www.coe.int/en/web/digital-citizenship-education/digital-citizenship-education-project
- **Praktik Hüquqşünaslara İnsan Hüquqlarının Tədrisi üzrə Avropa Proqramı (HELP)**
Onlayn və oflayn kurslar vasitəsilə hüquq mütəxəssislərin Avropa fundamental hüquq normalarını səmərəli və düzgün tətbiq etmək potensialının gücləndirilməsinə dəstək verir. Bir neçə onlayn kurs da geniş ictimaiyyət üçün açıqdır.
http://help.elearning.ext.coe.int/
- Avropa İnsan Hüquqları Məhkəməsinin mövzular (nifrət nitqi daxil olmaqla) barədə məlumat vərəqələri
www.echr.coe.int/ECHR/EN/Header/Press/Information+sheets/Factsheets/
- Nazirlə Komitəsinin KİV sahəsində qəbul edilmiş, tövsiyə, qətnamə və bəyanatları
www.coe.int/t/dghl/standardsetting/media/doc/cm_EN.asp

## BAŞQA RESURSLAR VƏ ELEKTRON KEÇİDLƏR

- INSAFE və INHOPE Insafe və INHOPE, Avropada Daha Təhlükəsiz İnternet Mərkəzləri (SICs) şəbəkəsi ilə birlikdə çalışır - bir qayda olaraq bir məlumatlandırma mərkəzi, yardım telefonu, qaynar xətt və gənclər panelini əhatə edir. Qaynar xətlər ictimaiyyətə uşaqlara qarşı cinsi istismar daxil olmaqla, qanunsuz olduğundan şübhələndikləri internet materialları haqqında anonim şikayət təqdim etməyi təklif edir.
https://www.betterinternetforkids.eu/web/portal/policy/insafe-inhope
- Gənclər üçün Insafe qabaqcıl təcrübə təlimatları
https://www.betterinternetforkids.eu/web/portal/practice/awareness/detail?articleId=199791
- Teachtoday məktəblər üçün yeni texnologiyalardan pozitiv, məsuliyyətli və təhlükəsiz istifadə haqqında məlumat və tövsiyələrin daxil olduğu portaldır.
https://www.teachtoday.de/en/
- MediaSmarts veb-saytı İnternetdən istifadəyə dair geniş çeşidli tədris fəaliyyətləri, ümumi məlumatlar və vasitələrin daxil olduğu veb-saytdır.
www.mediasmarts.ca
- "İstədiyimiz veb" gənclərlə birlikdə və gənclər tərəfindən internet savadlılığı mövzusunda hazırlanan, 13-16 yaşlı şəxslər üçün nəzərdə tutulan təlim kitabçasıdır.
http://webwewant.eu/
- **European Schoolnet** -müəllimlərə və şagirdlərə bilik cəmiyyəti və internetdən istifadə ilə əlaqədar resurslar təklif edən, Avropanın 20 təhsil nazirliyini bir araya gətirən şəbəkədir.
www.eun.org/
- Avropa Vercland Mərkəzi insan hüquqlarının tədrisi barədə geniş tədris materialları təklif edir
www.theewc.org/
- Antidiffamasiya Liqası alətlər dəstinə kibercinayət əleyhinə fəaliyyətlər üçün təkliflər daxildir
www.adl.org/assets/pdf/combating-hate/ADL-Responding-to-Cyberhate-Toolkit.pdf
- **INACH** - Kiber nifrətə qarşı beynəlxalq şəbəkə - kibernifrətə qarşı mübarizə və onlayn ayrı-seçkilik haqqında məlumatlılığı artırmaqla təşkilatları internetdə hörmət, məsuliyyət və vətəndaşlığı təbliğ etmək üçün birləşdirir və onların imkanlarını genişləndirir.
www.inach.net/

# 6.4. İNTERNET İSTİFADƏÇİLƏRİ ÜÇÜN İNSAN HÜQUQLARI BƏLƏDÇİSİ

*(Nazirlər Komitəsi tərəfindən 16 aprel 2014-cü il tarixində Nazir müavinlərinin 1197-ci iclasında qəbul edilmişdir)*

**SADƏLƏŞDIRILMIŞ**

| ONLAYN HÜQUQLARINIZ | SƏLAHİYYƏTLİ ORQANLARIN VƏ/VƏ YA İNTERNET PROVAYDERLƏRİN ROLU |
|---|---|
| **İnternetə çıxış və ayrı-seçkiliyin yolverilməzliyi**<br>• İnternetə çıxışınız üçün qiymət münasib olmalıdır<br>• İnternetdə ünsiyyət zamanı cinsi, irqi, dəri rəngi, dil, din, yaş, cinsi oriyentasiya zəminində və ya hər hansı başqa səbəblə ayrı-seçkiliyə məruz qalmamalısınız. | • Kənddə və ya ucqar ərazidə yaşayırsınızsa, aşağı gəlirli və ya əlilliyi olan şəxssinizsə, sizi internetə çıxışla təmin etmək.<br>• İnternetdə ayrı-seçkiliyə cavab vermək, müdafiə və dəstək təmin etmək |
| **Söz azadlığı və informasiya**<br>• Ayrı-seçkilik, nifrət və ya zorakılıq ehtiva edənlər istisna olmaqla, özünüzü internetdə ifadə etmək azadlığınız var<br>• Məlumat əldə etmək hüququnuz var<br>• Müəllif hüquqları daxil olmaqla, başqalarının əqli mülkiyyətinə hörmət etmək şərtilə sərbəst şəkildə məzmun yarada, yenidən istifadə edə və paylaşa bilərsiniz.<br>• İnternetdə təxəllüsdən istifadə edə bilərsiniz, lakin kimliyiniz bəzən aşkara çıxır | • Sizə pozuntuları bəyan etmək və ya şikayət etmək üçün təlimat vermək<br>• İddialarınıza cavab vermək<br>• Cinayət və ya insan hüquqlarının pozulması hallarda kiminsə onlayn kimliyinin aşkara çıxarılması |
| **Toplaşma, birləşmə və iştirak**<br>• İnternetdən istifadə etməklə başqaları ilə birləşmək hüququnuz var<br>• Onlayn rejimdə dinc etiraz hüququnuz var<br>• Hər hansı sosial qruplara qoşulmaq və ya ictimai debatlarda iştirak etmək üçün hər hansı onlayn vasitəni seçə bilərsiniz | • Sizi onlayn iştirak üçün vasitələrlə təmin etmək<br>• Rəyinizi nəzərə almaq |

| ONLAYN HÜQUQLARINIZ | SƏLAHİYYƏTLİ ORQANLARIN VƏ/VƏ YA İNTERNET PROVAYDERLƏRİN ROLU |
|---|---|
| **Şəxsi həyata hörmət və məlumatların qorunması**<br>• İnternetdə şəxsi həyata və ailə həyatına hörmət hüququna maliksiniz<br>• İnternetdən istifadə edərkən şəxsi məlumatlarınızın müntəzəm olaraq emal edildiyini bilməlisiniz.<br>• Həmçinin iş yerində şəxsi onlayn yazışmalarınızın və söhbətlərinizin məxfiliyinə hörmət edilməlidir | • Şəxsi məlumatlarınızı işləyərkən konkret qayda və prosedurlara əməl etmək<br>• şəxsi məlumatlarınızın emalı üçün razılığınızı almaq<br>• Sizi qeyri-qanuni izlənmə və ya dinlənmədən qorumaq<br>• Sizi məlumatların qorunması xidmətləri vasitəsilə yardımla təmin etmək |
| **Təhsil və savad**<br>• Təhsil və bilik əldə etmək hüququnuz var<br>• Müxtəlif internet vasitələrini anlamaq, onlardan istifadə etmək, çıxış əldə etdiyiniz məzmun və xidmətlərin dəqiqlik və etibarlılığını yoxlamaq bacarıqlarının inkişaf etdirmək imkanınız olmalıdır | • Sizi onlayn təhsil, mədəni, elmi və tədris məzmunundan istifadə imkanı ilə təmin etmək<br>• Media savadı bacarıqlarını inkişaf etdirmək üçün imkan yaratmaq |
| **Uşaqlar və gənclər**<br>• fikirlərinizi sərbəst ifadə etmək və ictimai həyatda iştirak hüququnuz var<br>• İnternetdə yaratdığınız məzmunun və ya başqa istifadəçilərin sizinlə əlaqədar yaratdığı məzmunun ləyaqət, təhlükəsizlik və toxunulmazlığınıza zərər verə biləcəyini bilməlisiniz.<br>• Bu məzmuna hal-hazırda və ya həyatınızın daha sonrakı mərhələsində dünyanın hər yerindən insanlar baxa bilər.<br>• Özünü internetdə müdaxilə və pis rəftardan qorumaq üçün təhsil almaq hüququnuz var | • sizə internetdən təhlükəsiz istifadəni tədris etmək<br>• Sizə qeyri-qanuni onlayn məzmun və davranış (məsələn, onlayn təqib), eləcə də qeyri-qanuni məzmun barədə şikayət imkanı haqqında aydın məlumat vermək<br>• Məxfilik və anonimliyinizə lazımi hörmətin göstərilməsi ilə sizi məsləhət və dəstəklə təmin etmək<br>• Sizi fiziki, zehni və mənəvi rifahınıza müdaxilədən, xüsusilə internetdə cinsi istismar, pis rəftar və kibercinayətin başqa formalarında qorumaq |

| ONLAYN HÜQUQLARINIZ | SƏLAHİYYƏTLİ ORQANLARIN VƏ/VƏ YA İNTERNET PROVAYDERLƏRİN ROLU |
| --- | --- |
| **Yardım və dəstək**<br>• Hüquqlarınız pozulan və ya məhdudlaşdırılan zaman yardım və dəstək almaq hüququnuz var<br>• Məhkəməyə müraciət etmək hüququnuz var | • sizi insan hüquqları barədə məlumatlandırmaq<br>• Sizi müdaxilələr barədə necə məlumat verə biləcəyiniz haqqında məlumatlandırmaq<br>• Hüquqlarınız pozulduğu halda əldə edə biləcəyiniz onlayn yardım və dəstək barədə məlumat vermək<br>• Rəqəmsal kimliyinizi və kompüterinizi qeyri-qanuni giriş və manipulyasiyalardan qorumaq |

# 6.5. "ƏLFƏCİNLƏR" ƏSASINDA SEMİNAR TƏKLİFLƏRİ

### 1. ONLAYN NİFRƏT NİTQİ ILƏ TANIŞLIQ SEMİNARI (1½-2 SAAT)

Bu seminar təklifi "Əlfəcinlər"-indən istifadə olunmaqla qısa təqdimat seminarının keçirilməsi üçün nəzərdə tutulur. Bu seminar 25-ə qədər iştirakçı üçün nəzərdə tutulub.

**ADDIM-ADDIM TƏLİMATLAR:**

1. Seminarın giriş hissəsi (5 dəqiqə)
   - İştirakçılara seminarın nə haqda olduğunu izah edin.
2. Onlayn nifrət nitqi ilə tanışlıq (15 dəqiqə)
   - İştirakçılardan onlayn nifrət nitqi ilə qarşılaşıb-qarşılaşmadıqlarını soruşun, bir neçə nümunə gətirməyi xahiş edin; alternativ olaraq, özünüz iştirakçılar üçün bir neçə nümunə gətirə bilərsiniz (məsələn, "Hate Speech Watch" arxivindəki məzmundan istifadə edə bilərsiniz).
   - İştirakçılardan onlayn nifrət nitqinə məruz qalanların nə hiss etdiklərini, nifrət nitqinin hədəfə götürülən şəxslər və ya cəmiyyətin başqa üzvləri üçün nəticələrini soruşun.
   - İştirakçıları insanlar nifrət nitqi ilə qarşılaşan zaman təhdid altında qalan insan ləyaqəti anlayışı, eləcə də onlayn nifrət nitqinin tərifi ilə tanış edin. Avropa Şurasının nifrət nitqinə verdiyi təriflə "Əlfəcinlər"-in 11-ci səhifəsində tanış ola bilərsiniz.
3. "Daha pis ifadə" məşğələsinə keçin, "Əlfəcinlər"-dən. (45-60 dəqiqə)
   - Bu məşğələ onlayn nifrət nitqi ilə tanışlıq məşğələsidir. İştirakçılar "ən pis" hesab etdiklərindən başlayaraq geylər əleyhinə müxtəlif nifrət nitq nümunələrini sıralayırlar. Daha ətraflı məlumat üçün bax: səh. 76.
4. Bu məşğələdən sonra aşağıdakıları edə bilərsiniz: (20-30 dəqiqə)
   - İştirakçılara "Nifrət nitqinə yox hərəkatı" gənclik kampaniyasının videoçarxını və ya "Nifrətə yox ninja" layihəsinin videoçarxını, Pişiklər, unikornlar və nifrət nitqi haqqında hekayəti (https://www.coe.int/en/web/no-hate-campaign/videos1www.nohatespeech-movement.org)
   - və onlara "Nifrət nitqinə yox hərəkatı" kampaniyası haqqında qısa məlumat verin. Hərəkat haqqında daha ətraflı məlumatla 2-ci Fəsildə tanış ola bilərsiniz (Əlfəcinlər): “Nifrət nitqinə yox hərəkatı”, səhifə 118.
   - Gənclərin internetdən nifrət nitqini təbliğ etmədən necə istifadə edə biləcəklərini müzakirə edin və müzakirə əsasında gənclərin internetdən insan hüquqlarını nəzərə alaraq istifadə etməsi üçün TÖVSİYƏ EDİLƏN VƏ EDİLMƏYƏN addımların siyahısını tərtib edin.
5. Seminarın qısa qiymətləndirməsini aparın (məsələn, sıra ilə iştirakçıların hər birindən seminardan öyrəndikləri açar sözləri soruşmaqla). (5-10 dəqiqə)

**VARİASİYALAR**

Tanışlıq seminarınızın "Əlfəcinlər"-də əksini tapan bir və ya daha artıq konkret mövzu barədə olmasını istəyirsinizsə, fərqli bir məşğələ gerçəkləşdirə bilərsiniz, məsələn:

- Onlayn şəbəkə oyunlarında seksizmə nəzər salan "Oyunun dəyişdirilməsi"
- Kiberbullinqlə mübarizə üsullarına nəzər salan "Kiberbullinqlə üzləşmə" məşğələsi
- Qaraçı xalqına təsir edən irqçiliyə nəzər salan "X qrupu"
- Onlayn nifrət nitqi ilə nəticələnən önmühakimə və stereotiplərə nəzər salan "veb-profillər".

## 2. ONLAYN NİFRƏT NİTQI, İNSAN HÜQUQLARI VƏ İFADƏ AZADLIĞI HAQQINDA SEMİNAR (4 SAAT)

Bu seminar təklifi "Əlfəcinlər"-in istifadə olunduğu daha uzun müddətli seminar üçün nəzərdə tutulur. Seminar müddətində iştirakçılar:

- Onlayn nifrət nitqi, insan hüquqları normaları və ifadə azadlığının məhdudlaşdırılması haqqında öyrənəcəklər.

Bu seminar bir fasilitatorun yardımı ilə 25-ə qədər iştirakçı üçün nəzərdə tutulur.

### ADDIM-ADDIM TƏLİMATLAR:

1. Seminarın giriş hissəsi (5 dəqiqə)
   - İştirakçılara seminarın nə haqda olduğunu izah edin.
2. Onlayn nifrət nitqi ilə tanışlıq (15 dəqiqə)
   - İştirakçılardan onlayn nifrət nitqi ilə qarşılaşıb-qarşılaşmadıqlarını soruşun, bir neçə nümunə gətirməyi xahiş edin; alternativ olaraq, özünüz iştirakçılar üçün bir neçə nümunə gətirə bilərsiniz (məsələn, "Hate Speech Watch" arxivindəki məzmundan istifadə edə bilərsiniz).
   - İştirakçıları insanlar nifrət nitqi ilə qarşılaşan zaman təhdid altında qalan insan ləyaqəti anlayışı, eləcə də onlayn nifrət nitqinin tərifi ilə tanış edin. Avropa Şurasının nifrət nitqinə verdiyi tariflə "Əlfəcinlər"-in 11 səhifəsində tanış ola bilərsiniz.
3. "Sərhədsiz azadlıq" məşğələsinə keçin, "Əlfəcinlər"-dən. (60 dəqiqə)
   - İştirakçılar bir sıra kazuslar əsasında ifadə azadlığı anlayışını araşdırırlar. Onlar mübahisəli, təhqiramiz və ya potensial baxımdan təhlükəli şərh və ya yazışmalarla nə edəcəklərini qərarlaşdırmalıdırlar. Daha ətraflı məlumat üçün bax: səhifə 27.
4. Bu birinci məşğələdəndən sonra onlayn nifrət nitqinin kökündə dayanan səbəblər və onun nəticələrinə daha dərindən nəzər salmaq istəyə bilərsiniz. Bu məqsədlə "Əlfəcinlər"-in (səh. 111) “Köklər və budaqlar” məşğələsindən (60 dəqiqə) istifadə edə bilərsiniz. Bu məşğələdə problem ağacını çəkmək üçün əvvəlki məşğələdəki hər hansı nümunədən başlanğıc nöqtəsi kimi istifadə edə bilərsiniz.
5. Qısa fasilə verin. (20 dəqiqə)
6. Problem ağacları əsasında iştirakçılardan nifrət nitqinin bəzi nəticələrinin aradan qaldırılması məqsədilə tədbirlər və kampaniya fəaliyyətləri hazırlamağı xahiş edə bilərsiniz. İştirakçıları daha kiçik işçi qruplara bölə, nifrət nitqinin dəyişməsini istədikləri biri nəticəsini seçməyi xahiş edə və onun həlli üçün yollar axtara bilərsiniz. Qruplara bunu müzakirə etmək üçün 20 dəqiqə, qənaətlərini təqdim etmək üçün daha 20 dəqiqə vaxt verin. (40 dəqiqə)
7. Bu məşğələdən sonra aşağıdakıları edə bilərsiniz: (30 dəqiqə)

- İştirakçılara "Nifrət nitqinə yox  hərəkatı" gənclik kampaniyasının videoçarxını və ya "Nifrətə yox ninja" layihəsinin videoçarxını göstərin (https://www.coe.int/en/web/no-hate-campaign/videos1) və onlara "Nifrət nitqinə yox  hərəkatı" gənclik kampaniyası haqqında məlumat verin. Hərəkat haqqında daha ətraflı məlumatla 2-ci Fəsildə tanış ola bilərsiniz (Əlfəcinlər): "Nifrət nitqinə yox hərəkatı", səhifə 11.
- Gənclərin internetdən nifrət nitqini təbliğ etmədən necə istifadə edə biləcəklərini müzakirə edin və müzakirə əsasında gənclərin internetdən insan hüquqlarını nəzərə alaraq istifadə etməsi üçün TÖVSİYƏ EDİLƏN VƏ EDİLMƏYƏN addımların siyahısını tərtib edin.

8. Seminarın qısa qiymətləndirməsini aparın (məsələn, sıra ilə iştirakçıların hər birindən seminardan öyrəndikləri açar sözləri soruşmaqla). (5-10 dəqiqə)

## 3. ONLAYN NİFRƏT NİTQİ, İNSAN HÜQUQLARI VƏ SÖZ AZADLIĞI HAQQINDA SEMİNAR (4 SAAT) – YUXARI SƏVİYYƏ

Bu seminar təklifi "Əlfəcinlər"-in istifadə olunduğu daha uzun müddətli seminar üçün nəzərdə tutulur. Seminar müddətində iştirakçılar:

- Onlayn nifrət nitqi haqqında məlumat alın, onlayn nifrət nitqi nədir və necə təzahür edir
- İnsan hüquqları normaları, xüsusilə də söz azadlığı və nifrət nitqi arasındakı əlaqə haqqında öyrənin.

Bu seminar 25-ə qədər iştirakçı üçün nəzərdə tutulub.

### ADDIM-ADDIM TƏLİMATLAR:

1. Seminarın giriş hissəsi (5 dəqiqə)
   - İştirakçılara seminarın nə haqda olduğunu izah edin.
2. Onlayn nifrət nitqi və insan hüquqları ilə tanışlıq (20 dəqiqə)
   - İştirakçılardan onlayn nifrət nitqi ilə qarşılaşıb-qarşılaşmadıqlarını soruşun, bir neçə nümunə gətirməyi xahiş edin; alternativ olaraq, özünüz iştirakçılar üçün bir neçə nümunə gətirə bilərsiniz (məsələn, "Hate Speech Watch" arxivindəki məzmundan istifadə edə bilərsiniz).
   - İştirakçıları insanlar nifrət nitqi ilə qarşılaşan zaman təhdid altında qalan insan ləyaqəti anlayışı, eləcə də onlayn nifrət nitqinin tərifi ilə tanış edin. Avropa Şurasının nifrət nitqinə verdiyi təriflə "Əlfəcinlər"-in  XX səhifəsində tanış ola bilərsiniz.
3. "Məhkəmədə bir gün" məşğələsinə keçin, "Əlfəcinlər"-dən. (120 dəqiqə)
   - İştirakçılar kiçik məhkəmə prosesini canlandırır, Avropa İnsan Hüquqları Məhkəməsi qarşısına çıxarılmış real məhkəmə işinə nəzər salırlar. Daha ətraflı məlumat üçün bax: səh. xx.
4. Qısa fasilə verin. (20 dəqiqə)
5. Bu məşğələdən sonra iştirakçıları daha kiçik qruplara bölün və onlardan ən sevdikləri interaktiv veb-saytlarının irqi zəmində təhqir və başqa nifrət nitqi formaları ilə əlaqədar siyasətlərinə baxmaq üçün qısa axtarış aparmağı xahiş edin. Qruplara 20 dəqiqə vaxt verin, sonra iştirakçıları yenidən bir araya gətirin və tapdıqları müxtəlif siyasətləri müqayisə edin. İştirakçılardan verilənlər arasında istifadəçilərin qorunması baxımından qeyri-adekvat

saydıqları siyasətin olub-olmadığını və həmin siyasəti necə dəyişdirə biləcəklərini soruşun. (40 dəqiqə)

- Bu, "Əlfəcinlər"-də yer verilən "Qaydaları oxumaq" məşğələsinin dəyişdirilmiş variantıdır. Məşğələ haqqında daha ətraflı məlumat üçün bax: səhifə xx.

6. Bu məşğələdən sonra aşağıdakıları edə bilərsiniz: (30 dəqiqə)
   - İştirakçılara "Nifrət nitqinə yox  hərəkatı" gənclik kampaniyasının videoçarxını və ya "Nifrətə yox ninja" layihəsinin videoçarxını, Pişiklər, unikornlar və nifrət nitqi haqqında hekayəti  göstərin (https://www.coe.int/en/web/no-hate-campaign/videos1) və onlara "Nifrət nitqinə yox  hərəkatı" gənclik kampaniyası haqqında məlumat verin. Hərəkat haqqında daha ətraflı məlumatla 2-ci Fəsildə tanış ola bilərsiniz (Əlfəcinlər): "Nifrət nitqinə yox hərəkatı", səhifə xx.
   - Gənclərin internetdən nifrət nitqini təbliğ etmədən necə istifadə edə biləcəklərini müzakirə edin və müzakirə əsasında gənclərin internetdən insan hüquqlarını nəzərə alaraq istifadə etməsi üçün TÖVSİYƏ EDİLƏN VƏ EDİLMƏYƏN addımların siyahısını tərtib edin.
7. Seminarın qısa qiymətləndirməsini aparın (məsələn, sıra ilə iştirakçıların hər birindən seminardan öyrəndikləri açar sözləri soruşmaqla). (5 dəqiqə)